Amma, onu da unutmaq olmaz ki, "əsrin kontraktları"na görə təqribən 2006-da başlanmış neft ixracımızın da 2035-2040 illərə qədər, yəni 30-40 il ərzində yalnız artacağı dəfələrlə ən yüksək dövlət səviyyəsində qeyd edilmişdi. Amma, məlum olduğu kimi, nəinki 30-40 il, heç 10-15 il də çəkmədi. Təqribən 5-6 ildən, yəni 2011-ci ildə başlayaraq, ehtiyatlarımızın (xüsusən də, "Azəri-Çıraq-Günəşli" yataqlarında) sürətlə azalması başladı. Qaz ehtiyyatlarımızın satışı ilə iqtisadi-sosial inkişafımızın təmin edilməsində və əhalinin maddi rifah halının yaxşılaşdırılmasında da oxşar problemlər ola bilər. Çünki:

1. Bir çox Latın Amerikası və Cənubi Afrika ölkələrində çox böyük həcmli qaz yataqları aşkarlanıb istismar olunur ki, onlar da dünya birjalarında rəqabəti kəskin artırmaqla qiymətlərin aşağı düşməsinə səbəb olacaqlar. Hətta, qonşularımız Türkmənistanın və Rusiyanın qaz ehtiyyatları xeyli çoxdur ki, onlar da daim "rəqib" olacaqlar.

2. Dünya bircalarında təbii qazın qiymətinə mənfi təsir göstərəcək amillərdən birisi də, ekspertlər tərəfindən şits neftin və mayeləşdirilmiş qazın istehsalının yaxın 10 ildə kəskin artacağı ilə verdikləri proqnozlardır. Məsələn, bir çox beynəlxalq qurumların və ekspertlərin proqnozlarına əsasən, Qətərin yaxın 10 ildə mayeləşdirilmiş qaz (MQ) istehsalını 50% artıraraq ildə 150 milliard kub-metrə çatdıracağı və bununla da dünya liderliyini saxlayacağı gözlənilir.

ABŞ isə bu dövrdə özünün MQ istehsalını 5 dəfə (!) artıraraq, idə 140 milliard kub-metrə çatdıracağı və bununla da dünya liderliyində ikinci olan Rusiyanı ötəcəyi gözlənilir.

Rusiya da bu dövrdə özünün MQ istehsalını 2,7 dəfə artırmaqla 68 milliard kub-metrə çatdıracağı və bununla da dünya liderliyinin üçüncüsü kimi qalacağı proqnozlaşdırır. Mayeləşdirilmiş qazdan da savayı, Rusiya bu dövrdə özünün təbii qaz istehsalını da 50% artıraraq, idə 372 milliard kub-metrə çatdıracağı və bununla da qazın ümumi satışında dünya liderliyini saxlayacağı gözlənilir.

Belə bir rəqabət şəraitində Azərbaycanın qaz satışından gələcək gəlirlərinin stabil olacağı müəyyən şübhələr yaradır. Təbii ki, yaranmış "deşiklər" hökumət tərəfindən həmişə olduğu kimi ən asan yolla, yəni DNF-nun ehtiyatları hesabına "yamaqlanacaq". Ona görə də DNF-nun fəaliyyətinin daha açıq olması, cəmiyyət qarşısında "hesabatlılığının" artırılması, bunun üçün də yalnız prezidentə yox, həm də ən azından Milli Məclisə tabeçiliyinin təmin edilməsi çox vacibdir.

Əks təqdirdə, DNF-nun ehtiyyatlarından gələcək nəsillərə ümumiyyətlə heç nə qalmaya da bilər. Bununla da bu Fondun yaradılmasının ilkin ideyası özü özlüyündə mahiyyətini itirər. Çünki, sosial-iqtisadi problemlərin demək olar ki, əksəriyyəti "prezidentin ehtiyyat fondunun" və DNF hesabına ödənilir.

Hətta, manatın məzənnəsini saxlamaq üçün də, DNF-nun ehtiyyatlarından çox böyük həcmlərlə istifadə olunur. Elə buna görə də, indinin özündə belə manatın dollara nisbətən real məzənnəsi nominal məzənnədən çox yuxarıdır. Bunu daha əyani göstərmək üçün, məsələn, belə müqayisələrdə kifayət qədər tez-tez istifadə olunan "Biq-Mak" metodunu tətbiq edə bilərik. Belə ki, "etalon (və ya baza)" kimi qəbul edilən, "McDonald's" restoranlarında "Biq-Mak" burqerin qiyməti ABŞ-da 5,6 dollar

olduğu halda, Azərbaycanda 3,95 manata və ya təqribən 2,3 dollaradır. Halbuki, "alıcılıq qabiliyyətinin paritetinə" görə Azərbaycanda da 5,6 dollara, yəni təqribən 9,52 manata olmalı idi. Bu da ona dəlalət edir ki, manatın real kursu, Azərbaycan Mərkəzi Bankının DNF-nun vəsaitləri hesabına valyuntar müdaxilələri ilə, sosial-iqtisadi sabitliyi nümayiş etdirmək üçün dəfələrlə aşağı saldığı 1,7 azn səviyyəsində yox, təqribən 4-6 dəfə yuxarı, yəni 9-10 azn olmalıdır. Bu da iqtisadi proseslərin, o cümlədən də inflyasiya-devalvasiya proseslərinin idarə olunmasında yol verilən valyuntarizmin nə qədər güclü olmasına dəlalət edir. Həmçinin manatın məzənnəsinin necə dəyişəcəyinin də, manatın "alıcılıq qabiliyyətindən" yox, yalnız Mərkəzi Bankın simasında hökumətin volyuntar mövqeyindən asılı olduğunu göstərir.

Buna görə də, tamamilə paradoksal olaraq, inflyasiya proseslərinin manatın məzənnəsinə hər hansı bir təsiri yoxdur. Ən pisi də budur ki, Azərbaycan hökuməti, artıq az qala ənənəvi olaraq, əvvəl siyasi və iqtisadi sabitliyin "əsas göstəricisi" kimi manatın məzənnəsini sabit saxlamaq üçün çox iri məbləğdə - milyardlarla valyuta ehtiyatlarını, belə demək mümkündürsə, "göyə sovurur". Sonra da qəfildən devalvasiyalar təşkil edilərək, həmin "göyə sovrulmuş" vəsaitlərin əsas hissəsini, əhalinin banklarda manatla olan əmanətlərini, əksər ölkələrdə (məsələn, qonşu Kazaxıstan və s.) olduğu kimi, kompensasiyasını da ödəmədən, dəyərdən salmaq hesabına bərpa edir. Bu da, sadə vətəndaşların "qara gün" üçün qəpik-qəpik yığdıqları "əmanətlərinə xəyanət" kimi də qiymətləndirilə bilər..!

Bundan da savayı, məlum olduğu kimi, Azərbaycanın yalnız "Azəri", "Çıraq" və "Günəşli" yataqlarından, "əsrin kontraktlarına" əsasən təqribən 435 milyon tondan çox neft çıxarılıb. Ondan da 300 milyard dollardan xeyli çox vəsait əldə olunub. Hazırda DNF-nun vəsaitləri isə, yalnız bu yataqlardan çıxarılan neftdən gələn gəlirlərin 30-40 %-i həcmində də deyil. Bütün qalan hissəsi manatın məzənnəsinin sabit saxlanılmasına və digər oxşar məqsədlərlə kifayət qədər səmərəsiz xərclənilib. Belə israfçılıq da inflyasiya proseslərini gücləndirir. Ölkənin sosial-iqtisadi inkişafına da xeyli mane olur.

## HÖKUMƏTLƏRİ "ÇEVİKLƏŞDİRMƏYİN" METODU

Şübhəsiz ki, istənilən dövlətin necə inkişaf edəcəyi, onun "gəlirlərindən" nə qədər səmərəli istifadə olunması ilə bilavasitə bağlıdır. Təbii ehtiyatları bol olan ölkələrdə hökumətlər, təbii olaraq "tənbəlləşəndə", üstəlik də korrupsiyalaşanda, əlbəttə ki, dövlətin gəlirlərinin istifadəsi çox da səmərəli ola bilməz. Bunun qarşısını almağın, yəni ən azından hökumətləri "çevikləşdirməyin" ən yaxşı metodu, bütövlükdə dövlətin "idarəçilik aparatını" ölkənin "milli gəlirindən" və ya dövlət büdcəsindən "faizlərə qoşmaqdır"..! Yəni, hətta Konstitusiyada TƏSBİT olunmaqla, dövlətin bütün "idarəçilik xərcləri" üçün, artıq qeyd olunduğu kimi, dövlət büdcəsindən və ya daha yaxşı olaraq ölkənin "milli gəlirindən" müəyyən, sabit (dəyişilməz) faizlər ayrılmalıdır. Ona görə ölkənin "milli gəlirindən" daha yaxşıdır ki, dövlət büdcəsini DNF-dan transferlərlə və ya xaricdən BORC almaqla, çox asanlıqla qat-qat çoxaltmaq mümkündür ki, sonra o BORCU yenə xalq qaytarası olacaq. "Milli gəlirdə" isə bu bir elə də asan deyil..!!

Dövlətin bütün "idarəçilik xərcləri" deyiləndə, burada hakimiyyətin bütün "qollarının" saxlanılması xərcləri nəzərdə tutulmalıdır. "İdarəçilik sistemində" işləyənlərin sayı optimalda ümumi əhalinin 10 %-dən çox olmamalı olduğuna görə, xüsusən də müasir dövrdə "elektronlaşdırma" gücləndikcə, canlı insanın iştirakı sürətlə azalmalı olduğuna görə, "milli gəlirindən" bunun üçün ayrılan faizlər də 7-12 %-dən çox ola bilməz. Bu halda onlar ya kiçik maaşlarla çox əməkdaşı, ya da yüksək maaşlarla az əməkdaşı işlətməli olacaqlar. Üstəlik də, "milli gəlir" artanda onların eyni faizlərinə düşən MƏBLƏĞ böyüyəcək, azalanda isə kiçiləcək. Odur ki, onlar da "milli gəlirin" artmasında bilavasitə maraqlı olacaqlar..!! Hazırda isə, məsələn, bütün Azərbaycan üzrə olan "orta maaşlardan" təqribən 10 dəfə (!!) artıq maaş alan Milli Məclisin deputatlarının fəaliyyətini, xüsusən də onların çox zəif "müzakirəsi" ilə qəbul etdikləri qanunların keyfiyyətini qənaətbəxş saymaq çətindir. Əks təqdirdə onlara bu qədər tez-tez "əlavələr" və "dəyişikliklər" etmək lazım gəlməzdi..!!

Bu baxımdan Nazirlər Kabinetinin tərkibini də dəfələrlə (!!) azaltmaqla optimallaşdırmaq mümkündür və çox zəruridir. Bununla da həqiqətən də çox böyük məbləğlərdə dövlət vəsaitlərinə QƏNAƏT etmək mümkündür və çox vacibdir. Bunun üçün düşmən olmasına baxmayaraq, məsələn, Ermənistanın təcrübəsindən də müəyyən qədər istifadə etmək olar. Çünki, Ermənistanda

Azərbaycanda olandan təqribən 2-3 dəfə az - cəmi 12 nazirlik var və bu onlara tamamilə kifayət edir. Onda niyə Azərbaycana da kifayət etməsin..?! Qalan çox böyük həcmdə vəsaitlərə qənaət edilməsin..?!

Məsələn, Ermənistanda nəinki "Energetika", "Mədəniyyət", "Nəqliyyat" kimi nazirliklər və ya "Gömrük", "Diasporlarla ("Dini qurumlarla", "Bələdiyyələrlə" və s.) iş komitəsi" kimi ən müxtəlif "komitələr" və "agentliklər", hətta "Kənd Təsərrüfatı" nazirliyi də yoxdur. Çünki, həqiqətən də kənd təsərrüfatı həm nəzəri, həm də praktiki olaraq "İqtisadiyyatın" tərkib hissəsidir. "İqtisadiyyat" nazirliyi olduğu halda, kənd təsərrüfatı üçün ayrıca "Nazirlik" yaratmaq, yalnız onsuz da çox böyük olan idarəçilik sistemini daha da böyüdərək, dövlət israfçılığını daha da artırmaqdan başqa bir şey deyil. Maddi nemətləri yaratmayan belə israfçılıq da, həmişə və mütləq əmtəə bazarına təzyiqi gücləndirməklə qiymətlərin sürətlə qalxmasına, "tələb inflyasiyasının" artmasına gətirib çıxarır.

Azərbaycanda isə yalnız belə nazirliklərin və ya onlara bərabər tutulan "dövlət komitələrinin" və "agentliklərinin" sayı lazım olandan dəfələrlə çoxdur. Olanlarının da ən azından adlarını çox tez-tez dəyişməklə çox böyük əlavə israfçılığa yol verilir. Məsələn, eyni bir nazirliyin adı təqribən 10-15 il ərzində "İqtisadiyyat" - "İqtisadi inkişaf" - "İqtisadiyyat və sənaye" və yenidən "İqtisadiyyat" kimi dəyişdirilmişdir ki, bunun da yalnız lövhəciklərin, möhürlərin, ştampların (və s.) dəyişdirilməsinə milyonlarla vəsait xərclənmişdir. "AzərSu" MMC-nin adının "Azərbaycan su ehtiyyatları agentliyi" kimi, çox az mahiyyətlə dəyişdirilməsi və buna oxşar çox saylı digər faktlara da fikir verilsə, problem daha aydın başa düşülər..! Bununla da, hökumətlərin "tənbəl"ləşməsinin qarşısını almaqla, "çevikləşdirməyin" ən yaxşı metodu olaraq, bütövlükdə dövlətin "idarəçilik aparatını" ölkənin "milli gəlirindən" və ya dövlət büdcəsindən "faizlərə qoşmağınr" nə qədər vacib olduğu heç kimdə şübhə doğurmaz..!

## YEKUN

Bütün bunlardan da, belə nəticəyə gəlmək mümkündür ki, təbii ehtiyyatları, xüsusən də neft-qaz ehtiyyatları bol olan ölkələrdə hökumətlər təbii olaraq "tənbəlləşir" və dövlət israfçılığı da müvafiq olaraq çoxalır. Beləliklə, inflyasiya-devalvasiya proseslərinə iki tərəfdən təsir güclənir:

1) hökumətlər "tənbəlləşdiyindən" maddi nemətlərin istehsal dinamikasının artımı səngiyir. Bu da pul və əmtəə kütlələri arasındakı tarazlığı pul kütləsinə tərəf pozmaqla inflyasiyanı gücləndirir.

2) "Neft-qaz" gəlirlərinə arxayınlaşan dövlətin də israfçılığı bəzi hallarda ağlasığmaz hədlərə çatır. Bu da digər tərəfdən, yəni "qayıdışı olmayan" pul kütləsini artırmaqla əmtəə kütləsi ilə olan disbalansı daha da gücləndirir. Başqa sözlə bazarda qiymətləri qaldırır..!

Bütün bunlardan da aydın olur ki, dəfələrlə SSRİ-yə səfərlər etmiş, Stalinin "pərəstişkarlarından olmuş, hər yerdə SSRİ-dəki "planlı iqtisadiyyatı" ağızdolusu tərifləyib təbliğ edən J.M.Keyns:

1) ya yüksək rütbəli dövlət məmuru olaraq özünün və "həmkarlarının" şəxsi maraqları naminə bilərəkdən;

2) ya da yüksək dövlət vəzifələrinə görə dərin elmi tədqiqatlara lazımi qədər vaxt ayıra bilmədiyindən;

3) üstəlik də düşüncə tərzinin "iqtisadi" yox, əsasən "riyazi" olması üzündən bilməyərəkdən, ona qədərki bütün iqtisadi məktəblərin əsas platformalarına və tanınmış iqtisadçı alimlərin birmənalı mövqelərinə tamamilə zidd olaraq iddia etmişdir ki, "bazar iqtisadiyyatı" elə böhranlara düşə bilər ki, oradan dövlətin müdaxilələri olmadan, bazar iqtisadiyyatını təbii tənzimləmə mexanizmi olan "görünməyən əli" vasitəsi ilə çıxa bilməz. Bununla da, bütün ölkələri, Stalinin öz valyuntar idarəçiliyinə uyğun və V.İ.Leninin NEP-inin ("novaya əkonomixeskaya politika- yeni iqtisadi siyasət") əksinə olaraq yaratdığı "planlı iqtisadiyyata" keçməyə çağırırdı ki, onlarda "Böyük depressiya" tipli böhranlar olmasın.

Amma, yenə bilərəkdən, yəni dövlət məmurlarının mənafelərinə uyğun olsun deyə, ya da bilməyərəkdən qeyd etmirdi ki, bazar iqtisadiyyatını "görünməyən əl" vasitəsi ilə çıxa bilməyəcəyi "Böyük depressiya" tipli böhranlara salan ən əsas amil elə məhz dövlətin özüdür. Daha dəqiqi, Keysin "saxta dollar effekti" qismində "bəraət" qazandırmağa çalışdığı, dövlətin öz məmurlarının simasında hədsiz israfçılığıdır..! Bu israfçılıq müasir dövrlərdə o qədər böyük rəqəmlərlə, ayrı-ayrı ölkələr üzrə on və yüz milyardlarla, ümumən isə trilyonlarla ölçülür ki, bu da "Hiper dövr (tsikl)"lə birlikdə, dünya iqtisadiyyatını tarixin ən uzun və ən dərin böhranına salan ən əsas amillərdəndir. Çünki, əksər dövlət məmurları "Monetarizmi" əsas tutduqlarını bəyan etsələr də, həmişə öz mənafelərinə uyğun

hazırlanmış "keynçiliyi" üstün tuturlar. Yəni, A.Maslounun "Şəxsiyyət və motivasiya" əsərində irəli sürdüyü "tələbat piramidası" nəzəriyyəsinə tam uyğun olaraq, öz mənafelərini ictimai mənafedən üstün tuturlar..!

Məhz elə buna görə də yalnız A.Smit yox, ona qədərki bütün iqtisadi məktəblər və tanınmış iqtisadçı alimlər, yalnız "bazarın görünməyən əli" yox, həm də "lesse fer" prinsipini irəli sürmüşdülər ki, dövlətin daha çox öz məmurlarının şəxsi maraqlarına uyğun olaraq həyata keçirdiyi volyuntar müdaxilələri, xüsusən də nefti və qazı bol olan ölkələrdə hədsiz israfçılığı, onların milli iqtisadiyyatını "görünməyən əlin" köməyi ilə çıxa bilməyəcəyi böhranlara salmasın..!

Məsələn, neft-qaz ehtiyyatlarına görə dünyanın ən zəngin ölkələrindən birisi olan Venesueladakı müasir vəziyyət bunun təkzib olunmaz "nümunə"sidir. Belə ki, məhz neft gəlirlərinə görə hökumət çox "tənbəlləşdi". Əvəzində isə demokratiyanın azlığı üzündən "ictimai nəzarətin" və şəffaflığın çox zəif olduğu şəraitdə: 1) dövlət israfçılığı və 2) korrupsiya hədsiz gücləndi. Nəticədə də ölkə çox dərin iqtisadi böhrana yuvarlandı. İnflyasiya prosesləri də müvafiq oldu.

Belə ki, Beynəlxalq Valyuta Fondunun (BVF) hesablamalarına görə Venesuelada inflyasiya 1 milyon (!) faizə yaxındır. Məsələn, çəkisi 2.4 kq olan toyuğu almaq üçün 14.6 mln bolivar (2,2 dollar) lazımdır. Paytaxt Karakasda bir kq ət – 9,5 mln bolivar; bir kq düyü – 2,5 mln bolivar; bir paltar sabunu – 3,5 mln bolivar; bir kq pendir – 7,5 mln bolivar; bir kq pomidor – 5 mln bolivar; bir kq markov – 3 mln bolivar; bir kq qarğıdalı unu (hətta, buğda unu da yox – H.Ə.) – 2,5 mln bolivar (və s.) lazımdır. Minimum əmək haqqı isə 3 milyon bolivar və ya 0,89 dollardır. Yəni, cəmi 1 kq kartof almağa çatır. Hətta, 3,5 mln bolivar olan bir paltar sabunu almağa da çatmır..!

Ən pisi də budur ki, hətta həmin 3 milyon bolivarlıq, yəni 0,89 dollarlıq "minimum əmək haqqı"nı almaq üçün də iş tapmaq praktiki olaraq mümkün deyil. Venesuelanın sosial-iqtisadi inkişafının ən azı qonşu ölkələrdən bu qədər fərqlənməsi, şübhəsiz ki, dövlətin iqtisadi-sosial inkişafa subyektiv, volyuntar müdaxilələrinin nəticəsidir. Buna Şimali və Cənubi Koreyanın inkişaf fərqi və çoxsaylı digər nümunələr də əlavə olunsa, J.M.Keynsin:

1) çox yəqin ki, həmkarları olan dövlət məmurlarının "sifarişi" ilə, o cümlədən də özünün şəxsi mənafeyinə və əqidəsinə uyğun olaraq "düzüb-qoşduğu";
2) oxuyanların da əksəriyyəti başa düşməsin deyə, xüsusi riyazi təhsili olmayanların başa düşməkdə ciddi çətinliklər çəkəcəyi qədər "düsturlarla" doldurduğu;
3) nəticə etibarı ilə "Çikaqo iqtisadi məktəbində" daha güclü riyaziyyatçılar tərəfindən, səhvlərini qeyd etməklə təkzib olunduğu;
4) ən azından "qlobal inflyasiya" proseslərinə çox böyük "təkan" vermiş (və s.)

nəzəriyyəsində, artıq qeyd olunduğu kimi, çox yəqin ki, bilərəkdən yol verdiyi "elmi səhvlərinin" dünya iqtisadiyyatına və milyardlarla insanların həyat tərzinin ağırlaşmasına nə qədər güclü mənfi təsir etdiyi daha da aydın olar..!

Aparılmış çoxsaylı digər tədqiqatların da nəticəsində birmənalı olaraq qeyd etmək mümkündür ki, Keynsin böyük ehtimalla bilərəkdən yol verdiyi "səhvlərinə" və onlardan irəli gələn müddəalarına ZİDD olaraq, elə bir iqtisadi böhran ola bilməz ki, bazar iqtisadiyyatı özünün "görünməyən əl" prinsipi əsasında çıxa bilməsin. Sadəcə buna nisbətən daha çox vaxt lazım ola bilər. Dövlətin düzgün dəstəyi isə yalnız "katalozator" rolunu oynamaqla, belə böhranlardan çıxmağı müəyyən qədər tezləşdirə bilər. Həmin "katalizatorluğu" da əsasən fiskal və pul-kredit sistemini optimallaşdırmaqla edə bilər.

Bütün bunlara görə də Azərbaycan iqtisadiyyatının neft-qaz resurslarından asılılığının real olaraq azaldılması çox vacib məsələdir. Bunu da, "stimullaşdırıcı" kredit sistemi olmadan təsəvvür etmək belə çətindir. Üstəlik də, 2015-ci ilin qəfil devalvasiyalarından sonra əhalinin daxili valyuta olan manata etimadı kəskin azalıb. Ona görə də, manatla olan əmanətlər üzrə faizlər təqribən 10-12, xarici valyutalarla olan əmanətlərdə isə təqribən 4-5 dəfə (!) az, yəni 2,5-3% olmasına baxmayaraq, yenə də milli valyutaya etibar etmirlər. Bu da qeyd olunan prosesləri daha da qəlizləşdirir. Onların həlli də müvafiq olaraq çətinləşir.

**İstifadə olunmuş ədəbiyyat / References**

1) AR-nın milli iqtisadiyyatının perspektivləri üzrə "Strateji Yol Xəritəsi".
2) AR prezidentinin problemli kreditlərlə bağlı fərmanı.
3) «Büdcə zərfi» - illər üzrə.
4) Dünya İqtisadi Forumunun "Qlobal Rəqabətlilik" indeksinin hesabatı.
5) Maslou A. - Şəxsiyyət və motivasiya – 1954
6) *Mərkəzi Bank (www.cbar.az) saytlarının materialları.*
7) "Morningstar" informasiya-analitik şirkətinin (ABŞ) materialları "İnterfaksa" istinadən.
8) "Statistik göstəricilər" toplusu – illər üzrə
9) Гусейнов А. – Экзогенные факторы российской инфляции во второй половине XX века – Санкт-Петербург - 1998


# «Гипер цикл», ошибки Кейнса и другие основные факторы инфляционно-девальвационных процессов в Азербайджанской экономике


**Али Гусейнов**

Институт Экономики МНО, доктор экономических наук,

e-mail: huseynovali1966@gmail.com



**Резюме:** В статье, в соответствии с ее темой, приводятся некоторые результаты, полученные в ходе исследования основных факторов, влияющих на долгосрочное и устойчивое регулирование инфляционно-девальвационных процессов в Азербайджанской экономике.

В качестве самых основных факторов усложняющих такое регулирование указываются:

1) Специфические трудности «пере налаживания» переходного периода ко второму витку «Гипер цикла» глобального социально-экономического развития.

2) Вредность теории Дж. М. Кейнса, отрицающей основную платформу всех «экономических школ» и всемирно известных ученых-экономистов до него. Связанной с «необходимостью государственного вмешательства в экономику». Тем самым, придающей «теоретическое обоснование» субъективно - волюнтарному управлению экономики.

Кроме этого, рассматриваются основные проблемы уравновешивания товарного и денежного массы, с целью долгосрочного и устойчивого регулирования инфляционно-девальвационных процессов, особенно в странах зависимых от нефте-газовых доходов.

Как одну из основных причин того, что динамика роста денежной массы значительно превышает рост товарной массы, тем самым усиливает «инфляцию спроса», указывается «государственное расточительство». Которое, в ряде случаев имеет просто невообразимые масштабы. И это в большинстве случаев связаны с интересами «коррупционной сети».

А «коррупционная сеть» еще большими размахами развиваются в тех странах, где основу экономики составляют нефтегазовые доходы. Которые, сравнительно легче получаются. Поэтому, и контроль, особенно «общественный (народный) контроль» за их расходованием, относительно слабый. Все это, в результате приводит к чрезмерному расточительству государственных расходов. Тем самым, усилению коррупции и «инфляции спроса». Со всеми вытекающими социально-экономическими последствиями.

С этой точки зрения, обосновывается необходимость еще большего усиления производства материальных благ. А для этого, подчеркивается важность «сбалансирования» кредитной системы с точки зрения интересов как кредиторов, так и дебиторов. Ибо, данная система является одним из важнейших факторов производства. Отмечается важность использования самых разнообразных методологий «совмещения» интересов дебиторов и кредиторов, а не их «столкновение», как в существующей системе. Тем самым, в определенной

степени «сглаживание» социально-экономических проблем, как минимум связанных с «невозвращёнными кредитами».

С другой стороны предлагается уменьшить «государственное расточительство» хотя бы оптимизацией управленческого «аппарата», сокращая не особо важных министерств и комитетов.

**Ключевые слова**: второй виток «Гипер цикла»; вред теории Дж. М. Кейнса; «инфляция спроса» вызванная «расточительством» правительства; «конфликт» и дисбаланс интересов в кредитной системе, в результате нарушение принципа «социальной справедливости»; де-мотивирующий эффект ожидания очередной девальвации.

DOI: https://doi.org/10.36719/2707-9317/04/41-48

# Business management: organization and information provision

**Mekhti Bagirov**
The Doctor of economy, ASOİU
**Ilaha Huseynova**
The specialty of "Business management", (MBA), II course, NSU

**Abstract: The purpose of the research**– providing a systematic approach to business activity, studying the characteristics of organization based on "field-territory" and other principles in business activity, formation of the necessary information provision system for the relevant activity and examination of the compatibility of its use with the research objectives

**The methodology of the research**– the use of observation, grouping, and comparative analysis methods

**The results of the research**– multivariate coverage of the essence of business activity, investigating its regularities in the supply and demand based on the principles of systematicity and complexity, determining the degree of influence of various factors in different situations, and the necessary results on this base.

**The practical importance of the research** – facilitating the application of research results to practice, assessment of the place and role played by business acumen, innovative ideas in the realization of business activities in the business environment

**The originality and scientific innovation of the research** – providing multifactorial approaches to business activity, in this way, investigating the problems of improving its results in an individual and general way

**Key words:** business, business environment, business management, business-organization, business information security.

# Biznesin idarə edilməsi: təşkilatlanma və informasiya təminatı

**Mehdi Bağırov**
İqtisad elmləri doktoru, ADNSU
m.bagirov.edu@mail.ru
əlaqə telefonu: (99450) 311 60 08
**İlahə Hüseynova**
"Biznesin idarə edilməsi" ixtisası, (MBA), II kurs NDU
https: //orcid.org/0009 – 0000 – 4111 – 8978

**Xülasə: Tədqiqatın məqsədi** – biznes fəaliyyətinə sistemli yanaşmanın təmin edilməsi, biznes fəaliyyətində "sahə-ərazi" və digər prinsiplər əsasında təşkilatlanmanın xüsusiyyətlərinin öyrənilməsi, müvafiq fəaliyyət üzrə zəruri informasiya təminatı sisteminin formalaşdırılması və ondan istifadənin araşdırma məqsədlərinə uyğunluğunun araşdırılması.

**Tədqiqatın metodologiyası** – müşahidə, qruplaşdırma, müqayisəli təhlil metodlarından istifadə olunması.

**Tədqiqatın nəticələri** – biznes fəaliyyətinin mahiyyətinin çoxvariantlı işıqlandırılması, onun tələb və təklif bazasında qanunauyğunluqlarının sistemlilik və komplekslilik prinsipləri bazasında araşdırılması, fərqli situasiyalar üzrə müxtəlif amillərin təsir dərəcələrinin, bu əsasda isə zəruri nəticələrin müəyyənləşdirilməsi.

**Tədqiqatın praktiki əhəmiyyəti** – tədqiqat nəticələrinin təcrübəyə tətbiqinin asanlaşdırılması, biznes mühitində işgüzarlıq, yenilikçi fikir və ideyaların biznes fəaliyyətinin gerçəkləşməsində tutduğu yerin və oynadığı rolun qiymətləndirilməsi

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – biznes fəaliyyətinə çoxamilli yanaşmaların təmin edilməsi, bu yolla onun nəticələrinin yaxşılaşdırılması problemlərinin fərdi və ümumiləşdirilmiş şəkildə araşdrılması.

**Açar sözlər:** biznes, biznes mühiti, biznes idarə edilməsi, biznes-təşkilatlanma, biznesin informasiya təminatı.

## GİRİŞ

Azərbaycan Respublikası iqtisadiyyatı müasir dövrdə kifayət qədər mürəkkəb və müxtəlif spektrli işlərin həyata keçirilməsi meydançasına çevrilməkdədir. 2020-ci ildən başlayaraq son beş ildə iqtisadi və sosial, müdafiə və mühafizə, maliyyələşmə və kreditləşdirmə, təşkilatlanma və digər zəruri əməliyyatların həyata keçirilməsi ölkənin gücü və qüdrətinin yüksəldilməsinə yönəldilməkdədir.

Mənfur qonşularımızın Qarabağ "iddialarının" qarşısının alınması, 44 günlük müharibə, 1 günlük antiterror əməliyyatı və digər müdafiə xarakterli tədbirlərin icrası ölkə ərazisində "qarşıdurma yuvalarının" ləğvinə, silah anbarlarının tapılaraq zərərsizləşdirilməsinə, Qarabağın dağlıq və aran hissələrində ictimai asayışın təmin edilməsi, həmin ərazilərdən 30 ildən artıq müddətdə didərgin salınmış insanların yurd-yuvalarına qaytarılması həmin inzibati və iqtisadi ərazi vahidlərində digər yön və istiqamətlərlə yanaşı işgüzar mühitin bərqərar olmasına da xidmət etməkdədir.

İqtisadi sfera istənilən ölkənin tərəqqisinin təkanverici amillərindən hesab olunmaqdadır. İnklüzivlik elementləri ilə vahid şəkildə araşdırılan işgüzar addımlar konkret situasiyalar üzrə fərqli qərarların qəbuluna, həmin fəaliyyətlərin planlaşdırma prizmasından öyrənilməsinə, çoxvariantlı, zəruri seçimlərə və konfiqurasiyalara əsaslanan biznes mühitinin yaradılmasına gətirib çıxarmaqdadır.

İstifadəsinə (istismarına) start verilən hər bir istehsal-təsərrüfat subyekti çoxsaylı təsnifləşdirmə əlamətlərinin tətbiqinə imkan yaradır. Müxtəlif iqtisadi alət, mexanizm və vasitələrin dəqiqləşdirilmiş və konkretləşdirilmiş şəkildə təcrübi müstəviyə tətbiqi mülkiyyət, idarəetmə, planlaşdırma, marketinq, hüquqi tənzimləmə, texniki təminat istiqamətləri üzrə vahid məcmu fəaliyyətinin təşkilatlanmasının zəmini hesab olunmaqdadır.İqtisadi fəaliyyət növlərinin qruplaşdırılması, istər ölkədaxili, istərsə də beynəlxalq təsnifatların yaradılması biznes fəaliyyətinin nizama salınmasında mühüm rol

oynamaqdadır. Məhs həmin birnövlü qruplara bölüşdürmələr beynəlxalq iqtisadi fəaliyyət istiqamətlər üzrə icra olunan iş və xidmətlərin xüsusiyyətlərinə də aydınlıq gətirmiş olur.

Birbaşa iqtisadi fəaliyyətlər, mübadilə prosesləri və maliyyələşmə yolları işgüzar mühitinin mühüm komponentlərindən hesab olunmaqdadır. Onun tərkib ünsürlərinin sistemləşdirilməsi kifayət qədər genişspektrli işlərin həyata keçirilməsinə şərait yaratmaqdadır. Onların mühüm istiqamət və yönləri sırasında sxem 1-də təmsil olunan aşağıdakı bəndləri sadalamaq mümkündür.

**Sxem 1.**

İQTİSADİ PROSESLƏRDƏ İCRA OLUNASI MÜHÜM FƏALİYYƏTLƏR

- təchizat, istehsal (xidmət) və mübadilə prosesləri ahəngdar şəkildə həyata keçirilməsi
- nəqliyyat-logistika icraatları üzrə imkanların genişləndirilməsi
- mülkiyyət sahəsində müxtəlifliyin təmin edilməsi
- hüquqi və digər məzmunlu tənzimləmə sisteminin yaradılması
- texniki vasitələrlə silahlanma və texnologiyalarla təmin olunmanın vəziyyətinin öyrənilməsi
- reklam xidmətlərinin təşkili və tələblərinin mütəmadi yüksəldilməsi
- konsaltinq və digər fəaliyyətlərin bərqərar olması
- beynəlxalq təcrübənin ardıcıl izlənməsi
- elmi araşdırmaların təcrübəyə tətbiqi
- sahələr üzrə öncül təşkilati quruluşların yaradılması
- sosial sahə və istiqamətlərdə zəruri təşkilatlanma və idarəetmə tədbirlərinin zəruri əlaqələndirmələrin aparılması
- gömrük-vergi, bank-maliyyələşmə, dövlət mülkiyyətinin idarə edilməsi və digər fəaliyyətlər üzrə zəruri rıçaqların aktivliyinin təmin edilməsi
- iqtisadi fəaliyyət sahəsində dövlət dəstəyinin reallaşdırılması və s.

***Mənbə: [1; 107]***

Sxem 1 iqtisadi fəaliyyətdə icrası məqsədəuyğun hesab edilən icraat istiqamətlərinin məzmununun və əhatə arealının nə qədər geniş olduğunu təsdiqləməkdədir. Həmin vəzifələr üzrə icra edilməli olan vəzifələrin əhalilik dərəcəsi də, onların istiqamət rəngarəngliyi də məqalə üzrə bəhs olunan yönlərdə icrası reallaşmalı olan işlərin həcminə diqqəti çəkməkdədir. Düşünürük ki, əyani təsvir vasitəsində təmsil olunan maddələrin qarşılıqlı əlaqə və asılılıq şəraitində fəaliyyətinin təmin edilməsi:

- ✓ “cəmiyyət - işgüzar mühit” tandemi üzrə mütəmadi transformativ gedişlərin mümkünlüyünə diqqəti çəkəcəkdir;
- ✓ qarşıya qoyulan hədəflərdən və istifadəsi nəzərdə tutulan konfiqurasiyalardan asılı olaraq fərqli mənzərələrin meydana çıxmasına imkan yaradacaqdır;
- ✓ bloklar şəklində əks olunan istiqamət və yönlər real biznes fəaliyyətinin səmərəlilik, inklüzivlik, optimallıq və digər mühüm prinsiplər nəzərə alınmaqla zəruri qiymətləndirmə və təhlil işlərinin icrasını mümkün edəcəkdir;
- ✓ onun daha üstün və təkmil səviyyələrə keçidinə real zəmini formalaşdıracaqdır;

- ✓ bəhs olunan yöndə müvafiq kəmiyyət-keyfiyyət göstəriciləri vasitəsilə irəliləyişlər silsiləsinə öz töhvələrini verəcəkdir və s. [3; 284]

**Biznes anlayışı və onun xarakterik cəhətləri**

İnsan cəmiyyətinin təkamülünün müxtəlif zaman periodları və fərqli formasiyalar üzrə spesifik şəkildə təmsil olunması tədqiqat obyektləri və sferalarının tərkibinə də təsirsiz ötüşməmişdir. Biznes anlayışının məzmun və tərkibinin öyrənilməsi diqqətimizi ilk növbədə ictimai əmək bölgüsünün bərqərar olması dövrünə yönəltməkdədir. Məhs həmin dövrdə fərdlərin müstəqil fəaliyyəti təmin edilməyə başlanır. Özünün məşğuliyyətini seçən insanlar spesifik işgüzar düşüncənin imkanlarını da kənarda qoymamış, biznes fəaliyyətinin individuallaşması yönündə töhvələrini vermişlər. Fərdlərin bilik və bacarıqlarını sistemli nümayiş etdirməsi feodal quruluşun sonlarından etibarən meydana "yaradıcı, bacarıqlı insan" adlı yeni kateqoriyanı çıxarmışdır. Öz işinə sahib olmaq, hər hansı "obyektə" daha mütərəqqi baxışın təmin olunması iqtisadi sistemin sonradan maddi istehsal, xidmət, sosial-mədəni kimi istiqamətlərdə qruplaşdırılacaq sahə və istiqamətlərinə mütərəqqi düşüncənin "qədəm qoymasını" mümkün etmişdir. XIX əsrin ikinci yarısından etibarən kapitalıst ənənələrinin insan fəaliyyətində hökmran mövqe qazanması sənaye və kənd təsərrüfatı, ticarət və xidmət kimi fəaliyyət sahələrinin məzmun-məna simalarina təsirsiz ötüşməmişdir. İqtisadi bazisin tələblərindən asılı olaraq mütəmadi təkmilləşən, yeni fəaliyyət üsulları və mexanizmlərinin mənimsənilməsi yolunda hərəkət edən cəmiyyət öz ehtiyaclarını daim əldə rəhbər tutmuş, "tələb – təklif" tarazlığının qorunması yönündə əsaslı işləri həyata keçirmiş, mərhələli şəkildə "abstrakt düşüncədən → real təcrübəyə" müstəvisində irəliləmişdir.

İstehsal alət və vasitələrinin xarakter və xassələrinin təkmilləşdirilməsi ilə məşğul olan fərdlər onlarla bərabər özlərini də daha yüksək keyfiyyət səviyyələrinə daşımışlar. Atılan addımların məntiqi yekunu olaraq dövlərin tələbləri ilə uyğunlaşan sahə cə sistemlərin (həmçinin fərqli altsistemlərin) təşkili, onların artıq mövcud olan iqtisadi mühitə inteqrasiya olunması həqiqətə çevrilmişdir.

Görülən işlərin məntiqi davamı özünü təşkilatlanma və idarəetmə, tənzimləmə və nəzarət, maliyyələşmə və digər mühüm sfera və istiqamətlərdə daha aydın şəkildə ifadə etməyə başladı. İqtisadi bazislə yanaşı siyasi üstqurumda yer almış təkmilləşdirmələr (ölkənin müstəqilliyinin əldə olunması, qanunla qadağan olunmayan müxtəlif fəaliyyət yönlərinin və mülkiyyət formalarının iqtisadi sistemə uğurlu inteqrasiyası, beynəlxalq təcrübənin öyrənilməsi, bu sahədə mütəşəkkil, ardıcıl və məqsədyönlü addımların atılması və s.) insanların yaradıcılıq fəaliyyətinə müsbət təsir göstərmiş, onların işgüzar sferada yeni ideya və düşüncələrinin önünü kəsən maneələrin aradan qaldırılmasına vəsilə olmuşdur.

Nəticə etibarı ilə XX əsrin ikinci yarısından (müstəqillik dövründə isə daha mütəşəkkil şəkildə) "biznes" məvhumu daha sız şəkildə cəmiyyət həyatının müxtəlif yön və istiqamətlərinə siraət etməyə başlamışdır. Özünün fərqli tərəfləri ilə cəmiyyət miqyasında "mövcud olma zəmanəti" əldə etmiş biznes fəaliyyəti rəngarəng rakuslardan düşüncə və baxışarla da mahiyyət və əhəmiyyət göstəricilərinə zənginlik gətirməkdədir. İrəli sürülən müddəaları aşağıdakı mühüm yanaşmalarla təsdiqləmək yerinə düşərdi.

Biznes – hər hansı bir (yaxud bir neçə) fəaliyyətin onunla məşğul olan şəxslər (yaxud şəxslərlə) vahid məcmu halında birləşdiyi proses kimi qiymətləndirilməkdədir. Onun sahə, ərazi, məşğuliyyət növü, ixtisaslaşma dərəcəsi, istehlakçı dairəsi, mövsümilik və digər amillər əsasında təsnifləşdirilməsi öz əhəmiyyətini qorumaqdadır. Eyni zamanda fərqli müstəvilərdə, fərqli konfiqurasiyalar əsasında tədqiqatın təşkili alınan nəticələr üzrə kənarlaşmalara gətirib çıxara bilər.

Biznes – hər hansı bir işin mənimsənilməsi, onun həyata keçirilməsi, müxtəlif funksiyaların icra edilməsi mənasını daşımaqdadır. Onun tərkib təsnifləşdirilməsi ilk növbədə istehsal və xidmət istiqamətlərini üzrə bölgülərini tərənnüm etməkdədir. Maddi istehsal sahələrinə və ya xidmət sferasına aidiyyat bir çox prizmadan araşdırmalara məruz qala bilər.

Biznes fəaliyyətinin təşkili və həyata keçirilməsi bir çox amilin birgə müşahidə alınmasını tələb edir ki, bunlardan mühüm olanlarının tərkibini nümunəvi qaydada aşağıdakı kimi sadalamaq mümkündür:

1. biznes fəaliyyəti üzrə monitorinqlərin aparılması, onların nəticələrinin "tələb-təklif" və digər prizmalardan qiymətləndirilməsi;

2. əldə olunmuş məlumatlandırma nəticələri ilə real bacarıq və imkanların qarşılaşdırılması;
3. biznes fəaliyyətinin təşkili və həyata keçirilməsi üzrə hüquqi-normativ bazanın mövcudluğu, ondan istifadənin xüsusiyyətlərindən və imkanlarından səmərəli istifadə olunması;
4. biznes fəaliyyətinin yekun məhsulu nəzərə alınmaqla "təchizat → istehsal (xidmət) → reallaşdırma" marşrutunun reallıqlarının müşahidə altına alınması;
5. bəhs olunan ardıcıl proseslər üzrə mövcud normalardan və normativlərdən istifadə olunması;
6. biznes fəaliyyətinin obyekti dəqiqləşdirilməklə, nəqliyyat-logistika imkanlarının müxtəlif variantlarda qiymətləndirilməsinin icrası (burada biznes fəaliyyətinin nəqliyyat-logistika sahəsi üzrə təşkili ayrıcalıq təşkil etməkdədir);
7. biznes fəaliyyətinin maddi-texniki bazasının müəyyən edilməsi;
8. biznes fəaliyyətində tələbatın daha yüksək səviyyədə təmin edilməsi məqsədilə məhsul və ya xidmət üzrə çoxnövlülüyün təmin edilməsi;
9. biznes fəaliyyətinin zəruri komponentlərlə (bina, əsas və köməkçi tikililər, avadanlıq, torpaq sahələri və s.) təmin olunmasının araşdırılması;
10. biznes fəaliyyəti sahəsində planların hazırlanması və proqramların işlənilməsi və s.[4; 56-57]

Sadalananlarla yanaşı eyni zamanda qeyd etmək yerinə düşər ki, maddələrdən hər biri fərdi altsistemlərdən ibarətdir və kompleks işlərin icrasını özündə nəzərdə tutur.

**Biznes fəaliyyətinin təşkilati formaları və onlar üzrə seçimlərin həyata keçirilməsi**

Biznes – çoxsaylı amillər bazasında tədqiqatların həyata keçirilməsi nəzərdə tutulan, özünün makro və mikro səviyyələri ilə fərqlənən obyektdir. Onun araşdırılmasında mühüm amillər sırasında biznesin təşkilati formasının müəyyən edilməsi özünəməxsusluğu ilə fərqlənməkdədir.

Təşkilati formalaşma özündə "biznes fəaliyyəti – sahibkarlıq subyekti" tandeminin tələblərini əks etdirməkdədir. Sahibkarlıq subyektinin ifadə olunması forması onun təşkilatlanmasından xəbər verməkdədir. Bu yöndə əsas iki amilə diqqət yetirmək yerinə düşərdi. Əgər bunlardan biri əmək fəaliyyətini göstərirsə, digər qrup mülkiyyət formasına aidiyyata aydınlıq gətirməlidir.

Sahibkarlıq formasının təzahüründə xüsusi, dövlət, bələdiyyə xarakterli, onların altsistemləri üzrə mülkiyyət məzmunu əsasında sahibkarlığın həyata keçirilməsi nəzərdə tutulmaqdadır.

Bəhs olunan element ilk növbədə "fərdi sahiblarlıq" anlayışına diqqəti çəkməkdədir. Azərbaycan Respublikası qanunvericiliyə müvafiq olaraq fərdi sahiblarlığın iki forması fərqləndirilməkdədir:

1. fərdlər vasitəsilə həyata keçirilən fəaliyyət;
2. fərdi (ailə) və ya kollektiv formada təzahür edən subyektlərin çalışmaları.

Əgər birinci bənd əsasən tək şəxslərin (elektriklərin, çilingərlərin, maşın ustalarının və s.) sahibkarlıq fəaliyyətini nəzərdə tutursa, ikinci bənddə əks olunan məzmun ailələr və səhmdar quruluşlar şəklində (hətta muzdla işlədilən şəxslər də daxil olmaqla) icra olunan fəaliyyətdən xəbər verməkdədir.

Qeyd etmək yerinə düşər ki, bəhs olunan araşdırmada birgə (şərikli) sahibkarlıq istiqamətinə də sistemli fikirlərin yönəldilməsi məqsəduyğundur. İlk növbədə həmin şəriklilik müxtəlif əmlak obyeklərinin paylar şəklində (payı bəlli qaydada), vahid fəaliyyət məqsədləri uğrunda birləşdirilməsini tələb etməkdədir. Burada adətən birləşmənin dəyər ölçülərinin (gəlir həcmi, vergilər, sığorta ayırmaları və s.) müxtəlif iqtisadi alət və mexanizmlərdə ifadəsini əks etdirməkdədir.

Öz növbəsində, birgə (şərikli) sahibkarlıq fəaliyyətində tam şəriklilik və yaxud məhdud məsuliyyətlilik elementləri icra olunan biznes fəaliyyətinə özünün xüusiyyətlərini əlavə etməkdədir.

Biznes fəaliyyətinin orta və iri subyektlər şəklində təmsil olunmasında səhmdar cəmiyyətləri böyük xüsusi çəki ilə fərqlənməkdədir. Bu təşkilati formanın məzmunu səhmdarların eyni sahibkarlıq subyektinin nizamnamə kapitalının formalaşmasına yönəldilmiş vəsaitləri ifadə etməkdədir. Burada istehsalı təşkili, gəlirlərin əldə olunması və dividentlərin səhmdarlar arasında bölüşdürülməsi kimi məsələlər öz əhəmiyyətini qorumaqdadır. Təcrübədə açıq və qapalı səhmdar cəmiyyətlər fərqlənməkdədir.

Müasir inkişaf mərhələsində sahibkarlığın bərqərar olması və tərəqqi etməsinin çoxsaylı nümunələrinə rastlamaq mümkündür. Təsnifatlar özündə quruluş, iqtisadi sistemin sahəsi, idarəetmə tabeçiliyi və digər xüsusiyyətləri cəmləməkdədir. Məsələn, sənaye sektorunda təşkilatlanmanın mühüm formalarından olan sənaye parkları və sənaye məhəllələri ilə yanaşı sənaye klasterlərinin yeri və

əhəmiyyəti danılmazdır. Sahibkarlıq fəaliyyətinin təşkilati formasının müəyyən edilməsində publik hüquqi şəxslər də özünəməxsusluğu ilə fərqlənməkdədir.

Biznesin təşkili zamanı çoxsaylı amillərin nəzərə alınması mütləq şərt kimi ortaya çıxmaqdadır ki, onlardan mühüm olanlarını aşağıdakı bəndlərlə sadalamaq mümkündür:

a) biznesin yerləşdirilməsinin prinsipləri (məsələn, sahə-ərazi, zəruri istehsal-xammal imkanlarının mövcudluğu və s.);
b) çoxvariantlı təşkilati-icra mexanizmlərindən istifadə olunması;
c) təşkilatlanmada "plan - fakt", "öncəki illər - cari il" müqayisəliliyinə istinad edilməsi;
d) mütəmadi təhlil və qiymətləndirmələrin aparılması yolu ilə əsas təsir komponentlərinin ortaya çıxarılması;
e) elmi tədqiqatların nəaliyyətlərə, daxili və beynəlxalq təcrübənin nəticələrinə əsaslanma;
f) ümumi və xüsusi təyinatlı qiymətləndirmə proseslərinə müraciət olunma və s. [7; 196]

**Biznesdə informasiya təminatının mahiyyəti və əhəmiyyəti**

Biznes fəaliyyətinin məqsədlərinin qarşılanması istiqamətində icra olunan işlərdən birini onun informasiya təminatının tələblərə uyğun şəkildə təşkilidir. İnformasiya – fəaliyyətin son nəticəsi, satış obyekti olan əmtəə, istehsalın tələblərə uyğun şəkildə təşkilində mühüm rol oynayan köməkçi komponentdir. O, təsərrüfat subyektinin öz tərəfindən (monitorinq agentləri vasitəsilə) və ya məlumatlandırma sahəsində ixtisaslaşdırılmış və bəlli müştəri kontingentinə xidmət edən subyektlər tərəfində əldə olunmaqdadır.

İnformasiya – həm fəaliyyətin, həm də gündəlik yaşamın mühüm "iştirakçısı" sifətilə çıxış etməkdədir. Onun vasitəsilə ümumi və spesifik ehtiyacların ödənilməsində yönəldilən təminat fəaliyyəti reallaşmaqdadır.

Sistemli informasiyanın əldə olunması və istifadəsi istehsal, xidmət və ya sosial-mədəni sferalarda fəaliyyətin vəziyyətinə aydınlıq gətirməkdədir. Bu sahədə istehsal olunan məhsulun xüsusiyyətlərinə, onun mərhələlərinə, istifadə olunan norma və normativlərə, məhsul və ya xidmətlərin alıcı kütləsinə, mübadilə məkanlarında mövcud olan qiymətlərə aydınlıq gətirilməkdədir.

İnformasiyanın hazırlanması (və ya əldə edilməsi) xüsusiyyətləri də nəzərdən yayınmamalıdır. İqtisadi, texniki, hüquqi-tənzimləyici, menecment, marketinq və digər təyinatlı informasiyanın mövcudluğu fəaliyyətin ayrı-ayrı yön və istiqamətlərinə aydınlıq gətirməkdədir.

Təsərrüfat subyektlərinin ölçüləri informasiya təminatı massivlərinin kəmiyyət-keyfiyyət ölçülərindən də yan keçməməkdədir. Bu zaman icra olunan işlərin həcminin və onun qarşılığı olan informasiyanın "qiymətinin" müqayisə edilməsi məlumatların əldə olunmasına və ya subyektin özü tərəfindən hazırlanmasına üstünlüyün verilməsi ilə bağlı qərarların qəbul olunmasını əsaslandırmaqdadır.

İnformasiyanın əldə olunması istiqamətlərindən birini də beynəlxalq informasiya mübadilə məkanlarının xidmətlərindən istifadə olunmasıdır. Belə ki, istifadəçi subyektin ehtiyaclarının ümumi və ixtisaslaşdırılmış məlumatlandırma istiqamətində ödənilməsi onun "kütləsinin" xidmətlərinin seçimini şərtləndirməkdədir. İstehlakçının "informasiya-ehtiyac" məqsədlərinin onun "istehsalçıları" tərəfindən ödənilməsi bir sıra hallarda səmərəli təşkilatlanmanın, optimal yerləşmənin və quruculuq işlərinin zəmini hesab olunmaqdadır.

İnformasiyanın əldə olunmasında elmi-tədqiqat prosesləri və spesifik araşdırmaların icrası özünün aktuallığını qorumaqdadır. İstər istehsal (xidmət) subyektinin özü tərəfindən icra olunan, istərsə də kənar subyektlərə verilən sifarişlər bazasında çatışmayan məlumatların (əsasən texniki, texnoloji, təşkilati və s.) tamamlanması işgüzar fəaliyyətin tammnalı təmin olunmasına şərait yaratmaqdadır.

Beləliklə, informasiya biznes fəaliyyətinin təşkilində mühüm elementlərdən hesab olunmaqdadır. Onun istehsal və ya xidmət sferasında daha müasir və mütərəqqi addımların atılmasına töhvə verməsi də zəruri faktorlar sırasındadır.

## NƏTİCƏ

Biznes fəaliyyəti haqqında bildirilən fərdi fikirlərin sistemləşdirilməsi tədqiqat obyektinin mahiyyətini və əhəmiyyətini açıqlamaqdadır. Müvafiq fəaliyyət özündə çoxsaylı yön və istiqamətlərin birgə iştirakını əhatə etməkdədir.

Yuxarıdakı bölmələrdə də qeyd olunduğu kimi, biznes fəaliyyəti bəlli məzmuna, spesifik sistemə və müxtəlif əlamətləri əhatə edən təsnifatlara malikdir. Təsnifləşdirmə əlamətləri kimi mülkiyyət münasibətləri, təşkilatlanma formaları, sahə-ərazi aidiyyatı, tabeçilik və digər əlamətlər çıxış edə bilər. Məqsədlərindən asılı olaraq bu və ya digər əlamətin əsas götürülməsi tədqiqatın yönünü müəyyən etməkdədir.

Müasir dövr biznes fəaliyyətinin daha dar çərçivələnməsinə də təsirsiz ötüşməmişdir. Əmək bölgüsünün məhsul, iş, xidmət, mallar istiqamətində təşkili, istehsal proseslərinin, həmçinin nəqliyyat-logistika, mübadilə və digər sistemlərinin spesifikasiyalarını fərqli prizmalardan sərgiləməyə yol açmışdır.

Digər tərəfdən, haliyədə təcrübi yönləri ilə daha üstün təmsil olunan biznes fəaliyyətinin sistemli nəzəri araşdırmalara cəlb olunması işgüzar mühitin və vahidləri özünəməxsus kəmiyyət-keyfiyyət xarakteristikalarının ortaya çıxarılması, öyrənilməsi və daha təkmil şəkildə təmsil olunması sahəsində kompleks tədqiqatların həyata keçirilməsi zərurətini sərgiləmiş olur.

Biznes fəaliyyətinin təşkili və həyata keçirilməsində çoxsaylı amillərdən istifadə olunmasını şərtləndirməkdədir. Bu sırada informasiya təminatı fərqli aspektlər gözlənilməklə özünəməxsusluğu ilə fərqlənməkdədir. Ümumi və xüsusi təyinatlı informasiyanın xidmətlərindən istifadə olunması təsərrüfat subyektlərinin təşkilatlanma formalarına və üsullarına, cəhətlərinə və xüsusiyyətlərinə təsir etməkdədir.

Təsərrüfat subyektləri biznes fəaliyyətinin təşkilində xüsusi və ya ümumi cəhətlərin "təşkilatlanma – informasiya təminatı" tandemində araşdırılması nəzəri və təcrübi müstəvilərdə yarana biləcək tələblərin və müxtəlif xarakterli kənarlaşmaların səbəblərinin öyrənilməsini aktuallaşdırır.

Zəruri informasiyanın sistemliliyiinn və kompleksliliyinin təmin edilməsi müstəqim istehsal və xidmət prosesləri ilə yanaşı onları tamamlayan reallaşdırma proseslərinin də tələblərə uyğun şəkildə təşkili və həyata keçirilməsini mümkün edir.

Beləliklə, araşdırılan məsələnin "təşkilatlanma – informasiya təminatı" müstəvisi əsasında öyrənilməsi biznes fəaliyyətinin daha mütərəqqi şəkildə həyata keçirlməsinin mühüm amillərdən daha səmərəli istifadəsini şərtləndirməkdədir.

**İstifadə edilmiş ədəbiyyat / References**


1. Bağırov M.S. Makroiqtisadi tarazlıq: problemlər, qiymətləndirmə və təhlil fəaliyyəti. Naxçıvan: Əcəmi, 2023, 216s.
2. Bağırov M.S. Müəssisə vəsaitləri mühasibat uçotunda. Naxçıvan: Əcəmi, 2022, 272s.
3. Bağırov M.S. Statistikanın təməl bilikləri. Naxçıvan, Əcəmi, 2020. 525s.
4. Mahmudov C.İ. Biznes: əsasları, təşkili və iadrə edilməsi. Naxçıvan, İdeya, 2011. 318s.
5. Mahmudov C.İ. Biznesin əsasları. Bakı, AzTU-nun nəşriyyatı, 2008. 220s.
6. Niftullayev V.M. Sahibkarlığın əsasları. Bakı, "Zaman", 2002. 618s.
7. Quliyev T.F. Menecmentin (idarəetmənin) əsasları. Bakı, ADİU-nun nəşriyyatı, 2006. 691s
8. www.economy.gov.az


## Управление бизнесом: организация и информационное обеспечение


**Мехти Багиров**
Доктор экономических наук, АГУНП
**Илаха Гусейнова**
Специальность «Управление бизнесом», (MBA), II курс, НГУ



**Резюме: Цель исследования** – обеспечение системного подхода к бизнес-деятельности, изучение особенностей организования бизнес деятельности на основе принципа «отрасль - территория» и других принципов, формирование необходимой системы информационного обеспечения в соответствующей деятельности и исследование соответствия их использования исследовательским целям.

**Методология исследования** – использование методов наблюдения, группирования,

сопоставительного анализа.

**Результаты исследования** – многовариантное освещение сущности бизнес-деятельности, их закономерное исследование на базе спроса и предложения по принципам системности и комплексности, определение по различным ситуациям степени влияния отличающихся друг от друга факторов, а на этой основе необходимых результатов.

**Практическое значение исследования** – увлечение применения результатов исследования на практике, оценивание работоспособности, а также роли и места новшенческих задумок и идей в претворении в жизнь в бизнес-среде.

**Оригинальность и научная новизна исследования** – обеспечение многофакторных подходов в бизнес-деятельности, на этой основе индивидуальное (локальное) и обобщенное изучение проблем по улучшению их результатов.

**Ключевые слова:** бизнес, сфера бизнеса, управление бизнесом, бизнес-организование, информационное обеспечение бизнеса.

DOI: https://doi.org/10.36719/2707-9317/04/49-54

# Audit assessment and financial stability analysis of Ateshgah Insurance Company's sales activity for 2018-2023

**Asif Mustafayev**
MSE RA İnstitute of Economics, leading researcher, PhD, associate professor
**Orkhan Mammadov**
Baku Business University
Master student
orxanmemmedov487@gmail.com

**Abstarct:** This study will analyze the sales figures of Ateshgah Insurance ASC Company for the last five years from a financial audit perspective. The audit of sales reports will be based on assessing the accuracy of the reports, revenues in the reporting periods, and compliance with current legislation and standards. The goal is to detect errors or discrepancies that may occur in sales transactions and to determine the reliability of the reports.

**Key words:** market, insurance, sales, dynamics, statistics, audit, inspection, expertise

**JELG22; UDC 368**

# "Atəşgah Sığorta" Şirkətinin satış fəaliyyətinin 2018-2023-cü illər üzrə audit qiymətləndirilməsi və maliyyə sabitliyinin təhlili

**Asif Mustafayev**
AR ETN İqtisadiyyat İnstitutu, aparıcı elmi işçi, i.f.d., dosent
E-mail: asif5252@rambler.ru
**Orxan Məmmədov**
Bakı Biznes Universiteti
Magistrant
orxanmemmedov487@gmail.com

**Xülasə:** Bu tədqiqatda Atəşgah Sığorta ASC şirkətinin son beş ildəki satış göstəriciləri maliyyə auditi perspektivindən təhlil edəcəyik. Satış hesabatlarının auditi, hesabatların dəqiqliyinin, hesabat dövrlərindəki gəlirlərin, mövcud qanunvericilik və standartlara uyğunluğunun qiymətləndirilməsinə çalışacağıq. Əsas məqsəd, satışlar üzrə əməliyyatlarda baş verə biləcək səhvləri və ya uyğunsuzluqları aşkarlamaq və hesabatların nə dərəcədə etibarlı olduğunu müəyyən etməkdir.

**Açar sözlər:** bazar, sığorta, satış, dinamika, statistika, audit, yoxlama, ekspertiza

**JELG22; UDC 368**

## Giriş/ İntroduction

Atəşgah Sığorta şirkətinin fəaliyyətinin davamlılığını və etibarlılığını təmin etməkdə satış əməliyyatlarının düzgün və şəffaf şəkildə aparılması mühüm rol oynayır. Şirkətin əsas gəlir mənbələrindən biri olan satış proseslərinin hesabatlaşdırılması və bu hesabatların maliyyə auditi perspektivindəna qiymətləndirilməsi satış əməliyyatlarında yaranan potensial riskləri aşkarlamaq və onların aradan qaldırılması üçün zəruri tədbirləri müəyyən etmək baxımından vacibdir.

Bu tədqiqatın əsas məqsədi Atəşgah Sığorta şirkətinin 2018-2023-cü illər üzrə satış göstəricilərini audit edərək, satış hesabatlarının dəqiqliyini, maliyyə standartlarına və qanunvericiliyə uyğunluğunu yoxlamaq və mümkün çatışmazlıqları aşkar etməkdir. Bu kontekstdə audit vasitəsilə satış hesabatlarında uyğunsuzluqlar, səhvlər və ya təhriflər müəyyən edilə bilər və bu nöqsanların səbəbləri üzə çıxarılaraq şirkətin maliyyə hesabatlarının etibarlılığını artıracaqdır. Məlum olduğu kimi, sığorta təşkilatlarının pul dövriyyəsi təsərrüfatın digər sahələri ilə müqayisədə çox mürəkkəbdir. [5.Səh.254]

Tədqiqat suallarını cavablandırmaqla yanaşı, burada Atəşgah Sığorta şirkətinin satış əməliyyatlarının auditində əsas risk mənbələri və onların idarə olunması metodları, satışların dəqiqliyini təmin etmək üçün istifadə olunan audit prosedurları, eləcə də audit nəticəsində aşkarlanan problemlərin həlli yolları araşdırılacaqdır. Nəticə etibarilə, bu tədqiqat Atəşgah Sığortanın maliyyə auditi üzrə təcrübəsini təkmilləşdirmək, satış proseslərini daha şəffaf və standartlara uyğun aparmaq məqsədi daşıyır.

## Əsas hissə / Main part

Sığorta, şəxslərin və ya təşkilatların potensial maliyyə risklərini idarə etmək üçün istifadə etdiyi maliyyə xidmətidir. Əsas məqsədi, müəyyən hadisələr zamanı (məsələn, təbii fəlakət, qəza, xəstəlik və s.) ortaya çıxan zərərin təsirini azaltmaqdır. Sığorta vasitəsilə insanlar və ya şirkətlər bir sığorta şirkəti ilə müqavilə bağlayaraq müəyyən bir məbləğ (sığorta haqqı) ödəyir, qarşılığında isə sığorta hadisəsi baş verdikdə zərəri kompensasiya etmək hüququ qazanır. Azərbaycanda sığorta sektoru son illərdə sürətli inkişaf göstərərək, bazarda fəaliyyət göstərən şirkətlərin maliyyə dayanıqlılığı və xidmət keyfiyyəti üzrə müsbət nəticələr əldə olunub. Bu yazıda ölkəmizdəki sığorta şirkətlərinin maliyyə göstəriciləri təhlil edilmiş, onların bazar payı, gəlirləri, ödəniş qabiliyyəti və müştəri tələblərinə uyğunlaşma qabiliyyətləri qiymətləndirilmişdir. Bu təhlil sığorta məhsullarının müxtəlifliyi, şirkətin bazar mövqeyi və artan rəqabət şəraitində fəaliyyətin optimallaşdırılması barədə faydalı məlumatlar

təqdim edir. Bu cür təhlil sığorta sektorunun inkişaf tendensiyalarını müəyyən etmək, şirkətlərin strateji qərarlarını düzgün istiqamətləndirmək və müştərilərin daha etibarlı sığorta təminatı seçmələrinə kömək edir.

Ölkəmizdəki sığorta şirkətlərinin reytinqi, ümumiyyətlə, bir neçə əsas göstərici əsasında müəyyən edilir. Bu göstəricilər, şirkətlərin maliyyə gücü, bazar mövqeyi, sığorta məhsullarının müxtəlifliyi, müştəri məmnuniyyəti, ödəniş qabiliyyəti və bazarda əməliyyat səmərəliliyi kimi aspektləri əhatə edir. Bu gün araşdıracağımız müəssisə Atəşgah Sığorta ASC-dir. Atəşgah Sığorta Azərbaycanda fəaliyyət göstərən aparıcı sığorta şirkətlərindən biridir. Şirkət 1996-cı ildən etibarən fəaliyyət göstərir və həm fərdi, həm də korporativ müştərilərə geniş sığorta xidmətləri təklif edir. Şirkət həm həyat sığortası, həm də qeyri-həyat sığortası sahələrində fəaliyyət göstərərək müştərilərə etibarlı maliyyə müdafiəsi təmin edir. Atəşgah Sığorta şirkətinin satış hesabatını hazırlamaq üçün şirkətin maliyyə və satış göstəricilərinə, sığorta məhsullarının növlərinə və müştəri portfelinə dair məlumatlara ehtiyac var. Satış hesabatı adətən aşağıdakı bölmələrdən ibarət olur:

**<u>Ümumi Baxış</u>**

Şirkətin bazar payı və sektordakı mövqeyi

Satış həcmi: Ümumi sığorta yığımları və satış məbləği

İllik və rüblük satış artımı və ya azalma göstəriciləri

<u>Sığorta Məhsulları üzrə Satışlar</u>

Məhsul növləri üzrə satış gəlirləri:

Həyat sığortası

Həyat olmayan sığorta (avtomobil, əmlak, tibbi sığorta və s.)

Hər bir məhsul üzrə yığımlar və müqayisəli göstəricilər

<u>Regionlar üzrə Satış Təhlili</u>

Satışların coğrafi bölgüsü: Şəhər və bölgələr üzrə satış həcmi

Bölgələrdəki müştəri payı və artım templəri

<u>Müştəri Seqmentasiyası</u>

Müştəri kateqoriyaları: Fərdi və korporativ müştərilər

Hər bir seqment üzrə yığımlar və satış göstəriciləri

<u>Satış Kanalları üzrə Təhlil</u>

Rəsmi nümayəndəliklər, agentlər, rəqəmsal satış platformaları

Hər bir kanal üzrə satış göstəriciləri və müştəri sayı

<u>Maliyyə Göstəriciləri</u>

Ümumi satışdan əldə olunan gəlir

Xərclər və xalis gəlir

Rüblük və illik maliyyə göstəriciləri üzrə müqayisə

<u>Strateji Təkliflər və Gələcək Proqnozlar</u>

Satışların artırılması üçün təkliflər (rəqəmsal platformaların genişləndirilməsi, yeni məhsul və xidmətlər)

Gələcək satış proqnozları

Xidmət seqmenti bazar iqtisadiyyatının çevik inkişaf sahələrindən biridir. Ticarətin milli iqtisadiyyata nüfuzu dinamik şəkildə artır. Son dövrdə maliyyə bazarının əsas tərkib hissələrindən olan sığorta seqmentinə maraq daha da artmışdır. Ölkədə sığorta xidmətlərinin bazarına nəzarət və onun tənzimlənməsi sahəsində mühüm dəyişikliklər edilmişdir. [5.səh.7]

Atəşgah Sığorta şirkətinin son maliyyə göstəricilərini nəzərə alsaq görərik ki, şirkətin sığorta bazarında davamlı artım göstərdiyi müşahidə olunur. 2023-cü ildə sığorta ödənişlərinin ümumi məbləği 16,6 milyon AZN təşkil etmişdir. 2021-ci ildə Atəşgah (ASC) ümumi gəlirləri təxminən 78 milyon manat olmuşdur. (*<u>Mənbə: https://ateshgah.com/)</u>*

Bu dövrdə şirkətin əsas gəlir mənbəyi yığılan sığorta haqları olmuşdur ki, bu da ASC-nin müxtəlif sığorta növləri üzrə bazarda geniş paya sahib olmasına səbəb olub. 2021-ci ildə şirkət həm həyat, həm də icbari sığorta sahəsində fəaliyyət göstərərək bazar mövqeyini gücləndirmişdir. Şirkətin gəlirlərində həyat sığortası, nəqliyyat vasitəsi sahiblərinin icbari sığortası yəni NVSMMİS və tibbi sığorta əsas payı təşkil edib. Müvafiq olaraq, 2021-ci ildə ASC öz maliyyə göstəricilərini

optimallaşdıraraq, növbəti il üçün gəlirlərində müsbət dəyişikliklər baş vermişdir. Məlumatlara əsasən, Atəşgah 2021-ci ili 8.45 milyon manat xalis mənfəət ilə başa vurmuşdur ki, bu da onun maliyyə sabitliyini və davamlı inkişafını təsdiqləyir. Bu göstəricilər Atəşgahın Azərbaycanda aparıcı sığorta şirkətlərindən biri olaraq bazarda yüksək etibarlılığa sahib olmasını təmin edir. 2022-ci ildə bu göstərici 15,9 milyon AZN olduğu üçün, artım nisbətən yüksək olmuşdur. Şirkət xüsusilə daşınmaz əmlak, yanğın riskləri, avtomobil və şəxsi qəza sığortaları sahəsində geniş fəaliyyət göstərir. Həmçinin, Atəşgah Sığorta şirkəti tibb sığortası və neft-qaz sahəsində enerji risklərinə qarşı sığorta məhsulları təqdim edir, bu da şirkətə öz müştərilərinə etibarlı maliyyə müdafiəsi təmin etməyə imkan verir. Atəşgah Sığorta şirkətinin son statistik göstəriciləri, ödəniş məbləğləri və illik artım göstəriciləri sığorta bazarındakı mövqeyini izləməyə kömək edir. Şirkətin ödəniş statistikaları aşağıdakı şəkildədir:

**Son İllik Göstəricilər**:

2023-cü ildə Atəşgah Sığorta tərəfindən ödənilən məbləğ 16,6 milyon AZN təşkil etmişdir. Bu, 2022-ci ilin göstəricisi ilə müqayisədə artış göstərir.

2022-ci ildə ödənişlər 15,9 milyon AZN, 2021-ci ildə isə 10,6 milyon AZN idi, bu da illər üzrə artım templərini göstərir

Daha Əvvəlki İllərlə Müqayisə:

2020-ci ildə ödənişlər 14,3 milyon AZN, 2019-cu ildə isə 18,9 milyon AZN idi, bu da son illərdə müəyyən dalğalanmalar olduğunu göstərir.

2018-ci ildə ödənişlər nisbətən yüksək səviyyədə olmuş və 20 milyon AZN-ə çatmışdır. *Mənbə: https://ateshgah.com/*

**Toplam Ödənişlər**:

Atəşgah Sığorta şirkəti fəaliyyətə başladığı gündən bəri ümumilikdə **233 milyon AZN**-dən çox ödəniş həyata keçirmişdir.

Bu rəqəmlər Atəşgah Sığorta şirkətinin maliyyə dayanıqlığını, müştəri ödənişləri ilə bağlı öhdəliklərini yerinə yetirmə qabiliyyətini göstərir. Daha ətraflı məlumat və illik hesabatlarla tanış olmaq üçün şirkətin rəsmi veb saytına baxa bilərsiniz.




Atəşgah Sığorta şirkətinin illik ödəniş göstəricilərini və artım templərini təhlil etdikdə aşağıdakı nəticələr əldə edilir:

| İl | Ödəniş Məbləği (AZN) | Artım Faizi (%) |
|---|---|---|
| 2023 | 16,627,000 | -4.32 |
| 2022 | 15,908,385 | -33.21 |
| 2021 | 10,624,755 | 34.65 |
| 2020 | 14,306,000 | 32.71 |
| 2019 | 18,985,948 | 5.46 |

***Mənbə :*** *https://ateshgah.com/*

**Orta Artım Faizi**: Bu illər üzrə ortalama artım faizi təxminən **7.06%** təşkil edir.

**Təhlil və qiymətləndirmə:** 2022-ci ildə ödənişlərdə ciddi azalma (-33.21%) müşahidə olunsa da, növbəti illərdə bu artım tendensiyası bərpa olunur.

Bu məlumatlar Atəşgah Sığorta şirkətinin maliyyə dayanıqlığını və bazar tələbinə uyğunlaşma qabiliyyətini göstərir.




2018-2023 illəri üzrə Atəşgah Sığorta şirkətinin satışdan gəlir göstəriciləri və artım templərinin təhlili:

**Orta illik artım faizi**: Təhlil edilən dövr üçün ortalama artım faizi təxminən **1.8%** təşkil edir.

Müşahidələr:

2019-cu ildə 6.25% artımdan sonra 2020-ci ildə gəlirlərdə 14.12% azalma baş verib.

2020-dən 2023-ə qədər mülayim artım tempi müşahidə olunmuşdur.

Bu göstəricilər, Atəşgahın gəlirlərinin zamanla artmasına baxmayaraq, bazardakı müəyyən iqtisadi təsirlərdən də təsirləndiyini göstərir.

## Nəticə /Conclusion

Yuxarıda göstərilən təhlillərə əsasən, Atəşgah Sığorta şirkətinin satış hesabatları və ödəniş göstəriciləri, şirkətin müvafiq qanunvericiliyə və maliyyə standartlarına uyğun şəkildə təqdim edildiyi təqdirdə, şirkətin maliyyə dayanıqlılığı və bazar mövqeyi nəzərə alınaraq davamlı inkişafını təmin edir. Bu göstəricilər, həmçinin şirkətin müştəri ödənişləri ilə bağlı öhdəliklərini yerinə yetirmə qabiliyyətini, vergi öhdəliklərini düzgün yerinə yetirməsi və müvafiq maliyyə hesabatlarının düzgünlüyünü əks etdirir. Atəşgah Sığorta şirkətinin 2018-2023 illəri arasındakı maliyyə göstəriciləri, şirkətin illik satış gəlirlərində zamanla dəyişikliklərin olduğunu göstərir. Bu dövrdə gəlirlərin artımı və azalması ilə yanaşı, ümumilikdə yavaş, amma müsbət bir tendensiya müşahidə olunmuşdur.

Aşağıda hər il üçün əsas maliyyə göstəriciləri verilmişdir:

1. 2018-ci il – Gəlir: 80 milyon AZN, artım faizi: 6.25%
2. 2019-cu il – Gəlir: 85 milyon AZN, artım faizi: -14.12% (əvvəlki ilə nisbətən azalma)
3. 2020-ci il – Gəlir: 73 milyon AZN, artım faizi: 6.85% (2019-cu illə müqayisədə yüngül artım)
4. 2021-ci il – Gəlir: 78 milyon AZN, artım faizi: 6.41%
5. 2022-ci il – Gəlir: 83 milyon AZN, artım faizi: 3.61%
6. 2023-cü il – Gəlir: 86 milyon AZN (bu rəqəm əvvəlki illərə nisbətən davamlı artım göstərmişdir).

2018-2023 dövründə orta illik artım faizi təxminən 1.8% olmuşdur. Bu göstəricilər Atəşgah Sığorta şirkətinin bazarda mövqeyini qorumağa və gəlirlərində sabit artım təmin etməyə çalışdığını göstərir. 2019-cu ildəki azalmaya baxmayaraq, növbəti illərdə artım trendi bərpa olunmuşdur ki, bu da şirkətin öz fəaliyyətini müvəffəqiyyətlə davam etdirdiyini və bazar tələblərinə uyğunlaşdığını sübut edir.

### İstifadə olunmuş ədəbiyyat / References

1.Azərbaycanın sığorta bazarının iqtisadi analizi" Müəllif: Əhmədov C. Sığorta bazarının iqtisadi əhəmiyyəti, sığorta məhsullarının inkişafı və bazar problemləri.

2. Şahin, H. (2020), "Risk idarəetməsində sığorta şirkətlərinin rolunun təhlili", Maliyyə və Risk Jurnalı.

3. Əsədov, E. (2019), "Azərbaycanın sığorta bazarı və onun inkişafı", Azərbaycan İqtisadiyyatı və Maliyyə Jurnalı.

4. Azərbaycan Respublikası Mərkəzi Bankı. Https://www.cbar.az/page-189/insurance

5. B.X.Ataşov, Ə.Ə.Ələkbərov, N.N.Xudiyev Sığorta İşi (2018).

6. "İcbari Sığortalar Haqqında" Azərbaycan Respublikasının Qanunu. (2011).

7. İSB Büro haqqında. Https://isb.az/buro-haqqinda/

8. "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu. (2007).

9. Atəşgah Sığorta ASC - https://ateshgah.com/

10. Azərbaycan Sığortaçılar Assosasiyası - https://asa.az/

11. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi - https://maliyye.gov.az/

# Аудиторская оценка и анализ финансовой устойчивости сбытовой деятельности страховой компании «Атешгях» за 2018-2023 годы

**Асиф Мустафаев**
МОН АР Институт Экономики
**Орхан Мамедов**
Бакинский Университет Бизнеса
Магистрант
orkanmemmedov487@gmail.com

**Резюме**: В данном исследовании будут проанализированы показатели продаж страховой компании Ateshgah Insurance ASC за последние пять лет с точки зрения финансового аудита. Аудит отчетов о продажах будет основан на оценке достоверности отчетов, выручки в отчетных периодах и соответствия действующему законодательству и стандартам. Цель состоит в том, чтобы обнаружить ошибки или несоответствия, которые могут возникнуть в сделках купли-продажи, и определить достоверность отчетов.

**Ключевые слова:** рынок, страхование, продажи, динамика, статистика, аудит, проверка, экспертиза.

**JELG22; UDC 368**

DOI: https://doi.org/10.36719/2707-9317/04/55-61

# Issues of minimizing environmental damage of agricultural production

**Famil Rustamov**
Department head of "Economic Problems of the Agrarian Sector"
of the Institute of Economics of the Ministry of Science and Education of the Republic of Azerbaijan, PhD in economics, Associate Professor
familrustamov456@gmail.com
**Leyla Isayeva**
Senior Researcher of the Department of "Economic Problems of the Agrarian Sector" of the Institute of Economics of the Ministry of Science and Education of the Republic of Azerbaijan
l.isayeva_84@mail.ru

**Abstract:** The dynamic development of agriculture and agro-processing in the modern world is accompanied by the emergence of environmental risks. For this reason, there is a need to develop "green" agriculture. In the current economic conditions of Azerbaijan, the solution of problems related to the transition to renewable energy and the "green" transformation of the agricultural sector is becoming increasingly relevant and requires the formation of new economic principles. This article is devoted to the assessment of environmental risks and the development of directions for their prevention and minimization.

It is concluded that the implementation of an ecological strategy for agricultural entities of Azerbaijan in the context of the transition to renewable energy is one of the most promising directions of development. During the study, one of the main principles was the need to take into account regional environmental characteristics and assess the likelihood of environmental hazards.

**Key words:** "Green" agriculture, ecology, environment, ecological balance, natural resources, household waste.

# Aqrar istehsalın ətraf mühitə zərərinin minimumlaşdırılması məsələləri

**Famil Rüstəmov**
AR ETN İqtisadiyyat institutu
"Aqrar sektorun iqtisadi problemləri"
şöbəsinin müdiri, i.f.d., dosent
familrustamov456@gmail.com
**Leyla Isayeva**
AR ETN Iqtisadiyyat institutu
"Aqrar sektorun iqtisadi problemləri" şöbəsinin böyük elmi işçisi
l.isayeva_84@mail.ru

**Xülasə:** Müasir dünyada kənd təsərrüfatının və aqroemal sahəsinin dinamik inkişafı həm də ekoloji risklərin yaranması ilə müşayiət olunur. Bu səbəbdən də "yaşıl" kənd təsərrüfatının işlənib hazırlanmasına ehtiyac yaranır. Azərbaycanın mövcud iqtisadi şəraitində bərpa olunan enerjiyə keçidi və kənd təsərrüfatı sektorunun "yaşıl" transformasiyası ilə bağlı problemlərin həlli get-gedə daha da aktuallıq qazanır və yeni təsərrüfat prinsiplərinin formalaşdırılmasını tələb edir. Bu məqalə ekoloji risklərin qiymətləndirilməsinin və onların qarşısının alınması və minimuma endirilməsi istiqamətlərinin işlənib hazırlanmasına həsr olunmuşdur.

Belə qənaətə gəlinir ki, bərpa olunan enerjiyə keçid şəraitində Azərbaycanın kənd təsərrüfatı subyektləri üçün ekoloji strategiyanın həyata keçirilməsi inkişafın ən perspektivli istiqamətlərindən biridir. Tədqiqat zamanı ətraf mühitin regional xüsusiyyətlərinin nəzərə alınması və ekoloji təhlükələrin ehtimalının qiymətləndirilməsi zərurəti əsas prinsiplərdən hesab edilmişdir.

**Açar sözlər: "**Yaşıl" kənd təsərrüfatı, ekologiya, ətraf mühit, pestisid, gübrə, ekoloji balans, təbii ehtiyatlar, məişət tullantıları.

## Giriş

Tarixi təcrübələrə, elmi araşdırmalara əsaslanaraq əminliklə söyləyə bilərik ki, cəmiyyətin gələcək inkişafı, eləcə də ərzaq təhlükəsizliyinin dayanıqlı təmin olunması ətraf mühitin mühafizəsindən və təbii ehtiyatlardan optimal istifadə edilməsindən çox asılıdır. Unutmaq lazım deyil ki, ərzaq məhsullarının istehsalının başlıca mənbəyi olan kənd təsərrüfatı təbiətdən səmərəli istifadə ilə sıx bağlıdır. Odur ki, təbiətlə cəmiyyət arasında qarşılıqlı təsirin optimallaşdırılması, ətraf mühitə mənfi təsirlərin azaldılması məqsədilə müxtəlif vasitələrdən istifadə günümüzün aktual məsələsi kimi qarşıda durur.

2050-ci ilə qədər 9 milyarddan çox insanı keyfiyyətli ərzaq məhsulları ilə təmin etmək vəzifəsinin öhtəsindən gəlmək üçün dünya ictimayəti, dövlətlər, müəssisələr mövcud resurslardan maksimum səmərəli istifadə etməlidirlər. Qlobal iqlim dəyişikliyinin nəticələri bu gün daha qabarıq hiss olunur və öz neqatv təsirlərini kənd təsərrüfatında da göstərməkdədir. Şübhəsizdir ki, məhsuldarlıq göstəricilərini yüksəltmək, ərzaq təhlükəsizliyi təmin etmək iqlim dəyişikliyinə uyğunlaşma üçün əhəmiyyətli investisiyalar tələb olunur.

Qeyd etməliyik ki, hazırda dünyada istixana qazı emissiyalarının dörddə biri, meşələrin qırılmasının təxminən 80%-i kənd təsərrüfatı ilə bağlıdır. Yaxın gələcəkdə bu tendensiyanın qarşısı alınmazsa, nəzarət tədbirləri güclənməzsə, meşələrin qırılması hesabına təsərrüfatların genişlənməsi ciddi ekoloji fəlakətlərə səbəb ola bilər.

Təbii ehtiyatlardan səmərəli istifadə olunması, texnoloji proseslərə düzgün əməl olunması torpağın, suyun, atmosferin çirklənməsinin qarşısını almaqla təbii ekosistemlərə antropogen təsirin azalmasını, ətraf mühitin mühafizəsini təmin edir. Aqrar istehsalın intensiv inkişafının hədəfləndiyi hazırki dövrdə ətraf mühitin mühavizəsinə, təbii ehtiyatlardan səmərəli istifadəyə dair kompleks tədbirlərin hazırlanması, onların planlı, xüsusi ardıcıllıqla həyata keçirilməsi xüsusi əhəmiyyət kəsb edir.

Təbii ehtiyatlardan səmərəli istifadənin əsas istiqamətlərindən biri onlardan düzgün və tullantısız istifadə etməkdir. Əslində tullantılar özü də xammal sayılır. Bəzi tullantılar emal olunaraq kənd

təsərrüfatında istifadə olunduğu kimi, kənd təsərrüfatı tullantıları da emal olunaraq digər sahələrdə istifadə olunur. Buna misal olaraq kanalizasiya sularından gübrə əldə olunmasını, müxtəlif mdf löhvələrin, pelletlərin, breketlərin hazırlanmasını qeyd edə bilərik. Kənd təsərrüfatı mənşəli tullantıların təkrar istifadəsi və ya emalı ətraf mühitin çirklənməsinin də qarşısını almaqla yanaşı, yeni iş yerlərinin yaradılmasına, əlavə dəyərin formalaşmasına imkan verir. Xammaldan kompleks istifadə əmsalı nə qədər yüksək olarsa, itkilərin miqdarı da bir o qədər azalar, müəssisələrin gəlirləri isə artmış olar. Aqrar sahədə tullantılara pambıq çöpləri, zəmilərin biçinindən sonra qalan küləş, meyvə və üzümün cecəsi, tərəvəz və kartofun qabıqları, heyvan ifrazatı və s. aid etmək olar.

Təbii ehtiyatlardan səmərəli və düzgün istifadə edilməməsi əsasən torpaq və sudan qeyri-səmərəli istifadə, təmizləyici qurğuların, texniki vasitələrin fiziki və mənəvi cəhətdən köhnəlməsi, enerjiyə qənaət edən müasir texnologiyaların zəif tətbiqi, gübrə və bitki mühafizə vasitələrindən qeyri-düzgün istifadə, müasir tələblərə cavab verən laboratoriyaların azlığı, keyfiyyətə nəzarət və iqtisadi həvəsləndirmə sisteminin zəif tətbiqi, baytarlıq və fitosanitar xidmətlərinin maddi-texniki bazasının zəifliyi, kadr çatışmazlığı və digər amillərlə əlaqədardır [6].

Aqrar istehsalın ətraf mühitə neqativ təsirlərini azaltmağa imkan verən bəzi innovativ texnologiyaların tətbiqi olduqca vacibdir. O cümlədən:

- ***Su ehtiyatlarına qənaət etməyə kömək edən müassir suvarma texnologiyalarının tətbiqi.*** Qapalı suvarma sistemləri buxarlanmanın qarşısını almaqla bərabər, su kanallarının yataqlarının tez bir zamanda lil qatı ilə örtülməsinin də qarşısını alır. Ağıllı suvarma sistemləri isə məhsulun növündən asılı olaraq su ehtiyatlarına 20-30 %-ə qədər qənaət edir. Bura həmçinin suvarılacaq torpaq qatının nəmlik səviyyəsini müəyyən etməyə yardımçı olan texnologiyalar da aitdir. Belə texnologiyalar fermerlərə əkinləri suvarmaq üçün nə qədər su istifadə etmələri barədə dəqiq məlumat verir.
- ***Zərərvericilərə qarşı mübarizənin bioloji üsullarının tətbiqi.*** Bioloji üsullarla zərərvericilərə qarşı mübarizə torpağın təmizliyini qorumaqla yanaşı, ətrafdakı canlıları, fauna və floranı da qoruyur, yeraltı suların çirklənməsini də azaldır.
- ***Enerji istehlakının azaldılmasına imkan verən texnologiyaların, bərpa olunan enerji mənbələrinin tətbiqi.*** Son illər heyvandarlıq və quşçuluq təsərrüfatlarının işıq və istiliklə təminatında günəş panellərindən istifadə halları artmaqdadır.
- **Xəstəliklərə və zərərvericilərə davamlı bitkilərin və ev heyvanlarının cinslərinin yetişdirilməsini sürətləndirən seleksiya işləri.** Uğurlu seleksiya fəaliyyəti bitki və heyvan cinslərinin xəstəliklərə və zərərvericilərə qarşı müavimətini artırmaqla bərabər, təsərrüfatlarda pestisidlərin və kimyəvi gübrələrin istifadə həcmlərini də azaldır.

Ümumiyyətlə istifadə olunmalı pestisit və gübrələrin miqdarının düzgün müəyyən olunması kənd təsərrüfatının ətraf mühitə neqativ təsirlərinin azaldılması baxımından olduqca əhəmiyyətli məsələdir. Məhsuldarlığı artırmaq və zərərvericilərə qarşı mübarizə aparmaq məqsədilə hər il fermerlər külli miqdarda kimyəvi maddələrdən istifadə edirlər. Bu, təkcə insan sağlamlığına qarşı təhdid yaratmır, həm də bir çox faydalı canlı orqanizmlərin məhvinə səbəb olur. Dünyada hər il adambaşına orta hesabla 400-500 qram pestisid istifadə olunur. İnkişaf etmiş ölkələrdə bu göstərici xeyli yüksəkdir. Müqayisə üçün bildirək ki, ABŞ-da bu rəqəm 2 kq-a yaxındır. Bundan əlavə, bitkilərin sürətli böyüməsini təmin etmək üçün gübrələrdən düzgün istifadə edilməməsi də ətraf mühitin həddən artıq çirklənməsinə səbəb olur. Azot gübrələrinin həddindən artıq tətbiqi isə torpağın yuyulmasına, qrunt sularının çirklənməsinə və nəticədə bəzən içməli sularda azotun miqdarının qalxmasına gətirib çıxarır. Gübrələrin buxarlanması nəticəsində yaranan ammonyak qazı da insan orqanizmi üçün çox zərərli hesab olunur. Alaq otlarının təmizlənməsi, eləcə də bakteriyaların məhv edilməsi üçün istifadə olunan pestisidlər flora və faunaya mənfi təsir göstərir.

Aşağı keyfiyyətli, köhnə texnologiyalarla istehsal olunan pestisidlərin bəziləri torpaqda və suda illərlə qala bilər. Hazırda dünyada 1000-dən çox pestisid növündən istifadə olunur ki, onların da hər birinin özünəməxsus tərəfləri və toksikoloji xüsusiyyətləri var. 2001-ci il Stokholm Konvensiyasını imzalamış ölkələrdə və eləcədə əksər inkişaf etmiş ölkələrdə belə pestisidlərin bir çoxunun istifadəsi qadağan edilsə də bir sıra inkişaf etməkdə olan ölkələrdə hələ də geniş istifadə olunur. Pestisidlər bitkiləri alaq otlarından, böcəklərdən, digər zərərvericilərdən qorumaqla kənd təsərrüfatı istehsalında mühüm rol oynayır. Onlar məhsuldarlığın yüksəldilməsinə, itkilərin azaldılmasında faydalı olmaqla

bərabər, il ərzində eyni sahədə eyni məhsulun təkrar əkinlərinin sayını artırmağa imkan verir ki, bu da xüsusilə ərzaq çatışmazlığı ilə üzləşən ölkələr üçün çox vacibdir. Amma, bununla bərabər onların həddən artıq istifadəsi həm kənd təsərrüfatına, həm də insanların sağlamlığına zərərlidir. Onlar insan orqanizminə daxil olma yolundan asılı olaraq həm kəskin, həm də xroniki toksik təsirə malikdirlər. Ən yüksək risk qrupunda olanlar isə pestisidlərə birbaşa təmasda olanlardır [10]. Bu sahə ilə bağlı son illərin rəsmi statistik məlumatlarına nəzər saldıqda görürük ki, Avropada pestisidlərdən istifadəyə görə İspaniya və Fransa liderdir. Bu siyahıda növbəti yerləri İtaliya və Almaniya tutur. Bu dörd ölkə birlikdə Aİ da istifadə olunan pestisidlərinin 79%-ni istifadə edir. 2014-cü ildə ÜST və FAO-nun birgə hazırladığı Pestisidlərin İdarə Edilməsi üzrə Beynəlxalq Davranış Kodeksində istehsalın bütün mərhələlərində pestisidlərdən istifadə ilə bağlı ən yaxşı təcrübələr öz əksini tapmışdır [11]. Dünyada pestisid bazarının həcmi ilbəil artmaqdadır. 2023-cü ildə bu göstərici 66,04 milyard ABŞ dolları təşkil etsə də ehtimallara görə 2028-ci ilə qədər bu rəqəm 80 milyard ABŞ dollarını ötəcək. Çin dünyada ən çox pestisid istifadə edən ölkədir. Burada hər il təxminən 1,8 milyon ton pestisid istifadə olunur. İkinci yerdə ABŞ, üçüncü yerdə isə Argentina qərarlaşıb. Çin pestisidlərin istehsalına və ixracına görə də dünyada liderdir. 2011-ci ildən bəri Çin istehsalçılarının qlobal bazara təsiri əhəmiyyətli dərəcədə artmışdır. Ötən ilin nəticələrinə əsasən, ölkə dünyada pestisidlərin ən böyük ixracatçısı olub, Hindistan ikinci, İsrail isə üçüncü yerdədir. Bu, pestisidləri istehsal edən müəssisələrin çoxunun Çində yerləşməsi ilə əlaqədardır. Çinin istehsal etdiyi pestisidlərin ümumi həcminin təxminən 67%-i ixrac olunur [12].

Həddən artıq gübrələrdən istifadə də kənd təsərrüfatının ətraf mühitə mənfi təsirlərini artırır. Son 70 ildə kənd təsərrüfatının istixana qazlarının əsas mənbəyinə çevrilməsinin başlıca səbəblərindən biri də gübrələrdən həddsiz istifadə ilə bağlıdır. Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) məlumatına görə, qlobal istixana qazı emissiyalarının 24%-i kənd təsərrüfatının payına düşür [14]. Gübrələrdən həddindən artıq istifadə bitkilərə zərər verməklə bərabər torpağı və suyu da çirkləndirir. Odur ki, gübrələrdən istifadəni optimallaşdırmaq, düzgün balansı tapmaq zəruridir. Gübrələrdən lazım olan zamanda düzgün miqdarda istifadə etməklə, tarazlığı saxlamaqla məhsuldarlığın artırılmasına nail olmaq lazımdır.

Kənd təsərrüfatının ətraf mühitə neqativ təsirlərindən biri də kənd təsərrüfatı texnikalarının, maşınlarının ətraf mühitə buraxdığı işlənmiş qazların miqdarı ilə bağlıdır. Son illər heyvan tullantılarının və iribuynuzlu mal-qaranın metan emissiyalarının istixana effektinə səbəb olması haqqında da çox danışılır. Bundan əlavə, kənd təsərrüfatında formalaşan tullantılar su hövzələrinə düşərək patogen bakteriyaların çoxalmasına, epidemioloji təhlükənin artmasına səbəb olur.

Təəssüflər olsun ki, torpaqməcralı suötürücü kanalların və ənənəvi suvarma üsullarının ətraf mühitə neqativ təsirləri azalmadığından əkinə yararlı torpaqların sıradan çıxması, deqredasiyaya uğraması prosesləri bu gün də davam etməkdədir. Ölkənin sosial-iqtisadi inkişafının, geniş təkrar istehsalının əsas elementlərindən olan torpaq ehtiyatlarının keyfiyyətinin qorunması olduqca vacibdir. Kənd təsərrüfatına yararlı torpaqların əksəriyyəti rütubətin az olduğu quraq ərazilərdə olduğundan burada suvarma sistemlərini tətbiq etmədən kənd təsərrüfatı məhsulları istehsalı çox çətindir və bu amil məhsuldarlığada neqativ təsir göstərir. Hazırda ölkədə mövcud olan suvarma kanallarının yarıdan çoxu torpaq məcralı kanallar olduğundan həm su itkisi çox olur, həm də suyun 30-40 faizi torpağa filtirasiya olunaraq ətraf ərazilərdə qrunt sularının səviyyəsinin qalxmasına, şoranlaşmaya, torpaqların təsərrüfat dövriyyəsindən çıxmasına gətirib çıxarır. Beton kanalların da bəziləri istismar müddətini başa vurduğundan, betonun sıradan çıxdığı ərazilərdə su ətrafa sızır. Baş karanllardan ayrılan yardımçı-paylayıcı kanalların 90 faizdən çoxu torpaq özüllü kanallardır. Selləmə suvarma üsulu da filtirasiya effekti verdiyindən ekoloji baxımdan torpağı ildən-ilə sıradan çıxarır. Yəni, su sahəyə selləmə şəklində buraxıldıqda torpaq su ilə doyur və suyun artıq hissəsi yerin aşağı qatlarına süzür. Yerin təkinə filtirasiya edilən su ərazidə qrunt sularının səviyyəsini qaldırır. Və nəticədə səviyyəsi nisbətən aşağı olan ərazilərdə qrunt suları torpağın yuxarı qatlarına qalxır ki, bu da zərərli duzların torpağın humus qatına qalxmasına səbəb olur. Duzlu mühitdə bitkilərin kök sistemini tez bir zamanda sıradan çıxarır, torpaq şoranlaşmağa başlayır. Prosesin qarşısını almaq üçün müassir innovativ texnologiyalara əsaslanan suvarma sistemlərinin qurulması vacibdir. Bu həm də suvarma suyuna 50-70 faiz qənaət deməkdir.

Aqrar sahədənin davamlı inkişafının vacib aspektlərindən biri də kənd təsərrüfatında mütərəqqi texnologiyalarının tətbiqi yolu ilə yararlı torpaqlardan istifadə səviyyəsinin yüksəldilməsi nəticəsində məhsul vahidinə sərf olunan material və maliyyə xərclərinin aşağı salınmasıdır. Hazırda dünya birliyi tərəfindən ən çox dəstəklənən və tətbiq edilən inkişaf konsepsiyalarından biri "Davamlı inkişaf" ("Sustainable development") konsepsiyasıdır. Bu konsepsiyanın yaranması və qəbul edilməsi BMT-nin təbiəti mühafizə fəaliyyəti ilə əlaqədardır. Bu sənəd təkcə ətraf mühitin mühafizəsi məsələsi ilə məhdudlaşmır, eyni zamanda ayrı-ayrı ölkələrdə insanla ətraf mühitin ahəngdarlığına əsaslanan uzunmüddətli iqtisadi, sosial və ekoloji inkişaf strategiyasını nəzərdə tutan bütöv bir konsepsiyadır.

Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatına (FAO) görə, davamlı kənd təsərrüfatı beş prinsipə əsaslanır:

• qida zəncirinin optimallaşdırılması;
• təbii ehtiyatların mühafizəsi və qənaətli istifadəsi;
• əhalinin rifahının və iqtisadi vəziyyətinin yaxşılaşdırılması;
• ekosistemlərin və təbii mühitin davamlılığının təşviq edilməsi;
• hökumətin təşəbbüsləri və normativ aktlara dəstək.

Aqrar sahədə davamlı inkişaf konsepsiyasının reallaşması aşağıdakı vəzifələri daşıyır:

- torpağın münbitliyinin qorunması və ekosistemlərin biomüxtəlifliyinin artırılması;
- ətraf mühitin vəziyyətinin yaxşılaşdırılması, ətraf mühitin çirklənməsinin qarşısının alınması;
- bərpa olunmayan mənbələrin istehlakının azaldılması;
- kənd yerlərinin iqtisadi inkişafının dəstəklənməsi, fermerlərin həyat keyfiyyətinin yaxşılaşdırılması;
- dünya əhalisinin ekoloji bilgilərini və məsuliyyətini artırmaq.

Kənd təsərrüfatının davamlılıq dərəcəsinin müəyyən edilməsi konsepsiyası üç əsas aspektin təhlilinə əsaslanır:

1. Çirklənmənin və bərpa olunmayan resursların istehlakının azaldılması ilə idarəetməyə ekoloji yanaşmanı ifadə edən aqroekoloji aspekt;
2. Planetin əhalisinin kifayət qədər ərzaqla təminatına və məşğulluğun həllinə əsaslanan sosial aspekt.
3. Aqrar müəssisələrin effektiv, səmərəli və gəlirli fəaliyyətini dəstəkləyən iqtisadi aspekt.

Bu üç göstərici və onların nəticələri bir-biri ilə sıx bağlıdır. Məsələn, davamlı kənd təsərrüfatında müəyyən bir sahədə gübrələrin tətbiqinin azaldılması kənd təsərrüfatı istehsalçıları üçün resurslara qənaətə səbəb olur (iqtisadi aspekt) və təbiətin qorunmasına (ekoloji aspekt) töhfə verir.

Davamlı əkinçilik təcrübələrinə gübrə əvəzinə azot fiksasiya edən bitkilərin, sərt pestisidlərin əvəzinə isə tarla zərərvericilərinin təbii düşmənlərinin istifadə edilməsi daxildir . Davamlı əkinçilikdə aşağıda təsvir edilən üsullardan istifadə edir.

1. Növbəli əkinçiliyin tətbiqinin faydaları:

- Sahədə əkinlərin növbəli şəkildə aparılması torpağın qorunmasına və ətraf mühitin davamlılığına kömək edir. Yəni müxtəlif bitkilərin kök sistemləri fərqli olduğundan torpağın sıxılmasını minimuma endirir, münbitliyi qoruyur.
- azot fiksasiya edən bitkilərin istifadəsi ilə torpağı azotla doyurur;
- müəyyən növ məhsullara hücum edən zərərvericilərə qarşı mübarizədə kömək edir;
- torpağın tükənməsinin qarşısını alır:
- kənd təsərrüfatı risklərini azaldır;
- aqrokimyəvi maddələrin əsassız istifadəsinin qarşısını almağa kömək edir;
- üzvi maddələrin tədarükünü təmin edir və torpaq mikroorqanizmlərinin fəaliyyətini stimullaşdırır.

2. Davamlı Kənd Təsərrüfatında Suvarma

Kənd təsərrüfatı böyük miqdarda su və enerji resursları tələb edən suvarmadan asılıdır. Davamlı inkişaf bitkilərin nəm ehtiyaclarını ödəmək üçün su və enerji istehlakını optimallaşdırmaq məqsədi daşıyır. Davamlı kənd təsərrüfatı daha az su istifadə edən məhsul növlərini yetişdirməklə və ağıllı suvarma üsullarından istifadə etməklə su və enerji resurslarından istifadəni optimallaşdırır. Xüsusilə, damcı suvarma üsulu selləmə suvarma ilə müqayisədə 20-40% az su tələb edir və eyni zamanda

məhsuldarlığı 20-50% artırmağa imkan verir.

3. Davamlı Kənd Təsərrüfatında təbii bitki örtükləri

Mövsümdənkənar dövrlərdə örtük bitkilərindən istifadə torpaq sahələrini eroziyasından qorumağa kömək edir. Bu həmçinin örtük bitkilərindən istifadə edərkən üzvi maddələrin yığılmasına kömək edir ki, bu da gübrələrin alınması xərclərini azaldır. Bundan əlavə, belə bitkilər alaq otlarının böyüməsinin qarşısını alır və torpağı nəm saxlayır. Çiçəkli örtük bitkiləri arıları və digər tozlandırıcıları cəlb edir [13].

Ekoloji kənd təsərrüfatının əsas məqsədi yüksək qidalılığa malik olan ərzaq məhsullarının istehsalı, əkinçilik sistemində bioloji tsiklin möhkəmləndirilməsi, kənd təsərrüfatının spesifik xüsusiyyətlərini nəzərə almaqla genetik müxtəlifliyin, torpağın münbitliyinin qorunması, kənd təsərrüfatı istehsalında, emal, nəqliyyat və digər xidmət sahələrində ətraf mühitin çirkləndirilməsinin qarşısının alınması, suvarmada selləmə üsulunun mütərəqqi (damcı, yağış) üsullarla əvəzlənməsi və s. hesab edilir.

Kənd təsərrüfatının ətraf mühitə neqativ təsirlərinin minimuma endirilməsi istiqamətlərindən biri də bu sahədə formalaşan tullantıların düzgün və səmərəli idarə olunmasıdır. Dünyada kənd təsərrüfatında formalaşan tullantılardan istilik və ya elektrik enerjisi əldə olunması təcrübəsi geniş yayılmışdır. Heyvan mənşəli kənd təsərrüfatı tullantılarından, daha dəqiq desək heyvanların biokütləsindən bioqaz əldə olunur ki, onun da təxminən 60%-dək hissəsi metan qazından ibarət olur. Bu metan qazından məişətdə istifadə etmək və ya ondan elektrik və istilik enerjisi istehsal etmək mümkündür. Bitki mənşəli kənd təsərrüfatı tullantıları isə yığılaraq onlardan xüsusi qurğularda briketlər və pelletlər hazırlanır. Bu pelletlərin bir qismindən heyvandarlıqda yem kimi istifadə olunur. Qurudulan oduncaqlar isə nisbətən bircins yanacağa çevrildiyindən onların yanma istiliyi yüksək və stabil olur. Bu pelletlərin yandırılması zamanı stabil temperatur alındığı üçün yandırılan sobaların texniki xidmət xərcləri də aşağı olur. Eyni zamanda bu yanacaqların kültörətmə qabiliyyəti də aşağıdır. Qeyd edək ki, bioqaz texnologiyası vasitəsi ilə əldə olunan enerji də“yaşıl enerji” hesab olunur.

## Nəticə

Torpaqların deqradasiyasının, şoranlaşması proseslərinin qarşısının alınması məqsədilə dünyanın qabaqcıl texnologiyalarına əsaslanan suötürücü sistemlərin, suvarma sistemlərinin qurulması vacibdir. Bununla həm məhdud olan su ehtiyatlarımıza qənaət etmiş olarıq, eyni zamanda qrunt sularının səviyyəsini qalxmasının qarşısını ala bilərik.

Ölkədə müasir tələblərə cavab verən heyvan kəsimi məntəqələrinin yaradılması bu sahədə formalaşan tullantılardan, heyvanların dərilərindən daha səmərəli istifadəyə imkan yaradacaqdır. Bu gün dünyanın qabaqçıl ölkələrində qurulan heyvan kəsimi məntəqələri sıfr tullantı prinsipi ilə çalışır. Hesab edirik ki, dəri emalı, eləcə də heyvanların kəsimi zamanı yaranan tullantılardan istifadə ilə bağlı qardaş Türkiyənin təcrübəsindən faydalanmaq olar. Nəzərə alsaq ki, son illər diri heyvan idxalımız ilbəil artır və idxal etdiyimiz diri heyvanların böyük əksəriyyəti kəsimə yönəldilir bu istiqamətdə uğurlu nəticələr əldə etmək olar.

Son illərin təcrübəsi göstərir ki, kənd təsərrüfatında müasir texnologiyaların tətbiqi, iqlimə uyğun kənd təsərrüfatı istehsalı üsullarının genişləndirilməsi istixana qazı emissiyalarını azaltmaqla bərabər, kənd təsərrüfatı məhsuldarlığını da əhəmiyyətli dərəcədə artıra bilər.

## İstifadə olunmuş ədəbiyyat / References

1.Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi. / [Elektron resurs] Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı 16 dekabr 2016 https://president.az/az/articles/view/22110

2. B.X. Ataşov: Aqrar sahədə struktur və səmərəlilik problemləri (nəzəriyyə və praktika) İnnovasiya yönümlü aqrar sahənin inkişafı yolları. Bakı “Kooperasiya” nəşriyyatı, 2017, s. 478

3. Abbasov, V. H. Qida sənayesi sahələrinin inkişaf prioritetləri / V.Abbasov, T.Qorçiyeva // Bakı: Aqrar Tədqiqatlar Mərkəzi Kənd təsərrüfatının iqtisadiyyatı - 2020, № 1 (31) – s.122-131.

4. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı / [Elektron resurs] Azərbaycan Respublikası Prezidentinin rəsmi internet

saytı, 02 fevral 2021-ci il. https://president.az/az/articles/view/50474

6. İbrahimov, İ. H. Aqrar sahənin iqtisadiyyatı / İ.H.İbrahimov. – Bakı: “Printing” Company MMC mətbəəsi, - 2016. – s. 655

7. Quliyev, E. A. Aqrar iqtisadiyyat / E.A.Quliyev. Bakı: “Kooperasiya” nəşriyyatı, - 2015. – s. 320.

8. Nuriyev, Ə. X. Davamlı və tarazlı regional inkişaf / Ə.X.Nuriyev. - Bakı: Avropa. – 2017. – 242 s.

10. Остатки пестицидов в продуктах питания / [электронный ресурс] Сайт Всемирной Организации Здравоохранения, опубликовано 15 сентября 2022 г.
https://www.who.int/ru/news-room/fact-sheets/detail/pesticide-residues-in-food

11. Европейские чемпионы по пестицидам / [электронный ресурс] Сайт Евроньюса, опубликовано 15/10/2018
https://ru.euronews.com/2018/10/15/eurostat-pesticides-ru

12. Светлана Даренских: Мировой рынок пестицидов: какие сюрпризы готовит Китай? / [электронный ресурс] Электронные ресурсы ГлавАграрРус 10.11.2023
https://glavagronom.ru/articles/mirovoy-rynok-pesticidov-kakie-syurprizy-gotovit-kitay

13. Научный сотрудник EOSDA проф. Петр Когут: Устойчивое Сельское Хозяйство На Практике / [электронный ресурс] 27.12.2024 EOS Data Analytics, Inc. https://eos.com/ru/blog/ustojchivoe-selskoe-khozyajstvo/#

# Вопросы минимизации экологического ущерба сельскохозяйственного производства

**Фамиль Рустамов**
Заведующий отделом
«Экономические проблемы аграрного сектора» Института
Экономики Министерства Науки и Образования
Азербайджанской Республики,
к.э.н., доцент
familrustamov456@gmail.com
**Лейла Исаева**
старший научный сотрудник отдела
«Экономические проблемы аграрного сектора»
Института Экономики Министерства Науки и Образования Азербайджанской
Республики
l.isayeva_84@mail.ru

**Резюме:** В современном мире динамичное развитие сельского хозяйства и агропереработки сопровождается появлением экологических рисков. По этой причине существует необходимость развития «зеленого» сельского хозяйства. В нынешних экономических условиях Азербайджана переход на возобновляемую энергетику и решение проблем, связанных с «зеленой» трансформацией аграрного сектора, становятся все более актуальными и требуют формирования новых экономических принципов. Данная статья посвящена оценке экологических рисков и разработке направлений их предотвращения и минимизации.

Сделан вывод, что реализация экологической стратегии сельскохозяйственных субъектов Азербайджана при переходе на возобновляемые источники энергии является одним из наиболее перспективных направлений развития. В ходе исследования одним из основных принципов считалась необходимость учета региональных особенностей окружающей среды и оценки вероятности возникновения экологических опасностей.

**Ключевые слова:** «Зеленое» сельское хозяйство, экология, окружающая среда, экологический баланс, природные ресурсы, бытовые отходы.

DOI: https://doi.org/10.36719/2707-9317/04/62-71

# The impact of global crises on the opportunities for foreign economic relations of small and medium-sized enterprises

**Tariyel Gurbanov**
MSE RA İnstitute of Economics, leading researcher, PhD, associate professor
E-mail: tariyel188@mail.ru
**Nurane Babazadeh**
Baku Business University
Master student
babazadenurane57@gmail.com
**Fariz Muradov**
Baku Business University
Master student
farizmuradov1@gmail.com

**Abstract:** In this study, we will analyze the extent to which global crises have affected small and medium-sized enterprises (SMEs) in Azerbaijan and their foreign economic relations, and the sensitivity of the SME environment to such situations based on statistics from past global crisis periods in recent years. The main goal is to systematically study the work of SME enterprises during the global crisis, to study how to deal with obstacles, to identify ways to have a more sustainable business model and strengthen foreign trade opportunities.

**Key words:** SMEs, enterprise, foreign trade, global crisis, statistics, COVID-19, innovation, sustainability

**JEL D22 UDC 334**

# Qlobal böhranların kiçik və orta sahibkarlıq müəssisələrinin xarici iqtisadi əlaqə imkanlarına təsiri

**Tariyel Qurbanov**
AR ETN İqtisadiyyat İnstitutu, aparıcı elmi işçi, i.f.d., dosent
E-mail: tariyel188@mail.ru
**Nuranə Babazadə**
Bakı Biznes Universiteti
Magistrant
babazadenurane57@gmail.com
**Fariz Muradov**
Bakı Biznes Universiteti
Magistrant
farizmuradov1@gmail.com

**Xülasə:** Bu tədqiqatda qlobal böhranların Azərbaycanda mövcud olan kiçik və orta sahibkarlıq (KOS) müəssisələrinə və onların xarici iqtisadi əlaqələrinə nə dərəcədə təsir etdiyini və KOS mühitinin belə vəziyyətlərə qarşı həssaslığını son illərin keçmiş qlobal böhran dövrlərinin statistikasına görə təhlil edəcəyik. Əsas məqsəd KOS müəssisələrinin qlobal böhran dövründəki işini sistematik şəkildə araşdırma, maneələrlə mübarizə aparmaq şəklini tədqiq etmək, daha dayanıqlı iş modelinə sahib olmasının və xarici ticarət imkanlarının möhkəmləndirilməsinin yollarını müəyyən etməkdir.

**Açar sözlər:** KOS, müəssisə, xarici ticarət, qlobal böhran, statistika, COVİD-19, innovasiya, dayanıqlılıq

**JEL D22 UDC 334**

## Giriş/İntroduction

Qlobal böhranlar dünya iqtisadiyyatını dərin təsirlərə məruz qoyan, ölkələr arasında iqtisadi əlaqələrin zəifləməsinə və ticarət axınlarının pozulmasına səbəb olan proseslərdir. Bu böhranlar müxtəlif sahələrdə baş verə bilər və geniş yayılmış nəticələri ehtiva edir, milli sərhədləri aşaraq ölkələr arasındakı qarşılıqlı iqtisadi və sosial əlaqələr səbəbilə qlobal təsir gücünə malikdir. Təbii ki, böhranlar yalnız iri iqtisadiyyatları deyil, eyni zamanda kiçik və orta sahibkarlıq müəssisələrinə də ciddi şəkildə təsir edir. KOS müəssisələri iqtisadiyyatın mühüm bir hissəsini təşkil etsə də, qlobal böhranlar zamanı xarici iqtisadi əlaqələrini genişləndirmək və qorumaq sahəsində çətinliklərlə qarşılaşırlar.

Qlobal iqtisadi böhranların artan təsirləri müasir dünyada beynəlxalq iqtisadi asılılığı və beynəlxalq standartları əhatə edən ticarət şəbəkələrinin inkişafı və genişlənməsi ilə daha da güclənir. Böhranlar beynəlxalq ticarətə, maliyyə sistemlərinə və sosial sabitliyə zərbə vuraraq uzunmüddətli təsirlərə səbəb olur. Bu təsirlər müxtəlif istiqamətlərdə özünü göstərir və milli iqtisadiyyatlara, müəssisələrə və fərdlərə ciddi təsir göstərir.

Kiçik və orta sahibkarlıq hər bir ölkənin iqtisadi inkişafında vacib rol oynayır. KOS-lar həm iqtisadiyyata çeviklik qazandırır, həm də məşğulluğun artırılması, innovasiyaların dəstəklənməsi və milli gəlirin yüksəlməsinə əhəmiyyətli təsir göstərir.

Xarici iqtisadi əlaqələr kiçik və orta sahibkarlığın böyüməsində və dayanıqlı və davamlı inkişafında mühüm rol oynayır. Qlobal bazarlara inteqrasiya etməklə, kiçik və orta sahibkarlıq subyektlərinin yeni icmalara, imkanlara çıxışını əldə edir, rəqabət qabiliyyətini artırır və innovasiya və inkişaf üçün yollar açır.

## Əsas hissə/Main part

"Mən Baş Assambleyada çıxış etdim və aramızda "dörd atlı" müəyyən etdim - ümumi gələcəyimizi təhlükə altına qoyan dörd təhlükə. Birincisi, son illərdə ən yüksək qlobal geo-strateji

gərginlik. İkincisi, ekzissential iqlim böhranı. Üçüncüsü, dərin və artan qlobal inamsızlıq. Dördüncüsü, rəqəmsal dünyanın qaranlıq tərəfi. Ancaq beşinci atlı kölgədə gizlənirdi. Yanvar ayından bəri, COVID-19 pandemiyası bütün dünyaya yayıldı - digər dörd atlıya qoşuldu və hər birinin qəzəbini artırdı." (BMT-nin Baş katibi Antonio Quterreş, Baş Assambleyaya müraciət, Nyu-York, sentyabr 2020)

BMT-nin Baş Katibi Antonio Quterreş qeyd edir ki, biz yalnız iqtisadi və maliyyə böhranları ilə deyil, həm də dünyanın üzləşdiyi digər dörd böyük təhlükə ilə qarşı-qarşıya qalırıq. Qeyd olunan faktorların bir çoxu insanlarla birbaşa əlaqəlidir. Bəzi faktorlarda insan amili ilə formalaşmır; geostrateji gərginliklər, ekzistensial iqlim böhranı və s. Ancaq dünyada varlığını davam etdirən insanlarda həm bu dünyanın gözəlləşməsini, həm də onun məhv olmasını gerçəkləşdirə biləcək güc və təsir mövcuddur. Dərin qlobal inamsızlıq və rəqəmsal dünyanın qaranlıq tərəfi - hər biri özlüyündə qlobal iqtisadiyyata və KOS-ların xarici iqtisadi əlaqələrinə ciddi təsir göstərir.

COVID-19 pandemiyasının dünya miqyasında meydana gəlməsi, bu dörd əsas təhdidi daha da gücləndirərək KOS-ların xarici ticarət və beynəlxalq əməkdaşlıq imkanlarını daha da sərhədləndirdi. KOS-lar, iqtisadi fəaliyyətlərini irəlilədə bilmələri üçün bu maneələri qarşı necə mübarizə aparmaq və xarici bazarlara çıxışlarını necə səmərəli təmin etmək barədə yeni strateji yanaşmalar inkişaf etdirməli olduqlarını dərk edirlər.

Bu yanaşma qlobal böhranların KOS-lara təsirini və bu təsirlərlə mübarizə yolları araşdırmamızın mövzusuna uyğun gəlir. Beləliklə, BMT Baş Katibinin çıxışı, həmçinin COVID-19 pandemiyasının qlobal iqtisadiyyata təsirini, eyni zamanda kiçik və orta sahibkarlıq müəssisələrinin üzləşdiyi çətinlikləri daha geniş bir çərçivədə təhlil etməyə imkan verir.

Böhranlar səbəblərinə və təsirlərinə əsasən müxtəlif növlərə bölünə bilər. Aşağıda qlobal böhranların əsas növləri qeyd edilib:

- İqtisadi böhranlar
- Maliyyə böhranları
- Siyasi böhranlar
- Sosial böhranlar
- Texnoloji böhranlar
- Ətraf mühit böhranları
- Sağlamlıq böhranları

**1. İqtisadi böhranlar**

İqtisadi böhranlar, qlobal və ya regional iqtisadiyyatın ani və ciddi azalma yaşaması nəticəsində geniş maliyyə qeyri-sabitliyi yaranan vəziyyətləri ifadə edir. Bu böhranlar resessiyalar, depressiyalar və ya maliyyə çöküşləri formasında özünü göstərə bilər. Əsas səbəblər arasında bazar çöküşləri, davamlı olmayan borclar və maliyyə sektorunun çöküşləri yer alır. 1926-1928-ci illərdə ABŞ iqtisadiyyatı inkişaf dövrünü yaşadı. İstehsalın artması və maliyyə göstəricilərinin yaxşılaşması, birja səhmlərinin qiymətlərinin yüksəlməsinə səbəb olmuşdu. 1929-cu ilin 1 oktyabrında buraxılan qiymətli kağızların ümumi dəyəri 87 milyard dollar təşkil edirdi. İqtisadiyyatın gücünü göstərən bir digər fakt isə 1929-cu ildə avtomobil sənayesinin 5,4 milyon maşın istehsal etməsi idi. Bu iqtisadi çiçəklənmə dövrü "prosperity" (nəzəriyyəsinin yaranmasına gətirib çıxardı, lakin bu nəzəriyyə bir müddət sonra sadəcə bir illüziyaya çevrildi. 1973-cü ildə Yaxın Şərqdəki OPEC (Neft İxrac edən Ölkələr Təşkilatı) ölkələrinin neftin qiymətini kəskin şəkildə artırması, dünya iqtisadiyyatını böyük dərəcədə təsirləndirdi. Bu böhran, neftin qiymətinin artması səbəbindən inflyasiya və iqtisadi tənəzzülə yol açdı.1997-ci ildə Asiya ölkələrində baş verən maliyyə böhranı, xüsusilə Tailand, Koreya, Malayziya və İndoneziya kimi ölkələrdə iqtisadiyyatda ciddi tənəzzülə səbəb oldu. Asiya maliyyə böhranı, valyuta dəyərinin kəskin enməsi, borc yükü və səhmlərin qiymətinin aşağı düşməsi ilə xarakterizə olunurdu. Böhran, qlobal maliyyə sistemini də təhdid etdi

**2. Maliyyə böhranları**

Maliyyə böhranları maliyyə bazarlarında banklar və maliyyə institutlarının iflası, likvidlik çatışmazlığı və ya aktivlərin dəyərinin çökməsi ilə xarakterizə olunur. Bu böhranlar tez-tez ciddi iqtisadi tənəzzüllərə səbəb olur. 1997-ci ildə Asiya ölkələrində baş verən maliyyə böhranı, xüsusilə Tailand, Koreya, Malayziya və İndoneziya kimi ölkələrdə iqtisadiyyatda ciddi tənəzzülə səbəb oldu.

Asiya maliyyə böhranı, valyuta dəyərinin kəskin enməsi, borc yükü və səhmlərin qiymətinin aşağı düşməsi ilə xarakterizə olunurdu. Böhran qlobal maliyyə sistemini də təhdid etdi. 2007-2008-ci illərdə başlayan maliyyə böhranı, ABŞ-da olan ipoteka böhranı ilə əlaqələndirilir və qlobal maliyyə sistemini ciddi şəkildə təhdid etdi. Banklar və maliyyə institutları arasında ciddi likvidlik böhranı yarandı, bir çox böyük maliyyə qurumu iflas etdi. Qlobal bir böhrana çevrilən bu hadisə, dünya üzrə iqtisadi tənəzzülə səbəb oldu, işsizlik artdı və beynəlxalq ticarət azaldı. Həmçinin, bir çox inkişaf etmiş ölkələr iqtisadiyyatlarını stimullaşdırmaq üçün dövlət müdaxiləsi və yardım proqramları tətbiq etdilər.

**"Cahan maliyyə böhranı maliyyə sistemlərinin qlobal miqyasda qarşılıqlı əlaqəsini vurğuladı. Bir ölkədə baş verən siyasət xətaları maliyyə və ticarət əlaqələri vasitəsilə sürətlə digər ölkələrə yayılırdı." ("The Global Financial Crisis: Causes, Consequences, and Policy Responses")**

**Bu cümlə qlobal maliyyə böhranının geniş təsirini izah edir və ölkələrarası iqtisadi əlaqələrin dərinliyini nümayiş etdirir. İqtisadi sabitliyin qorunması üçün qlobal miqyasda koordinasiyalı siyasətlərin əhəmiyyəti də bu kontekstdə vurğulanır.**

**3. Siyasi böhranlar**

Siyasi böhranlar bir ölkənin siyasi sistemindəki əhəmiyyətli qeyri-sabitlikdən yaranır və tez-tez hökumət etibarsızlığı, sosial etirazlar və ya hakimiyyət dəyişiklikləri ilə nəticələnir. Bu böhranlar idarəetmə uğursuzluqlarına, münaqişələrə və sosial pozulmalara səbəb ola bilər. Qlobal siyasi böhranlar yalnız ölkələrin daxili məsələlərini deyil, həm də beynəlxalq əlaqələri və dünya siyasətini dərindən dəyişdirir. Bu böhranlar qlobal güclərin bir-biri ilə münasibətlərini, iqtisadiyyatlarını və sosial strukturlarını təsir edərək bəzən dünya sülhünə ciddi təhdidlər yaradır. Hər bir siyasi böhran, ölkələrin daxili idarəetmə sistemlərini və xarici siyasət strategiyalarını yenidən gözdən keçirmələrini məcbur edir, həmçinin uzunmüddətli təsirlər yarada bilər.

İkinci Dünya Müharibəsi (1939-1945) qlobal siyasi böhranların ən böyük nümunəsidir. Müharibə faşizmə qarşı mübarizə aparan müttəfiq ölkələr ilə faşist Almaniyası, İtaliya və Yaponiya arasında baş verdi. Bu müharibə, yalnız Avropa və Asiya qitələrində deyil, bütün dünyada siyasi və sosial düzəni dəyişdi. Müharibənin sonunda Birləşmiş Millətlər Təşkilatının yaradılması və yeni güc nisbətlərinin formalaşması, dünya siyasətində yeni bir dövrün başlanğıcını qoydu.

Ərəb Baharı (2010-2012-ci illər) 2010-cu ildə Tunisdə başlayan və daha sonra digər Yaxın Şərq və Şimali Afrika ölkələrinə yayılan bir siyasi hərəkatdır. Əhali sosial və iqtisadi ədalətsizliyə qarşı çıxaraq etiraz etdi, nəticədə bəzi ölkələrdə rejim dəyişiklikləri və ya siyasi inqilablar baş verdi. Misir, Tunis və Liviyada rejim dəyişiklikləri baş verdi, lakin bəzi ölkələrdə, məsələn, Suriya və Yəməndə bu hərəkatlar vətəndaş müharibələrinə çevrildi. Ərəb Baharı Yaxın Şərqdəki siyasi qeyri-sabitliyi daha da dərinləşdirdi.

**4. Ətraf mühit böhranları**

Ətraf mühit böhranları təbii fəlakətlər və ya insanın yaratdığı iqlim dəyişikliyi nəticəsində meydana gələn qlobal hadisələri əhatə edir. Bu böhranlar ekosistemlərə, bioloji müxtəlifliyin itirilməsinə, iqtisadiyyatlara və cəmiyyətlərə geniş təsirlər göstərir. Bu böhranın fəsadlarına iqlim dəyişikliyi, təbiətə ziyan vurulması, bioloji müxtəlifliyin azalması, çirklənmə, resursların tükənməsi, okeanların çirklənməsi, plastik zəhərlənmə və digərlərini aid etmək olar.

Ətraf mühit böhranları qlobal miqyasda ciddi təhdidlər yaradır və bu problemlərin həlli üçün beynəlxalq əməkdaşlıq və fərdi səylər tələb olunur. İqlim dəyişikliyi ilə mübarizə, bioloji müxtəlifliyin qorunması və çirklənmənin azaldılması kimi məsələlər, yalnız dövlətlərin deyil, bütün cəmiyyətin məsuliyyətidir. Ətraf mühitin qorunması və davamlı inkişaf üçün daha sərt qaydalar və təhsil proqramları həyata keçirilməlidir.

**5. Sağlamlıq böhranları**

Sağlamlıq böhranları xəstəliklərin və ya pandemiyaların qlobal yayılması ilə yaranır və ictimai sağlamlığa ciddi təhlükə yaradır, iqtisadi və sosial sistemləri pozur. Bu böhranlar səhiyyə sistemlərini yükləyir və cəmiyyətin müxtəlif sahələrini təsir edir.

COVID-19 pandemiyası, son illərdə baş verən ən böyük və ən təsirli sağlamlıq böhranıdır. 2019-cu ilin sonlarında Çində başlayan bu virus, qısa müddət ərzində qlobal miqyasda yayıldı və

BMT-nin Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) pandemiya elan etməsi ilə nəticələndi. Bu pandemiya, dünya iqtisadiyyatını, səhiyyə sistemlərini və sosial həyat tərzini ciddi şəkildə təsirləndirdi.

HIV (Human Immunodeficiency Virus) və QİÇS (Qazanılmış İmmun Çatışmazlığı Sindromu) epidemiyası, 1980-ci illərdən başlayaraq dünyada ciddi sağlamlıq böhranına çevrilmişdir. Bu xəstəlik insanların immun sistemini zəiflədir və infeksiyalara qarşı bədənin müqavimətini azaldır.

Təbii və süni epidemiyalar (Səhra Əzabları, qızılca, qızdırmalar), sağlamlıq böhranları, təkcə insanları deyil, eyni zamanda ölkələrin iqtisadiyyatlarını, sosial strukturlarını və beynəlxalq münasibətlərinə də təsir edir. Bu böhranların qarşısını almaq və ya təsirlərini minimuma endirmək üçün sağlamlıq sistemlərinin gücləndirilməsi, təbii və süni epidemiyaların idarə edilməsi, təmiz hava və su mənbələrinin qorunması, habelə psixi sağlamlığın təşviqi kimi sahələrdə beynəlxalq əməkdaşlıq və milli səylər tələb olunur. Qlobal sağlamlıq təhlükəsizlik məsələləri, hər bir cəmiyyətin gələcəyini müəyyən edən əsas faktorlardan biridir.

**6. Sosial böhranlar**

Sosial böhranlar iqtisadi tənəzzüllər, siyasi qeyri-sabitlik və ya ətraf mühit fəlakətləri səbəbindən kütləvi yoxsulluq, bərabərsizlik və miqrasiya kimi geniş yayılmış cəmiyyət məsələlərini əhatə edir. Qlobal miqrasiya böhranı-Suriya və digər bölgələrdə baş verən münaqişələr nəticəsində yaranan qaçqın böhranı, sosial ədalətsizlik, əmək və yoxsulluq böhranları, miqrasiya böhranları və bu kimi sosial tarazlığı pozan hallar nəticəsində baş vermiş böhranlar sosial böhranlar sırasındadır.

**7. Texnoloji böhranlar**

Texnoloji böhranlar kritik texnoloji infrastrukturun çöküşü və ya yeni texnologiyaların icazəsiz şəkildə istifadəsi ilə yaranan, gözlənilməyən mənfi nəticələrə səbəb olan hadisələrdir. Kiberhücumlar və ya rəqəmsal sistemlərin çökməsi bu hadisələrə misal ola bilər.

1. Kiberhücumlar və Kiber Cinayətkarlıq
   2017-ci ildəki "WannaCry" şifrələmə virusu, dünya üzrə minlərlə təşkilata təsir etdi və böyük maliyyə zərərlərinə yol açdı. Kiberhücumlar, həmçinin dövlətlər arasında informasiya müharibələrinin və siyasi manipulyasiyaların da əsas vasitəsi ola bilər.
2. Böyük Məlumatların İstifadəsi və Məlumat Təhlükəsizliyi
   2018-ci ildəki "Cambridge Analytica" qalmaqalı, sosial media platformalarından istifadə edərək seçki manipulyasiyaları həyata keçirilməsi məsələsini gündəmə gətirdi.
3. Texnoloji Səhvlər və Sistem Çöküşləri

2000-ci ildəki "Y2K problemi" (müxtəlif sistemlərin tarixləri idarə etməkdə çətinlik çəkməsi) və 2010-cu ildəki BP-nin dənizdəki neft sızıntısı, texnoloji infrastrukturun zədələnməsi və təbii resursların böyük miqdarda zədələnməsi ilə nəticələndi. Bu cür böhranlar həm iqtisadi, həm də ətraf mühitə ciddi təsir göstərir. Hər biri fərqli olsa da, bu qlobal böhranlar bir-biri ilə əlaqələndirilə və bir-birini gücləndirə bilər, nəticədə mürəkkəb qlobal problemlər yaradır. Bu böhranların uzunmüddətli qlobal sabitliyə təsiri, millətlərin və beynəlxalq institutların bu böhranları idarə etmə bacarığından asılıdır.

Böhranların xarici iqtisadi əlaqələrə təsiri müxtəlif aspektlərdə özünü göstərir və bu təsirlər, ölkələrin beynəlxalq ticarət əlaqələrini, maliyyə bazarlarını, investisiyaları və qlobal əməkdaşlıq səviyyəsini əhəmiyyətli dərəcədə dəyişə bilər. Böhranların xarici iqtisadi əlaqələrə necə təsir etdiyinə dair əsas amillər aşağıdakılardır:

1. Ticarətlə bağlı dəyişikliklər

Böhran dövrlərində ticarət əlaqələri zəifləyə bilər, çünki iqtisadi çətinliklər ölkələri xarici bazarlarda məhsul və xidmət ticarətini azaltmağa məcbur edir. Belə ki, iqtisadi böhranlar nəticəsində istehsalın azalması, ixracın və idxalın həcminin düşməsi mümkündür. Məsələn, 2008-ci il maliyyə böhranı, dünya ticarətini xeyli azaltdı və bir çox ölkənin xarici ticarət əlaqələrinə mənfi təsir etdi.

2. İnvestisiyaların azalması

Böhran dövründə investorlar riskdən qaçaraq daha stabil bazarlara yönəlir. Bu zaman xarici birbaşa investisiyalar (FDI-Foreign Direct Investment) azalır. Məsələn, qeyri-stabil iqtisadiyyat və kredit şərtlərinin sərtləşməsi investisiyaların daha çox daxili bazarlara yönəlməsinə səbəb olur. Bu, xüsusilə inkişaf etməkdə olan ölkələrdə iqtisadi inkişafın ləngiməsinə yol açır.

3. Maliyyə və valyuta bazarında gərginliklər

Böhranlar beynəlxalq maliyyə bazarlarında olan stabil vəziyyəti daha da gərginləşdirib maliyyə sistemində iqtisadi sarsıntılar yaradır. Böhranın təsiri ilə valyuta dəyişiklikləri yaranır. Bu proses həm daxili, həm xarici əlaqələrə mənfi təsir göstərir və maliyyə əlaqələrini zəiflədir.

4. Beynəlxalq əməkdaşlıq və təşkilatlara təsir

Böhranlar beynəlxalq təşkilatlarla olan əməkdaşlıq səviyyəsini də dəyişə bilər. Bu dövrlərdə ölkələr beynəlxalq qurumların köməyinə ehtiyac duyur, lakin eyni zamanda bu təşkilatların fəaliyyətlərinə qarşı etimad da azalır. Qlobal miqyasda siyasi və iqtisadi vəziyyətin qeyri-sabit olması, beynəlxalq əməkdaşlığı çətinləşdirərək qlobal iqtisadi inkişafı ləngidə bilər.

5. Qlobal təchizat zəncirində pozulmalar

Böhranlar təchizat zəncirlərini pozaraq məhsul istehsalını və distribusiyasını çətinləşdirə bilər. Məsələn, COVID-19 pandemiyası, qlobal təchizat zəncirlərində ciddi pozuntulara yol açdı, bu da ölkələr arasındakı iqtisadi əlaqələrə təsir etdi. Böhran nəticəsində məhsul istehsalı azaldı və idxal-ixrac həcmi düşdü.

6. Gömrük və ticarət siyasətləri

Böhranlar dövründə ölkələr daxili iqtisadiyyatlarını qorumaq məqsədilə ticarət siyasətində dəyişikliklərə gedə bilərlər. Proteksionist siyasətlər, gömrük rüsumlarını artırmaq və idxalı məhdudlaşdırmaq kimi tədbirləri əhatə edir, bu da beynəlxalq ticarətə maneə törədərək ölkələr arasındakı iqtisadi əlaqələri zəiflədir.

7. Sosial və iqtisadi bərabərsizliklər

Böhranlar qlobal sosial-iqtisadi bərabərsizliyi artırır. Xüsusilə inkişaf etməkdə olan ölkələr, böhranın təsiri ilə daha çox əzab çəkir və bu da onların xarici iqtisadi əlaqələrinə mənfi təsir edir. Böhranın səbəb olduğu yoxsulluq və işsizlik kimi sosial problemlər, ticarət və beynəlxalq əməkdaşlıqda yeni çətinliklərə yol açır. Böhranlar qlobal iqtisadi əlaqələrin və beynəlxalq münasibətlərin strukturunu dəyişdirə bilər. Bu təsirlər, həm ölkələrin iqtisadi inkişafını, həm də qlobal iqtisadi sabitliyi məhdudlaşdırır.

Böhranlar beynəlxalq ticarət həcminin əhəmiyyətli dərəcədə azalmasına səbəb olur. İqtisadi qeyri-sabitlik və çətinliklər dövründə ölkələr, daxili bazarlarını qorumaq məqsədilə ixrac və idxalı məhdudlaşdırmağa meyillidirlər. Bu vəziyyət, qlobal məhsul və xidmətlərin yayılmasında ciddi çətinliklər yaradır və iqtisadi böhranın dərinləşməsinə təkan verir. Məsələn, 2008-ci il maliyyə böhranı zamanı dünya ticarətində kəskin azalma baş vermiş və bir çox ölkələr iqtisadi tənəzzülə uğramışdır. Bu cür böhranlar ticarət müqavilələrinin, idxal-ixrac siyasətlərinin və beynəlxalq ticarət zəncirlərinin zərər görməsinə səbəb olur.

Böhran dövrlərində valyuta bazarlarında ciddi dalğalanmalar baş verir, bu da beynəlxalq ticarətdə qiymət fərqlərinə və ticarət əməliyyatlarının çətinləşməsinə səbəb olur. İqtisadi qeyri-sabitlik, milli valyutaların devalvasiyasına və qiymətlərin sürətli dəyişməsinə yol açır, bu da xüsusilə kiçik və orta sahibkarlıq (KOS) müəssisələrinin maliyyə proqnozlarını və risk idarəetməsini çətinləşdirir. Valyuta dəyişiklikləri, ixracatçıların məhsullarının beynəlxalq bazarda rəqabət qabiliyyətinə mənfi təsir göstərərkən, idxalçıların isə yüksək valyuta dəyəri səbəbindən xarici məhsullara çıxışını məhdudlaşdırır. Bu çətinliklər ticarət müqavilələrinin icrasını və beynəlxalq ödəniş sistemlərini daha da mürəkkəbləşdirir, nəticədə qlobal ticarət əlaqələri pozulur və beynəlxalq iqtisadi inteqrasiya zəifləyir.

Kiçik və orta sahibkarlıq (KOS) iqtisadiyyatın mühüm tərkib hissəsi olmaqla, bir çox ölkənin iqtisadi inkişafında əsas rol oynayır. KOS-lar, yeni iş yerləri yaradaraq, bazarda rəqabət mühitinin inkişafını təmin edir, innovasiyaların tətbiqini sürətləndirir və iqtisadi sabitlik üçün mühüm töhfələr verir. Onların xarici iqtisadi əlaqələrdə rolu isə daha da önəmlidir, çünki KOS-lar, beynəlxalq bazarlara daxil olaraq yeni bazarlara çıxış, təchizat zəncirlərində iştirak və xarici investisiyalar vasitəsilə iqtisadi böyümə və inkişafı dəstəkləyirlər.

Kiçik və orta sahibkarlığın xüsusiyyətləri olaraq aşağıdakıları qeyd edə bilərik:

1. Dəyişkənlik və çeviklik: KOS-lar, böyük müəssisələrə nisbətən daha çevik və adaptasiya oluna biləndirlər. Onlar bazar şərtlərinə tez uyğunlaşaraq, yeni tələbləri qarşılamağa daha əlverişlidir.

2. Aşağı kapital tələbi: KOS-lar, adətən kiçik başlanğıc kapitalı ilə fəaliyyət göstərir və daha az

maliyyə resurslarına ehtiyac duyurlar. Bu da onları müxtəlif sahələrdə fəaliyyət göstərmək üçün əlverişli edir.

3. İnnovativ və kreativ yanaşma: KOS-lar, yaradıcı və yenilikçi yanaşmalar tətbiq edərək bazarda fərqlənmə şansı əldə edirlər. Bu, xüsusilə məhsul və xidmətlərin fərdiləşdirilməsinə olan ehtiyacı qarşılayır.

4. Əlavə dəyər yaratmaq: Kiçik və orta müəssisələr yerli iqtisadiyyatda yüksək əlavə dəyər yaradır və sosial problemlərin həllinə, xüsusilə də işsizlik və sosial bərabərsizliyin azaldılmasına kömək edir.

KOS-ların xarici iqtisadi əlaqələrdə rolu:

1. İxracat və beynəlxalq bazarlara çıxış: KOS-lar yerli bazarlardan xarici bazarlara doğru inkişaf edərək, yeni müştəri kütlələri ilə əlaqə qururlar. Bu, həm iqtisadi böyümə, həm də xarici ticarət balansının yaxşılaşmasına kömək edir.

2. Beynəlxalq təchizat zəncirlərinə inteqrasiya: Kiçik və orta müəssisələr, beynəlxalq təchizat zəncirlərinin bir hissəsi olaraq, böyük şirkətlərə xidmət və məhsul təchiz edirlər. Bu, KOS-ların beynəlxalq iqtisadiyyatla bağlılığını artırır və onlara əlavə gəlir gətirir.

3. Xarici investisiyalar və əməkdaşlıq: Xarici bazarlarda fəaliyyət göstərən KOS müəssisələri, beynəlxalq sərmayə və investisiya cəlb edərək öz fəaliyyətlərini genişləndirə və yeni texnologiyalar əldə edə bilərlər. Xarici tərəfdaşlarla qurulan əməkdaşlıqlar, KOS müəssisələrinin rəqabət qabiliyyətini artırır.

4. Mədəniyyətlərarası əlaqələr və əlaqə qurma: KOS-lar beynəlxalq əlaqələr qurarkən müxtəlif mədəniyyətlərlə qarşılaşır və bu, onların innovasiya qabiliyyətini artırır. Onlar fərqli bazarlarda fəaliyyət göstərərkən, fərqli istehlakçı davranışlarına uyğun məhsul və xidmətlər təqdim edirlər.

Kiçik və orta sahibkarlığın beynəlxalq əlaqələrdəki rolu, xüsusilə müasir dövrdə iqtisadiyyatın qloballaşması ilə daha da artmışdır. Bu sahibkarlıq növü, iqtisadi böhranın qarşısını almaq və iqtisadiyyatı şaxələndirmək üçün strateji əhəmiyyət kəsb edir.

Pandemiya dövründə qlobal tədarük zənciri dayandı, bu da KOS-ların beynəlxalq ticarətdə böyük itkilər yaşamasına, müəssisə satışlarının və gəlirlərinin azalmasına səbəb oldu. Bir sıra KOS müəssisələrinin illik maliyyə hesabatlarına əsasən bunu deyə bilərik ki, sözügedən pandemiya dövründəki böhran Azərbaycandakı KOS müəssisələrinə də əksər hallarda mənfi təsir göstərmişdir. İdxal-ixrac əməliyyatlarına qoyulmuş məhdudiyyətlər, istehsal prosesinin ləngiməsi, xammal qıtlığının artması, tələbin azalması təbii olaraq bir çox kiçik müəssisələrin fəaliyyətini dayandırmağa məcbur etmişdi. Bu dövrə qatlaşmağı bacaran digər şirkətlərin əksəriyyəti isə böhranın sonlarına doğru əvvəlki nəticələri yenidən əldə etmək imkanına sahib oldu. Belə şirkətlərdən bəziləri nəinki dayanıqlılığı təmin etmiş, hətta bu müddətdən düzgün strateji addımlar sayəsində artım əldə etməyi bacarmışdılar. Belə müəssisələrdən olan Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi (AKİA) tərəfindən 2019-cu ildə kənd təsərrüfatının inkişafı məqsədilə ölkənin 58 rayonunda aqrar sektorda çalışan 723 sahibkara 21167.5 min manat məbləğində güzəştli kreditlər verilmişdir. Güzəştli kreditlərin verilməsi nəticəsində 705 daimi və müvəqqəti iş yeri açılmışdır. Eyni zamanda, kənd təsərrüfatı texnikasının, texnoloji avadanlığın, suvarma sistemləri dəsti və avadanlığının güzəştli şərtlərlə əldə edilməsi üçün 2205 sayda kənd təsərrüfatı subyektinə 32235.2 min manat məbləğində kredit, 59 951 min manat məbləğində subsidiya verilmişdir. (https://akia.gov.az/az/content/38.html )

2020-ci ildə Agentliyin vəsaitindən istifadə üzrə müvəkkil kredit təşkilatları vasitəsilə aqrar sahədə çalışan 4034 hüquqi və fiziki şəxsə 47653,0 min manat məbləğində güzəştli kreditlər verilmiş, o cümlədən 3418 hüquqi və fiziki şəxsə 34426,0 min manat məbləğində təminatlı mikrokreditlər ayrılmışdır. Kreditlər əsasən heyvandarlıq, əkinçilik, bağçılıq, arıçılıq və istixana təsərrüfatlarının inkişafı sahələrinə yönəldilmişdir. (https://akia.gov.az/az/content/39.html)

Digər bir müəssisə, "CTC Holding" ASC-nin 2019-2020 maliyyə hesabatlarına əsasən bu şirkətə pandemiya dövründə gücünü itirməmək üçün debitor borclarını və bunun köməyilə pul vəsaitlərini artırdığını söyləmək mümkündür.




*Mənbə: Verilmiş məlumatlar müəssisənin rəsmi hesabtlarına istinadən müəlliflər tərəfindən hazırlanmışdır.*
*(10. https://ctcholding.az/upload/files/maliyye-hesabati/CTC_AUDIT_Report-2019.pdf)*
*(11. https://ctcholding.az/upload/files/maliyye-hesabati/CTC_Holdinq_AUDIT_Report_2020.pdf)*

Bəhs etdiyimiz müəssisənin növbəti illərdə imkanlarını genişləndirməsi bu müəssisənin debitor borclarını artırarkən bu vəsaitlərdən düzgün istifadə edə bildiyini və uğurlu addım atdığını ifadə edir.

Digər bir müəssisə olan "Azərşəkər MMC"-ə nəzər salaq. Müəssisə qida sektorunda fəaliyyət göstərir və şəkər istehsalı, həmçinin onun ixracı ilə məşğuldur. Qlobal iqtisadi böhran dövründə (məsələn, COVID-19 pandemiyası zamanı) beynəlxalq ticarət əlaqələrindəki məhdudiyyətlər və logistika xərclərinin artması ixrac həcminin azalmasına səbəb oldu. Avropa və MDB ölkələrinə şəkər məhsullarının ixracında gecikmələr və tədarük zəncirində problemlər, xarici valyutada gəlirlərin azalması, manatın məzənnəsinin dəyişkənliyi ilə maliyyə itkiləri müəssisənin xarici iqtisadi əlaqələrini zəiflətdi. Şəkər istehsalında istifadə olunan xammalın (məsələn, şəkər çuğunduru və ya qamışı) qiymət artımları qlobal böhran dövründə şirkətin istehsal xərclərini artırdı.




*Mənbə: Verilmiş məlumatlar rəsmi statistik məlumatlara əsasən müəlliflər tərəfindən hazırlanmışdır.*
https://www.stat.gov.az/source/entrepreneurship/

Yerli bazarda inflyasiya istehsal məhsullarının satış qiymətini də yüksəltdi ki, bu da daxili və xarici tələbatın azalmasına səbəb oldu. Mövcud bazarların itirilməsi ilə "AzərŞəkər" yeni bazarlar axtarmağa məcbur oldu. Asiya və Yaxın Şərq ölkələrinə çıxış kimi təşəbbüslər qlobal böhranın mənfi təsirlərini müəyyən qədər azalda bildi. Müəssisələr, təşkilatlar tez-tez xarici təsirlərə (məsələn, tənzimləyici dəyişikliklərə) qarşı həssasdırlar. PuD OA, Dabisa D.C., və Torga M. (2014) tədqiqatlarında qeyd edildiyi kimi, KOM-lar öz çevikliyini artıraraq və riskləri düzgün

prioritetləşdirərək bu təsirləri azalda bilər. Bundan əlavə, müəssisə bir sıra çıxış yolları tapdı:

Diversifikasiya: Məhsul çeşidinin artırılması və yeni bazarlara çıxış.

Dövlət dəstəyi: Vergi güzəştləri və ixrac təşviqi proqramları vasitəsilə dəstək.

Logistika təkmilləşdirilməsi: Beynəlxalq nəqliyyat xərclərinin optimallaşdırılması üçün rəqəmsal həllərin tətbiqi.

## Nəticə/Conclusion

Verilmiş nümənələrdən və statistik göstəricilərdən belə qənaətə gəlmək olar ki, böhranlardan KOS müəssisələrinin yaxa qurtara bilməsi üçün onlara dövlət tərəfindən verilə bilən təşviqedici "qazanc" növlərindən düzgün formada istifadəsi mütləqdir. Bundan əlavə, alınmış borc vəsaitlərinin planlı işlərə xərclənməsi, yaradıcı və yenilikçi işlərin görülməsi də "böhrandan çıxış qapısının açarı"nı tapmağa yardımçı olan amillərdən bir neçəsidir. Ümumiyyətlə, müəssisənin böhran zamanı çökməməsi üçün bu tip fövqəladə vəziyyətlərin müəssisə tərəfindən öncədən analiz edib hesablanması və baş verəcəyi halda hansı tədbirlərin görülməli olduğu haqqında plan hazırlaması böhrandan qurtulma ehtimalını real olaraq yüksəldir. Bu tip halları öncədən hesablamayan KOS-ların çökməsinin ölkə iqtisadiyyatına potensial mənfi təsirini nəzərə alaraq, dövlətin belə halların üçün xüsusi strateji planlar hazırlaması və ya KOS-lar üçün məsləhət və yardım imkanlarını təmin edən qurum yaradılması həm müəssisələrə, həm də dövlətin iqtisadi sabitliyinin qorunmasına xeyirli ola bilər. Bu məqalədə qlobal böhranların KOS müəssisələrinə təsiri və xarici iqtisadi əlaqələrdə yaranan çətinliklər dərin təhlil edildi. Həmçinin, KOS müəssisələrinin bu çətinlikləri aradan qaldırmaq üçün dövlət dəstəyi, yeniliklər, yaradıcı fəaliyyətlər və strateji yanaşmalara ehtiyac duyduğu vurğulandı. Araşdırma nəticələri KOS müəssisələrinin gələcəkdə daha dayanıqlı və effektiv fəaliyyət göstərməsi üçün tövsiyələr təqdim edir.

## İstifadə olunmuş ədəbiyyat / References

1."The Global Financial Crisis: Causes, Consequences, and Policy Responses" səh 120-153

2."Small Business Management: Launching and Growing Entrepreneurial Ventures" by Justin G. Longenecker et al.Kiçik və orta sahibkarlıq, səh 443-490

3."International Business: Competing in the Global Marketplace" by Charles W. L. Hill, səh 313-327

4."Economic Crises and Global Politics in the 21st Century" by A. Tooze, səh 54-77

5. Küresel Krizlerin KOBİ'lere Etkisi ve Çözüm Önerileri" Yazar: Mehmet Karakaya, səh 140-179

6. "Küreselleşme ve Küçük İşletmeler" Yazar: Ömer Torla, səh 69-88

7. "Mittelstand und Globalisierung" Yazar: Bernd Venohr,Alman KOBİ-lərinin qlobal iqtisadiyyatda rolu

8. "Krisenmanagement im Mittelstand: Strategien für den Umgang mit wirtschaftlichen Herausforderungen",Frank Dornseifer,KOBİ-lərin iqtisadi böhranlara qarşı idarəetmə və uyğunlaşma strategiyaları

9. https://www.stat.gov.az/source/entrepreneurship/

10. https://ctcholding.az/upload/files/maliyye-hesabati/CTC_AUDIT_Report-2019.pdf

11.https://ctcholding.az/upload/files/maliyye-hesabati/CTC_Holdinq_AUDIT_Report_2020.pdf

12. https://akia.gov.az/az/content/39.html

13. https://akia.gov.az/az/content/136.html

14. https://akia.gov.az/az/content/38.html

# Влияние мировых кризисов на возможности внешнеэкономических связей малого и среднего предпринимательства

**Тариел Гурбанов**
МОН АР Институт Экономики
ведущий научный сотрудник, доктор философии, доцент
E-mail: tariyel188@mail.ru
**Нурана Бабазаде**
Бакинский Университет Бизнеса
Магистрант
babazadenurane57@gmail.com
**Фариз Мурадов**
Бакинский Университет Бизнеса
Магистрант
farizmuradov1@gmail.com

**Резюме:** В этом исследовании мы проанализируем, в какой степени глобальные кризисы повлияли на малые и средние предприятия (МСП) в Азербайджане и их внешнеэкономические связи, а также чувствительность среды МСП к таким ситуациям на основе статистики прошлых периодов глобальных кризисов за последние годы. Основная цель систематически изучить работу предприятий МСП во время мирового кризиса, изучить, как справляться с препятствиями, выявить способы иметь более устойчивую бизнес-модель и укреплять возможности внешней торговли.

**Ключевые слова:** МСП, предприятие, внешняя торговля, глобальный кризис, статистика, COVID-19, инновации, устойчивость.

**JEL D22 UDC 334**

DOI: https://doi.org/10.36719/2707-9317/04/72-79

# Application of information and communication technologies in municipal management: The concept of electronic municipality and its scope

**Yunus Sadikhov**
Institute of Economics, leading researcher, Ph.D., associate professor
y.sadikhov@mail.ru
**Gulchin Ibrahimova**
Baku Business University
Master's student
gulchinibrahimova01@gmail.com

**Abstract**: The development of information and communication technologies (ICT) has brought transformative changes to governance structures, particularly in municipal management. The application of ICT enhances transparency, strengthens the relationship between the government and citizens, and ensures faster and more efficient service delivery. This summary highlights the scope of e-municipality implementation, statistical insights, and the results of ICT integration in Azerbaijan's municipal management systems.

**Key words:** Municipality, governance, ICT, electronic services, statistics, integration, innovation, technological development

# Bələdiyyə idarəçiliyində informasiya kommunikasiya texnologiyalarının tətbiqi: Elektron bələdiyyə konsepsiyası və onun əhatə dairəsi

**Yunus Sadıqov**
İqtisadiyyat İnstitutu, aparıcı elmi işçi, i.f.d., dosent
y.sadikhov@mail.ru
**Gülçin İbrahimova**
Bakı Biznes Universiteti
Magistrant
gulchinibrahimova01@gmail.com

**Xülasə:** İnformasiya və kommunikasiya texnologiyalarının (İKT) inkişafı, dövlət və yerli idarəetmə strukturlarının fəaliyyətində böyük dəyişikliklərə səbəb olmuşdur. Xüsusən bələdiyyə idarəçiliyində İKT-nin tətbiqi, dövlətlə vətəndaşlar arasında əlaqələrin gücləndirilməsi, idarəetmənin şəffaflaşdırılması və xidmətlərin daha sürətli və effektiv təqdim edilməsi üçün vacibdir. Bu məqalədə, elektron bələdiyyə konsepsiyasının tətbiqi və onun əhatə dairəsi, bu sahədəki statistik məlumatlar və Azərbaycanın bələdiyyələrində İKT-nin tətbiqinin nəticələri müzakirə olunacaqdır.

**Açar sözlər:** Bələdiyyə, idarəçilik, İKT, elektron xidmətlər, statistika, inteqrasiya, innovasiya, texnoloji inkişaf

## Giriş

Bələdiyyələr, yerli idarəetmənin əsas elementlərindən biri olaraq, ölkələrdə müxtəlif dövlət funksiyalarını yerinə yetirən vətəndaşların həyatına birbaşa təsir edən qurumlardır. Bələdiyyələrin iqtisadiyyatı ilə əlaqəli əsas mövzular, onların gəlir mənbələri, xərcləri, iqtisadi funksiyaları və yerli iqtisadiyyatın inkişafına təsirləri ilə əlaqədardır.

Bələdiyyələr yerli iqtisadiyyatda mühüm rol oynayır və onların iqtisadi fəaliyyəti əhalinin rifahına, işsizlik səviyyələrinə və ümumilikdə yerli iqtisadi inkişafın sürətinə əhəmiyyətli təsir göstərir. Bu səbəbdən, bələdiyyə idarəçiliyinin effektivliyi yerli və regional iqtisadiyyatların inkişafını təkmilləşdirən əsas amillərdən biridir.

## Tədqiqat

### Elektron Bələdiyyə Konsepsiyası

Elektron bələdiyyə (e-bələdiyyə) anlayışı, yerli hakimiyyət orqanlarının İKT vasitəsilə idarə olunması, vətəndaşlarla əlaqələrin müasirləşdirilməsi və xidmətlərin optimallaşdırılmasını əhatə edir. Elektron bələdiyyə, həmçinin dövlət xidmətlərinin asan və sürətli əldə olunmasını təmin edən bir sistemdir. Bələdiyyə idarəçiliyində İKT-nin tətbiqi, müasir dövrün tələblərinə cavab verən bir yanaşmadır.

Elektron bələdiyyənin əsas məqsədi, yerli hakimiyyət orqanlarının fəaliyyətini daha şəffaf, sürətli və səmərəli etməkdir. Bununla yanaşı, elektron xidmətlərin təqdim edilməsi, qərarların şəffaf qəbul edilməsi və vətəndaşların mütəmadi olaraq məlumatlandırılması vacib məsələlərdəndir. Elektron bələdiyyə eyni zamanda, yerli əhaliyə müxtəlif xidmətlərin daha əlçatan olmasını təmin edir.

### Elektron Bələdiyyənin Əhatə Dairəsi

Elektron bələdiyyə konsepsiyası bir neçə vacib komponenti əhatə edir:

- **Onlayn Xidmətlər:** Vətəndaşlar onlayn şəkildə bələdiyyə xidmətlərindən yararlanırlar. Bu, sənədlərin alınması, vergilərin ödənilməsi, kommunal xidmətlərin təşkil edilməsi və digər bələdiyyə fəaliyyətlərini əhatə edir. Elektron xidmətlərin təqdim edilməsi, bürokratik maneələri aradan qaldırır və vaxt itkisinin qarşısını alır.
- **Şəffaflıq və Hesabatlılıq:** Elektron bələdiyyə vasitəsilə yerli hakimiyyət orqanları vətəndaşlara daha şəffaf xidmətlər təklif edir. Bələdiyyənin fəaliyyətləri, büdcə hesabatları, tenderlər və digər

vacib məlumatlar onlayn təqdim olunur. Bu, vətəndaşların dövlətin fəaliyyətinə nəzarət etməsinə və müvafiq qərarlar qəbul etməsinə imkan verir.

- **İntellektual İdarəetmə və Məlumatların Təhlili:** İKT-nin tətbiqi ilə bələdiyyələr məlumatları daha sürətlə toplaya, təhlil edə və qərar qəbul etmək üçün istifadə edə bilərlər. Məsələn, sosial xidmətlər, səhiyyə, təhsil və digər sahələr üzrə məlumatların toplanması və təhlil edilməsi, yerli hökumətə daha düzgün və əsaslandırılmış qərarlar qəbul etməyə kömək edir.
- **Vətəndaşların İştirakı:** Elektron bələdiyyə, vətəndaşların yerli idarəetməyə fəal qatılmasını təmin edir. Onlayn platformalar vasitəsilə vətəndaşlar bələdiyyə qərarlarında iştirak edə bilər, təkliflər verə bilər və müvafiq məsələlərlə bağlı şikayətlərini bildirə bilərlər.

**Azərbaycan və Elektron Bələdiyyə**

Azərbaycanda elektron bələdiyyə konsepsiyasının tətbiqi artıq bir neçə ildən bəri həyata keçirilir. 2009-cu ildən başlayaraq, ölkənin bir sıra bələdiyyələrində İKT vasitəsilə xidmətlərin göstərilməsi üçün ilkin addımlar atılmağa başlanıb. Bu günə qədər ölkədə bir neçə elektron xidmət platforması yaradılıb, lakin elektron bələdiyyənin tətbiqi hələ də inkişaf mərhələsindədir.

Azərbaycan Respublikası Prezidenti tərəfindən qəbul edilmiş "Elektron Hökumət" Strategiyası çərçivəsində bələdiyyələr də öz fəaliyyətlərini daha müasir şəkildə təşkil etməyə çalışırlar. Bununla yanaşı, bələdiyyələr elektron xidmətləri daha geniş şəkildə tətbiq etmək və vətəndaşlara daha asan xidmətlər təqdim etmək üçün müvafiq infrastruktur və texnoloji təminatın inkişafına investisiya qoymağa davam edirlər.

**Statistik Məlumatlar və Elektron Xidmətlərin Tətbiqi**

Azərbaycanda elektron bələdiyyə xidmətlərinin təqdim edilməsi ilə bağlı statistik məlumatlar artmağa davam edir. Son illər ərzində, yerli idarəetmələrin elektronlaşması prosesi sürətlənmiş və vətəndaşların elektron xidmətlərdən istifadə səviyyəsi əhəmiyyətli dərəcədə yüksəlmişdir. 2022-ci ilin son statistik məlumatlarına görə, elektron bələdiyyə xidmətlərinin təqdim edilməsinə dair aşağıdakı göstəricilər qeydə alınmışdır:

Bələdiyyə xidmətləri

| Xidmət Növü | 2022-ci ildə istifadəçi faizi |
|---|---|
| **Onlayn Müraciət Sistemi** | **40%** |
| **Elektron Xidmətlərdən İstifadə** | **55%** |
| **Maliyyə və Büdcə Məlumatları** | **70%** |
| **Vətəndaş Məmnuniyyəti** | **75%** |
| **Elektron Xidmətlərin Keyfiyyəti** | **80%** |
| **Əlavə İnkişaf Təklifləri** | **20%** |
| | |

*Mənbə DSK-nin məlumatları əsasında müəllif tərtibatı*

**Onlayn Müraciət Sistemi:** 2022-ci ildə vətəndaşların 40%-i bələdiyyələrə onlayn müraciət etmişdir. Bu müraciətlərin böyük əksəriyyəti kommunal xidmətlər və sənəd təminatı ilə bağlı olub.

- **Elektron Xidmətlərdən İstifadə:** 2023-cü ildə elektron xidmətlərdən istifadə edən vətəndaşların sayı 55%-ə çatmışdır. Bu, əvvəlki illə müqayisədə 12%-lik artım deməkdir.
- **Maliyyə və Büdcə Məlumatları:** 2023-cü ildə bələdiyyələrin büdcə hesabatları və maliyyə məlumatları 70% həcmdə onlayn yayımlanmışdır, bu da şəffaflıq baxımından böyük bir irəliləyişdir.
- **Vətəndaş Məmnuniyyəti:** Elektron xidmətlərdən istifadə edən vətəndaşların 75%-i bu xidmətləri müsbət qiymətləndirib, 20%-i isə əlavə inkişaf və təkmilləşdirmə təklifləri təqdim edib.
- **Elektron Xidmətlərin Keyfiyyəti:** 2022-ci ildə elektron xidmətlərin keyfiyyəti 80% müsbət qiymətləndirilmişdir.

**Elektron Bələdiyyənin Üstünlükləri**

Elektron bələdiyyənin tətbiqi bir çox üstünlüklərə malikdir. Bunlardan bəziləri aşağıdakılardır:

- **Vaxt və Məkan Qənaəti:** Elektron xidmətlər vasitəsilə vətəndaşlar vaxt itirmədən, məkan məhdudiyyəti olmadan bələdiyyə xidmətlərindən yararlana bilirlər.
- **Şəffaflıq:** Bələdiyyələrin fəaliyyətləri daha açıq və şəffaf olur, bu da vətəndaşların etibarını artırır.
- **Effektivlik:** İKT-nin tətbiqi ilə bələdiyyə xidmətləri daha sürətli və səmərəli şəkildə təqdim olunur, bürokratik prosedurların sayı azalır.

**Elektron Bələdiyyənin Qarşısında Dayanan Çağırışlar**

Lakin elektron bələdiyyənin tətbiqi bəzi çətinliklərlə üzləşir:

- **İKT İnfrastrukturunun Yetərsizlikləri:** Bəzi bələdiyyələrdə müasir İKT infrastrukturu yoxdur, bu da elektron xidmətlərin keyfiyyətinə təsir edir.
- **Vətəndaşların Texnoloji Bacarıqları:** Bəzi vətəndaşlar elektron xidmətlərdən istifadə etməkdə çətinlik çəkir, xüsusilə yaşlı vətəndaşlar üçün bu, ciddi problem yaradır.
- **Maliyyə Resursları:** Elektron bələdiyyə sistemlərinin qurulması və davamlılığı üçün yüksək maliyyə vəsaiti tələb olunur.

Elektron bələdiyyə xidmətlərinin xarici təcrübəsi ilə Azərbaycan arasındakı müqayisəsini təqdim edən cədvəl aşağıdakı kimi olacaq. Bu cədvəldə hər bir ölkənin elektron bələdiyyə xidmətləri sahəsindəki vəziyyəti və statistik məlumatlar yer alacaq:

**Beynəlxalq elektron bələdiyyə təcrübələri**

| **Aspektlər** | **Estoniya (Xarici Təcrübə)** | **Böyük Britaniya (Xarici Təcrübə)** | **Azərbaycanda Mövcud Vəziyyət** |
|---|---|---|---|
| **Elektron Bələdiyyə Xidmətlərinin İnkişafı** | Hər bir yerli bələdiyyə üçün tam rəqəmsal xidmətlər mövcuddur, "e-Residency" proqramı ilə xarici vətəndaşlar da xidmətlərdən istifadə edə bilər. | Elektron bələdiyyə xidmətləri əsasən ödənişlər, müraciətlər və vergi ödəmələri üzərində qurulub. | Elektron bələdiyyə xidmətləri azdır, əksəriyyəti mərkəzi hökumətə aiddir. |
| **İnfrastruktur** | X-Road platforması ilə dövlət orqanları arasında məlumat mübadiləsi təmin edilir. | Onlayn ödənişlər, kommunal xidmətlər, vergi ödəmələri kimi fəaliyyətlər rəqəmsallaşdırılıb. | Elektron xidmətlər, əsasən mərkəzi hökumət səviyyəsində mövcuddur. Bələdiyyələrdə rəqəmsal xidmətlər məhduddur. |
| **İnternetə Çıxış və Əhatə** | Yüksək sürətli internet və geniş əhatə; 99% əhali internetə çıxış imkanına sahibdir. | Yüksək sürətli internet yayılması, əhalinin çoxu onlayn xidmətlərdən istifadə edir. | İnternetin əhatəsi şəhərlərdə daha yaxşıdır; kəndlərdə isə zəifdir. |
| **Elektron Xidmətlərə Daxil Olma** | "e-Residency" proqramı ilə xarici vətəndaşlar da yerli bələdiyyə xidmətlərindən istifadə edə bilir. | Onlayn şikayətlər, ödənişlər, vergi məlumatları və digər xidmətlər onlayn təqdim edilir. | Elektron xidmətlər üçün əsasən dövlət portalı istifadə olunur (e-gov.az). |
| **Vətəndaşların Təhsili və Maarifləndirilməsi** | Vətəndaşlar üçün onlayn təlimlər və məlumatlandırma proqramları mövcuddur. | Elektron xidmətlərə aid təlimatlar və kurslar mövcuddur. | Vətəndaşların elektron xidmətlərə dair məlumatlandırılması zəifdir. |
| **Şəffaflıq və Hesabatlılıq** | X-Road platforması ilə bələdiyyə və dövlət xidmətlərinin şəffaflığı təmin edilir, hər hansı bir müraciət izlənilə bilər. | Onlayn şikayət və müraciət sistemləri vasitəsilə şəffaflıq təmin edilir. | Bələdiyyə xidmətlərində şəffaflıq məsələləri hələ tam şəkildə həll olunmayıb. |

| | | | |
|---|---|---|---|
| **Elektron Xidmətlərin Çeşidi** | Elektron identifikasiya, vergi ödəmələri, torpaq idarəetməsi, təhsil və səhiyyə xidmətləri. | Kommunal xidmətlər, vergi ödəmələri, şəhər infrastrukturu ilə bağlı onlayn xidmətlər. | Elektron xidmətlər əsasən vergi və şikayətlər üzrə məhdudlaşdırılıb. |
| **Müraciətlərin və Şikayətlərin İdarə Edilməsi** | Tam rəqəmsal platformalar vasitəsilə müraciətlər və şikayətlər idarə olunur. | Vətəndaşlar onlayn şikayət və müraciətlər göndərə bilirlər, onlara tez cavab verilir. | Şikayət və müraciətlər üçün bəzi elektron sistemlər mövcuddur, amma hələ də qeyri-kafi. |
| **Vətəndaşların Aktivliyi** | Yüksək: Estoniyada əhalinin 80%-i elektron bələdiyyə xidmətlərindən istifadə edir. | Yüksək: Böyük Britaniyada elektron xidmətlərdən istifadə nisbəti 70%-dən yuxarıdır. | Aşağı: Azərbaycanda elektron xidmətlərdən istifadə edən vətəndaş sayı məhduddur (təqribən 20-30%). |

***Mənbə:** Mövzuya aid mənbəələrin sistemləşdirilməsi nəticəsində müəllif tərtibatı*

**Təhlilin Nəticəsi:**

1. **Elektron Bələdiyyə Xidmətləri**: Estoniya və Böyük Britaniya elektron bələdiyyə xidmətlərində çox irəliləmiş ölkələrdir. Estoniyada xidmətlərin rəqəmsal və tam inteqrasiya edilmiş olması, xarici vətəndaşlar üçün də əlçatan olması bu sahədəki müvəffəqiyyəti nümayiş etdirir. Azərbaycanda isə elektron bələdiyyə xidmətləri hələ inkişaf mərhələsindədir və əsasən mərkəzi hökumətə aid xidmətlərə əsaslanır.
2. **İnfrastruktur və İnternet Əhatəsi**: Estoniyada və Böyük Britaniyada internetə çıxışın geniş yayılması və yüksək sürətləri vətəndaşların elektron xidmətlərdən asanlıqla faydalanmasına imkan verir. Azərbaycanda isə internet əhatəsi şəhərlərdə yaxşı olsa da, kənd yerlərində zəifdir və bu da elektron xidmətlərdən istifadəni məhdudlaşdırır.
3. **Şəffaflıq və Hesabatlılıq**: Estoniya və Böyük Britaniyada elektron xidmətlər vasitəsilə şəffaflıq yüksək səviyyədədir. Azərbaycanda isə bələdiyyə xidmətlərinin şəffaflığı hələ də bəzi çətinliklərlə üzləşir.
4. **Vətəndaş Aktivliyi**: Estoniya və Böyük Britaniyada elektron xidmətlərə yüksək dərəcədə müraciət olunur, Azərbaycanda isə vətəndaşların elektron xidmətlərə müraciət etmə nisbəti nisbətən aşağıdır.

Bu cədvəl və təhlil, Azərbaycanda elektron bələdiyyə xidmətlərinin inkişafı üçün xarici təcrübədən hansı sahələrdə faydalana biləcəyini göstərir. Elektron xidmətlərin inkişaf etdirilməsi üçün internet infrastrukturunun yaxşılaşdırılması, şəffaflıq və vətəndaşların məlumatlandırılması məsələlərinə xüsusi diqqət yetirilməlidir.

Elektron bələdiyyə konsepsiyasının geniş şəkildə tətbiqinə əlavə olaraq, bir neçə mühüm sahə və aspektin də nəzərə alınması faydalıdır. Aşağıdakı təkliflər elektron bələdiyyə sistemlərinin daha da inkişaf etdirilməsi və mövcud təcrübələrin gücləndirilməsi məqsədini güdür:

**1. Vətəndaşların Təhsili və İctimaiyyətin Maarifləndirilməsi**

- **Rəqəmsal bacarıqların inkişafı**: Elektron bələdiyyə sistemlərinin geniş tətbiqi üçün vətəndaşların texnoloji biliklərə sahib olması çox vacibdir. Bu, xüsusilə yaşlı insanlar və rəqəmsal texnologiyalarla yeni tanış olanlar üçün əhəmiyyətlidir. Onlara vətəndaşların istifadəsi üçün sadə və anlaşılır təlimatlar təqdim etmək, bələdiyyə xidmətlərinin necə işlədiyini izah edən təlimlər və seminarlar keçirmək, onlayn təhsil platformaları yaratmaq faydalı ola bilər.
- **İctimaiyyətin maarifləndirilməsi**: Vətəndaşlara elektron bələdiyyə xidmətləri haqqında məlumat vermək, bu xidmətlərdən necə istifadə etməyi öyrətmək üçün dövlət tərəfindən kampaniyalar təşkil edilə bilər. Bu, daha çox insanın elektron bələdiyyə sistemlərinə qoşulmasını təmin edər.

**2. İnfrastrukturun Təkmilləşdirilməsi**

- Yüksək sürətli internetin genişlənməsi: Elektron bələdiyyə sistemlərinin effektiv işləməsi üçün sürətli və etibarlı internet bağlantısı vacibdir. Kənd və ucqar ərazilərdə yüksək sürətli internet xidmətlərinin təmin edilməsi və texnoloji infrastrukturun gücləndirilməsi elektron xidmətlərə olan tələbi artıracaq.

- Mərkəzləşdirilmiş verilənlər bazası: Elektron bələdiyyə xidmətlərinin uğurlu həyata keçirilməsi üçün mərkəzləşdirilmiş verilənlər bazasının yaradılması vacibdir. Bu, yerli idarəetmələrin xidmətlərə dair məlumatları və vətəndaşların müraciətlərini daha asan və sürətli şəkildə idarə etməsinə imkan verəcək.

**3. Əlçatanlığın Artırılması**

- Mobil tətbiqlər və əlçatan onlayn platformalar: Elektron bələdiyyə xidmətlərinə daxil olmağı asanlaşdırmaq üçün mobil tətbiqlər yaratmaq və onlayn platformaları əlçatan hala gətirmək vacibdir. Mobil tətbiqlər istifadəçilərə xidmətlərə daha sürətli daxil olmağa və xidmətlərin vəziyyətini izləməyə imkan verir.
- Bütün əhali üçün uyğunlaşdırma: Elektron xidmətlər əlçatan və hər yaş qrupuna uyğun olmalıdır. Bunun üçün xidmətlərin əlilliyi olan insanlar, yaşlı və texnologiyalara az uyğunlaşmış əhali qrupları üçün optimallaşdırılması vacibdir.

**4. Hüquqi Çərçivənin Yaradılması**

- Rəqəmsal hüquqlar və qanunvericilik: Elektron bələdiyyə xidmətlərinin inkişafı ilə yanaşı, rəqəmsal hüquqların qorunması və şəxsi məlumatların təhlükəsizliyi ilə bağlı hüquqi tənzimləmələr vacibdir. Vətəndaşların şəxsi məlumatlarının qorunması üçün yeni qanunların və təlimatların hazırlanması və tətbiq edilməsi mütləqdir.
- Şəffaflıq və hesabatlıq üzrə qanunvericilik: Bələdiyyələrin yerli xidmətlərin şəffaf təqdimatı və müntəzəm hesabat verməsi üçün hüquqi çərçivənin möhkəmləndirilməsi vacibdir. Hesabatlar və fəaliyyət göstəriciləri mütəmadi olaraq elektron platformalarda yayımlanmalıdır.

**5. Əməkdaşlıq və İnteqrasiya**

- Mərkəzi və yerli hökumət arasında əməkdaşlıq: Elektron bələdiyyə xidmətlərinin gücləndirilməsi üçün mərkəzi hökumət və yerli bələdiyyələr arasında əməkdaşlıq vacibdir. İntellektual mülkiyyətin qorunması və bələdiyyə xidmətlərinin daha asan təqdim edilməsi üçün vahid strateji yanaşmalar hazırlanmalıdır.
- Xarici təcrübənin öyrənilməsi və tətbiqi: Elektron bələdiyyə sahəsində qabaqcıl ölkələrin təcrübəsi öyrənilməli və Azərbaycanda tətbiq olunmalıdır. Bu təcrübələr yeni xidmətlərin inkişafında və istifadəçi məmnuniyyətinin artırılmasında faydalı ola bilər. Müxtəlif ölkələrdə tətbiq olunan ən yaxşı təcrübələrdən istifadə etməklə, elektron xidmətlər daha müasir və əlverişli hala gətirilə bilər.

**6. Texnoloji İnkşaf və İnnovasiya**

- Blockchain və digər müasir texnologiyalar: Elektron bələdiyyə sistemlərində daha çox texnoloji inkişaf tətbiq edilə bilər. Məsələn, blockchain texnologiyasının tətbiqi, xidmətlərdə şəffaflığı və etibarlılığı artırmağa kömək edər. Bu texnologiya, yerli hökumətlərin fəaliyyətlərini qeyd etmək, müqavilələri təsdiq etmək və maliyyə əməliyyatlarını izləmək üçün effektiv vasitə ola bilər.
- Yapay zəka və avtomatlaşdırma: Elektron bələdiyyə xidmətlərində yapay zəka və avtomatlaşdırma texnologiyalarından istifadə edilməsi daha sürətli qərarvermə prosesləri, müraciətlərin avtomatik olaraq sıralanması və həll edilməsi kimi imkanlar yaradar. Bu da xidmətlərin sürətini və keyfiyyətini artırar.

**7. Vətəndaş Əlaqələrinin Yaxşılaşdırılması**

- Qarşılıqlı əlaqə və rəy sistemləri: Elektron bələdiyyə platformalarında, vətəndaşların xidmətlər barədə rəy bildirməsi, təkliflər verməsi və şikayətlərini təqdim etməsi üçün imkanlar yaradılmalıdır. Bələdiyyə orqanları müntəzəm olaraq bu rəyləri analiz edərək xidmətləri inkişaf etdirə bilər.
- Vətəndaş məmnuniyyətinin ölçülməsi: Elektron sistemlər vasitəsilə bələdiyyə xidmətləri barədə vətəndaş məmnuniyyəti sorğuları və anketlər keçirilməli, bu məlumatlar qərar qəbul edənlərə xidmətləri optimallaşdırmaq üçün istifadə edilə bilər.

**8. Bələdiyyə Resurslarının İdarə Edilməsi**

- Maliyyə idarəçiliyi: Elektron bələdiyyə sistemləri maliyyə resurslarının daha şəffaf və effektiv idarə edilməsinə imkan verir. Bələdiyyələr büdcə vəsaitlərini daha yaxşı idarə edə, maliyyə hesabatlarını onlayn təqdim edə bilər. Bu, həm də vergi ödəyicilərinin vətəndaşlara olan məsuliyyətini artırır.

- Bələdiyyə işçilərinin rəqəmsal bacarıqları: Elektron bələdiyyə sistemlərinin tətbiqi ilə bağlı yerli idarəetmə işçilərinin rəqəmsal bacarıqlarının artırılması vacibdir. Bu, xidmətlərin keyfiyyətini və sürətini daha da artıracaq.

## Nəticə

Elektron bələdiyyə konsepsiyası, müasir dövrün tələblərinə uyğun olaraq, dövlət xidmətlərinin daha sürətli, şəffaf, effektiv və vətəndaş dostu bir şəkildə təqdim olunmasını təmin edir. Bu yanaşma vətəndaş-mərkəzli idarəetmə modeli yaratmaqla bərabər, resursların optimal istifadəsini və proseslərin avtomatlaşdırılmasını dəstəkləyir. Elektron bələdiyyə, vətəndaşların vaxt və enerji itkisinin qarşısını alaraq, onların müxtəlif xidmətlərdən istənilən vaxt və məkanda yararlanmasına imkan yaradır.Bunun üçün infrastrukturun inkişafı, texnoloji yeniliklərin tətbiqi, hüquqi çərçivənin təkmilləşdirilməsi və vətəndaşların rəqəmsal bacarıqlarının artırılması zəruridir. Həmçinin, təhlükəsizlik sistemlərinin gücləndirilməsi və şəxsi məlumatların qorunması istiqamətində tədbirlərin həyata keçirilməsi elektron bələdiyyənin dayanıqlı fəaliyyət göstərməsi üçün mühüm əhəmiyyət kəsb edir.Elektron bələdiyyə xidmətlərinin təkmilləşdirilməsi və uğurlu tətbiqi, həm yerli idarəetməni effektivləşdirir, həm də vətəndaşların həyatını asanlaşdırır. Bu yanaşma sosial inteqrasiyanı təşviq edərək, vətəndaşlarla hökumət arasında qarşılıqlı inam və əməkdaşlığı gücləndirir. Bununla yanaşı, xərclərin azaldılması, məlumatların dəqiq və vaxtında işlənməsi, bürokratik maneələrin aradan qaldırılması kimi üstünlüklər təmin olunur. Eyni zamanda, elektron bələdiyyə sistemləri ekoloji baxımdan da faydalıdır, çünki kağız istifadəni minimuma endirərək, daha yaşıl və dayanıqlı idarəetmə modelinə dəstək olur. Bu cür sistemlər vasitəsilə şəhərsalma, kommunal xidmətlər və sosial dəstək proqramları daha effektiv idarə edilir, vətəndaşların tələblərinə sürətli cavab verilir.Gələcəkdə elektron bələdiyyə konsepsiyasının daha geniş miqyasda tətbiqi, rəqəmsal texnologiyalarla daha sıx inteqrasiya və vətəndaşların aktiv iştirakı ilə yerli idarəetmə sistemlərini daha modern və səmərəli hala gətirə bilər. Bu, həm də cəmiyyətin ümumi rifahına və davamlı inkişafına töhfə verəcəkdir.

## İstifadə olunmuş ədəbiyyat / References


1. Azərbaycan Respublikası Prezidenti, “Elektron Hökumət” Strategiyası, Bakı, 2014.
2. Mammadov, T. "İnformasiya Kommunikasiya Texnologiyalarının Bələdiyyə İdarəçiliyində Tətbiqi," Azərbaycan Dövlət İqtisad Universiteti, 2019.
3. Əliyev, R. "Elektron Xidmətlər və İKT-nin İdarəetmədə Rolunun Təsiri," Bakı Dövlət Universiteti, 2021.
4. Quliyev, A. "Elektron Bələdiyyə: Konsepsiyası və İcra Prosesi," Dövlət İdarəetmə və Texnologiyalar Jurnalı, 2022.
5. "Bələdiyyə Xidmətlərinin İnkişafı: Elektron Bələdiyyə Modelinin Tətbiqi," Azstat, 2023.
6. Kərimov, A. və Hüseynov, M. "Elektron Bələdiyyə: Tətbiq və Problemlər," Yerli İdarəetmə Dərgisi, 2020.
7. Əliyev, S. (2016). *Yerli İqtisadiyyat və Bələdiyyə İdarəetməsi*. Bakı: Elm və Təhsil Nəşriyyatı.
8. Kasap, K. (2013). *Yerli İqtisadiyyatın İnkişafında Bələdiyyələrin Rolu*. İstanbul: Beta Yayınları.
9. Doğan, F. (2008). *Yerel Yönetimlerin Ekonomik İşlevleri*. Ankara: Seçkin Yayıncılık.
10. İsmayılov, V. (2014). *Bələdiyyələr və Sosial Xidmətlər*. Bakı: Hüquq Nəşriyyatı.

# Применение информационно-коммуникационных технологий в муниципальном управлении: концепция электронного муниципалитета и ее сфера применения

**Юнус Садыгов**
Институт экономики, ведущий научный сотрудник, доцент
y.sadikhov@mail.ru
**Гульчин Ибрагимова**
Бакинский Бизнес Университет
Аспирант
gulkinibrahimova01@gmail.com

**Резюме**: Развитие информационно-коммуникационных технологий (ИКТ) внесло преобразующие изменения в структуры управления, особенно в сфере муниципального управления. Применение ИКТ повышает прозрачность, укрепляет взаимодействие между государством и гражданами и обеспечивает более быстрое и эффективное предоставление услуг. В этом резюме рассматриваются масштабы реализации концепции электронного муниципалитета, статистические данные и результаты интеграции ИКТ в системы муниципального управления Азербайджана.

**Ключевые слова:** Муниципалитет, управление, ИКТ, электронные услуги, статистика, интеграция, инновации, технологическое развитие.

DOI: https://doi.org/10.36719/2707-9317/04/80-91

# Assessment of the impact of the central bank's mega-regulator status on the development of the country's insurance market

**Agha-Karim Hajiyev**
PhD, Chief Researcher
Institute of Economics of the Ministry of Science and Education
of the Republic of Azerbaijan
a.h.haciyev@gmail.com
https://orcid.org/0000-0003-1750-5147

**Abstract:** As the accumulated experience in the world practice of using the mega-regulation model in the financial sector shows, this management structure provides a number of advantages in the realization of control and regulation functions. However, along with this, a number of new problems are formed in the management system, such as conflict of interests, setting of a common (single) priority of development, etc. The article evaluates the effectiveness of the mega-regulation model used in the management of the financial sector of the economy and suggests solutions to a number of problems to improve the management system.

**Key words:** financial sector, mega-regulator, central bank

**UOT: 338.242.4;**
**JEL: G18**

# Mərkəzi bankın meqarequlyator statusunun ölkədə sığorta bazarının inkişafına pozitiv və neqativ təsirləri

**Ağa-Kərim Hacıyev**
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat institutu,
baş elmi işçi, texniki elmlər namizədi, a.h.haciyev@gmail.com
https://orcid.org/0000-0003-1750-5147

**Xülasə:** Dünya ölkələri üzrə son son otuz ilin təcrübəsi göstərir ki, maliyyə sektorunda idarəetmənin prinsipial olaraq yeni struktur üzrə - meqarequlyator modelinin tətbiqi əsasında, reallaşdırılması sektora nəzarət və onun tənzimlənməsində bir sıra üstünlükləri təmin edir. Bununla yanaşı, eyni zamanda, tənzimləmədə bəzi yeni problemlər də formalaşır - sektorda seqmentlər arası maraqların konfliktinin güclənməsi; tənzimləmədə vahid, ümumi prioritetin müəyyənləşməsi və s. Məqalədə ölkə maliyyyə sektorunun idarə olunmasında tətbiq edilən meqarequlyator modelinin səmərəlilik baxımından qiymətləndirilməsi, açıq qalmış və həlli zəruri olan sualların həll istiqamətləri təklif olunur.

**Açar sözlər:** maliyyə sektoru, meqarequlyator, mərkəzi bank

**UOT: 338.242.4;**
**JEL: G18**

## Giriş

2014-2016-cı illər üzrə dünya maliyyə böhranının Azərbaycan iqtisadiyyatına və ilk növbədə, iqtisadiyyatın maliyyə sektoruna, göstərdiyi neqariv təsirlər aydın şəkildə makroiqtisadi tənzimləmədə müvafiq təkmilləşdirmələrin aparılması zəruriliyini müəyyənləşdirdi. Beləki, makroiqtisadi tənzimləmədə ənənəvi olaraq iqtisdi artımın stimullaşdırılması məqsədi ilə prioritet hədəf qismində *yalnız* inflyasiyanın kiçik səviyyəsinin təmin olunması artıq *dayanıqlı maliyyə sabitliyinin* təmin olunması üçün yetərli deyildi. Maliyyə sektorunda dövrü olaraq müşahidə olunan dayanıqsizliq, və iqtisadiyyatda maliyyə sabitliyinin pozulması tənzimləmədə yeni mexanizmlərin tətbiqini zəruriləşdirirdi. Bu səbəbdən də 2016-cı ildən etibarən ölkədə qeyd olunan istiqamətdə ardıcıl və əsaslı islahatlar reallaşdırılmağa başlanıldı. Qeyd olunan islahatların bir istiqamətini də maliyyə sektorunun idarə olunma strukturunun təkmilləşdirilməsi təşkil edirdi və nəticə etibarı ilə 2020-ci ilin əvvəllərindən başlayaraq Azərbaycan Mərkəzi Bankı (AMB) maliyyə sektorunda *meqarequlyator* statusu üzrə fəaliyyət göstərir.

Yeni şəraitdə mərkəzi bankın fəaliyyət hədəfləri sırasında həm qiymətlərin sabitliyinə nəzarət və iqtisadi artıma pozitiv təsirlərin formalaşması baxımından inflyasiya səviyyəsinin tənzimlənməsi; həm də bank və qeyri-bank maliyyə qurumlarına nəzarət, onlar arasında qarşılıqlı əlaqələrin təkmilləşdirilməsi, onlar arasında mümkün ola biləcək neqativ təsirlərin qiymətləndirilərək fəaliyyətlərinin tənzimlənməsi, ölkədə dayanıqlı maliyyə sabitliyinin təmin edilməsi müəyyənləşdi.

Dünya ölkələri üzrə son son otuz ilin təcrübəsi göstərir ki, maliyyə sektorunda idarəetmənin prinsipial olaraq yeni struktur üzrə - meqarequlyator modelinin tətbiqi əsasında, reallaşdırılması sektora nəzarət və onun tənzimlənməsində bir sıra üstünlükləri təmin edir. Bununla yanaşı, eyni zamanda, tənzimləmədə bəzi yeni problemlər də formalaşır - sektorda seqmentlər arası maraqların konfliktinin güclənməsi; tənzimləmədə vahid, ümumi prioritetin müəyyənləşməsi və s. Göstərilən səbəblərin maliyyə sektorunda yaratdığı dəyişikliklər bəzi ölkələri artıq meqarequlyator modelinin istifadəsindən ya imtina etməsinə, yaxud da onun səmərəliliyi üzrə müvafiq araşdırmaların aparılmasına səbəb oldu. Azərbaycanda maliyyə sektorunun idarə olunması üzrə meqarequlyator modelinin tətbiqinin son dörd il ərzində təcrübəsi, əldə edilmiş nəticələr aydın şəkildə yeni strukturun yüksək səmərəliliyini təsdiq edir. Beləki, aparılmış islahatlar hal-hazırda maliyyə sektorunda dayanıqlı sabitliyin təmin olunmasına, sabitliyi poza biləcək mümkün risklərin qabaqcadan müəyyənləşdirilməsinə və onların qarşısının alınmasına, seqmentlər arası əlaqələrdə mövcud

qüsurların müəyyənləşdirilməsinə və onların aradan qaldırılmasına, nəhayət seqmentlər üzrə tənzimləmənin bir sıra digər istiqamətləri üzrə pozitiv dəyişikliklərin əldə olunmasına imkan verib. Lakin bununla yanaşı AMB meqarequlyator modeli üzrə tənzimləmədə açıq qalmış, həlli zəruri olan bir sıra suallar da mövcuddur.

Qeyd olunanlar bir mənalı olaraq ölkədə maliyyyə sektorunun idarə olunmasında tətbiq edilən meqarequlyator modelinin səmərəlilik baxımından qiymətləndirilməsini və açıq qalmış, həlli zəruri olan sualların həll istiqamətlərinin müəyyənləşdirilməsini zəruri edir.

**Maliyyə sektorunun idarə olunması üzrə dünya təcrübəsi.**

Hal-hazırda elmi ədəbiyyatda iqtisadiyyatın maliyyə sektorunun idarə olunma strukturları tənzimləmənin hədəf və obyektlərindən asılı olaraq fərqli yanaşmalar üzrə qiymətləndirilir

(a) maliyyə sektorunun seqmentlərinə nəzarət və onların fəaliyyətlərinin tənzimləməsi fərqli dövlət qurumları (mərkəzi bank, müvafiq nazirliklər, komitələr və s.) tərəfindən həyata keçirilir;

(b) maliyyə sektorunun seqmentləri və bütün infrastruktur qurumlara nəzarət, onların fəaliyyətinin tənzimləməsi mərkəzləşdirilmiş qaydada bir dövlət və ya qeyri-dövlət qurumu tərəfindən həyata keçirilir. Belə üst qurumun (*meqarequlyatorun*) fəaliyyət hədəfləri və reallaşdırdığı funksiyalardan asılı olaraq onlarında aşağıdakı növləri fərqləndirilir:

- üst qurum müstəqil hüquqi şəxs qismində fəaliyyət göstərir;
- mərkəzi bank üst qurum statusunda maliyyə sektoru üzrə bütün seqmentlər və infrastruktur qurumlara nəzarət və onların fəaliyyətinin tənzimlənməsini həyata keçirir;
- üst qurum (bir qayda olaraq mərkəzi bank) yalnız bank sektoru və fond bazarının fəaliyyətinə nəzarət və tənzimləməni həyata keçirir;
- üst qurum (bir qayda olaraq yenə mərkəzi bank) yalnız bank sektoru və sığorta bazarının fəaliyyətinə nəzarət və tənzimləməni həyata keçirir;
- üst qurum (dövlət və ya qeyri-dövlət statuslu) yalnız fond və sığorta bazarlarının fəaliyyətinə nəzarət və tənzimləməni həyata keçirir;

Başqa sözlə, mərkəzləşdirmənin səviyyəsi və dərəcəsindən asılı olaraq maliyyə sektorunun idarə olunma strukturları 3 qrupa ayrılır: *tam mərkəzləşdirmə* - bu zaman sektorun idarə olunması təmamilə bir üst qurum tərəfindən həyata keçirilir; *natamam mərkəzləşdirmə* - bu zaman üst qurum meqarequlyator olaraq sektorun ən azı iki seqmenti üzrə idarəetməni həyata keçirir; *tam mərkəzsizləşdirmə* (*desentralizasiya*) - bu zaman seqmentlərin hər birirnin idarə olunması ayrı-ayrılıqda xüsusiləşdirilmiş dövlət qurumları tərəfindən həyata keçirilir. Fərqli ölkələrdə iqtisadiyyatın maliyyə sektorunun idarə olunma strukturu fərqli amillərin həlledici təsiri altında formalaşır.

Aşağıda dünya ölkələri üzrə maliyyə bazarlarında əsas meqarequlyatorlar göstərilir:

**1.** *Eyni zamanda nəzarət və tənzimləmə funksiyalarını icra edən meqarequlyatorlar*:

- **Böyük Britaniya** (*Financial Services Authority*): 1997-ci ildən etibarən qiymətli kağızlar bazarı, sığorta şirkətləri və investorlar üzərində bank nəzarəti və tənzimlənmə;
- **Avstraliya**: iki meqarequlyator üzrə fəaliyyət - *Australian Securities and Investments Commission* və *Australian Prudential Regulation Authority*; birinci, qiymətli kağızlar bazarı, investisiya şirkətləri və iqtisadiyyatın bütün sahələrində investorların maraqlarının qorunmasını; ikinci – banklar, sığorta şirkətləri, özəl pensiya fondları və qeyri-bank kredit təşkilatlarının fəaliyyətinə nəzarət və prudensial normaların müəyyənləşdirilməsi;
- **Kanada** (*Office of the Superintendent of Financial Institutions)*: Federal səviyyədə qeydiyyatdan keçmiş maliyyə institutlarına qaydaların müəyyənləşdirilməsi və onlarım fəaliyyətinə nəzarət (banklar, bank olmayan kredit təşkilatları, sığorta şirkətləri və s.)
- **Sinqapur** (*Monetary Authority Singapore*): maliyyə sektorunda bütün qurumların fəaliyyətinin tənzimlənməsi və nəzarətini həyata keçirir

**2.** *Yalnız nəzarət funksiyalarını icra edən meqarequlyatorlarlar* :

- **Yaponiya** (*Financial Supervisory Agency*): maliyyə bazarında bütün qurumlara yalnız nəzarət funksiyasını icra edir;
- **Cənubi Koreya** (*Financial Supervisory Commission*): maliyyə bazarında bütün qurumlara yalnız nəzarət funksiyasını icra edir;

- **Macarıstan** (*Hungarian Banking and Capital Market Supervision*): maliyyə bazarında banklara və fond bazarına nəzarət funksiyasını icra edir;

- **İsveç** (*Swedish Financial Supervisory Authority*) maliyyə bazarında bütün qurumlara yalnız nəzarət funksiyasını icra edir;

Maliyyə sektoruna ümumilikdə və seqmentlər üzrə nəzarət və tənzimləmə funksiyalarının bir qurum və ya fərqli tabeçiliyə malik qurumlar üzrə həyata keçirilməsinin düzgün seçimindən asılı olaraq idarəetmədə bir halda yüksək səmərəliliyin əldə olunması, digər halda isə zəif və hətta neqativ nəticələr müşahidə olunur

Yuxarıda qeyd olunduğu kimi iqtisadiyyatın maliyyə sektorunun idarə olunmasında meqarequlyator modelinin tətbiqinin əsas hədəfi maliyyə bazarinda davamlı dayanıqlığın təmin edilməsidir. Bu hədəfin təmin olunması üçün model çərçivəsində həll zəruri olan suallar və reallaşdırılması zəruri olan funksiyalar sırasına aşağıdakılar aid edilir:

- *həlli zəruri olan suallar*: **(a)** maliyyə sektorunun ümumilikdə və sektora daxil olan bütün seqmentlər üzrə ayrı-ayrılıqda inkişaf strategiyasının hazırlanması; **(b)** maliyyə sektorunun dayanaqlığına təsir edən və təsir göstərə biləcək risklərin müəyyənləşdirilməsi, araşdırılması və gözlənilə bilən böhran hallarının qarşısının alınması, bu məqsədlə isə müvafiq antiböhran tədbirlərinin hazırlanması; **(c)** sektorun seqmentlərinə ümumilikdə, seqmentlər daxilində isə sistem formalaşdıran müvafiq maliyyə qurumlarına mərkəzləşdirilmiş nəzarətin həyata keçirilməsi; **(d)** makrosəviyyədə mövcud vəziyyətdən asılı olaraq sektorda seqmentlərin tənzimlənməsi norma və normativlərinin müəyyənləşdirilməsi və s.

- *tənzimləmə funksiyaları*: **(a)** makroprudensial siyasətin formalaşması və reallaşdırılması; **(b)** seqmentlər üzrə mikroprudensial nəzarət və tənzimləmənin reallaşdırılması; **(c)** korporativ idarəetmə qaydalarının müəyyənləşdirilməsi və onların icrasına nəzarət; **(d)** maliyyə sektoru üzrə və seqmentlər üzrə göstərilən xidmət istifadəçilərinin hüquqlarının qorunması; **(e)** maliyyə sektorunda formalaşmış rəqabət mühitinə nəzarət və s.

Son dövr aparılmış araşdırmalar göstərir ki, müstəqil milli valyutalı və iqtisadiyyatında müstəqil maliyyə siyasəti reallaşdıran dünya ölkələrinin təxminən 50%-də maliyyə sektorunun tənzimlənməsi meqarequlyator modelinin bu və ya digər variantı üzrə reallaşdırılır (*cədvəl 1*). Tənzimləmədə meqarequlyator modelinin tətbiqinin sürətlə artımının əsas səbəbləri kimi isə həm ölkə daxilində yaranmış vəziyyət, həm də dünya iqtisadiyyatında yer almış proseslər, dövrü olaraq müşahidə olunan böhranlar çıxış edir. Onuda qeyd etmək lazımdır ki, meqarequlyator modelinin tətbiqindən imtina edən ölkələrdə də bir qayda olaraq sektorun seqmentləri arasında əlaqələrin uzlaşdırılması və bu əlaqələrin səmərəliliyinə nəzarət məqsədi ilə fərqli üst qurumlar (məsələn, fərqli Şura və komitələr) fəaliyyət göstərir.

Maliyyə sektorunda idarəetmənin *mərkəzi bank meqarequlyator* modeli üzrə reallaşdırılmasının digər tənzimləmə modellərindən (o cümlədən, seqmentlər üzrə tənzimləmə modelindən) əsas fərqi maliyyə sektorunda dayanıqlığın makro səviyyədə yaranmış vəziyyəti nəzərə alaraq realaşdırılması imkanlarıdır. Yəni, sektorda dayanıqlığın yalnız ayrı-ayrı seqmentlərin göstəricilərinə əsaslanaraq deyil, eyni zamanda, makro səviyyədə əsas göstəricilər nəzərə alaraq formalaşması imkanlarıdır. Bu məqsədlədə bütün seqmentlər üzrə aparıcı göstəricilər makrogöstəricilərlə qarşılıqlı əlaqədə təhlil edilir, sistem risklərin aradan qaldırılması və mümkün ola biləcək böhranın qarşısının alınması üçün sistem formalaşdıran qurumlar arasında əlaqələrin qiymətləndirilməsi aparılır.

Lakin bütün bu üstünlüklərə baxmayaraq bir sıra ölkələrdə *mərkəzi bank meqarequlyator* modelindən narazılıq və imtina halları mövcuddur. Deyilənlərə ən bariz nümunə Rusiya Federasiyasında son on illikdə reallaşdırılan mərkəzi bank meqarequlyator modelinin tətbiqi təcrübəsi və bu təcrübənin nəticələridir. Digər nümunə isə Belarusiya Respublikasında meqarequlyator modelinin tətbiqindən imtinanı göstərmək olar, əsas səbəb kimi isə hazırda ölkənin sığorta sektorunun fəaliyyəti və qiymətli kağızlar bazarının tənzimlənməsinin mövcud struktur üzrə də müvəffəqiyyətlə həyata keçirilməsi və ölkədə bu seqmentlərinin sonrakı inkişafına xüsusi ehtiyac olmadığı qeyd olunur. Eyni yanaşmanı Rusiya iqtisadçıları tərəfindən aparılan elmi müzakirələrdə də görmək mümkündür.

**Azərbaycanda maliyyə sektorunun idarə olunma strukturunun inkişaf mərhələləri**

Ölkədə maliyyə sektorunun idarə olunma strukturu bir neçə inkişaf mərhələsindən keçib. Beləki, ilkin mərhələdə (2015-ci ilə qədər) maliyyə sektoruna nəzarət və tənzimləmə tam mərkəzsizləşdirilmiş struktur üzrə (*desentralizasiya modeli* əsasında) reallaşdırılıb: (a) bank sektoruna nəzarət və tənzimləmə - Mərkəzi bank tərəfindən; (b) sığorta bazarına – Maliyyə Nazirliyi tərəfindən; (c) qiymətli kağızlar bazarına - Dövlət Qiymətli Kağızlar Komitəsi tərəfindən (DQKK); (d) iqtisadiyyatda azad (ədalətli) rəqabət mühitinin formalaşması və qorunması isə "Antiinhisar və sahibkarlığa kömək" komitəsi tərəfindən həyata keçirilirdi. Dövrü olaraq baş verən dünya maliyyə böhranlarının iqtisadiyyata neqativ təsirləri maliyyə sektorunun idarə olunmasında tətbiq olunan desentralizasiya modelinin qüsurluluğunu, aşağı səmərəliliyə malik olduğunu aydın şəkildə nümayiş etdirdi. Bu, ilk növbədə özünü maliyyə sektorunda dayanıqlığın pozulması, dövrü olaraq yaranan maliyyə dayanıqsızlığında göstərirdi.

2016-cı ildə ilk dəfə olaraq "Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası publik hüquqi şəxsin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə (03 fevral 2016-cı il) maliyyə sektorunun idarə olunmasında üst qurum yaradıldı və sektorun bütün seqmentlərinə nəzarət və qismən tənzimləmə funksiyalarının icrası yeni yaradılan quruma tapşırıldı. Beləliklə ölkə Prezidentinin bu Fərmanı ilə maliyyə sektorunun tənzimlənməsində zərurət olaraq tələb olunan meqarequlyator modelinin tətbiqi konkret olaraq reallaşdırıldı. Əsas səbəblər kimi isə qeyd olunduğu kimi maliyyə sektorunda dövrü olaraq yaranan dayanıqsızllıq, sistem risklərin azaldılması zərurəti, ayrı-ayrı bazar iştirakçılarının sabit maliyyə vəziyyətlərinin təmin olunması, əmanətçilər və krediorların mənafelərinin qorunması zərurəti çıxış edirdi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 10 mart tarixli Fərmanı ilə "Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının Nizamnaməsi" təsdiq edildi. Lakin Palatanın sonrakı illər fəaliyyət təcrübəsi göstərdi ki, maliyyə sektorunun tənzimlənməsi və sektora nəzarət üzrə qurumun Nizamnamə üzrə müəyyənləşmiş statusu, hüquq və vəzifələrində bir sıra qüsurlar mövcuddur və qurum ölkə Prezidentinin müvafiq Sərəncamları ilə ləğv edildi, qurumun bütün funksiyaları Mərkəzi banka verildi .

***Cədvəl 1.***

**Sığorta sektorunda sığorta haqlarının artım dinamikası (mln. manatla)**

| | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|
| **Həyat sığortası (könüllü)** | 250 | 320 | 425 | 545 |
| **Həyat sığortası (icbari)** | 54 | 64 | 74 | 84 |
| **Qeyri-həyat sığortası (könüllü)** | 253 | 267 | 303 | 343 |
| **Qeyri-həyat sığortası (icbari)** | 172 | 199 | 169 | 250 |
| **Cəmi** | 729 | 844 | 971 | 1223 |

2020-ci ilin əvvəllərindən etibarən AMB meqarequlyator statusunda ölkədə maliyyə bazarına nəzarət və tənzimləmə funksiyalarını reallaşdırmağa başladı və bu məqsədlə təbii ki, mərkəzi bankın strukturunda bir sıra struktur dəyişiklikləri aparıldı. Bu sıraya ilk növbədə "Pul siyasəti və Maliyyə sabitliyi Komitəsi"-in yaradılması aiddir. Bundan başqa bu məqsədlə mərkəzi bankın tərkibində "Maliyyə sabitliyi", "Maliyyə sektorunun dayanıqlı inkişafı", "Risklərin idarə edilməsi" departamentləridə fəaliyyətə başladı. Son 4 il ərzində AMB meqarequlyator modelinin tətbiqi təcrübəsinin nəticələri göstərir ki, hazırda Azərbaycan iqtisadiyyatının ardıcıl və dinamik inkişaf edən sahələrindən biri də sığorta sektorudur. Beləki, son illər ölkənin sığorta bazarında fəaliyyət göstərən şirkətlərinin maliyyə nəticələri: (a) 2023-cü ilin sonuna olan məlumatlara əsasən ölkənin sığorta bazarında 18 sığorta şirkəti (onlardan 5 həyat, 13-ü isə qeyri-həyat sığorta şirkəti), bir təkrar sığorta şirkəti, 24 sığorta brokeri və 481 sığorta agenti fəaliyyət göstərib; (b) 2020-2023-cü illər ərzində (yəni, AMB-in meqarequlyator modeli üzrə fəaliyyəti dövrü) sığorta şirkətlərində sığorta yığımının həcmi 729 mln.manatdan 1,22 mlrd.manata (artım 167,8%); sığorta ödənişlərinin həcmi 465 mln.manatdan 587 mln manata (artım 126,2%) təşkil edib. Təkcə 2023-cü ilin nəticələri üzrə (2022-ci ilin yekunu ilə müqaisədə) sığorta yığımlarında artım 36% (154 mln.manat) təşkil edərək 587 mln.manat olub.

Təbii ki, belə sürətli inkişafın konkret səbəbləri və müəyyənləşdirici amilləri mövcuddur və bu amillər sırasında ilk növbədə ölkə Prezidentinin bilavasitə rəhbərliyi altında hazırlanmış və reallaşdırılan Azərbaycan Respublikasında 2022─2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası

qeyd edilməlidir. Ölkədə sığorta bazarı və sığorta şirkətlərinin inkişafı üçün ilkin tələb olunan şərt əhalinin, dövlət və özəl müəssisələrin əldə etdikləri gəlirlərin ardıcıl və davamlı artımıdır.Yəni, yalnız əhalinin gəlirləri, məşğulluq səviyyəsi, müəssisə və təşkilatların mənfəətlilik səviyyələrinin ardıcıl və davamlı artımı şəraitində sığorta biznesi inkişaf edə bilər. Bu baxımdan da istər sığorta şirkətlərinin ayrı-ayrılıqda, istərsədə sığorta biznesinin ümumilikdə dinamik inkişafını ölkədə reallaşdırılan sosial-iqtisadi inkişaf strategiyası müəyyənləşdirir. Əgər sığorta bazarinda hazırda mövcud olan bütün fəaliyyət istiqamətləri üzrə - *həm könüllü sığorta (həyat sığortası, şəxsi sığorta, əmlak sığortası, mülki məsuliyyətin sığortası, kredit sığortası və s.), həm də icbari sığortanın həyat və qeyri-həyat sığorta növləri* - təhlil aparılarsa bu fəaliyyət istiqamətlərinin hər biri stabil artım göstəricilərinə malikdir (*cədvəl 3*). Beləki, 2022-ci ilin nəticələri ilə müqaisədə 2023-cü il sığorta şirkətləri həm həyat, həmdə qeyri-həyat sığorta növləri üzrə (xüsusi ilə qeyri-həyat sığorta şirkətlərinin fəaliyyətləri) yüksək gəlirlik/mənfəətlilik nəticələrinin olduğunu göstərir: həyat sığortası üzrə mənfəətlilik 2020-ci il 30%-dən, 2023-cü il 81%-ə; qeyri-həyat sığortası üzrə isə 50%-dən 83%-ə qədər yüksəlib. Yüksək gəlirlik/mənfəətliklik isə sektorda məcmu kapital göstəricilərinində sürətli yüksəlişini müəyyənləşdirib. Beləki, əgər sektorda məcmu kapital və mərkəzi bank tərəfindən minimum tələb şəklində müəyyənləşdirilən kapitalın səviyyəsi göstəriciləri üzrə dinamikaya baxsaq 2021-ci il bu göstəricilər müvafiq olaraq 310 mln.man. və 184 mln.man (169% ); 2022-ci il 333 mln.man və 189 mln.man (176%); 2023- cü il isə 387 mln.man və 212 mln.man (183%) təşkil etmişdir. Bütün bu göstəricilər fonunda təbii ki, sığorta sektorunun ölkə iqtisadiyyatında pay çəkisi də son illər ərzində əhəmiyyətli dərəcədə yüksəlib. Beləki, 2022-ci il ilə müqaisədə 2023-cü il adam başına düşən sığorta haqları 26,3% artaraq 120 man səviyyəsinə; məcmu sığorta haqlarının qeyri-neft ÜDM-ə nisbəti 2020-ci il 1,6%-dən 2023-cü il 1,8%-ə; sığorta şirkətlərinin aktivlərinin ÜDM-ə nisbəti 2020-ci il 3%-dən, 2023-cü il 2,7%-ə (qeyd: *enerji daşıyıcılar sektorunda qiymət və tariflərin sürətli artımı ilə əlaqədar olaraq*) çatıb.

***Cədvəl 2.***

**Sığorta sektorunun iqtisadiyyatda pay göstəriciləri**

| | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|
| **Adam başına düşən sığorta haqları, (Azn)** | 71 | 84 | 95 | 120 |
| **Aktivlərin qeyri-neft ÜDM-ə nisbəti (%-lə)** | 3,0 | 2.6 | 2.6 | 2.7 |
| **Məcmu sığorta haqlarının qeyri-neft ÜDM-ə nisbəti** | 1.6 | 1.7 | 1.6 | 1.8 |

Azərbaycanda sığorta bazarının inkişafı üçün digər mühüm şərt, sektorun belə inkişaf sürətini müəyyənləşdirən digər mühüm amili isə sözsüzki Mərkəzi bankın sektorun idarə olunması üzrə reallaşdırdığı təkmilləşdirmə tədbirləridir. Məlumdur ki, sığorta şirkətlərinin maliyyə dayanıqlığı onların etibarlılığının mühüm göstəricisidir. Maliyyə dayanıqlığının göstəriciləri sırasında isə sığorta şirkətlərinin xüsusi vəsaitləri (ödənilmiş nizamnamə kapitalı və mənfəət hesabına yaradılmış vəsaitlər), sığorta ehtiyatları və təkrar sığorta vəsaitləri mühüm əhəmiyyətlidir. Bu göstəricilər sığorta şirkətlərinin ödəniş qabiliyyətini müəyyənləşdirir. Lakin şirkətin ödəniş qabiliyyətliliyinin yetərincə qiymətləndirilməsi üçün onun aktivləri ilə üzərinə götürdüyü öhdəliklər nisbəti də qiymətləndirilməlidir. Bu baxımdan AMB tərəfindən tənzimləmədə tətbiq olunan normativlər sığorta bazarında dayanıqlığın təmin olunması üçün müstəsna əhəmiyyətə malikdir. Başqa sözlə tənzimləmədə yeni modelinin təmin etdikləri üstünlüklər sırasında ilk növbədə maliyə sektorunun bütün seqmentlərinə eyni zamanda mərkəzləşdirilmiş nəzarət və zəruri olan hallarda tələb olunan adekvat tədbirlərin reallaşdırmaq imkanları göstərilməlidir. Lakin qeyd olunan əsaslı üstünlüklər və yüksək sosial-iqtisadi nəticələrə baxmayaraq hazırada "mərkəzi bank meqarequlyator" modelinin tətbiqi ilə əlaqədar həlli zəruri olan suallarda mövcuddur.

***Cədvəl 3.***

**Sığorta sektorunda investisiya porfleinin strukturu və dinamikası (mln.man.)**

| | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|
| **Cəmi investisiya aktivləri,** | 1061 | 1037 | 1268 | 1501 |
| **o cümlədən, dövlət qiymətli kağızları (DQK)** | 441 | 457 | 632 | 847 |
| **o cümlədən, banklarda hesablardakı vəsait** | 441 | 409 | 437 | 425 |
| **Investisiya aktivlərinin cəmi aktivlərdə pay çəkisi** | 77% | 78% | 80% | 82% |

**AMB meqarequlyator modelinin tətbiqi ilə əlaqədar sığorta bazarı üzrə idarəetmədə zəruri olan təkmilləşdirmələr.**

Sığorta bazarının fəaliyyətində son illər müşahidə olunan bütün pozitiv dəyişikliklərə baxmayaraq hazırda ölkədə maliyyə sektorunun bu seqmentinin inkişaf səviyyəsi nəinki inkişaf etmiş və sürətli inkişaf etməkdə olan ölkələrlə müqaisədə, eyni zamanda bəzi qonşu ölkələrlə müqaisədə də geri qalır. Beləki, sığorta sektoru üzrə hesablanmış sığorta haqqlarının adambaşına məbləğinin cari səviyyəsi 121 AZN; kapital bazarı üzrə investisiya məbləğinin cari səviyyəsi 150 mln AZN; ödəniş sektoru üzrə nağdsız əməliyyatların adambaşına düşən illik sayı 93 əməliyyat; bank sektoru üzrə biznes kreditlərinin məbləğinin həcmi 12.4 milyard AZN təşkil edir**;** Azərbaycanda sığorta şirkətləri tərəfindən bazara təklif olunan və rəsmi təsdiq olunmuş sığorta növlərinin sayı, könüllü və icbari sığorta növləri üzrə cəmi, 36-dır. Qeyd olunan rəqəmlər hazırda inkişaf etmiş ölkələrdə fəaliyyət göstərən sığorta şirkətlərinin göstəricilərindən 7-8 dəfə azdır. *AMB-in baş direktoru Ziya Əliyevin* sözlərinə görə 2023-cü ilin nəticələri üzrə ölkədə fəaliyyət göstərən sığorta şirkətləri 500 milyard manatlıq riskə təminat verilib. bu da, il ərzində ölkədə istehsal edilən ÜDM-in 5 qatı həcmindədir. Bu göstərici bir sıra inkişaf etməkdə olan ölkələrdə ÜDM-nin 10-20 qatı səviyyəsində olur**.**

Göründüyü kimi sığorta bazarının fəaliyyətini xarakterizə edən əsas göstəricilərin səviyyəsi ölkənin sosial-iqtisadi inkişaf səviyyəsi ilə müqaisədə geri qalır. Bu səbəbdən də təbii ki, maliyyə sektorunda idarə olunmanın mərkəzləşdirilmiş strukturuna keçidlə əlaqədar həlli zəruri olan bir sıra suallar öz həllini tapmalıdır[1]. Bu sırada isə ilk olaraq aşağıdakılar göstərilməlidir:

- *maraqların konflikti.* Mərkəzi bank tərəfindən reallaşdırılan makroprudensial siyasət - mövcud və mümkün ola biləcək risklərin qarşılanması, maliyyə bazarında dayanıqlığın yüksəldilməsi, sabitliyin təmin olunmasının prioritet hədəf olaraq müəyyənləşməsi, bazarda seqmentlər üzrə şirkətlərin fəaliyyət şərtlərinin sərtləşdirilməsini tələb edir. Belə vəziyyət isə təbii olaraq istər bank sektorunda, istər sığorta bazarında, istərsə də qiymətli kağızlar bazarında fəaliyyət göstərən qurumların irilənməsi meyllərini gücləndirir. Beləki, rəqabətə dözməyən, mərkəzi bank tərəfindən müəyyənləşmiş tələblərə cavab verməyən bankların, bank olmayan qeyri-bank kredit təşkilatlarının, sığorta şirkətlərinin tədricən bazardan çıxması meylləri sürətlənir. Yalnız son illər ölkənin maliyyə bazarında baş vermiş dəyişikliklərə nəzər salsaq aydın görərik ki, bir sıra kiçik və orta həcmli maliyyə qurumları bazarı tərk edib - *banklar*: "Zamin bank", "Bank of Azerbaijan", "Standart bank", "Royal bank", "Amrah bank", "NBC bank", "Azəriqaz bank", "Günay bank" və s.; *sığorta şirkətləri*: "Standart insurance", "Alfa sığorta", "Basak-İnam sığorta", "Royal sığorta", "Qarant sığorta", "Amrah sığorta" "Rəvan sığorta". Başqa sözlə, tənzimləmədə maliyyə dayanıqlığı və maliyyə sabitliyinin təmin olunmasının mütləq zəruri şərt olaraq müəyyənləşməsi ilə, maliyyə xidmətlərinin daha geniş spektrinin və müvafiq olaraq müştəri bazasının irilənən bank, sığorta şirkətləri və digər qurumlarda cəmlənməsi ilə bazarda mərkəzləşmə prosesi təbii olaraq güclənib (başqa sözlə, proses maliyyə sabitliyinin təmin olunması ilə iqtisadi aktivliyin sürətlənməsi arasında tarazlı seçimin edilməsi və maraqların konflikti problemi ilə əlaqədardır).

Təbii ki, problemin bir səbəbidə banklar və sığorta şirkətlərinin yaradılması zamanı əksər bank və sığorta şirkətlərinin əsas səhmdarları (təsisçiləri) kimi eyni qurumların və fiziki şəxslərin çıxış etməsidir. Qurumlar arasında belə əlaqələr onların qarşılıqlı asılılığını gücləndirir. Beləki, sığorta şirkətləri öz vəsaitlərini ilk növbədə yaxın olan banklarda yerləşdirir (mərkəzi bank tərəfindən sektorda dayanıqlığın yüksəldilməsi məqsədi ilə sığorta şirkətlərinin vəsaitlərinin banklar üzrə diversifikasiya olunması zəruriliyi müəyyənləşdirilib və sığorta şirkətinin vəsaitləri bütünlüklə bir bankda yerləşdirilə bilməz), banklar tərəfindən həyata keçirilən bütün əsas sığorta əməliyyatları – ipoteka kreditləşməsi üzrə, avtomobillərin icbari sığortası üzrə, daşınmaz əmlakın könüllü və icbari sığorta növləri üzrə və s., ona yaxın olan sığorta şirkəti vasitəsi ilə icra edilir. Bu səbəbdən mərkəzi bank tərəfindən maliyyyə sektorunda dayanıqlıq və maliyyə sabitliyi tələblərinin sərtləşdirilməsi ilə əlaqədar banklarda yaranan hər hansı problem həmin anda yaxın olan sığorta şirkətlərinində vəziyyətində öz əksini tapır və bankların bazarı tərk etməsi ilə sığorta şirkətlərinində bazarı tərk etməsi ilə nəticələnir. AMB-in baş

[1] bu problemlərin bir qismi maliyyə sektorunda fəaliyyət göstərən fərqli qurumlar tərəfindən, o cümlədən Azərbaycan Sığortaçılar Assosasiyası (ASA) tərəfindən də qeyd edilir.

direktoru Şahin Mahmudzadə təsdiqləyib ki, Azərbaycanda sığorta şirkətləri üzrə kapital tələbi artırıla bilər və və Mərkəzi Bank "Solvency ll" standartlarının tətbiqinə hazırlaşır. Yeni standartların tətbiqi isə sığorta şirkətlərində risk əsaslı kapital tələbini artıracaq. Başqa sözlə, qısa və orta müddətli perspektivdə sığorta bazarında mərkəzləşmə prosesinin güclənməsi və kiçik biznesin bazardan çıxması sürətlənəcək. Lakin problemin digər aspektləridə mövcuddur: kiçik və orta maliyyə qurumlarının (sığorta şirkətləri, broker kompaniyaları və s.) sığorta bazarından kənarlaşdırılması ölkədə iqtisadi aktivliyə, məşğulluq səviyyəsinə neqativ təsirlər müəyyənləşdirir; peşəkar kadrların sahəni tərk etməsi, onların başqa sahələrdə və ixtisaslar üzrə fəaliyyətə istiqamətlənməsi maliyyə sektorunda və o cümlədən, sığorta bazarında kadr potensialını zəiflədir. Əgər problemlə bağlı mərkəzi bank tənzimləyici orqan kimi sığorta şirkətlərinin fəaliyyəti ilə əlaqədar əlavə təminatlar reallaşdıra bilərsə bu təminatlar həm kiçik və orta sığorta şirkətlərinin dayanıqlığına və maliyyə sabitliyinin yaradılması üzrə müsbət təsirlər göstərər, həm də əhali və biznesin təkcə iri yox, həmdə kiçik və orta sığorta şirkətlərinə olan inamını, etibarını yüksəldər.

Nümunə üçün ölkə hökuməti tərəfindən real sektorda (ilk növbədə kənd təsərrüfatında fermerlər, emal sənayesində kiçik və orta sahibkarlar üçün) reallaşdırdığı müxtəlif dəstək tədbirlərini, mərkəzi bankın özü tərəfindən bank sektorunda bank əməliyyatlarının bir qismi üçün tətbiq etdiyi təminatları göstərmək olar (məsələn, "Əmanət və depozitlərin sığortalanması" üzrə; "İpoteka və Kredit zəmanət" fondu və digər əməliyyatlar üzrə tətbiq olunan mexanizmlər). Məhz bu mexanizmlərin tətbiqi əhalinin bank sektoruna olan inamını artırmış və bank sektorunda əmanət və depozitlərin həcmini əhəmiyyətli dərəcədə artmışdır. Təbii ki, eyni yanaşma üzrə sığorta şirkətləri üçündə şərait yaradılarsa bu, sığorta bazarının inkişafına, kiçik sığorta şirkətlərinin dayanıqlı fəaliyyətinə pozitiv təsirlər müəyyənləşdirər.

- *təkrar sığorta*. Hal-hazırda ölkədə sığorta bazarının fəaliyyətinin mühüm istiqamətlərindən biri də təkrar sığortadır. Hər il Azərbaycanın bir sıra şirkətləri xarici ölkə sığorta şirkətləri ilə təkrar sığorta üzrə ümumi həcmi 100 milyonlarla ABŞ doll. səviyyəsində qiymətləndirilə biləcək təkrar sığorta müqavilələri bağlayırlar (AMB-in təqdim etdiyi statistika üzrə belə məlumatları açıqlamaması səbəbindən dəqiq məlumatlar əldə etmək mümkün deyil. Yalnız KİV-lər vasitəsi ilə verilən məlumatlar əsasında təqribi qiymətləndirmələr aparmaq mümkündür). Məsələn, ölkənin sığorta bazarında 2010-cu ildən fəaliyyət göstərən, hüquqi və fiziki şəxslərə 36 növ könüllü və icbari sığorta məhsulları, eləcə də 100% səhmdarı olduğu "Meqa Həyat Sığorta" ASC vasitəsi ilə həyat sığortası üzrə sığorta xidmətləri göstərən, sığorta şirkətləri arasında ilk beşliyə daxil olan "Meqa sığorta" şirkəti ilə VİG Re şirkəti arasında əmlak sığortası müqaviləsinə əsasən 5 mln. AZN həddində vəsait təkrar sığortaçıya ötürülə bilər. Əmlak sığortasının risk siniflərinə isə əmlakın yanğından və digər risklərdən sığortası, daşınmaz əmlakın icbari sığortası, tikinti-quraşdırma risklərinin sığortası, podratçının maşın və avadanlıqlarının sığortası və s. daxildir. Şirkətin əməkdaşlıq etdiyi çoxsaylı təkrarsığorta tərəfdaşları isə şirkətin saytında göstərilir: Lloyd's, Munich Re, Swiss Re, Hannover Re, Chubb, AIG, Allianz, Zurich, QBE Insurance Group, Sirius International Group və digərləri.

Azərbaycan sığorta bazarında yeganə ixtisaslaşmış təkrarsığorta şirkəti AzRe şirkətidir. Digər sığorta şirkətləri (birinci beşliyə daxil olanlar) yalnız əsas fəaliyyətləri ilə yanaşı təkrar sığorta xidmətini də göstərirlər. AzRE şirkəti isə adi əmlak risklərindən başlayaraq kompleks sənaye risklərinə qədər bütün risklərin təkrarsığortasını təmin edir. Yüksək maliyyə stabilliyinə malik olmasına baxmayaraq AzRe təkrarsığorta Şirkəti yalnız qeyri-həyat sığorta şirkətlərinə təkrarsığorta təklif edir və sığorta bazarında təklif olunan ümumi təkrar sığorta portfelində kifayət qədər kiçik pay çəkisinə malikdir. Ölkədən kifayət qədər iri həcmdə olan valyuta axının ən azından əhəmiyyətli hissəsini müvafiq institusional dəyişikliklərlə ölkə daxilində saxlamaq mümkündür. Məsələn, bu məqsədlə sığorta bazarında mərkəzləşdirilmiş qaydada, dövlət-özəl əməkdaşlıq prinsipləri əsasında fəaliyyət göstərə biləcək, dövlət qurumları və özəl şirkətlər tərəfindən təsis olunan, kommersiya hüquqi şəxs qismində təkrar sığorta ASC-in formalaşması və fəaliyyətinin təşkili. Yəni, yaradılacaq təkrar sığorta şirkətinin təsisçiləri kimi dövlət qurumları olaraq 50% pay çəkisi ilə AMB və Maliyyə nazirliyi; digər 50% pay çəkisi ilə isə sığorta bazarının aparıcı şirkətləri ("Paşa sığorta", "Qala sığorta", "Xalq sığorta", "Meqa sığorta","Atəşgah sığorta") iştirak edərək. Qeyd olunan institusional dəyişiklik hazırda sığorta bazarında fəaliyyət göstərən şirkətlərin yenidən sığortalama üzrə xərclərinin əhəmiyyətli hissəsinin xaricə axmasının qarşısını alar və vəsaitlərin ölkə daxilində qalmasına şərait yaradar.

Ölkənin sığorta bazarında qeyd olunan prinsiplə təşkil olunmuş və uğurlu fəaliyyət göstərən Aqrar sığorta fondu mövcuddur. Bundan başqa digər ölkələrində bu istiqamətdə müsbət təcrübələri var. Məsələn, Rusiya Federasiyasında 2016-cı ildə Mərkəzi bank tərəfindən Milli təkrar sığorta şirkəti yaradılıb və şirkət geniş spektrdə risklər üzrə təkrar sığorta öhdəliklərini öz üzərinə götürür. Təbii ki, Azərbaycanda yeni yaradıla biləcək qurumun idarə olunması təsisçilərin nümayəndələrindən ibarət olaraq formalaşacaq, yəni, əsas idarəetmə orqanları olan Direktorlar Şurası və İdarə Heyəti təsisçi olan dövlət qurumları və özəl sığorta şirkətləri tərəfindən (müvafiq olaraq 2 nümayəndə dövlət qurumlarından, 5 nümayəndə isə özəl şirkətlərdən). Direktorlar Şurası qurumun, o cümlədən idarə heyətinin fəaliyyətinə nəzarət edir, qurumun strateji məqsəd və planlarını müəyyən edir, normativ xarakterli aktları, o cümlədən iqtisadi tənzimləmə (prudensial) normativlərini təsdiq edir; İdarə heyəti müvafiq idarəetmə və nəzarət sistemlərini tətbiq edir və həmin sistemlərin səmərəliliyi barədə Direktorlar Şurasına hesabat verir;

- *sığorta şirkətlərinin investisiya fəaliyyəti.* Mərkəzi bank tərəfindən təsdiqlənmiş yeni normativ qaydaya müvafiq olaraq sığorta şirkətləri müxtəlif risklərin sığortalanması funksiyası ilə yanaşı yeni investisiya fəaliyyəti imkanları, əldə edblər. Bu barədə AMB İdarə heyətinin 25 oktyabr 2023-cü il № 51/1 qərarı ilə təsdiq edilmiş “Sığortaçıların investisiya əməliyyatları ilə bağlı Qayda” fəaliyyətə başlayıb. Yeni qaydalarda sığorta şirkətlərinin məcmu kapitalında diversifikasiya əmsalları, investisiya edilən aktivlərin keyfiyyətinə dair tələblər yenidən müəyyən edilir.

İnkişaf etmiş ölkələrdə sığorta şirkətlərinin əsas gəlirləri investisiya fəaliyyətindəndir. Yəni, sığorta şirkətlərinin müvəqqəti sərbəst olan vəsaitlərinin əlavə gəlirlər əldə etmək üçün qiymətli kaşğızlar bazarında yatırımlarda yerkləşdirməsi və bu istiqamətdə əldə etdiyi gəlirləri sığorta fəaliyyətindən əldə etdiyi gəlirlərini xeyli üstələyir. Azərbaycanda qiymətli kağızlar bazarı inkişaf etmiş ölkələrlə müqaisədə zəif inkişaf inkişaf səviyyəsinə malikdir və bu bazarda sığorta şirkətlərinin fəaliyyəti üçün imkan kifayət qədər məhduddur. AMB -in təqdim etdiyi statistikaya uyğun olaraq sığorta şirkətlərinin 2023-cü il üzrə investisiyaları 1,5 mlrd.manat, investisiyalardan əldə etdikləri gəlirlər isə 85 mln.manat təşkil edib (təqribən 6% orta illik gəlirlik). Əgər sığorta şirkətlərində aktivlərin strukturuna baxılarsa bu zaman həyat sığorta şirkətlərində aktivlərinin 91%-i, qeyri-həyat sığorta şirkətlərində isə 73%-i investisiya portfeli təşkil edir və təbii ki, investisiya aktivləri əsasən Dövlət qiymətli kağızlar və bank sektorunda fərqli hesablarda (cari, depozit və s.) yerləşdirilmiş vəsaitlərdir. Sığorta şirkətlərinin aktivlərinin strukturundan göründüyü kimi sığorta şirkətləri öz vəsaitlərinin əhəmiyyətli hissəsini banklarda ya cari hesablarda, ya aşağı gəlirli depozit hesablarda, ya da eyni ilə aşağı gəlirli DQK-da yerləşdirir.

Məlumdur ki, Mərkəzi bank müntəzəm olaraq özünün qiymətli kağızlar üzrə əməliyyatlarını keçirir və bu əməliyyatlar müstəsna olaraq banklar üçün nəzərdə tutulur. Başqa sözlə banklar sığorta şirkətlərinin vəsaitləri hesabına investisita fəaliyyətindən gəlirlər əldə edir, sığorta şirkətlərinin isə AMB ilə əlaqədar belə imkanları yoxdur. Bundan başqa mərkəzi bank tərəfindən bank sektoru və qiymətli kağızlar bazarında bir sıra əməliyyatlara dəstək tədbirləri reallaşdırılır və bu məqsədlə fərqli qurumlar fəaliyyət göstərir. Məsələn, Əmanətlərin sığortalanması fondu.... “Azərbaycanda ödəmə qabiliyyətini itirmiş investisiya şirkətlərində investorların pul vəsaitlərinin və maliyyə alətlərinin itirilməsi riski üzrə sığortalanacaq məbləğin maksimal həddi 100 min manat səviyyəsində müəyyən edilib” ...."Azərbaycan Fond Bazarı İştirakçıları Assosiasiyası" (AFBİA) İctimai Birliyinin icraçı direktoru Murad Yəhyayev bildirib ki, bununla bağlı "Əmanətlərin Sığortalanması haqqında" qanuna investisiya hesablarının sığortalanması ilə bağlı dəyişiklik ediləcək” . Aydın görünür ki, bu istiqamətdə, yəni, Mərkəzi bank tərəfindən sığorta sektorunun investisiya fəaliyyətinin dəstəklənməsi üzrə müvafiq təkmilləşdirmə tədbirlərinə ehtiyac var.

- *Maliyyə sektorunun inkişaf strategiyası üzrə* - qeyd olunduğu kimi yeni idarə etmə strukturunun tətbiqi ilə əlaqədar AMB-yə müəyyənləşdirilmiş tələblərdən biri maliyyə sektorunun qısa və uzun müddətli dövrlərə inkişaf strategiyasının hazırlanmasıdır. Mərkəzi bank tərəfindən ona müəyyənləşdirilmiş bu funksiyasına uyğun olaraq ölkədə 2024-2026-cı illəri əhatə edən müvafiq Sənəd hazırlanıb və strategiyanın əhatəli icmalı bankın saytında təqdim olunur. Lakin Sənəddə hazırki inkişaf mərhələsində aktual suallardan biri – yaşıl iqtisadiyyatın inkişafı və bu prosesdə sığorta şirkətlərinin iştirak məhsulları – öz əksini tapmayıb. Beləki, ölkədə hal-hazırda COP-29 tədbirlərinin

reallaşdırılması ilə əlaqədar "yaşıl iqtisadiyyat" üzrə sığorta məhsullarına xüsusi ehtiyac duyulur və sual xüsusi aktuallığa malikdir. Mərkəzi bankın hazırladığı "Dayanıqlı Maliyyə üzrə Yol Xəritəsi: 2023-2026"-da da "Dayanıqlı maliyyə axınları üçün ekosistemin formalaşdırılması" xüsusi bölmə kimi qeyd edilir.

Məsələn, sığorta şirkətləri ölkədə bir sıra istehsal və xidmət sahələrinə ətraf mühiti bu və ya digər dərəcədə çirkləndirə biləcək riskləri ilə bağlı (təsadüfi, özündən asılı olmayan səbəblər üzündən) ekologiyaya vurulan ziyanın bərpası üzrə məsuliyyət sığortası məhsulları təklif edə bilər. Sığorta məhsulu polisinin modeli isə aşağıdakı strukturda təqdim edilə bilər:

- məhsulun adı: ekoloji qəzaların baş verə biləcəyi özəl müəssisə sahiblərinə məsuliyyət sığortası;
- məhsul nələrin sığorlanmasını nəzərədə tutur: (a) zərərli maye və maddələrin dağılması nəticəsində dəyən ekoloji ziyan üzrə xərclərin ödənilməsini; (b) qəzanı baş vermə səbəblərinin araşdırılması və dəymiş zərərin müəyyənləşdirilməsi üzrə xərcləri; (c) üçüncü şəxslərin sağlamlığına və ya əmlakına dəymiş zərərin ödənilməsi;
- təklif olunan sığorta məhsulu hansı sahibkarlar üçün yararlı ola bilər: (a) inşaatçılar və tikinti sahəsi üzrə investorlar üçün - əgər tikinti sahəsində ekologiyaya zərər vura biləcək təhlükəli maddələr və yanacaq-sürtkü materialları saxlanılırsa; (b) xidmət sferasında fəaliyyət göstərən sahibkarlar üçün (məişət xidmətləri, kimyəvi təmizləmə, metal təmiri sexləri, tipoqrafiya və poliqrafiya müəssisələri-bütün bu sahibkarlar ekologiya üçün potensial təhlükəli maddələrdən istifadə edirlər) və digər müəssisələr hansılarki təhlükəli kimyəvi məhsullar ilə işləyirlər və baş verə biləcək qəza ətraf mühüti zəhərləyə bilər;
- nələr kompensasiya edilə bilər: (a) üçüncü şəxslərin həyatına, sağlamlığına və əmlakına dəyən ziyan; qəza nəticəsində ətraf mühitin əvvəlki vəziyyətə gətirilməsi üçün xərclər; bas vermis qəzanın səbəblərinin araşdırılması üzrə xərclər; məhkəmə xərcləri və s.

Qonşu ölkə olan Rusiya Federasiyasında qeyd olunan yanaşma istər elmi müstəvidə, istərsədə konkret praktikada çox geniş yayılıb: «İnqosstrax» sığorta şirkəti; "Sberbak" ; HPBS və digərləri buna nümunə kimi göstərilə bilər. Azərbaycanda da bu istiqamətdə fəaliyyət göstərən sığorta şirkətləri var: "Qala sığorta"; "AzRe" təkrar sığorta şirkəti və digərləri. Dünyanın bir sıra iri maliyyə qurumlarında (o cümlədən BVF, Dünya Bankı və s.) aparılan tədqiqatların nəticələri bir mənalı olaraq göstərir ki, banklar, sığorta şirkətləri və investorlar artıq biznes-modelləri üzrə əsaslı dəyişikliklər aparmalıdırlar. Maliyyə sektorunda mövcud olan ənənəvi risklər ilə yanaşı iqlim dəyişikliyi ilə sığorta məhsullarının hazırlanması üzrə tövsiyyəedici/stimullaşdırıcı tədbirlərin hazırlanması zəruridir;

- *Meqarequlyator, qanun verici və icraedici orqanlar arasında əlaqələr* Sığorta bazarında ümumi sığorta dövriyyənin təqribən 30-35%-i icbari sığorta növlərinin payına düşür – həyat sığortası, avtomobillərin sığortası, səfər sığortası və s. Aydın görünür ki, icbari sığortanın ümumi sığorta dövriyyəsində pay çəkisi kifayət qədər aşağıdır. Məlumdur ki, mövcud qanunvericilik üzrə icbari sığorta o sahələrdə tətbiq olunur ki, burada cəmiyyətimizin və geniş əhali kütləsinin maraqları əhatə olunsun. Lakin hazırda nəinki potensial icbari sığorta növləri üzrə məhsul və xidmətlərin hazırlanaraq bazara çıxarılması, ölkədə hətta uzun müddətdir qanunvericiliklə müəyyənləşmiş bəzi icbari sığorta növləri belə hal-hazıra kimi öz tətbiqini tapmaması Meqarequlyator, qanun verici və icraedici orqanlar arasında əlaqələrdəki çatışmazlıqlarla əlaqəlidir. Bu sahədə ilk növbədə 2022-ci ilin ortalarından etibarən təsdiq edilmiş və quvvədə olan daşınmaz əmlakın icbarı sığortalanmasının hələdə fəaliyyət göstərməməsini nümunə olaraq qeyd etmək olar. Belə vəziyyət qanunverici, icraedici və Mərkəzi bank arasında formalaşmış əlaqələrin təkmilləşdirilməsini tələb edir.

Digər nümunə olaraq sığorta şirkətləri tərəfindən sığorta məhsullarının bazara çıxarılmasında Mərkəzi bank tərəfindən təsdiq olunmuş mövcud Qaydaları göstərmək olar. Bu sahədə bir sıra inzibati çatışmazlıqlar mövcuddur. Bu barədə də sığorta şirkətləri və ilk növbədə ACA (Azərbaycan sığortaçılar Assosiasiyası) hazırlanmış yeni sığorta məhsullarının qeydiyyatı və təsdiqi üzrə öz iradları və tövsiyyələri üzrə müvafiq müraciətlər edib, lakin problem hələdə öz həllini tapmayıb.

- *tənzimləmədə prioritet hədəfin müəyyənləşməsi*. Mövcud şəraitdə mərkəzi bank pul-kredit siyasəti üzrə iqtisadiyyatda kreditləşmənin həcmi və faiz dərəcəsi səviyyələrini; valyuta siyasəti üzrə manatın məzənnəsinin sabitliyini və nəhayət maliyyə sabitliyinin təmin olunmasını, sektorda

seqmentlərin stabil fəaliyyətini təmin etməlidir. Bu zaman ölkədə formalaşan makroiqtisadi şərait iqtisadi artımı stimullaşdırmalı və davamlı iqtisadi artımı təmin etməlidir. Lakin daxili və xarici amillərdə baş verə biləcək müxtəlif dəyişikliklər zamanı hansı hədəfin prioritet olacağı – iqtisadi aktivliyin sonrakı stimullaşdırılması, yaxud makroiqtisadi və makro maliyyə sabitliyinin təmin olunması mərkəzi bank tərəfindən sona kimi müəyyənləşdirilməyib. Bu zaman isə iqtisadi artımda, bir sıra makroiqtisadi parametrlər üzrə dəyişikliklərdə müxtəlif neqativ meyllər formalaşa bilər.

- *seqmentlərin fəaliyyətinin qarşılıqlı əlaqəli tənzimlənməsindəki çatışmazlıqlar*. Maliyyə sektorunun tənzimlənməsi zamanı mikroprudensial səviyyədə istifadə olunan fərqli alətlər fərqli təsir istiqamətlərində reallaşdırılmasını və fərqli hədəflərin əldə olunmasını nəzərdə tutur. Beləki bank sektorunda: (a) faiz dərəcəsi dolayı təsir vasitəsi kimi iqtisadiyyatda kreditləşmənin səviyyəsinin tənzimlənməsini; (b) banklar üçün tətbiq olunan birbaşa məhdudiyyətlərin zəiflədilib-gücləndirilməsi (banklarda likvidlik riski səviyyəsinin, ayrı-ayrı sahələrin kreditləşməsinin, bank kapitalı və onun adekvatlığının hesablanması, açıq valyuta mövqelərinin müəyyənləşdirilməsi, aktivlərin təsnifləşdirilməsi və mümkün zərərin ödənolməsi üçün ehtiyatların yaradılması, məcburi ehtiyat normaları və s.) onların dəyişən şəraitə uyğunlaması, dayanıqlığının təmin olunmasını; (c) bazar iştirakçılarına mərkəzi bank tərəfindən likvidliyin təqdim olunması iqtisadiyyatda ödəniş qabiliyyətinin qorunub saxlanılması, iqtisadi aktivliyin stimullaşdırılması; (d) valyuta bazarına alqı-satqı istiqamətində müdaxilələr manatın sabit/stabil məzənnəsinin qorunub saxlanılmasını və s. Eyni ilə sığorta şirkətlərinin fəaliyyətlərinin tənzimlənməsi üçün prudensial norma və normativlər mövcuddur. Beləki, sığortaçılara tələb olunan kapitalın minimum səviyyəsi, sığortaçı tərəfindən sığorta olunan şəxsə kreditin verilməsi, sığortaçıların investisiya əməliyyatları, risklərin xarici sığortaçılarda təkrar sığorta limitləri və s.

İqtisadiyyatda yaranmış şəraitdən asılı olaraq bank sektorunda mövcud vəziyyət üzrə dəyişikliklər sığorta bazarına neqativ təsirlər (və əksinə) müəyyənləşdirə bilər - əgər banklarda likvidlik göstəriciləri aşağı, təhlükəli həddə enibsə bu, sığorta şirkətlərinin öhdəliklərininin icrası üçün risklər formalaşdırır; eyni ilə əgər sığorta şirkətlərinin risk öhdəlikləri yüksəkdirsə bu, banklar üçün likvidlik riskləri müəyyənləşdirir. Eyni ilə əgər sığorta şirkətləri aşağı risklər şəraitində fəaliyyət göstərirsə və banklar üçün müəyyənləşdirilmiş prudensial əmsallar sərtdirsə bu halda iqtisadi aktivliyin yüksəlməsi prudensial əmsalların yunşaldılmasını zəruri edir. Əgər mərkəzi bank öz statusuna uyğun olaraq belə əlaqələri müəyyənləşdirməyibsə bu halda meqarequlyator modeli öz imkanlarını sona kimi reallaşdırmır, daha dəqiq isə status öz əhəmiyyətini itirir, çünki, desentralizasiya modeli üzrə tənzimləmədə də seqmentlərin tənzimlənməsi fərqli qurumlar tərəfindən aparılırdı və bu tənzimləmələr arasında heç bir əlaqə müəyyənləşdirilməmişdi, yəni, tənzimləmənin mərkəzləşdirilməsi bu halda mənasızlaşır. Bu baxımdan AMB-in bu istiqamətdə fəaliyyəti təkmilləşdirilməlidir.

## Nəticə və təkliflər:

**1.** Son 4 il ərzində Azərbaycanda "Mərkəzi bank meqarequlyator" modelinin tətbiqi aydın şəkildə göstərir ki, islahatlar nəticəsində maliyyə sektorunda (*o cümlədən, sığorta seqmenti üzrə*) bir sıra fundamental üstünlüklər təmin olunub – dayanıqlı maliyyə sabitliyi, bu əsasda iqtisadiyyatın dayanıqlığının yüksəlməsi, maliyyə sektoruna etibarın və müvafiq olaraq maliyyə bazarında aktivliyin yüksəlməsi, sektorda fəaliyyət göstərən şirkətlərin gəlirlik səviyyəsinin yüksəlməsi və s.

**2.** Mərkəzi bankın sığorta sektoru üzrə reallaşdırdığı bütün bu pozitiv təsirlərə və dəyişikliklərə yanaşı onu da qeyd etmək zəruridir ki, hazırda ölkədə sığorta bazarının fəaliyyətini xarakterizə edən əsas göstəricilər ölkənin ümumi sosial-iqtisadi inkişaf səviyyəsini xarakterizə edən göstəricilərə nisbətdə kifayət qədər geri qalır.

**3.** Tədqiqat işində sığorta sektorunun meqarequlyator tənzimləmə modelinin təkmilləşdirilməsi istiqamətləri və aşağıdakı suallar üzrə konkret həll variantları müəyyənləşdirilir: sığorta sektorunda maraqların konflikti üzrə; təkrar sığorta bazarı üzrə; sığorta şirkətlərinin investisiya fəaliyyəti üzrə maliyyə sektorunun inkişaf strategiyasə üzrə; makroprudensial siyasət üzrə.

**İstifadə edilmiş ədəbiyyat / References**

1. Azərbaycan Respublikasının 2022─2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası (22 iyul 2022) // https://president.az/az/articles/view/56725 ;

2. Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası publik hüquqi şəxsin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı (03 fevral 2016-cı il) // https://president.az/az/articles/view/17670

3. Maliyyə xidmətləri bazarında tənzimləmə və nəzarət sisteminin idarəedilməsinin təkmilləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (28 noyabr 2019-cu il) // https://president.az/az/articles/view/35001

4. 2024-2026-cı illər MalİYyə sektorunun İnkİşafı // https://www.cbar.az/pages/strategy

5. Набиуллина и Силуанов оценили решение сделать Банк России мегарегулятором // https://rg.ru/2023/09/03/stavka-na-uchet.html;

6. Azərbaycanda fəaliyyət göstərən sığorta şirkətləri tərəfindən 500 milyard manatlıq riskə təminat verilib // https://banker.az/amb-az%C9%99rbaycanda-sigorta-sirk%C9%99tl%C9%99ri-500-milyard-manatliq-risk%C9%99-t%C9%99minat-verib/

7. Sığorta şirkətləri üzrə kapital tələbi artırıla bilər // Sığorta şirkətləri üzrə kapital tələbi artırıla bilər | AzPolitika — onlayn siyasi-ictimai qəzet

8. “Meqa Sığorta” Avstriya şirkəti ilə 5 milyonluq müqavilə bağlayıb // “Meqa Sığorta” Avstriya şirkəti ilə 5 milyonluq müqavilə bağlayıb (apa.az)

9. İnvestisiya şirkətlərində investorların pul vəsaitlərinin itirilməsi riski sığortalanacaq // https://oxu.az/iqtisadiyyat/azerbaycanda-sigortalanacaq-investisiyalarin-yuxari-heddi mueyyen-edilib

# Оценка влияния статуса мегарегулятора центрального банка на развитие страхового рынка страны

**Ага-Керим Гаджиев**
PhD, Главный научный сотрудник
Института Экономики Министерства Науки и Образования
Азербайджанской Республики
a.h.haciyev@gmail.com

**Резюме:** Как показывает накопленный опыт в мировой практике по использованию модели мегарегулирования в финансовом секторе при данной структуре управления обеспечиваются ряд преимуществ в реализации функций контроля и регулирования. Однако наряду с этим в системе управления формируются ряд новых проблем, таких как, конфликт интересов, разработка общего (единого) приоритета развития и т.д. В статье оценивается эффективность используемой модели мегарегулирования применяемой в управлении финансовым сектором экономики и предлогаются решения ряда задач по совершенствованию системы управления

**Ключевые слова**: финансовый сектор, мегарегулятор, центральный банк

**UOT: 338.242.4;**
**JEL: G18**

DOI: https://doi.org/10.36719/2707-9317/04/92-107

# Improving banking services based on digital transformation of public bank financial technologies

**Gulnara Fataliyeva**
Institute of Economics of the Ministry of Science and Education, leading researcher, i.f.d
AZ1143, H. Javid Ave. 115, Baku, Republic of Azerbaijan
E-mail: feteliyevagulya@gmail.com
Phone: (+99455) 636-58-09
https://orcid.org/0000-0001-8918-6160

**Ayten Bayramova**
Baku Business University, graduate student
Baku, Republic of Azerbaijan
E-mail: aytenbayramova092002@gmail.com
Phone: (+99470) 337-17-04

**Abstract:** This study examines how Xalq Bank has improved its banking services through the application of financial technologies (FinTech) and digital transformation. The banking sector has been a rapidly changing and developing field in recent years, especially with the introduction of digital technologies, significant advances have been made in the delivery of banking services. Xalq Bank provides faster, more convenient and safer services to customers by applying modern financial technologies. This transformation has improved both the bank's internal operations and customer services.

**Key words:** Financial technologies (FinTech), Digital transformation, Banking services, Banking sector, Customer services, Application of financial technologies, Fast services, Digital banking, Mobile banking, Online loans, Payment systems, Contactless payments, Information security, Big Data, Artificial intelligence, Local and global collaborations, International standards, Customer experience, Banking operations

# Xalq bank maliyyə texnologiyalarının rəqəmsal transformasiya əsasında bank xidmətlərinin təkmilləşdirilməsi

**Gülnarə Fətəliyeva**
Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutu, aparıcı elmi işçi, i.f.d
AZ1143, H.Cavid pr. 115, Bakı, Azərbaycan Respublikası
E-mail: feteliyevagulya@gmail.com
https://orcid.org/0000-0001-8918-6160

**Aytən Bayramova**
Bakı Biznes Universiteti, magistrant
Bakı, Azərbaycan Respublikası
E-mail: aytenbayramova092002@gmail.com

**Xülasə:** Bu araşdırmada Xalq Bankın maliyyə texnologiyalarının (FinTech) tətbiqi və rəqəmsal transformasiya vasitəsilə bank xidmətlərinin necə təkmilləşdirildiyi öyrənilir. Bank sektoru son illərdə sürətlə dəyişən və inkişaf edən bir sahə olmuşdur, xüsusilə rəqəmsal texnologiyaların tətbiqi ilə bank xidmətlərinin təqdimatında əhəmiyyətli irəliləyişlər əldə edilib. Xalq Bank, müasir maliyyə texnologiyalarını tətbiq edərək, müştərilərə daha sürətli, daha rahat və daha təhlükəsiz xidmətlər təqdim etməkdədir. Bu transformasiya həm bankın daxili əməliyyatlarını, həm də müştəri xidmətlərini təkmilləşdirmişdir.

**Açar sözlər:** Maliyyə texnologiyaları (FinTech),Rəqəmsal transformasiya, Bank xidmətləri, Bank sektoru, Müştəri xidmətləri, Maliyyə texnologiyalarının tətbiqi, Sürətli xidmətlər, Rəqəmsal bankçılıq, Mobil bankçılıq, Onlayn kreditlər.

**JEL D22 UDC 334**

## Giriş/İntroduction

Son illərdə dünya üzrə bank sektoru sürətli bir rəqəmsal transformasiya dövrünü yaşayır. İnnovativ maliyyə texnologiyalarının (FinTech) tətbiqi, müştəri ehtiyaclarının daha sürətli və effektiv şəkildə qarşılanmasını təmin edir. Xalq Bank, Azərbaycanın ən böyük kommersiya banklarından biri olaraq, rəqəmsal transformasiyanı öz fəaliyyətinə uğurla inteqrasiya etmişdir. Bu bank, müasir texnologiyalarla bank xidmətlərini təkmilləşdirmək və müştərilərinə daha çevik, sürətli və təhlükəsiz xidmətlər təqdim etmək üçün maliyyə texnologiyalarından geniş şəkildə istifadə edir.

Rəqəmsal transformasiya, yalnız bankın müştəri xidmətləri deyil, həm də daxili əməliyyatlarını daha effektiv və şəffaf etmək məqsədini güdür. Ənənəvi bankçılıq xidmətlərindən rəqəmsal və mobil bankçılığa keçid, kredit müraciətləri, ödəniş sistemləri və digər maliyyə əməliyyatları sahələrində inqilabi dəyişikliklərə səbəb olmuşdur. Bu dəyişikliklər müştərilərin bank xidmətlərindən istifadəsini daha rahat və çevik hala gətirir, eyni zamanda bankların maliyyə əməliyyatlarını daha sürətli və etibarlı şəkildə yerinə yetirməsinə imkan verir.

Xalq Bankın maliyyə texnologiyalarına (FinTech) investisiya qoyaraq rəqəmsal transformasiya prosesini həyata keçirməsi, bankın xidmət keyfiyyətini artırmış, müştəri məmnuniyyətini yüksəltmiş və bazarda daha güclü mövqe tutmasına səbəb olmuşdur. Bankın bu transformasiyası, həmçinin Azərbaycan maliyyə sektorunun modernləşməsinə və qlobal rəqabət mühitində üstünlük əldə etməsinə töhfə verməkdədir.

Bu araşdırmanın məqsədi, Xalq Bankın maliyyə texnologiyalarını necə tətbiq edərək bank xidmətlərini təkmilləşdirdiyini və rəqəmsal transformasiya prosesinin bankın fəaliyyətinə olan təsirini öyrənməkdir. Araşdırmada, bankın müştəri xidmətləri, ödəniş sistemləri, mobil bankçılıq tətbiqləri və digər rəqəmsal xidmətlər sahəsindəki yenilikləri və tətbiq etdiyi texnoloji həlləri ətraflı şəkildə təhlil ediləcəkdir.

Beləliklə, Xalq Bankın rəqəmsal transformasiyası, yalnız bankın strateji məqsədlərinə xidmət etməklə yanaşı, həm də Azərbaycanın maliyyə sektorunun gələcək inkişafına yönəlmiş mühüm bir addım olaraq qiymətləndirilə bilər.

**Əsas hissə/Main part**

**Abstract:** One of the reforms carried out in Azerbaijan is related to the construction of e-government. In the strategic documents of the state adopted in this direction, e-government is defined as a goal to cover all spheres of socio-economic life. In particular, in recent years, the provision of electronic social services in a wide range and the development of the e-health system have attracted attention. The article examines the features of the organization and development of the e-health system. In the context of globalization, the development trends taking place in the social, including the health care system are evaluated. In particular, the processes taking place in the e-health system are outlined, and the government level expresses its attitude to the organization of the e-health system. Also, the article examines the development problems of the e-health system in Azerbaijan and offers on the development of this service.

**Key words:** e-Government, Social Policy, Social Services, Health System, digital medical services.

**UDC: 338:61; JEL: I10.**

# Səhiyyə xidmətlərinin elektronlaşdırılması problemləri

**Nəriman Hacıyev**
i.f.d.
Azərbaycan Dövlət İqtisad Universiteti, doktorant.
E-mail:narimangd@yahoo.com

**Xülasə:** Azərbaycanda həyata keçirilən islahatlardan biri də elektron hökümət quruculuğu ilə bağlıdır. Bu istiqamətdə qəbul edilən dövlətin strateji sənədlərində elektron hökümətin sosial-iqtisadi həyatın bütün sahələrini əhatə etməsi bir məqsəd olaraq müəyyən edilmişdir. Xüsusilə də son illərdə elektron sosial xidmətlərin geniş müstəvidə göstərilməsi və elektron səhiyyə sisteminin inkişaf etdirilməsi diqqəti cəlb edir. Məqalədə elektron səhiyyə sisteminin təşkili və inkişaf xüsusiyyətləri tədqiq edilir. Qloballaşma şəraitində sosial, o cümlədən səhiyyə sistemində baş verməkdə olan inkişaf meylləri dəyərləndirilir. Xüsusilə də elektron səhəhiyyə sistemənində baş verən proseslər qabardılır və hökümətlər səviyyəsində elektron səhiyyə sisteminin təşkili məsələlərinə münasibət bildirilir. Həmçinin, məqalədə Azərbaycanda elektron səhiyyə sisteminin inkişaf problemləri araşdırılaraq, bu xidmətin inkişafı ilə bağlı təkliflər irəli sürülür.

**Açar sözlər:** elektron hökümət, sosial siyasət, sosial xidmətlər, səhiyyə sistemi, rəqəmsal tibb xidmətləri.

**UDC: 338:61; JEL: I10.**

## Giriş

Sosial inkişaf – sosial qayğının artırılmasını, bu sahədə göstərilən xidmətlərin davamlı olaraq keyfiyyətinin yüksəldilməsini ön plana çəkir. Ölkəmizdə sosial siyasət davamlı olaraq genişlənməkdə, bu sahədə silsilə tədbirlər həyata keçirilməkdədir. Azərbaycan Konstitusiyasında dövlətin - xalqın və hər bir vətəndaşların rifahının yüksəldilməsinə, onların sosial müdafiəsinin və layiqli həyat səviyyəsinin qayğısına qalmağı bir vəzifə olaraq müəyyən etmişdir [1]. Ölkəmizdə qəbul edilən “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”ində sosial inkişafın müasir standartlara uyğunlaşdırılması da bir məqsəd olaraq seçilmişdir [2]. Bu baxımdan da, əhaliyə sosial xidmətlərin göstərilmə mexanizmlərinin və tənzimlənmə sisteminin səmərəliliyinin artırılması xüsusi zərurətdən çıxış edir. Məhz bu kimi mühüm müddəalardan çıxış edərək, göstərə bilərik ki, artıq ölkəmizdə sosial xidmətlərin nəinki yaxşılaşdırılması, həm də onlara olan əlçatanlığın artırılması və keyfiyyətinin yüksəldilməsi əsas məqsəd olaraq müəyyənləşmişdir. Belə ki, dünya təcürbəsində ilk olaraq Azərbaycanda sosial xidmətlərin yeni rəqəmsal plaformalarda təşkilinin institutsional – təşkilatı əsasları yaradılmaqdadır. Müasir sosial – iqtisadi inkişafının yeni mərhələsi [4;5;6]:

- insan kapitalının rolunun artırlması;
- əhaliyə göstərilən sosial xidmətlərin keyfiyyətinin yüksəldilməsi;
- bu xidmətlərə əlçatanlığın artırılması və onların elektronlaşdırılması kimi vacib istiqamətlər ilə təqdim olunmalıdır.

Belə baxış artıq ölkəmizin təcürbəsində reallaşmaqla, yaxın on ildə əsas strateji xətt kimi dövlət siyasətinin tərkib hissəsinə çevriləcəkdir.

**Qloballaşma şəraiti və sosial siyasətdə baş verən inkişaf meylləri**

Müasir dünyamızda sosial siyasət əksər dövlətlərin aparıcı fəaliyyət istiqamətlərindən birinə çevrilmişdir. Göstərmək lazımdır ki, qlobal dünyamızda sosial proseslərin idarə edilməsinə diqqət artmaqla, bu sahədə həyata keçirilən tədbirlərin əhatə dairəsi genişlənməkdədir. Xüsusilə də bu tip tədbirlər cəmiyyətlərin bütün sahələrinin inkişafında mühüm amil kimi diqqəti cəlb edir. Həmçinin, sosial siyasət strategiya – proqram xarakterli olmaqla, hazırda sivilizasiyaların inkişaf istiqamətini tərənnüm etməklə, qlobal ziddiyyətlərin həllində vacib bir vasitə kimi çıxış edir. Bütün bu kimi baxışlara baxmayaraq, böhran proseslərinin baş verməsi və dərinləşməsi - sosial varlıqların bütün sahələrinə nüfuz etməklə, gərginliklər və qarşıdurmalar da yaradır. Məhz belə bir şəraitlərdə, sosial

siyasətlərin idarə edilməsi və tənzimlənməsi - cəmiyyətin inkişafının təmini üçün yeni – innovativ yolların axtarışını əsaslandırır. Qlobal proseslər artıq dövrümüzün – yəni üçüncü minilliyin başlanğıcında post-sənaye sivilizasiyasına keçidi sürətləndirmişdir [7]. Nəticədə, dünyamızın sosial məkanında:

- Birincisi, qlobal sosial problemlərin dərinləşməsi (işsizlik, işçi qüvvəsinin kütləvi beynəlxalq miqrasiyası);
- İkincisi, insan həyatının prioritetinə əsaslanmaqla, davamlı inkişafın yeni paradiqmasının meydana gəlməsi kimi hadisələr tez-tez müşahidə olunur.

Hazırki dövrümüzdə qloballaşma cəmiyyətlərin bütün sahələrində, xüsusilə kəskin böhran prosesləri ilə özünü göstərməkdədir. Nəticə olaraq, bəzi neqativ sosial təsirlər, daha doğrusu bu kimi problemlər baş verir:

- İqtisadi artım tempinin səngiməsi;
- İnsanların rifah səviyyəsinin aşağı düşməsi;
- Əhali arasında gəlirlər üzrə qeyri-bərabərliyin sürətlənməsi;
- Demoqrafik göstəricilərin pisləşməsi;
- Ekoloji qeyri-sabitliyin artması;
- Sosial xidmətlərin dəyərinin yüksəlməsi və s.

Təbii ki, bütün bu kimi xoşagəlməz və mənfi təsirlər törədən hallar dövlətin sosial siyasətdə ciddi dəyişiklər etməsi kimi məsələni gündəmə gətirir. Digər tərəfdən, sosial xidmətlər ilə bağlı qlobal çağırışlar da sosial siyasətlərə yenidən baxılmasını aktuallaşdırır. Qeyd edilməlidir ki, hələ əvvəlki əsrin ikinci yarısından başlayaraq, qərb dünyasında sosial sahələrdə islahatlar tendensiyası müşahidə olunur. Bu amil də sosial yönümlü (modelli) əksər dövlətlərin daxili siyasətinin tənzimlənməsini tələb etmişdir. Belə tip problemləri və onların yaratdığı nəticələri aradan qaldırmaq üçün vətəndaşların rifah durumunu yaxşılaşdıran proqramlara təkrarən baxmaq kifayət etməmiş, həm də əhalinin sosial fəallığını artıra biləcək, ictimai təşkilatların stabil fəaliyyətini təmin edəcək yeni hədəflər və sosial tənzimləmə mexanizmləri yaratmaq bir zərurətə çevrilmişdir [8; 10]. Qlobal proseslərin dərinləşməsi şəraitində, dövlətlərin iqtisadi və sosial strukturlarında islahatların həyata keçirilməsi əsas siyasət məqsədi olmamış, həm də:

- İnsanların ehtiyaclarını nəzərə almaq üzrə tədbirlərin genişləndirilməsi;
- Sosial proseslərə diqqətin artırılması;
- Müasir sosial siyasət modelinin hazırlanması;
- Sosial xidmətlərin təqdiminin asanlaşdırılması;
- Fərqli sosial fəaliyyət subyektlərinin maraqlarının əlaqələndirilməsi zərurətləri yaranmışdır.

Təcrübə deməyə əsas verir ki, hər bir cəmiyyətdə sosial həyatın bütün aspektlərinin nəzərə alınması zəruriliyi dövlətin və regionun inkişaf xüsusiyyətlərindən (iqtisadi, sosial-mədəni, siyasi və s.) irəli gələn daxili səbəblərdən qaynaqlanmaqdadır. Eyni zamanda, dünya müstəvisində qlobal ekoloji təhlükəsizlik, maliyyə-iqtisadi sabitliyin pozulması, ictimai-siyasi dəyişikliklərin baş verməsi sosial problemlərin həllində səngimələri artırır.

Müasir dövrdə sosial sferanın idarə olunmasının ən vacib problemlərdən biri həm beynəlxalq, həm də ölkələr müstəvisində hökumətlərin müxtəlif səviyyələrindəki fəaliyyətlərinin ardıcıl və sistemli olmaması ilə bağlıdır. Belə ki, sosial konsolidasiyanın yüksəkliyi: sosial qruplar arasında qarşılıqlı tərəfdaşlıq mexanizmlərinin yaradılmasına, bu qrupların davranışı üzrə normativ sərhədlərin formalaşdırılmasına və belə sərhədlərin pozulmasına görə məsuliyyətin müəyyən edilməsinə əsaslı şəkildə təsir göstərir. Həmçinin, dövlətlərin sosial dəstək mexanizmlərinin genişləndirilməsinə ehtiyac artır ki, bu amil də sosial-ekoloji təhlükəsizliyin yaradılması, insanların sosial müdafiəsi üçün şərait yaxşılaşdırılması və rifah səviyyəsinin yüksəlməsi, əmək şəraitinin yaxşılaşdırılması baxımından vacib elementlərdən hesab olunur [9].

Müasir dünyada həyat keyfiyyəti konsepsiyasına yenidən baxılmaqdadır, çünki, belə yanaşma - ictimai təxəyyüldə tədricən ekoloji problemlərin həlli və vətəndaşların sağlamlığı üçün risklərin azaldılması ilə əlaqələndirildirilir. Digər tərəfdən, belə baxış həm də iqtisadi artımın ləngiməsi bahasına başa gəlsə də müasir dövlətçilyin başlıca tənzimləyici amili rolunu oynamaqdadır. Hazırki dövrümüzdə, həyat keyfiyyəti çərçivəsində bu kimi istiqamətlər daha çox irəli çəkilir:

- İstehlakçı sağlamlığının ekoloji cəhətdən qorunması;
- Sağlam həyat tərzinin təbliğinin güclənməsi;
- Doğumdan gözlənilən ömür uzunluğunun artırılması;
- Təhlükəsiz mal-məhsulların, o cümlədən dərman və kosmetik məhsullarının istehsalı;
- İstehsal edilən məhsulların, göstərilən xidmətlərin ekoloji cəhətdən təmizlik meyarlarının müəyyən edilməsi və s.

Nəticə etibarı ilə, ekoloji təhlükəsizlik amilləri - sosial problemlərlə bilavasitə bağlı hesab edilir və onların sosial siyasət mexanizmlərinə daxil olunması və həlli istiqamətlərinin əsaslandırılması artıq dövlətlərin götürdüyü beynəlxalq öhdəliklərdən hesab edilir. Qeyd edilməlidir ki, eko-sosial təhlükəsizlik standartları getdikcə müasir cəmiyyətin həyatına sürətlə nüfuz etməkdədir və buna ehtiyaclar da artmaqdadır. Artıq, bu kimi tələblər vətəndaş və informasiyalı cəmiyyəti institutlarının fəaliyyətinin başlıca istiqamətinə çevrilib, ictimai-siyasi proseslərdə belə tələblərin rolu davamlı şəkildə güclənməkdədir. Həm də belə baxışlar demokratik dövlət quruculuğunda, hökümətlərin iqtisadi-sosial qərarların qəbulunda başlıca nəzərə alınmalı şərtlərdən biri kimi dəyərləndirilməkdədir. Göstərmək lazımdır ki, qlobal və regional müstəvidə ekoloji tarazlığın təmin olunmasında və bu baxımdan zəruri, operativ qərarların qəbulunda da insan-həyat keyfiyyəti amili və ekoloji tələblər önə çəkilir [11].

Sosial siyasət seçimi və vəzifələri həm strateji, həm də taktiki məqamlara əsaslanmalıdır. Belə seçimlərin də hər biri insan amilinə söykənməli və onun inkişaf konsepsiyasının həyata keçirilməsi ilə bağlı olmalıdır. İnsan inkişaf konsepsiyası ilə bağlı geniş dünyagörüşünün və onun sosial-hüquqi bazasının yaradılması müasir inkişafın əsas şərtlərdən biri olmalı və belə yaranış rəqəmsal və bilik iqtisadiyyatı ilə birbaşa əlaqələndirilməlidir. Müasir təcürbə göstərir ki [12], sosial problemlərin həllinə bir neçə istiqamət üzrə yanaşmaq düzgün olar:

- Birincisi, dövlətin innovativ və bilik iqtisadiyyatı quruculuğu şəraitində sosial siyasət müəyyən edilməlidir. Bu siyasətin əsas subyektlərinin konkretləşdirilməsi, onun əlaqələndirici və nəzarət mexanizmlərinin yaradılması zəruridir.
- İkincisi, sosial siyasətin həyata keçirilməsi cəmiyyətdə məmnunluq yaratmalı, bu sahədə vergi sisteminin təkmilləşdirilməsinə, təkmil hüquqi bazanın formalaşdırılmasına və sosial infrastruktur müəssisələrinin inkişafına qayğı artırılmalıdır. Eyni ilə bu sahədə digər zəruri və çevik mexanizmlər tətbiq etməklə, hər bir insanın maddi və mənəvi inkişafı ilə bağlı dəstək yolları dərinləşdirilməlidir.
- Üçüncüsü, hər bir fərdin sosial siyasətin tam hüquqlu subyekti kimi sosial fəaliyyətinin stimullaşdırması təmin olunmalıdır. Belə baxışda əsas məqsəd kimi - sağlam və tam hüquqlu bir insanın öz maddi-mənəvi inkişafına və perspektivlərinə hər cür şəraitin yaradılması önə çəkilməlidir.

Sosial xidmətlərin yeni eraya, daha dəqiq ifadə etsək rəqəmsal dünyaya keçidi – perspektivdə insanların və cəmiyyətlərin daha yüksək səviyyəli – keyfiyyətli sosial xidmətlərə olan tələbinin ödənilməsini aktuallaşdırır. Bu baxımdan hesab edirik ki, xidmətlərə əlçatanlığın artması cəmiyyətdə bir mühüm şərt olaraq irəli sürülməli, insanların ehtiyac və istəklərinin dəyişməsi – onların tələbləri ilə uzlaşdırılmalıdır. Təbii ki, modern dünya sürətlə dəyişdikcə, qlobal inkişaf prosesləri dərinləşdikcə insanların sosial tələbləri artıq daha çox şəxsiləşir və şəxsiyyətin inkişafını təmin edəcək anlama gəlir. Nəticədə, dəyişən dünyamızda – insanın tələbi və təklifi arasında təminatverici bir ortaq məxrəcin tapılması zərurəti artır və bu dövlətlərin sosial-iqtisadi siyasətlərinin aparıcı qüvvəsinə çevrilir.

Müasir dünyamızda ekoloji cəhətdən məqbul hesab olunacaq yaşayış səviyyəsinin yaradılması da bir mühüm məqam kimi gündəmdə dayanır. Belə baxış artıq dünya səviyyəsində davamlı olaraq qabardılır və ciddi müzakirə obyektinə çevrilir. Sosial – inkişafın ekoloji baxımdan yaxşılaşması və rəqəmsallaşması həm də sosial həyatın dəyərinin və keyfiyyətinin artırılması vəzifələrini dövlətlərin qarşısına həlli vacib bir məsələ kimi qoymaqdadır. Qlobal dünyada sürətlə yayılmaqda olan rəqəmsallaşma və yaşıllaşdırma ideyaları sosial həyatın da aparıcı devizinə çevrilməkdədir və əksər dövlətlər belə prinsipial yanaşmanı özlərinin sosial siyasətinin tərkib hissəsi kimi qəbul edir. Mövcud prinsipial yanaşma həm də müasir dünyamızın xilası və gələcək nəsillər üçün gözəl irsin yaradılması kimi də səsləndirilir [12]. Qeyd olunmalıdır ki, fəal sosial siyasət forması kimi belə baxışın

mahiyyətində:

- Cəmiyyətlərin yeni sosial inkişaf mərhələsinə keçid;
- Sosial xidmətlərin dövlət səviyyəsində elektronlaşdırılması ilə onlara əlçatanlığın yüksəldilməsi;
- Təqdim edilən xidmətlərin keyfiyyətinin artırılması;
- İctimai həyatda yeni dəyərlərin yaradılması;
- İqtisadiyyatın və biznesin bütün sahələrinin rəqəmsal platformalarda inkişafı;
- Fərdi və yaradıcı düşüncə tərzinin təşəkkül tapması;
- Ekoloji dünyagörünüşünün cəmiyyətdə bir mənalı olaraq qəbul edilməsi kimi mühüm istiqamətlər dayanmaqdadır.

Sosial inkişaf proseslərin sürətlənməsi və idarə edilməsində dövlətin müdaxilə səviyyəsi də konkretləşdirilməli və bu müdaxilə stimullaşdırıcı aspektlərdən çıxış etməlidir. Hesab edirik ki, Azərbaycanda da sosial siyasət və onun dövlət səviyyəsində həyata keçirilməsi müasir rəqəmsal – texnoloji və ekoloji prinsiplər ilə daha çox əlaqələndirilməlidir.

**Hökumət səviyyəsində elektron səhiyyə sisteminin təşkili**

Səhiyyə sistemi müasir cəmiyyətdə insanların sağlamlığının təmini və əmək fəaliyyətinin həyata keçirilməsində mühüm təsir vasitələrindən birinə çevrilməkdədir. Hazırkı səhiyyə sistemi - əvvəlki fəaliyyət sahəsindən getdikcə daha çox mütərəqqi inkişafı ilə fərqlənir. Belə ki, rəqəmsal və bilik iqtisadiyyatının tətbiqi, tətbiq olunan yeni nəsil tenoloji avadanlıqlardan istifadə imkanlarının artması - bu sahədə də inqilabi dəyişikliklərin baş verməsi üçün güclü əsas yaratmışdır. Tam əminliklə qeyd edə bilərik ki, artıq son illərdə əksər ölkələrin səhiyyə sistemlərində islahatların dərinləşməsi, bu sahədə yeni nəsil proqram və rəqəmsal texnologiyaların tətbiqi sürətlənməkdədir. Belə yanaşma həm də beynəlxalq təşkilatların hesabatlarında və müvafiq sahədə keçirilən tədbirlədə də öz əksini tapır. Belə ki, 2018-ci ildə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) keçirdiyi tədbirdə (71-ci assambleyada) rəqəmsal səhiyyənin inkişafı və onun qlobal strategiya (qigital health) çərçivəsində həyata keçirilməsi bir vəzifə olaraq müəyyənləşdirilmişdir [13]. Hesab etmək olar ki, müasir səhiyyə sisteminin inkişafı və bu sahədə göstərilən xidmətlərin əhatə dairəsinin genişlənməsi onların yalnız informasiya – kommunikasiya texnologiyaları (İKT) üzərində həyata keçirilməsi ilə yekunlaşmamalı, bu proses həm də perspektivdə mövcud sistemin fəaliyyətinin səmərəliliyinin artırılması, əlçatanlığının və keyfiyyətinin davamlı olaraq yaxşılaşdırılması kimi məqsədlər ilə əlaqələndirilməlidir [12].

Müasir inkişaf prosesləri deməyə əsas verir ki, rəqəmsal səhiyyə yeni bir xidmət növü kimi təzahür edir və onu - müxtəlif məhsulları və texnologiyaları özündə ehtiva edən bir konsepsiya olaraq qəbul etmək düzgün olar. Belə bir baxışdan çıxış edərək, müasir səhiyyə sahəsində informasiya texnologiyaların geniş tətbiqinin zəruriliyini danılmaz bir fakt kimi də göstərmək olar. Nəticə olaraq, bu sahədə informasiya texnologiyalarının tətbiq imkanlarını belə bir formada təsnifləşdirmək məqsədəuyğundur:

- Səhiyyə sistemində davamlı və ani xidmətlərin formalaşması;
- Xəstələrə müraciət əsasında sağlamlığının bərpası və qorunması ilə bağlı məlumatların verilməsi;
- Həkimlər üçün zəruri elektron bazanın yaradılması və istifadəsinin asanlaşdırılması;
- Müalicə prosesləri ilə bağlı məlumatların tərtibi və işlənməsi;
- Elektron tibbi tarixlərin qeydiyyatı;
- Təmassız görüşlərin təşkili;
- Resept – müalicə qeydiyyat sistemlərinin müasir versiyasının təqdimi;
- Müalicənin yeni formatda təqdimi (süni intellekt, robotexnika, mobil cihazlar, 3D çap və s. versiyada);
- Həkimlərin davamlı təhsilinin təşkili (distant və s.);
- Dərman perepartlatının və tibbi məhsulların geniş onlayn satışının yaradılması;
- Tibbi xidmətlərin müasir monitorinq sisteminin yaradılması;
- Xidmətlərinin keyfiyyətinə nəzarətin təkmilləşdirilməsi;
- Səhiyyə sahəsində ağıllı sistemlərin və tibbi informasiya sistemlərinin yaradılması.

Təcrübə göstərir ki, hazırda tibbi mənbələrdə və informasiya sistemlərində məlumatların həcminin sürətlə artması tibb-səhiyyə təşkilatlarının, o cümlədən də həkimlərin işini çətinləşdirir. Belə

problemlərin həllinə daha çox digər sahələrdə baş verən yeniliklər fonunda baxmaq düzgün olar. Artıq yeni texnologiyaların, əsasən də süni intellektlərin bu sahədə tətbiqinə ehtiyac artmaqdadır [14;15]. Belə intellektual köməkçilər hesab edirik ki, keyfiyyətli tibbi yardımın göstərilməsində mühüm təsir vasitəsi kimi çıxış edə bilər. Səhiyyə sistemində süni intellektlərin və digər müasir texnologiyaların indidən geniş formada tətbiqi məsələlərinə baxılmalıdır. Xüsusilə də rəqəmsal səhiyyə xidmətlərinin sürətli inkişafı və bu sahədə tibbi informasiya sistemlərindəki məlumatların həcminin əsaslı səviyyədə artması bu baxışımızı bir daha təsdiq edir. Azərbaycanda elektron səhiyyə xidmətlərinin təşkili imkanlarının artırılması - artıq sosial siyasətin yeni bir istiqaməti kimi çıxış etməlidir. Ölkəmizdə vətəndaşların xəstəlikləri üzrə tibbi yardımın göstərilmə prosesləri tam avtomatlaşdırılmalı, səhiyyə sisteminin fəaliyyəti üzrə zəngin informasiya bazası yaradılmalıdır [17;18;19]. Belə yanaşma əhalinin sağlamlığının qorunması və demoqrafik göstəricilərdə baş verən dəyişikliklər haqqında məlumatların uçotunun təşkili sistemini təkmilləşdirər. Hesab edirik ki, elektron səhiyyə xidmətlərinin funksional imkanlarını və əhatə sferasını aşağıdakı sxemə uyğun təqdim etmək daha məqsədəuyğun olar (sxem 1).

***Sxem 1.***

**Elektron səhiyyə xidmətlərinin funksional fəaliyyət istiqamətləri**




***Mənbə: Sxem müəllif tərəfindən hazırlanmışdır.***

## Azərbaycanda elektron səhiyyə xidmətlərinin inkişaf problemləri

Azərbaycanda elektron səhiyyə xidmətlərinin təşkili və inkişafı istiqamətində müəyyən tədbirlər həyata keçirilməkdədir. "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"ında: insan kapitalının davamlı şəkildə inkişafı və əhalinin sosial xidmətlərə olan ehtiyacın yüksək keyfiyyət tələbləri əsasında təmin edilməsi vacib istiqamətlərdən biri kimi əsaslandırılır. Xüsusilə də innovasiyaların sürətlə tətbiqi və bu sahədə də onların geniş mənimsənilməsi zərurətlərini göstərir. Belə yanaşma həm də əhalinin sosial müdafiəsi, sağlamlığının qorunması kimi istiqamətlərdə də öz həllini tapmalıdır. Sənəddə göstərilir ki, ölkədə keyfiyyətli səhiyyə xidmətlərinə əlçatanlıq davamlı yaxşılmaqdadır və bu kimi amillərin nəticəsidir ki, ana və uşaq ölümü göstəricilərinin azalması, doğulanda gözlənilən ömür uzunluğunun və gözlənilən sağlam ömür uzunluğun artması müşahidə olunur. Həmçinin, COVİD-19 pandemiyasına qədər ana ölümünün hər 100000 nəfər diri doğulana 14,9, körpə ölümünün hər 1000 nəfər diri doğulana 11, beş yaşa qədər uşaq ölümünün 13, gözlənilən ömür uzunluğunun 73,2 yaş təşkil etməsi baş vermişdir [3]. Haqlı olaraq, strateji sənəddə belə baxış qabardılır: rəqəmsal texnologiyaların səhiyyə sisteminə tətbiqi nəticəsində çevik və təmassız tibb xidmətləri genişləndirilir və daha çox insan səhiyyə xidmətlərinə ucuz çıxış əldə edir. Xəstəliklərdən qorunmanın yalnız güclü səhiyyə sistemi ilə mümkün olmaması və bu sahədə

elektron texnologiyalarının da məqsədli və geniş tətbiqi vacib hesab olunur [3]. Ölkəmizdə elektron səhiyyə-tibb xidmətlərinin təşkili dövlət proqramlarına və layihələrinə əsaslanaraq həyata keçirilməkdədir. Belə ki, bu sahədə mövcud irəliləyişləri aşağıdakı kimi xarakterizə etmək mümkündür:

- Elektron sağlamlıq kartlarının tətbiqinə başlanmasıı və vətəndaşların tibb məlumatlarının rəqəmsal formatda saxlayan kart sisteminin yaradılması.
- Səhiyyə sahəsində elektron tibbi qeydiyyat sisteminin inkişaf etdilməsi. Bunun əsasında xəstələrin tibbi məlumatlarının onlayn qeydiyyatdan keçirməsi və həkimlərin bu bazadan istifadə imkanlarının artırlması.
- Telemeditsina xidmətinin tətbiqi ilə bağlı fəaliyyətin təşkili və bu sahədə məsafədən tibbi məsləhətin və müayinələrin həyata keçirilməsi istiqamətində fəaliyyət planın hazırlanması.
- E-resept sisteminin tədricən tətbiqi və bu əsasda dərmanlar üzrə tərtib edilən reseptlərinin elektron formatda təqdimi.
- Ölkədə Mərkəzi Səhiyyə Məlumat Bazasının Yaradılması və s. [4;5;6].

Ölkəmizdə həyata keçirilən səhiyyə islahatlarının davam etdirilməsi mühüm strateji istiqamətlərdən biri hesab olunmaqdadır. Hesab edirik ki, elektron tibb-səhiyyə sahəsində daha dərin və geniş istiqamətli islahat tədbirlərinin həyata keçirilməsinə ehtiyac vardır. Çünki, bu sahədə həllini gözləyən ciddi problemlər mövcuddur. Belə ki, Azərbaycanda səhiyyə sistemində texnoloji infrastrukturun tətbiqi səviyyəsi yetərli hesab olunmur. Xüsusilə də ucqar ərazilərdə və bölgələrdə internet və texnologiya infrastrukturunun zəif təşkili - rəqəmsal səhiyyə xidmətlərinin tətbiqində ciddi çətinliklər yaradır. Digər tərəfdən, bu sahədə də informasiya təhlükəsizliyi problemi həll olunmalıdır. Əsasən də xəstələrin şəxsi və tibbi məlumatlarının qorunması məsələsi bu baxımdan daha önə çəkilməlidir. Eyni zamanda, elektron sistemlərin kibertəhlükəsizlik risklərinə qarşı həssas olması problemi də ölkəmizdə diqqət mərkəzində saxlanmalıdır.

Azərbaycanın səhiyyə sahəsində tibbi kadrların, o cümlədən xəstələrin rəqəmsal texnologiyaların istifadəsi ilə bağlı ciddi maarifləndirmə tədbirlərinin həyata keçirilməsi zəruridir. MDB məkanında olduğu kimi ölkəmizdə də elektron tibbi məlumatların idarə edilməsi ilə bağlı vahid standartların tətbiqinə ehtiyac yaranmışdır. Bu sahədə əsas problemlərdən biri də elektron səhiyyə sisteminin inkişafı ilə bağlı geniş maliyyə resurslarına olan ehtiyacdır. Azərbaycanda elektron səhiyyə xidmətlərinin tətbiqi ilə bağlı islahatların dərinləşdirilməsinə ehtiyac vardır və xüsusilə bu sahədə bir sıra tədbirlər diqqət mərkəzində saxlanmalıdır (sxem 2).

***Sxem 2.***

**Azərbaycanda elektron səhiyyə xidmətləri ilə bağlı həyata keçirilməli olan əsas tədbirlər**




***Mənbə: Sxem müəllif tərəfindən hazırlanmışdır.***

## Nəticə

Azərbaycanda elektron səhiyyə sahəsi son illərdə əhəmiyyətli irəliləyişlər əldə etsə də, burada bir sıra mühüm problemlər hələ də qalmaqdadır. İlk növbədə, bu sahədə infrastruktur çatışmazlığı diqqət çəkir. Elektron səhiyyə xidmətlərinin səmərəli şəkildə fəaliyyət göstərməsi üçün müasir texnoloji infrastrukturların qurulması və regional inkişafın sürətləndirilməsi zəruridir. Xüsusən kənd yerlərində internet bağlantısının zəifliyi bu xidmətlərdən istifadədə çətinliklər yaradır. Məlumat təhlükəsizliyi və məxfilik məsələləri də elektron səhiyyənin inkişafında mühüm maneələrdən biridir. Xəstələrin şəxsi və tibbi məlumatlarının qorunması məqsədilə beynəlxalq standartlara uyğun təhlükəsizlik mexanizmlərinin tətbiqi vacibdir. Digər bir problem isə ixtisaslı kadr çatışmazlığıdır. Müasir texnologiyalarla işləmə bacarığına malik texniki və tibbi personalın sayının məhdudluğu, xüsusilə də həkimlərin və tibb işçilərinin yeni texnologiyalara adaptasiya prosesində çətinlik çəkməsi bu sahənin inkişafını ləngidir. Bununla yanaşı, elektron səhiyyə xidmətlərindən istifadənin genişləndirilməsi üçün ictimai maarifləndirmə tədbirlərinin artırılması böyük əhəmiyyət daşıyır. Bu cür xidmətlərin cəmiyyətdə tanıdılması və qəbul edilməsi elektron səhiyyə sisteminin uğurla həyata keçirilməsinə mühüm töhfə verə bilər. Nəhayət, elektron səhiyyə layihələrinin davamlılığı və inkişafı üçün yetərli maliyyə resurslarının ayrılması və səmərəli idarə edilməsi əsas şərtlərdən biridir. Yalnız bu sahəyə kifayət qədər kapital yatırmaqla texnoloji yeniliklərin tətbiqini təmin etmək mümkündür.

Səhiyyə xidmətlərinin elektronlaşdırılması yalnız texniki baxımdan öz həllini tapmamalıdır. Bu proses həm də əsaslı konteksdən çıxış etməli və burada sistem üzrə münasibətlərin təşkili, sistemdaxili vəziyyətin qiymətləndirilməsi və insanların sağlamlığının yüksəldilməsi kimi mühüm məqamlar əhatə olunmalıdır. Həmçinin, müasir rəqəmsal səhiyyə xidmətləri özlüyündə - insanların sağlam həyat tərzinin yaradılmasına töhvə verməli, tibbi xidmətlərin keyfiyyətinin və əlçatanlığının yüksəldilməsini təmin etməlidir. Azərbaycanda elektron səhiyyə xidmətlərinin inkişafı məqsədi ilə müvafiq dövlət strategiyasının və proqram xarakterli sənədlərin qəbulu da xüsusi əhəmiyyət kəsb edər.

## İstifadə olunmuş ədəbiyyat/Referances


1. Azərbaycan Respublikasının Konstitusiyası. https://justice.gov.az/documents/AZ/Konstitusiya.pdf.
2. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. Bakı: - 2021. http://e-qanun.az/framework/46813.
3. Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası. Bakı: - 2022. https://e-qanun.az/framework/50013
4. "Azərbaycan Respublikasında səhiyyənin maliyyələşdirilməsi sisteminin islahatı və icbari tibbi sığortanın tətbiqi Konsepsiyası"nın təsdiq edilməsi haqqında. Azərbaycan Respublikası Prezidentinin sərəncamı. Bakı, 10.01.2008. https://e-qanun.az/framework/13091.
5. Azərbaycan Respublikası Səhiyyə Nazirliyi. https://sehiyye.gov.az
6. Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi. https://tabib.gov.az
7. Садовая Е.С., Сауткина В.А., Зенков А.Р. Формирование новой социальной реальности: технологические вызовы. Москва, ИМЭМО РАН, 2019. 190 с.
8. Панова Т.В. Информационные технологии в российской медицине – перспективы и возможности. Экономические науки, 2017, № 5, сс. 53-56.
9. Плотичкина Н., Морозова Е., Мирошниченко И. Цифровые технологии: политика расширения доступности и развития навыков использования в Европе и России. Мировая экономика и международные отношения.2020,№ 4, сс.70-83.
10. Atlas of eHealth Country Pro les: the Use of eHealth in Support of Universal Health Coverage: Based on the Findings of the Third Global Survey on eHealth. WHO, 2016. https://www.who.int/publications/i/item/atlas-of-ehealth-country-pro les the-use-of-ehealth-in-support-of-universal-health-coverage.
11. Ghosh J. How to Finance Social Protection in Developing Countries in the Age of COVID-19. International Labour Organization, 13.05.20. https://iloblog.org/2020/05/13/how-to-nance-social-protection-in-developing-countries-in-the-age-of covid-19/.

12. National eHealth Strategy Toolkit. Geneva, World Health Organization, International Telecommunication Union, 2012. 223 p. Available at: https://www.itu.int/dms_pub/itu-d/opb/str/D-STR-E_HEALTH.05-2012-PDF-E.pdf
13. 71-я сессия Всемирной Ассамблея Здравоохранения. https://www.who.int/ru/about/governance/world-health-assembly/seventy-first
14. New Health Technologies. Managing Access, Value and Sustainability. Paris, OECD Publishing, 2017. 231 p.
15. Murray E., Hekler E.B., Andersson G., Collins L.M., Doherty A., Hollis C., Rivera D.E., West R., Wyatt J.C. Evaluating Digital Health Interventions Key Questions and Approaches. American Journal of Preventive Medicine, 2016,vol.51, iss.5,pp.843-851.
16. ILO Monitor: COVID-19 and the World of Work. Third Edition. International Labour Organization, 29.04.2020. https://www.ilo.org/wcmsp5/groups/public/@dgreports/@dcomm/documents/briengnote/wcms_743146.pdf.
17. Clayton H. The WHO-ITU National eHealth Strategy Toolkit as an Effective Approach to National Strategy Development and Implementation. Studies in health technology and informatics, August 2013, vol. 192, pp.
18. Shared Responsibility, Global Solidarity: Responding to the Socio-Economic Impacts of COVID-19. UNSDG, March 2020. 26 p. https://unsdg.un.org/sites/default/ les/2020-03/SG-Report-Socio-Economic-Impact-of-Covid19.pdf.
19. Health at a Glance: Europe 2018. State of Health in the EU Cycle. Paris, OECD Publishing, 2018. 211 p.

## Проблемы электронизации здравоохранения

**Нариман Гаджиев**
К.э.н., Азербайджанский Государственный Экономический Университет, докторант.
Электронная почта: narimangd@yahoo.com

**Резюме:** Одна из реформ, проводимых в Азербайджане, связана со строительством электронного правительства. В стратегических документах государства, принятых в этом направлении, в качестве цели определяется охват электронным правительством всех сфер социально-экономической жизни. Особенно в последние годы обращает на себя внимание широкое внедрение электронных социальных услуг и развитие системы электронного здравоохранения. В статье рассматриваются особенности организации и развития электронной системы здравоохранения. В условиях глобализации оцениваются тенденции развития, происходящие в социальной сфере, в том числе в системе здравоохранения. В частности, процессы, происходящие в системе электронного здравоохранения, преувеличены и выражено отношение к вопросам организации системы электронного здравоохранения на уровне правительств. Также в статье рассматриваются проблемы развития системы электронного здравоохранения в Азербайджане и выдвигаются предложения по развитию этой услуги.

**Ключевые слова:** электронное правительство, социальная политика, социальные услуги, система здравоохранения, цифровые медицинские услуги.

DOI: https://doi.org/10.36719/2707-9317/04/117-124

# Modern tendencies of export promotion policy implementation under globalization

**Ramil Askerov**
PhD student of Azerbaijan State Agrarian University

Changes in the nature of productive forces and production relations in society have led to radical changes in the reliable international distribution of substance. It is primarily characterized by the specialization of production, the location of productive forces and the distribution of production across economic regions. However, there are still characteristic points that dominate the international division of labor as a whole. Thus, developed countries specialized in the export of industrial products, as well as science and capital-intensive products at the beginning of the XXI century, as well as in the XX century, and this process is also manifested during the transition to the post-industrial society. When the problem is approached from this aspect, the policy of export stimulation, which is the most important component of the state regulation of foreign economic activity, is implemented by developed countries in different forms, and when approached from a certain aspect, in fact, the realization of this process against the background of export promotion is not so important for developed countries. This is due to the fact that transnational corporations belonging to developed countries already have sufficient economic power in the world, and this economic power determines their entry into the markets of different countries.

**Key words:** export, international trade, export promotion, export structure, post-industrial era.

# Qloballaşma şəraitində ixracı təşviq siyasətinin reallaşdırılmasının müasir meyilləri

**Ramil Əsgərov**
Azərbaycan Dövlət Aqrar Universitetinin doktorantı
ramil_asgarov@mail.ru

**Xülasə.** Cəmiyyətdə məhsuldar qüvvələrin və istehsal münasibətlərinin xarakterində baş verən dəyişikliklər mahiyyət etibarlı beynəlxalq bölgüsünündə də köklü dəyişikliklərin yaranmasına gətirib çıxarmışdır. Bu, ilk növbədə, istehsalın ixtisaslaşması, məhsuldar qüvvələrin yerləşməsi və istehsalın iqtisadi rayonlar üzrə paylanması xüsusiyyətləri ilə səciyyələnir. Lakin bununla belə, bütövlükdə beynəlxalq əmək bölgüsündə dominantlıq edən xarakterik məqamlar hələ də qalmaqdadır. Belə ki, inkişaf etmiş ölkələr XX əsrdə olduğu kimi XXI əsrin əvvəllərində də daha çox sənaye məhsullarının, eləcə də elm və kapitaltutumlu məhsulların ixracı üzrə ixtisaslaşmışdır və bu proses postsənaye cəmiyyətinə keçid dövründə də özünü büruzə verməkdədir. Problemə bu aspektdən yanaşdıqda, xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsinin ən mühüm tərkib hissəsini təşkil edən ixracın stimullaşdırılması siyasətini inkişaf etmiş ölkələr müxtəlif formada reallaşdırırlar və müəyyən aspektdən yanaşdıqda, əslində bu prosesin ixracı təşviq fonunda gerçəkləşdirilməsi, inkişaf etmiş ölkələr üçün o qədər də əhəmiyyət daşıyan hal deyil. Bu onunla bağlıdır ki, inkişaf etmiş ölkələrə məxsus transmilli korporasiyalar artıq dünyada kifayət qədər iqtisadi gücə malikdir və bu iqtisadi güc onların müxtəlif ölkələrin bazarlarına daxil olmasını şərtləndirir.

**Açar sözlər:** ixrac, beynəlxalq ticarət, ixracın təşviqi, ixracın strukturu, postsənaye dövrü.

**Giriş.** İxracın təşviqinə istiqamətlənmiş tədbirlər, xüsusilə inkişaf etməkdə olan ölkələr üçün mühüm əhəmiyyətə malikdir. İnkişaf etməkdə olan ölkələr əsas etibarı ilə karbohidrogen resurslarının, xammal resurslarının və ən yaxşı halda yarımfabrikatların istehsalı və ixracı üzrə ixtisaslaşmışlar. Bu qəbildən inkişaf etməkdə olan ölkələr üçün iqtisadiyyatın yeni sahələrinin ixraca meyilliliyini artırmaq, ixracının təşviqi istiqamətində müxtəlif tənzimləmə tədbirlərini həyata keçirmək və dəstək mexanizmlərindən istifadə etmək mühüm strateji əhəmiyyətə malikdir. Doğrudur, inkişaf etmiş ölkələr də müxtəlif situasiyalarda ixracın dəstəklənməsinə, o cümlədən, daxili bazarı qorumaq məqsədilə idxalın qarşısının alınmasına yönəldilmiş himayəçilik tədbirlərindən istifadə edirlər. 2008-2010-cu illərdə ABŞ öz avtomobil sənayesini yapon rəqabətindən qorumaq məqsədi ilə davamlı olaraq proteksionist tədbirlərə üstünlük vermiş və bu da ABŞ-ın avtomobil sənayesinin xarici rəqabətin əlverişsiz təsirlərindən qorunmasında önəmli rol oynamışdır.

**İxracı təşviq siyasətinin formalaşmasının tarixi əsasları və səciyyəvi cəhətləri.** İxracı təşviq siyasəti ixracın stimullaşdırılması siyasətinin mühüm tərkib hissəsini təşkil etməklə, xarici iqtisadi fəaliyyətin tənzimlənməsində önəmli rol oynayır. Bazar münasibətləri şəraitində sistemin səciyyəvi cəhətləri kimi iqtisadi müstəqillik, tələb və təklif, azad rəqabət mühiti önəmli rol oynasa da, dövlətin sosial-iqtisadi proseslərə, o cümlədən, xarici iqtisadi fəaliyyətə müdaxiləsi inzibati vasitələrlə deyil, daha çox dolayı vasitələrlə, o cümlədən, iqtisadi vasitələrlə gerçəkləşdirilməyə başladı. Sosial-iqtisadi proseslərin və eləcə də xarici iqtisadi fəaliyyətin tənzimlənməsinə istiqamətlənmiş tədbirlər sistemində dövlətin proseslərə birbaşa müdaxiləsi əsas etibarı ilə qanunvericilik aktları vasitəsilə gerçəkləşdirilirdi. İxracın stimullaşdırılmasına istiqamətlənmiş tədbirlər və bu tədbirlər sisteminin mühüm tərkib hissəsini təşkil edən ixracın dəstəklənməsi tədbirləri isə əsas etibarı ilə iqtisadi vasitələrlə, yəni dolayı metodlarla gerçəkləşdirilirdi.

İxracın təşviqi istiqamətində tədbirlər ixracın stimullaşdırılmasında önəmli rol oynadığından, bu proses beynəlxalq ticarətin inkişafında da özünəməxsus mərhələləri nəzərdə tutur. Qeyd etmək lazımdır ki, dünyada ixracın həcminin genişləndirilməsi prosesi və eləcə də beynəlxalq ticarətin dərinləşməsi müxtəlif tarixi mərhələləri özündə əks etdirir. Birinci tarixi mərhələ, ilk növbədə, XV əsrdən XIX əsrin əvvəllərinə qədər olan dövrü nəzərdə tutur. Xüsusilə, XV-XVIII-ci əsrlərdə manfakturalı istehsal demək olar ki, ixrac fəaliyyətində önəmli rol oynamışdı. Bu isə sənayeləşmə

prosesinin inkişaf etməməsi ilə sıx əlaqədar olmuşdur. Bundan əlavə, XIII-XIX əsrin ortalarında xarici ticarət fəaliyyətində və eləcə də ixracın inkişafında sənaye inqilabları da əhəmiyyətli təsir vasitəsinə çevrilmişdir. Bu dövr böyük coğrafi açılımlar və kommersiya sahəsində iri miqyaslı dəyişikliklərlə də səciyyələnmişdir. Bu dövr üçün səciyyəvi cəhətlərdən biri, ilk növbədə, Qərbi Avropada merkantilizm cərəyanının surətlə inkişaf etməsi, qiymətli metalların yığımına meyilin daha çox artması ilə sıx bağlıdır. Merkantilistlər ixrac fəaliyyətindən daha çox gəlir əldə edilməsini nəzərdə tutuldular və bu zaman bir sıra hallarda inhisarçılıq meyillərindən də istifadə edilirdi [1, s. 448].

Beləliklə, merkantilizm cərəyanının sürətlə yayıldığı dövrdə böyük coğrafi açılımların təsiri altında ixrac fəaliyyəti daha çox genişləndi və bu da, ilk növbədə, ərzaq məhsullarının ixrac edilməsi ilə şərtlənirdi. İlk növbədə, yeni dünyadan köhnə dünyaya ərzaq məhsullarının ixrac edilməsi, əhalinin qida məhsullarına olan tələbatın ödənilməsində müsbət meyllər yaratdı. Lakin bütün bunlara baxmayaraq, sənaye inqilablarının ixrac fəaliyyətində rolu və eləcə də ixrac fəaliyyətinin stimullaşdırılmasında Avropa ölkələrinin fəaliyyəti kifayət qədər müvəffəqiyyətli təsirlərə malik olmuşdur. Belə ki, XIX əsrdə sənaye inqilabları, ilk növbədə, dəmir yollarının genişləndirilməsi hesabına müxtəlif ölkələrə məhsulların daşınmasını şərtləndirirdi. Bütün bunlar xüsusilə, Avropanın sənayecə inkişaf etmiş ölkələrində ixracçıların daha çox gəlir əldə etmələrinə səbəb olurdu. Bu baxımdan, Böyük Britaniyada sənayenin surətli inkişafı beynəlxalq ticarətin həcminin artmasına səbəb olmaqla yanaşı, eyni zamanda Qərbi Avropa, ABŞ və Yaponiyada da sonradan sürətli iqtisadi inkişafda önəmli rol oynamağa başladı [2].

Avropa ölkələrində ixrac fəaliyyətinin stimullaşdırılması prosesinə sərbəst ticarətin reallaşdırılması prosesləri də əhəmiyyəti dərəcədə təsir göstərmişdir. Belə kimi, 1850-1880-cı illəri əhatə edən minimum ticarət məhdudiyyətləri dövrü məhz liberallaşma siyasətinin mühüm tərkib hissəsi kimi səciyyələnirdi və bu prosesdən, ilk növbədə, Böyük Britaniya və digər Qərbi Avropa ölkələri yararlana bildilər. Çünki, həmin ölkələrdə sənaye inqilabları nəticəsində daha məhsuldar sənaye məhsulları istehsal edilirdi və həmin ölkələrdə ixracın stimullaşdırılmasına istiqamətlənmiş tədbirlər məhz sərbəst ticarətin populyarlıq qazanması hesabına digər ölkələrə də göndərilirdi [3, s. 727].

İxrac fəaliyyətinin inkişafında ikinci mərhələ XIX əsrin II yarısından XX əsrin I yarısına qədər olan dövrü əhatə edir. Bu dövrü tam mənası ilə industrial cəmiyyətin inkişafı kimi də səciyyələndirmək olar. Həmin dövr üçün ixrac fəaliyyətində səciyyəvi cəhət, ilk növbədə, iqtisadiyyatın surətlə sənayeləşməsi ilə bağlıdır. Yeni istehsal sahələrinin, o cümlədən, maşınqayırma, elektrotexnika, kimya sənayesinin sürətli inkişafı xarici ticarətin, eləcə də ixracın həcminin də genişləndirilməsinə istiqamətləndi. Bu proseslərdə sürətli sənayeləşmə prosesi inhisarçı istehsal birliklərinin yaranmasına gətirib çıxardı ki, bu da son nəticədə Qərbi Avropa ölkələrinin beynəlxalq ticarət və ixrac fəaliyyətində liderliyini sürdürməsinə səbəb oldu. Prosesi səciyyələndirən ən mühüm məqamlardan biri də ondan ibarətdir ki, XX əsr bütövlükdə ikinci dünya müharibəsinin baş verməsi ilə səciyyələndi və bu da ticarət fəaliyyətində özünəməxsus izlər buraxdı.

İ.e.d. A.F.Abbasov hesab edir ki, sənaye inqilablarının gerçəkləşdirilməsi iqtisadi qloballaşmanın və beynəlxalq ticarətin inkişafına böyük töhfələr versə də, nəqliyyat mərkəzlərinin inkişaf etdirilməsi bu prosesi daha da sürətləndirmişdir. Belə ki, məhz Aralıq dənizi və Hind okeanı arasında Süveyş kanalının tikilməsi ticarətin inkişafında maneələrin qarşısının alınmasına və nəqliyyat proseslərinin daha sürətlə irəliləməsinə əlverişli şərait yaratmışdır. Birinci və ikinci dünya müharibəsi, eləcə də 1929-1933-cü illəri əhatə edən böyük durğunluq dövrü iqtisadi qloballaşmanın sürətinin aşağı düşməsinə gətirib çıxarmışdır. İkinci dünya müharibəsindən sonrakı dövrdə soyuq müharibə proseslərinin daha yüksək dalğalara malik olması beynəlxalq ticarətin inkişafında da zəruri təmayüllərin yaranmasına səbəb olmuşdur [4, s.64-65].

Birinci və ikinci dünya müharibəsi, eləcə də 1929-33-cü illər iqtisadi böhranları nəinki beynəlxalq ticarətin və ixrac fəaliyyətinin məhdudlaşmasına, eləcə də beynalxalq valyuta sisteminin böhranına da gətirib çıxardı. Bu dövrdə sənaye məhsullarının istehsal həcmi nəzərə çarpacaq dərəcədə aşağı düşdü. Prosesin yaranmasını şərtləndirən ən mühüm məqam ondan ibarət idi ki, məhz xüsusilə də, birinci dünya müharibəsində, eləcə də ikinci dünya müharibəsində dövlətlərin proteksionist siyasətə əl atmaları ixracın həcminin aşağı düşməsində, eləcə də ixracı təşviq siyasəti ilə bağlı fərqli

problemlərin yaranmasına gətirib çıxardı. Amerika iqtisadçı C.Saks hesab edir ki, dünyanın hər hansı bir ölkəsinin iqtisadi müvəffəqiyyəti, ilk növbədə, xarici ticarətin inkişaf səviyyəsindən bilavasitə asılıdır. Əgər dövlət bu və ya digər rəqabət qabiliyyətli iqtisadiyyat formalaşdırmağı bacarmırsa və ya dünya iqtisadiyyatından özünü müxtəlif formada təcrid edirsə, bütün bunlar xarici ticarətində ixracın genişləndirilməsinə tam mənası ilə mənfi təsir göstərə bilir [5, s. 244].

Beynəlxalq ticarətin inkişafında sonuncu mərhələni də əslində, iki yarımmərhələlərə ayırmaq mümkündür. Bunlardan birincisi, dünya təsərrüfatçılıq sistemində kapitalizm və sosializminin bir-biri ilə rəqabəti. Bu 1979-cu illəri əhatə edir. Bu dövrdə beynəlxalq mübadilə və ticarət prosesi yüksək templə irəliləmiş, bu zaman BMT-nin, Beynəlxalq Valyuta Fondunun, Ümumdünya Ticarət Təşkilatının rolu da artmışdır. Lakin bununla belə, iki sistem arasındakı soyuq müharibə prosesləri bu və ya digər şəkildə prosesə mənfi təsir göstərmişdir. Beynəlxalq rəqabət mühitində dinamizmin yaranması, yeni inteqrasiya birliklərinin ixrac fəaliyyətində rolu və digər bu kimi amillər, eyni zamanda XX əsrin sonlarında SSRİ-nin beynəlxalq iqtisadi münasibətlər sistemindən silinməsi və dünya sosialist təsərrüfatçılıq sisteminin süqutu, bütövlükdə qloballaşmanın ixrac fəaliyyətində rolunun daha da artmasına gətirib çıxardı. Üçüncü mərhələnin ikinci yarımmərhələsi isə dünya iqtisadiyyatının yeni qloballaşma dövrü kimi səciyyələnir və 1990-cı ildən hal-hazıradək olan dövrü əhatə edir. Bu zaman postsənaye cəmiyyətinin inkişaf etdirilməsi, eləcə də iqtisadiyyatın beynəlmilləlləşdirilməsi, qlobal informasiya kommunikasiya məkanının yaranması, qlobal iqtisadiyyatın inkişafında əhəmiyyətli rol oynamaqla yanaşı, ixrac fəaliyyətinin də sürətlə genişlənməsinə imkan vermişdir.

**Postsənaye cəmiyyətinə keçid proseslərinin ixracı təşviq siyasətində rolu.** Aparılan araşdırmalar göstərir ki, XX əsrin sonu XXI əsrin əvvəllərindən etibarən ixracın stimullaşdırmasına istiqamətlənmiş tədbirlər çərçivəsində dünya bazarlarına yeni oyunçular daxil oldu. Belə ki, postsənaye cəmiyyətinin inkişafı və xidmətlər sektorunun formalaşdırılması, internet və sosial şəbəkələrdən istifadə prosesinin genişləndirilməsi prosesə əhəmiyyəti dərəcədə müsbət təsir göstərdi. Bu baxımdan son zamanlar dünya iqtisadiyyatında Böyük Britaniya, Almaniya, Fransa ilə yanaşı, Sinqapurun, Çinin və Hindistanın rolunun artması da mahiyyət etibarı ilə ixracın genişləndirilməsində əhəmiyyətli rol oynamaqla yanaşı, adı çəkilən ölkələrin beynəlxalq bazarlara daxil olmasını hər il daha da genişləndirməkdədir [6, s. 703].

Sənaye cəmiyyətindən postsənaye cəmiyyətinə keçid bütün hallarda hər bir ölkənin daxilində bu və ya digər şəkildə struktur dəyişiklərinin yaranmasına da gətirib çıxarır. Bu, iqtisadiyyatın strukturunda sənaye, xidmət və kənd təsərrüfatı sahələrinin xüsusi çəkisində dəyişikliklərin yaranmasına gətirib çıxarmaqla yanaşı, həm də digər makroiqtisadi problemlərin meydana çıxmasına da səbəb olur. Belə ki, postsənaye cəmiyyətinə keçid, ilk növbədə, iqtisadiyyatın avtomatlaşdırılmasına, informasiya texnologiyalarının tətbiqinə səbəb olur. Bütün bunlar isə, ilk növbədə, əmək məhsuldarlığının yüksəldilməsi fonunda, həm də işsizliyin səviyyəsinin yüksəlməsinə gətirib çıxarır. Belə ki, əmək məhsuldarlığının yüksəldilməsi daha çox iqtisadiyyatın modernləşdirilməsi ilə sıx bağlıdır. Bu zaman işsizlik səviyyəsi artır, daha doğrusu, əvvəllər 10 nəfər işçinin yerinə yetirdiyi işi, postsənaye cəmiyyətində avtomatlaşdırmanın və modernləşmənin köməyi ilə 1 nəfər işçi yerinə yetirir. Bu da ixtisaslı işlərə olan tələbatı artırmaqla yanaşı, eyni zamanda xidmət sferasına daha çox axını şərtləndirir. Beləliklə, postsənaye cəmiyyətində iqtisadiyyatın sahələri arasında ziddiyət güclənir. Bu da insan kapitalına və bilik iqtisadiyyatına yönəlik tədbirlərin genişlənməsi fonunda məşğulluğun strukturunda da dəyişikliyə gətirib çıxarır. Nəticə etibarı ilə aşağı ixtisasa malik olan işçi qüvvəsində işsizlik meyilləri artır [7, s.80]. Proseslərə məhz bu aspektdən yanaşdıqda, hesab etmək olar ki, hər bir ölkənin milli iqtisadiyyatının daxilində yaranan struktur dəyişiklikləri son nəticədə ixracın səviyyəsinə və bütövlükdə xarici iqtisadi fəaliyyətə də əhəmiyyətli şəkildə təsir göstərir. Odur ki, daha çox sənaye məhsullarının və ölkənin ixtisaslaşması səviyyəsinə uyğun olaraq, bu və ya digər fərqli məhsulların istehsalına və ixtisaslaşmasına, eləcə də istehsalına və onun rəqabət qabiliyyətinin yüksəldilməsi diqqət yetirilməlidir ki, həmin məhsullar dünya bazarında sürətlə reallaşdırmaq imkanına malik olsun.

Yuxarıda qeyd etdiyimiz kimi, dünya iqtisadiyyatında baş verən dəyişikliklər, eləcə də hər bir ölkənin iqtisadiyyatında baş verən struktur dəyişiklikləri ixrac prosesinə, ixracın stimullaşdırılmasına,

o cümlədən, ixracın təşviqinə öz təsirini göstərir. Bu baxımdan ixrac fəaliyyətində müvəffəqiyyətli dəyişiklərə nail olmaq, ixracın strukturunda zəruri dəyişiklikləri həyata keçirmək və ölkənin iqtisadi təhlükəsizliyini təmin etmək məqsədilə dünya iqtisadiyyatında baş verən dəyişikliklərə adekvat reaksiyaların göstərilməsi vacibdir. Nəzərə almaq lazımdır ki, hazırda müasir dünya ekoloji cəhətdən təmiz məhsul istehsalına, eləcə də karbon emisiyaları aşağı olan məhsullara daha çox üstünlük verir. Bu baxımdan ixrac fəaliyyətinin gerçəkləşdirilməsi zamanı yaşıl iqtisadiyyatın prinsipləri və spesifik xüsusiyyətləri də diqqət mərkəzində saxlanılmalıdır. Belə ki, ekoloji problemlər, ilk növbədə, karbon emissiyalarından yaranır və ətraf mühitin çirklənməsinə səbəb olur. Bütün bunlar isə hər bir ölkənin iqtisadiyyatında əlavə xərclərin yaranmasına gətirib çıxarır. Bunun üçün, ilk növbədə, normal təsərrüfat fəaliyyətinə mənfi təsir göstərən tullantıların aradan qaldırılmasına, eləcə də təbii resursların çirklənməsinin qarşısının alınmasına, istehsal məqsədi ilə istifadə edilən məhsulun keyfiyyətinin yüksəldilməsinə xüsusi diqqət yetirilməlidir [8, s.554].

Müəllifin fikirlərinə onu da əlavə etmək lazımdır ki, yaşıl iqtisadiyyatın formalaşdırılması dünya iqtisadiyyatında özünəməxsus spesifik təmayüllər doğurur və bu təmayüllərin tərkibində, ilk növbədə, tullantılardan məhsul istehsal edilməsi, yəni tullantıların təkrar emala cəlb edilməsi də mühüm əhəmiyyət kəsb edir. Məhz belə bir şəraitdə istehsal edilən məhsulların ixracı daha çox rəqabət qabiliyyətinə malik olur. Bütün bunlar xüsusilə, Çin təcrübəsində, o cümlədən, bir sıra Cənub-Şərqi Asiya ölkələrinin təcrübəsində özünü daha çox doğrultmaqdadır.

Tullantıların təkrar emala cəlb edilməsi istehsal edilən məhsulun maya dəyərinin aşağı salınmasına səbəb olmaqla, rəqabət qabiliyyətinin yüksəldilməsini şərtləndirir. Belə bir şəraitdə isə dünya bazarına çıxarılan məhsullar həm ekoloji cəhətdən təmiz xarakteri daşımaqla yanaşı, həm də rəqabət qabiliyyətli olur və bu zaman məhsulun keyfiyyətinin yüksəldilməsi də ön plana çəkilir. Odur ki, ixracın stimullaşdırılması və ixracın təşviqi prosesi əslində, hər bir ölkənin iqtisadiyyatında baş verən struktur dəyişiklərindən, iqtisadiyyatdan strukturunda məhsul istehsalı prosesinin modernləşdirilməsindən, ekoloji cəhətdən təmiz texnologiyaların tətbiq edilməsindən bilavasitə asılı olduğundan, ixracın stimullaşdırılması və təşviqi istiqamətində tədbirlərin müvəffəqiyyətlə gerçəkləşdirilməsi üçün daha çox hər bir ölkənin iqtisadiyyatında zəruri modernləşmə proseslərinin aparılması məqsədəolardı.

Qeyd etdiyimiz kimi, ixracın stimullaşdırılmasında ixracın təşviqi önəmli rol oynayır. Lakin etiraf etmək lazımdır ki, ixracın təşviqi prosesi o zaman müvəffəqiyyətli nəticələr verə bilər ki, rəqabət qabiliyyətli məhsul istehsal edilsin və dövlət tərəfindən zəruri iqtisadi və qeyri-iqtisadi tədbirlər vasitəsi ilə ixracameyilli və ixrac fəaliyyəti gerçəkləşdirən təsərrüfat subyektlərinin mənafeyləri dəstəklənsin. Bu baxımdan, ixracın təşviqinə istiqamətlənmiş tədbirlər ixracın stimullaşdırılmasında önəmli rol oynuyur.

**Müasir şəraitdə ixracın təşviqində təşkilati strukturların rolu.** İxracın təşviqini həyata keçirən qurumlar ixracın təşviqinin mühüm təşkilati strukturları kimi dəyərləndirilir. Bu baxımdan, aparılan araşdırmalardan məlum olur ki, dünyada ilk dəfə ixracın təşviqi üzrə fəaliyyət göstərən qurumlar 1919-cu ildə Finlandiyada meydana çıxmış və sonralar digər ölkələrdə ardıcıl olaraq fəaliyyət göstərməyə başlamışlar.

Beynəlxalq iqtisadi münasibətlər sistemində və eləcə də dünya iqtisadiyyatında baş verən ardıcıl dəyişikliklər mahiyyət etibarı ilə ixracın təşviqinin stimullaşdırılması istiqamətində fəaliyyət göstərən qurumların ayrı ölkələrdə sayının daha da artmasına gətirib çıxarmışdı. Məsələn, belə bir faktı diqqətə çatdırmaq məqsədəuyğun olardı ki, son 25 ildə dünyada ixracın təşviqi istiqamətində fəaliyyət göstərən qurumların sayı 3 dəfədən çox artmışdır. Lakin reallıq ondan ibarətdir ki, postsovet məkanı ölkələrində ixracın təşviqi istiqamətində fəaliyyət göstərən qurumların yaradılması SSRİ-nin dağılmasından sonrakı dövrlərə təsadüf edir. Məsələn, MDB ölkələrini götürdükdə, bu ölkələrdə ilk dəfə olaraq, 2013-cü ildə Qazaxıstanda və sonralar Özbəkistanda ixracın təşviqi istiqamətində qurumlar fəaliyyətə başlamışdır. Aparılan araşdırmalar göstərir ki, ixracın təşviqi siyasəti əsas etibarı ilə ənənəvi məhsullara şamil edilmir. Məsələn, ölkəmizdə neft məhsullarının istehsalı prosesi iqtisadiyyatda, ümumi daxili məhsulda, eləcə də ixracın strukturunda önəmli rol oynadığından, eləcə də karbohidrogen resursları dünyanın enerji təhlükəsizliyinin təmin edilməsində əhəmiyyətli rol oynadığından, ixracın təşviqi prosesləri məhz karbohidrogen resurslarına ölkəmizin timsalında aid

edilə bilmir. Odur ki, qeyri-neft məhsullarının ixracının təşviqi prosesi daha çox diqqət mərkəzində saxlanılır. Respublikamızda da ixracın təşviqinə istiqamətlənmiş tədbirləri gerçəkləşdirən qurum kimi Azpromo ixracın təşviqi agentliyi fəaliyyət göstərir.

Dünya bankının məlumatlarından görünür ki, Avropa Birliyinə daxil olan ölkələrdə ixracın təşviqi istiqamətində həyata keçirilən tədbirlər sistemində kiçik və ortaq biznes qurumlarının payı təxminən 53%-i təşkil etmişdir. Xüsusilə, beynəlxalq ticarətin inkişafında aparıcı rol dövlətə məxsus deyil. Bu zaman iri, orta və kiçik subyektlər ixrac fəaliyyətində önəmli rol oynayır. Bu isə onunla bağlıdır ki, dövlət müəssisələrinə nisbətən daha çox çeviklik özəl sektora məxsusdur. Bundan əlavə, xaricdə məhsulların, xidmətlərin, bazarların istehsal təmayüllərini proqnozlaşdırmaq qabiliyyəti özəl şirkətlərdə daha yüksəkdir. Ona görə də ixracın təşviqi siyasəti təkcə dövlət təşkilatlarına deyil, özəl sahibkarların fəal iştirakı əsasında gerçəkləşdirilir. Dünya bankının sorğularından görünür ki, ixracın təşviqi agentlikləri büdcəsinin hər bir dolları orta hesabla Şərqi Avropa və Asiya ölkələrində 100 dollar, Latın Amerikası ölkələrində 70 dollar, Afrika ölkələrində 38 dollar, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına daxil olan ölkələrdə isə orta hesabla 5 dollar əlavə vəsait, yəni artım təmin edə bilmişdir. İxracın təşviqi agentliyinin büdcəsinin 10 % artması ölkələrin ixracının 0,6-1 % həcmində artmasını şərtləndirir [9].

Aparılan tədqiqatlar göstərir ki, dünya üzrə ixracın təşviqi agentliklərinin əsas müştərilərini kiçik və orta müssisələr təşkil edir. İxracın təşviqi agentliklərinin büdcələrinin nisbətən kiçik bir hissəsi iri ixracatçıların ixrac fəaliyyətini dəstəkləmək üçün sərf edilir. Dünyanın bütün regionlarında, o cümlədən, əksər ölkələrdə ixracın təşviqinə yönəldilmiş fəaliyyətin gerçəkləşdirilməsi zamanı əsas diqqət, kiçik orta müəssisələrə yönəldilir. Kiçik orta müəssisələr ixracın təşviqi prosesində ənənəvi ixracatçılar kimi çıxış edirlər. Məsələn, belə bir faktı diqqətə çatdırmaq olar ki, 2005-2010-cu illərdə Braziliyada ixracın təşviqi agentliklərinin fəaliyyəti nəticəsində təxminən daxili bazarın tələbatının ödənilməsində iştirak edən 300 min kiçik orta müəssisə sonralar ixrac fəaliyyətində önəmli rol oynamağa başladı ki, bu da Braziliya iqtisadiyyatında yeni ixracçılar nəslinin formalaşdırılmasında önəmli rol oynadı. Bu isə həm də onunla bağlı olmuşdur ki, adı çəkilən ölkədə kiçik və ortaq müəssisələrə, xarici bazarlara məhsul çıxarılması prosesi adı çəkilən qurum tərəfindən stimullaşdırılırdı [10, s. 257-265]. Fikirimizcə, Latın Amerikası ölkələrinin təcrübəsindən, o cümlədən, kiçik və orta müəssisələrin ixrac fəaliyyətində iştirak imkanlarının genişləndirilməsinə istiqamətlənmiş müvəffəqiyyətli təcrübədən ölkəmizdə də istifadə edilməsi, ixracın təşviqinin həyata keçirilməsi baxımından mühüm əhəmiyyət kəsb edən məqamlardan olardı.

Aparılan araşdırmalar göstərir ki, dünyada təşviqi istiqamətində fəaliyyət göstərən qurumların 41%-dən çoxunun xarici ölkələrdə özünəməxsus nümayəndəlikləri mövcuddur. İxracın təşviqi agentliklərinin öz nümayəndəliklərin 22%-i tropik Afrikada, 33 %-i Yaxın Şərq və Şimali Afrikada, 35 %-i Latın Amerikası ölkələrində, 47 %-i Şərqi Avropa və Asiya ölkələrində, 67 %-i isə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına daxil olan ölkələrdə fəaliyyət göstərir [11, p. 274-283].

İxracın təşviqinə istiqamətlənmiş tədbirlər ixraca dövlət dəstəyinin həyata keçirilməsindən bilavasitə asılıdır. İxracat dövlət dəstəyini həyata keçirən qurumlar bir qayda olaraq, ixracçıların dünya bazarlarında möhkəmlənməsinə, milli ixracatçılara pulsuz olaraq geniş xidmətlər göstərilməsinə istiqamətlənmiş tədbirlər həyata keçirirlər. İxracın təşviqi agentlikləri satıcılar və alıcılarla ixracçılara köməklik göstərməklə yanaşı, eyni zamanda konkret məhsullara tələbat üzrə araşdırmalar aparır. Bu proses daha çox beynəlxalq marketinq zəminində həyata keçirilir. Yerli məhsulların xarici bazarlara çıxarılması ilə bağlı çəkilən xərclərin müəyyən hissəsinin dövlət tərəfindən ödənilməsi ixracçılara maliyyə dəstəyinin gerçəkləşdirilməsində önəmli yerə və rola malik olur. Bu məsrəflər, daha doğrusu, ixracatçıların xarici bazarlara çıxarılması ilə bağlı xərclərin kateqoriyalarına diqqət yetirdikdə, onlara aşağıdakıları şamil etmək olar: -əmtəə nişanlarının qeydiyyatı və məhsulların sertifikatlaşdırılması; -xarici nümayəndəliklərin (ofis, anbar, pərakəndə satış məntəqələri, sərgi salonları və s.) saxlanılması; -xarici sərgilərdə iştirakın təmin edilməsi; -yerli məhsulların reklamı; -ixrac fəaliyyəti həyata keçirən təsərrüfat subyektlərində çalışan işçilərin təlimi, daha doğrusu, onların dünya bazarlarının tətbiqi istiqamətində fəaliyyətlərinin genişləndirilməsinə istiqamətlənmiş təlim keçirilməsi; -internet saytlarının açılması; -xarici bazarlarını öyrənilməsi ilə bağlı marketinq xidmətlərinin təşkili və həmin qurumların saxlanılması.

Aparılan araşdırmalar göstərir ki, ixracın stimullaşdırılması istiqamətində həyata keçirilən ixracın təşviqi siyasəti dövlətin iqtisadi siyasətinin mühüm tərkib hissəsinə çevrildikdə, eləcə də həm iqtisadi və həm də institusional vasitələrlə dəstəkləndiyi halda ixracın stimullaşdırılması prosesləri özünün faydalı nəticələrini verə bilər. Bütün bunlar isə dövlətin iqtisadi təhlükəsizliyinin təmin edilməsində idxalı əvəzetmə siyasətinin tam mənzərəsi ilə gerçəkləşdirilməsində, xarici bazarlara ixracın müvəffəqiyyətlə reallaşdırılaraq ixracın strukturunda zəruri dəyişiklərin həyata keçirilməsində önəmli rol oynamaq imkanına malik olur.

Müasir şəraitdə ixrac fəaliyyətini həyata keçirən təsərrüfat subyektləri, xüsusilə inkişaf etmiş ölkələrin timsalında daha çox özəl sektoru təmsil edirlər. Doğrudur, ixrac fəaliyyətini həyata keçirən təsərrüfat subyektlərinin ölçülərində transmilli korporasiylar önəmli rol oynayır. Daha doğrusu, transmilli korporasiyalar ixrac fəaliyyətində əmtəə dövrüyyəsinin həcminin genişlənməsində mühüm rol oynayırlar. Lakin bununla belə, kiçik və orta sahibkarlıq subyektləri də ixrac fəaliyyətinə yönəlmiş təsərrüfat fəaliyyəti həyata keçirirlər. İxracatçılara dövlət dəstəyinin göstərilməsi prosesi yuxarıda qeyd etdiyimiz kimi, XX əsrin əvvəllərindən etibarən formalaşmağa başlamışdır. İnkişaf etmiş ölkələrin istehsalçılarının xarici bazarlara çıxışı zamanı dövlət dəstəyi ilkin dövrlərdə önəmli rol oynamış, sonradan da inkişaf etmiş ölkələr bu və ya digər şəkildə önəm vermişlər. İnkişaf etmiş ölkələrdə ixracın təşviqi istiqamətində həyata keçirilən tədbirlər ilkin dövrlərdə önəmli rol oynasa da, lakin hazırda zaman-zaman istifadə edilir. Bu da xüsusilə, yeni məhsullar istehsal edildikdə baş verir. İnkişaf etmiş ölkələrin təcrübəsindən inkişaf etməkdə olan ölkələr də bu və ya digər şəkildə yararlanmaqla, onlara məxsus olan əmtəə istehsalçılarının xarici bazarlara çıxmasından dövlət dəstəyi praktikasından hazırda da istifadə edirlər. İnkişaf etməkdə olan ölkələrin istehsalçıları rəqabətin artdığı müasir şəraitdə ixracyönümlü yüksək texnologiyaları məhz öz milli iqtisadiyyatlarına yönəltməklə istehsal edilən məhsulun rəqabət qabiliyyətinin yüksəldilməsinə yönəldilmiş fəaliyyəti həyata keçirirlər. Bu baxımdan dünyanın yeni sənayeləşmiş ölkələrinin, o cümlədən, Koreyanın, Sinqapurun, Tayvanın təcrübəsi göstərir ki, ixraca dəstək siyasətinin həyata keçirilməsi həmin ölkələrdə yeni texnologiyalara, o cümlədən, elmtutumlu texnologiyalara əsaslanan məhsulların dünya bazarlarında mövqelərinin genişləndirilməsini şərtləndirmişdir. Çin təcrübəsi göstərir ki, ixracın təşviqinə istiqamətlənmiş dövlət siyasəti rəqabət qabiliyyətli məhsul istehsalına istiqamətlənmiş modernləşdirmə siyasəti ilə düzgün şəkildə əlaqələndirildiyi halda ölkənin dünya bazarında yerini və mövqeyini daha da yüksəltmək mümkündür. Təcrübə göstərir ki, Çində iqtisadiyyatın modernləşdirilməsi prosesi, ilk növbədə, tullantılardan hazır sənaye məhsulunu istehsalına keçidi özündə əks etdirən texnologiyalar əsasında həyata keçirilir. Bu da məhsul vahidinə çəkilən xərclərin aşağı salınmasına, eləcə də məhsulun maya dəyərinin aşağı salınmasına və rəqabətə davamlılığının yüksəldilməsinə və istehlakçıların həmin məhsulların qiymətlərinə əlçatanlığının yüksəldilməsinə gətirib çıxarmışdır.

**Nəticə.** Yuxarıda qeyd etdiyimiz kimi, dünya iqtisadiyyatında baş verən dəyişikliklər, eləcə də sənaye cəmiyyətindən postsənaye cəmiyyətinə keçid xarici iqtisadi fəaliyyətdə, o cümlədən, ixracın strukturunda da köklü dəyişikliklərin yaranmasına gətirib çıxarmışdır. Hazırda ixrac fəaliyyətinin obyektini təşkil edən məhsulları təsnifləşdirsək, belə qənaətə gəlmək olar ki, ixracda xammal və karbohidrogen resursları ilə yanaşı, əsas sənaye və elmtutumlu məhsullar, eləcə də xidmətlər üstünlük təşkil etməkdədir. Ümumiyyətlə, yüksək texnologiyalı məhsulların yaradılması üzrə ixtisaslaşmış inkişaf etmiş ölkələr dünya bazarının 50%-dən çoxunu təşkil edir. Başqa sözlə desək, yüksək texnologiyalı məhsullar dünya bazarında idxal-ixrac fəaliyyətinin 50%-dən çoxuna malikdir. Bu zaman həm istehsal prosesinin özünün, həm də istehsal olunan məhsulların elmtutumlu olması inkişaf etmiş ölkələrin sənaye məhsullarının beynəlxalq bazarlarda rəqabət qabiliyyətinin əhəmiyyətli dərəcədə yüksəlməsini şərtləndirən amil kimi qiymətləndirilə bilər.

***Açar sözlər:*** ixracı təşviq siyasəti, ixracın stimullaşdırılması, sənaye cəmiyyəti, postsənaye cəmiyyəti, kiçik və orta müəssisələr, ixracın təşviqinin təşkilati strukturları, ixracı təşviq agentliyi.

**İstifadə olunmuş ədəbiyyat / References**

1. Н.Розенберг, Л.Бирдцелл, Как Запад стал богатым: экономическое преобразование индустриального мира, 448 с. (How the West Grew Rich: The Economic Transformation of the Industrial World [1986]).
2. niv.ru/doc/encyclopedia/collier/articles/1451/mezhdunarodnaya-torgovlya-istoriya.htm
3. Поляк Г. Б. История мировой экономики: Учебник / Под ред. Г. Б. Поляка, А. Н. Марковой. - М.: ЮНИТИ, 2002. — 727 с.
4. A.F.Abbasov, İqtisadi inkişafın müasir meyilləri: qlobal çağırışlar, təhdidlər və perspektivlər.Monoqrafiya, Bakı, 2024, 576 s., s.64-65/
5. Сакс Дж. Рыночная экономика и Россия. М.: Экономика, 1994. С. 244.
6. Лук'яненко Д.Г., Поручник А. М., Колот А. М., Столярчук Я. М. Ресурси та моделі глобаль ного економічного розвитку: [монографія]. — К.: КНЕУ, 2011. - 703 с.
7. Мировая экономика, учебник под редакцией, А. С. Булатова. Москва Экономистъ, 2004. 734 с., с.80.
8. И.В. Липсиц, Экономика, Учебник для вузов, Москва, 2006, 656 с., с.554.
9. Cruz M. Do Export Promotion Agencies Promote New Exporters? World Bank Group Policy Research Working Paper 7004, August 2014. Available at: http://documents.worldbank.org/curated/en/285261468016258810/pdf/WPS7004.pdf (accessed 23.02.2017.
10. Lederman D., Olarreaga M., Payton L. Export Promotion Agencies - Do They Work? Journal of Development Economics, 2010, vol. 91, pp. 257-265. Available at: http://www.parisschoolofeconomics.eu/docs/ydepot/semin/texte0809/ OLA2008EXP.pdf (accessed 02.02.2017).
11. Kang K. Overseas Network of Export Promotion Agency and Export Performance: The Korean Case. Contemporary Economic Policy, 2011 April, vol. 29, no. 2, pp. 274-283.

# Современные тенденции реализации политики продвижения экспорта в условиях глобализации

**Рамиль Аскеров**
Аспирант Азербайджанского Государственного
Аграрного Университета

**Резюме:** Изменения в природе производительных сил и производственных отношений в обществе привели к радикальным изменениям в надежном международном распределении вещества. Он характеризуется прежде всего специализацией производства, размещением производительных сил и распределением производства по экономическим районам. Однако все же имеются характерные моменты, доминирующие в международном разделении труда в целом. Таким образом, развитые страны в начале XXI века, как и в XX веке, специализировались на экспорте промышленной продукции, а также наукоемкой и капиталоемкой продукции, и этот процесс проявляется и при переходе к пост- индустриальное общество. При подходе к проблеме с этого аспекта политика стимулирования экспорта, являющаяся важнейшей составляющей государственного регулирования внешнеэкономической деятельности, реализуется развитыми странами в разных формах, а при подходе с определенного аспекта фактически реализация этого процесса на фоне стимулирования экспорта не столь важна для развитых стран. Это связано с тем, что транснациональные корпорации, принадлежащие развитым странам, уже обладают достаточной экономической мощью в мире, и эта экономическая мощь определяет их выход на рынки разных стран.

**Ключевые слова:** экспорт, международная торговля, продвижение экспорта, структура экспорта, постиндустриальная эпоха.

DOI: https://doi.org/10.36719/2707-9317/04/125-133

# Indicators characterizing income inequality

**Jeyhun Mammadli**
Ministry of Science and Education Republic of Azerbaijan
Institute of Economics, doctoral student
E-mail: ceyhunmmli@gmail.com
https://orcid.org/0009-0003-4343-030X

**Abstract:** The article examines how income inequality affects the global social and economic situation and various indicators used to assess this inequality.

In addition to the Gini coefficient and the Lorenz curve, which are traditional measuring tools for in-depth analysis of income inequality, more complex indicators — Theil index and Atkinson index — were also considered. The article analyzed the real indicators of income inequality in different regions such as the USA, European Union countries, Latin America and Africa. These analyzes allow identifying the main causes of income inequality and indicate ways to reduce it.

**Key words:** income inequality, Gini coefficient, Theil index, Lorenz curve, Atkinson index

**UDC 330.1**
**JEL D31, D63, I32**

# Gəlir bərabərsizliyini xarakterizə edən göstəricilər

**Ceyhun Məmmədli**
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
İqtisadiyyat İnstitutu, doktorant
E-mail: ceyhunmmli@gmail.com
https://orcid.org/0009-0003-4343-030X

**Xülasə:** Məqalədə gəlir bərabərsizliyinin qlobal miqyasda sosial və iqtisadi vəziyyətə necə təsir etdiyi və bu bərabərsizliyin qiymətləndirilməsi üçün istifadə edilən müxtəlif göstəricilər araşdırılmışdır.

Gəlir qeyri-bərabərliyinin dərin təhlili üçün ənənəvi ölçü vasitələri olan **Cini əmsalı** və **Lorenz əyrisi** ilə yanaşı, daha mürəkkəb göstəricilər — **Theil indeksi** və **Atkinson indeksi** də nəzərdən keçirilmişdir. Məqalədə ABŞ, Avropa İttifaqı ölkələri, Latın Amerikası və Afrika kimi müxtəlif regionlar üzrə gəlir bərabərsizliyinin real göstəriciləri təhlil olunmuşdur. Bu təhlillər gəlir bərabərsizliyinin əsas səbəblərini müəyyənləşdirməyə imkan verir və onun azaldılması yolları göstərilir.

**Açar sözlər:** gəlir bərabərsizliyi, Cini əmsalı, Theil indeksi, Lorenz əyrisi, Atkinson indeksi

**UDC 330.1**
**JEL D31, D63, I32**

## Giriş

Gəlir bərabərsizliyi müasir dövrdə qlobal sosial-iqtisadi problemlərin ən əsas məsələlərindən biri olaraq qalmaqdadır. Hər bir ölkənin iqtisadi inkişaf səviyyəsindən asılı olmayaraq, gəlirin bərabər paylanmaması sosial ədalətsizliklərə, siyasi qeyri-sabitliyə və iqtisadi geriləmələrə səbəb ola bilər. Gəlir bərabərsizliyinin dərəcəsini dəqiq ölçmək və müxtəlif ölkələr arasında müqayisə etmək üçün bir çox göstəricilərdən istifadə edilir. Bunlar arasında ən geniş yayılmış göstərici Cini əmsalı və onun vizual təsviri hesab olunan Lorenz əyrisi gəlir bərabərsizliyinin ümumi mənzərəsini əks etdirir.

Lakin, gəlirin paylanmasını daha dərin təhlil etmək və sosial rifah baxımından bərabərsizliyi qiymətləndirmək üçün Theil indeksi və Atkinson indeksi kimi daha mürəkkəb göstəricilər də istifadə olunur. Bu indekslər yalnız ümumi bərabərsizlik səviyyəsini deyil, həm də gəlirin qruplararası və qruplar daxilində paylanmasını qiymətləndirir. Eyni zamanda, Atkinson indeksi gəlir bərabərsizliyinə qarşı cəmiyyətin həssaslıq səviyyəsini nəzərə alaraq sosial siyasətlərin effektivliyini ölçməyə imkan verir. Hər bir indeksin özünün mənfi və müsbət cəhətlərini anlamaq üçün onları daha ətraflı şəkildə təhlil edək.

## Əsas mətn

Gəlir bərabərsizliyi qlobal miqyasda sosial və iqtisadi problemlərin əsas səbəblərindən biri olaraq qəbul edilməkdədir. Bu bərabərsizliyin dərəcəsini qiymətləndirmək və müxtəlif ölkələr arasında müqayisələr aparmaq üçün ən geniş istifadə olunan göstəricilərdən biri **Cini əmsalıdır**. Cini əmsalı, iqtisadi bərabərsizliklərin ölçülməsində ən əsas vasitələrdən biri olaraq sosial-iqtisadi tədqiqatlarda aparıcı rol oynayır desək, yanılmarıq. Bu əmsal gəlirlərin cəmiyyət daxilində necə paylandığını təsəvvür etməyə və bərabərsizliklərin dərəcəsini müəyyənləşdirməyə yardım edir. Əmsal **0-dan** (tam bərabərlik) **1-ə** (tam bərabərsizlik) qədər dəyişir. Yəni, əmsalın sıfıra yaxın olması gəlirin ədalətli paylanmasını, birə yaxın olması isə ciddi bərabərsizliyi/ədalətsiz bölgünü təmsil edir.

Cini əmsalının düsturu aşağıdakı kimidir:

$$G = \frac{\sum_{i=1}^{N} \sum_{j=1}^{N} |y_i - y_j|}{2N^2\bar{y}}$$

$G$ – Cini əmsalı
N – Fərdlərin sayı
$y_i$ və $y_j$ – i-ci və j-ci fərdlərin gəliri
ȳ - orta gəlir [2]

Bir çox inkişaf etmiş ölkələrdə də olduğu kimi öz rifah səviyyəsinin yüksək hədlərində olan ABŞ-da da gəlir bərabərsizliyi yüksək səviyyədə qalmaqdadır. 2022-ci il üçün ABŞ-da Cini əmsalı təxminən 0.41 səviyyəsində olmuşdur ki, bu da ölkə daxilində ciddi gəlir bərabərsizliyinin göstəricisidir. ABŞ-da gəlir bərabərsizliyinin yüksək olmasının əsas səbəblərindən biri təhsil imkanlarının qeyri-bərabərliyidir. Eyni zamanda, əmək bazarındakı fərqlər, yüksək mənfəət əldə edən korporasiyaların işçilərlə mənfəəti ədalətsiz bölüşdürməsi və vergi siyasətlərindəki qeyri-adekvatlıq da bu problemi daha da dərinləşdirir. Xüsusilə, son 40 ildə əmək gəliri bərabərsizliyin əsas drayveri olmuşdur və bu problemi həll etmədən gəlir bərabərsizliyinin artımını aşağı salmaq çətin görünür. *"Son 40 ildə əmək gəlirləri bərabərsizliyin əsas səbəbi olaraq qalır və əmək gəlirlərindəki bərabərsizliyi aradan qaldırmadan gəlir bərabərsizliyinin artımını yavaşlatmaq açıq-aydın çətin olacaq"* [3] (Hoffmann, Lee, & Lemieux, 2020, s. 54). ABŞ-da yüksək gəlir qruplarına tətbiq olunan vergi dərəcələrinin azalması, varlılarla kasıblar arasındakı fərqi daha da artırmışdır.

Avropa İttifaqı ölkələrində isə gəlir bərabərsizliyi nisbətən aşağı səviyyədədir. Məsələn, İsveç və Danimarka kimi ölkələrdə Cini əmsalı təxminən 0.25-dir. Bu ölkələrdə dövlətin sosial müdafiə sisteminə böyük sərmayə yatırması və proqressiv vergi siyasətləri gəlirin daha ədalətli bölüşdürülməsinə şərait yaradır. *"Avropa İttifaqı ölkələrində hökumətin sosial müdafiə sahəsinə yönəltdiyi vəsaitlər gəlir bərabərsizliyinin azaldılmasında mühüm rol oynayır, lakin sosial transferlərin gəlir bərabərsizliyini azaltma təsiri müxtəlif ölkələr arasında əhəmiyyətli dərəcədə fərqlənir"* [4] (Szczepaniak, 2020, s. 151-152). Məsələn, İsveçdə hər bir vətəndaşa pulsuz təhsil və səhiyyə xidmətləri təklif olunur ki, bu da gəlir bərabərsizliyinin azaldılmasında mühüm rol oynayır. Danimarka kimi ölkələrdə isə yüksək gəlir qruplarından toplanan vergilər, sosial müdafiə proqramlarına yönəldilərək cəmiyyətin aşağı gəlirli təbəqələrinə dəstək verir.

Qeyd etmək lazımdır ki, Avropa İttifaqı ölkələrində sosial rifah siyasətləri gəlir bərabərsizliyinin azaldılmasında mühüm əhəmiyyət kəsb edir. İsveç və Danimarka kimi ölkələrdə dövlətin sosial müdafiəyə böyük xərclər ayırması, gəlirin ədalətli bölüşdürülməsinə şərait yaradır. Bu siyasətlər xüsusilə pulsuz təhsil və səhiyyə xidmətləri ilə cəmiyyətin bütün təbəqələrinin imkanlarını artırır. Bununla yanaşı, Danimarka kimi ölkələrdə yuxarı gəlir qruplarından yığılan vergilərin sosial müdafiəyə yönləndirilməsi gəlir bərabərsizliyini azaltmaq üçün effektiv vasitədir. Lakin, Szczepaniak (2020) qeyd edir ki, sosial transferlərin təsiri ölkədən ölkəyə fərqli ola bilər. Bu, isə o deməkdir ki, hər bir ölkənin öz iqtisadi və sosial strukturlarına uyğunlaşmış siyasətlər tətbiq etməsi zəruridir.

Latın Amerikası gəlir qeyri-bərabərliyinin ifrat səviyyədə olduğu regionlardan biridir. Məsələn, **Braziliyada** Cini əmsalı təxminən 0.52-dir [5] və bu indeks ölkə daxilində ciddi iqtisadi bərabərsizliklərin mövcudluğunu göstərir. Braziliyada gəlir bərabərsizliyinin əsas səbəblərindən sosial təbəqələşmə, qeyri-dövlət sektorunun xüsusi çəkisinin yüksək olması və regional iqtisadi fərqlər göstərilə bilər. Braziliya hökuməti müəyyən sosial proqramlar vasitəsilə bu fərqləri azaltmağa çalışsa da, vəziyyət hələ də ürəkaçıcı deyil. **Meksikada** isə Cini əmsalı təxminən 0.44-dir [5]. Burada gəlir bərabərsizliyi əsasən regional fərqliliklər və qeyri-dövlət sektorun payının yüksək olması ilə izah edilir, əslində buradan belə nəticəyə də gələ bilərik ki, region olaraq Latın Amerikası ölkələri ortalama eyni problemlərdən əziyyət çəkir. Meksikada işsizliyin səviyyəsinin yüksək olması və özəl sektorun xüsusi çəkisinin yüksək olması, şəhər və kənd əhaslisi arasında böyük iqtisadi uçurumun yaranmasına gətirib çıxarır.

Afrika qitəsi və Cənubi Asiya bölgəsində də gəlir qeyri-bərabərliyi hər zaman olduğu kimi

[2] https://www.statsdirect.com/help/nonparametric_methods/gini.htm
[3] Hoffmann, F., Lee, D. S., & Lemieux, T. (2020). ABŞ və digər inkişaf etmiş ölkələrdə artan gəlir bərabərsizliyi. *İqtisadi Perspektivlər Jurnalı, 34*(4), 52-78. https://doi.org/10.1257/jep.34.4.52 (s. 54).
[4] Szczepaniak, M. (2020). Gəlir bərabərsizliyinin azaldılması və yenidən paylanma: Avropa İttifaqı nümunəsi. *Ekonomia i Prawo. İqtisadiyyat və Hüquq, 19*(1), 149-161. https://doi.org/10.12775/eip.2020.011 (s. 151-152).
[5] https://data.worldbank.org/indicator/SI.POV.GINI

yüksək səviyyədədir. Məsələn, **Cənubi Afrika** dünyada ən yüksək gəlir bərabərsizliyi olan ölkələrdən biri hesab olunur. Burada Cini əmsalı təxminən 0.63 [5] səviyyəsindədir. Bu vəziyyətin kökü aparteid[6] dövrünün mirası olan iqtisadi qeyri-bərabərliklərdə axtarılmalıdır. Aparteid rejimi dövründə (1910-1994-cü illər) tətbiq olunan ayrı-seçkilik siyasətləri nəticəsində, Cənubi Afrikanın qaradərili əhalisi ciddi iqtisadi sıxıntılarla qarşı-qarşıya qalmışdır. Hökumətin son illərdə həyata keçirdiyi islahatlara baxmayaraq, gəlir bərabərsizliyi bugünkü günədək yüksək olaraq qalmaqdadır.

**Hindistanda** isə Cini əmsalı təxminən 0.33-dür [5]. Lakin bu rəqəm lokal gəlir bərabərsizliyinin tam mənzərəsini əks etdirə bilmir. Hindistanda şəhər və kənd bölgələri arasında ciddi iqtisadi fərqlər mövcuddur. Şəhərlərdə gəlir səviyyəsi nisbətən yüksək olsa da, kənd yerlərində əhalinin əksəriyyəti kəskin yoxsulluq şəraitində yaşayır. Bu fərqin səbəbləri arasında təhsil səviyyəsinin olduqca aşağı olması, infrastrukturun inkişaf etdirilməməsi və regional iqtisadi bərabərsizliklər dayanır.

Qlobal təcrübə göstərir ki, gəlir bərabərsizliyinin azaldılması üçün dövlət siyasətlərinin effektivliyi böyük əhəmiyyət kəsb edir. İnkişaf etmiş ölkələrdə sosial rifah sistemlərinin gücləndirilməsi və proqressiv vergi siyasətləri gəlirin daha ədalətli bölüşdürülməsinə kömək edir. Məsələn, İsveç və Danimarka kimi ölkələrdə sosial müdafiə proqramları və proqressiv vergi dərəcələri gəlir bərabərsizliyini əhəmiyyətli dərəcədə azaldır. Bunun əksinə olaraq, inkişaf etməkdə olan ölkələr qeyri-rəsmi sektorun rəsmi iqtisadiyyata inteqrasiyası və sosial müdafiə sistemlərinin gücləndirilməsi istiqamətində tədbirlər görməlidir. Bununla yanaşı, bəzi Avropa ölkələrində düz vergi (flat tax) sisteminə keçid gəlir bərabərsizliyinin azaldılmasında məhdud effektivliyə malik olmuşdur. *"Avropa ölkələrində proporsional vergi islahatlarının təsirini araşdıran ölkəyə xas tədqiqatlar göstərir ki, bu islahatlarla böyük bir səmərəlilik artımı əldə edilməmişdir, ancaq bunun əvəzində bərabərsizliyin artımı baş vermişdir"*[7] (Barrios S., 2019, s. 84). Bu da göstərir ki, proqressiv vergi siyasətləri bərabərsizliyin azaldılması üçün daha effektiv ola bilər.

**Lorenz əyrisi,** gəlirin bir cəmiyyətdə necə paylandığını qiymətləndirmək üçün istifadə olunan əhəmiyyətli statistik bir ölçü vasitəsidir. İlk dəfə 1905-ci ildə dünya şöhrətli amerikan iqtisadçı **Max Lorenz** (1876-1959) tərəfindən təqdim edilmiş bu əyri, müxtəlif iqtisadiyyatlarda gəlirin paylanmasının ədalətliliyini və ya ədalətsizliyini vizual olaraq əks etdirir. Lorenz əyrisi, sosial bərabərsizliyi təhlil etmək, gəlir qeyri-bərabərliyini müəyyənləşdirmək və iqtisadi siyasətlərin təsir dairələrini qiymətləndirmək üçün geniş istifadə olunur. Cini əmsalı da bu məqsədlə geniş şəkildə tətbiq edilir, öyrənilir və Lorenz əyrisi əsasında gəlirin bərabərsizlik dərəcəsini ölçür. Bununla belə, *"Cini əmsalı, gəlir paylanmasının ortasından uzaq olan fərqlərə qarşı həssas deyil, yəni paylanmanın ən yüksək və ən aşağı gəlir səviyyələrindəki bərabərsizliyi tam əks etdirmir"* [8] (Schlemmer, 2021, s. 2). Bu məhdudiyyətlər səbəbindən, Cini əmsalı müəyyən hallarda gəlir paylanmasının asimmetrik xüsusiyyətlərini düzgün əks etdirə bilməməkdədir. Nəticə etibarı ilə, gəlir bərabərsizliyinin daha dəqiq təhlili üçün Lorenz əyrisinin asimmetriyasını nəzərə alan əlavə göstəricilərdən tətbiqi tövsiyə olunur. Bu yanaşma, xüsusilə ən yüksək və ən aşağı gəlir səviyyələrindəki (əyrinin kənar nöqtələri) fərqlərin təsirini daha yaxşı dəyərləndirməyə imkan verməkdədir.

---

[6] Aparteid - İrqi ayrı-seçkiliyin ən kəskin formasıdır. Bir qrup əhalinin, yaşaması üçün zəruri olan hər şeydən məhrum edilməsi prosesidir.

[7] Barrios, S., Ivaškaitė-Tamošiūnė, V., Maftei, A., Narazani, E., & Varga, J. (2019). Avropa ölkələrində düz vergi islahatları. *Eastern European Economics*, *57*(2), 84-87. https://doi.org/10.1080/00128775.2019.1671201

[8] Schlemmer, M. (2021). Including the asymmetry of the Lorenz curve into measures of economic inequality. arXiv preprint arXiv:2108.03623v2, 1-5. https://arxiv.org/abs/2108.03623




**Şəkil 1. Lorenz əyrisi**

Şəkil 1-dəki Lorenz əyrisində:

**Mavi əyri** — gəlirin cəmiyyətdə necə bölüşdüyünü göstərir (Lorenz əyrisi).

**Qırmızı kəsik xətt** — tam bərabər paylanmanı ifadə edən diaqonal xəttdir.

Lorenz əyrisi diaqonaldan nə qədər uzaqlaşırsa, gəlir bərabərsizliyi o qədər yüksəkdir.

Lorenz əyrisi, əhalinin gəlir qruplarına görə ümumi gəlirin paylanmasını qrafik şəkildə təsvirinə yardımçı olur. Əyri **x** oxunda əhalinin kumulyativ faizini, **y** oxunda isə gəlirin kumulyativ faizini göstərir. Əgər gəlir tam şəkildə bərabər paylanarsa, Lorenz əyrisi diaqonal xətt (45 dərəcə xətti) boyunca uzanacaqdır. Bu xətt tamamilə bərabər paylanmanı təmsil edir. Ancaq əksər hallarda gəlir qeyri-bərabərsizliyi müşahidə olunduğundan Lorenz əyrisi diaqonal xətdən aşağıda yerləşir. Əyri diaqonaldan nə qədər uzaqlaşırsa, bərabərsizliyin bir o qədər yüksək olması deməkdir.

**Lorenz əyrisi** ilə **Cini əmsalı** arasında sıx bir əlaqə vardır. Cini əmsalı, Lorenz əyrisi ilə diaqonal xətt arasında qalan sahənin, ümumi sahəyə olan nisbəti kimi hesablanır. Bu əmsal **0** ilə **1** arasında dəyişir; 0 tam bərabərliyi, 1 isə tam bərabərsizliyi göstərir.

**Lorenz əyrisi** gəlir bərabərsizliyinin müxtəlif ölkələr və regionlar arasında müqayisəli təhlil aparılması üçün əhəmiyyətli bir vasitədir. Bu əyri, müxtəlif iqtisadi siyasətlərin gəlirin paylanmasına necə təsir etdiyini təhlil etməyə imkan yaradır. Məsələn, **Skandinaviya ölkələri** (İsveç, Norveç, Danimarka) yüksək rifah dövlətləri modelini tətbiq edirlər və burada gəlirin paylanması dinamikası nisbətən bərabərdir. Lorenz əyrisi bu ölkələrdə diaqonal xəttə daha yaxındır ki, bu da gəlir bərabərsizliyinin azlığına işarədir. Bunun əsas səbəbi bu ölkələrdəki güclü sosial müdafiə sistemləri və proqressiv vergi siyasətləridir. **İsveç** kimi bir ölkədə, yüksək gəlirli fərdlərdən daha yüksək vergilər alınır[9] və bu gəlirlər sosial müdafiə proqramlarına yönəldilir ki, bu da gəlirin daha bərabər paylanmasına kömək edir.

**ABŞ** isə fərqli bir mənzərə təqdim edir. ABŞ-da Lorenz əyrisi diaqonaldan daha çox uzaqlaşır, bu da ölkədə gəlir bərabərsizliyinin yüksək olmasının göstəricisidir. ABŞ-da gəlirin böyük hissəsi ən varlı 10% əhali təbəqəsinin əlində cəmlənmişdir. Bu isə, ölkədəki vergi siyasətlərinin və sosial müdafiə sisteminin nisbətən zəif olması ilə birbaşa əlaqələndirilir. Son olaraq, yoxsul və zəngin təbəqələr arasında gəlir diversifikasiyası artır və **Lorenz əyrisi** daha çox “əyilir”. (bax: Dünya bankı, Gini Index)

**Cənubi Afrika** Lorenz əyrisinin geniş şəkildə istifadə edildiyi ölkələr siyahısındadır. Cini əmsalında haqqında danışdığımız kimi, Cənubi Afrika dünyada ən yüksək gəlir bərabərsizliyi olan ölkələrdən biri hesab olunur. Aparteid rejimi dövründə yaranan iqtisadi bərabərsizliklər bu günə qədər davam etməkdədir. (World Bank, 2018, s. 23). Burada Lorenz əyrisi diaqonal xəttdən aşağıya doğru ciddi şəkildə uzaqlaşır ki, bu da gəlir bərabərsizliyinin vəziyyətini əks etdirir. Cənubi Afrika hökuməti bu problemi həll etmək üçün müxtəlif sosial proqramlar tətbiq etməyə çalışsa da, bərabərsizliyi tamamilə aradan qaldırmağa hələ də nail olmamışdırlar. Cənubi Afrikadakı gəlir bərabərsizliyinin acınacaqlığı barədə Dünya Bankının Cənubi Afrika üzrə hesabatında da rast gəlmək olar: *"Çox kasıb atalardan doğulan oğulların beşdə ikisi - birinci kvintildə olanlar - onların nəsillərinin gəlir bölgüsünün ən aşağı 40 faizini tutacaqlar"* [10] (World Bank, 2018, s. 26).

**Latın Amerikası ölkələri** (məsələn, Braziliya və Kolumbiya) də yüksək gəlir bərabərsizliyi ilə

[9] https://taxfoundation.org/blog/how-scandinavian-countries-pay-their-government-spending/
[10] World Bank. (2018). South Africa Economic Update: Jobs and Inequality

tanınmaqdadır. Məsələn, **Braziliyada** əhalinin ən zəngin 10%-i gəlirin təxminən 50%-ni əldə mənimsəyir. Bu vəziyyət Lorenz əyrisində öz əksini tapır, belə ki, əyri diaqonaldan əhəmiyyətli dərəcədə uzaqlaşır. Regionda iqtisadi bərabərsizliyin yüksək olması, qeyri-dövlət sektorun geniş yayılması, zəif sosial müdafiə sistemləri və siyasi qeyri-sabitliyin müşahidəsi ilə əlaqələndirilir.

Digər tərəfdən, **Asiya ölkələrində** isə vəziyyət bir qədər fərqlidir. Məsələn, **Çində** son onilliklərdə iqtisadi artım sürətli olmasına baxmayaraq, bu artım bərabər şəkildə paylanmamışdır. Şəhər və kənd yerləri arasında ciddi gəlir fərqləri hazırda da mövcuddur. Çində də Lorenz əyrisi diaqonal xəttdən uzaqlaşır, lakin hökumət bərabərsizliyi azaltmaq üçün müxtəlif sosial proqramlar həyata keçirməyə çalışmaqdadır. Çinin iqtisadi inkişaf strategiyası, gəlirin bərabər paylanmasına deyil, ümumi iqtisadi artıma fokuslanmışdır ki, bu da bərabərsizliyin artmasına səbəb olmuşdur.

**Lorenz əyrisi** və eynilə **Cini əmsalı** hökumətlərə gəlirin bərabər paylanması ilə bağlı siyasətlər hazırlamaq üçün əhəmiyyətli məlumatlar təqdim edir. Məsələn, vergi siyasətləri və sosial müdafiə proqramlarının gəlir bərabərsizliyini necə azaltdığını təhlil etmək üçün Lorenz əyrisindən istifadə edilir. Misal olaraq, **Avropa İttifaqı** ölkələri, xüsusilə də **Fransa və Almaniya**, Lorenz əyrisindən istifadə edərək sosial bərabərsizliyi azaltmaq məqsədilə müxtəlif siyasətlər yürüdür. Proqressiv vergi faizləri və güclü sosial müdafiə sistemləri sayəsində bu ölkələrdə gəlir bərabərsizliyi nisbətən aşağıdır. Məsələn, Fransada sosial müdafiə proqramlarına yönəldilən xərclər gəlirin daha bərabər paylanmasına kömək edir ki, bu da **Lorenz əyrisini** diaqonal xəttə daha da yaxınlaşdırır.

Digər tərəfdən, **Hindistan** kimi inkişaf etməkdə olan ölkələrdə Lorenz əyrisi gəlirin qeyri-bərabər paylandığını göstərir. Hindistanda şəhər və kənd yerləri arasında ciddi iqtisadi fərqlər var və əhalinin böyük bir hissəsi hələ də yoxsulluq içərisində həyat sürür. Hindistan hökuməti, sosial rifah proqramları və kənd təsərrüfatı sektoruna dəstək verərək bərabərsizliyi azaltmağa cəhd göstərir. Lakin nəticələr hələ də ürəkaçan deyil.

Gəlir bərabərsizliyinin təhlili üçün ənənəvi ölçü vasitələri (Cini əmsalı, Lorenz əyrisi) vasitələrindən danışsaq da, dərin araşdırma üçün yalnız bu ikisi ilə də kifayətlənmək düzgün olmaz. Məhz bu səbəbdən **Theil indeksi** və **Atkinson indeksi** kimi daha mürəkkəb göstəricilər beynəlxalq miqyasda gəlir qeyri-bərabərliyinin müəyyənləşdirilməsində geniş istifadə olunur. Bu göstəricilər yalnız ümumi bərabərsizlik səviyyəsini ölçməklə kifayətlənmir, həm də gəlirin müxtəlif qruplar arasında necə paylandığını və sosial siyasətlərin effektivliyini qiymətləndirməyə imkan verir.

**Theil indeksi -** İlk dəfə iqtisadçı **Henri Theil** (1924-2000) tərəfindən təqdim edilmiş bu indeks, gəlir bərabərsizliyinin ölçülməsində istifadə olunan statistik göstərici vasitələrindən biridir və **entropiya** ([11]) nəzəriyyəsinə əsaslanır. Theil indeksi, bir cəmiyyətdəki ümumi bərabərsizliyi iki əsas komponentə ayırmaq imkanı verir: **qruplararası bərabərsizlik** (Theil T indeksi) və **qruplardaxili bərabərsizlik** (Theil L indeksi). Bu xüsusiyyət, Theil indeksini digər bərabərsizlik ölçü metodlarından fərqləndirir və onu qlobal təcrübədə xüsusi qiymətli edir.

Theil indeksinin əsas özəlliyi ondan ibarətdir ki, o, ölkələr arasında və regionlar daxilində bərabərsizliyi ayrı-ayrılıqda ölçməyə şərait yaradır. Məsələn, **Avropa İttifaqında** aparılan tədqiqatlar göstərir ki, üzv ölkələr arasında gəlir qeyri-bərabərliyi nisbətən zəifdir, lakin ölkədaxili bölgələr arasında ciddi fərqlər vardır. **Almaniya** və **İtaliya** kimi ölkələrdə şimal və cənub regionları arasında gəlir bərabərsizliyi nəzərə çarpacaq dərəcədədir. Theil indeksi, bu cür regionlararası bərabərsizliyi təhlil etməyə imkan verir və hökumətə regional inkişaf proqramları hazırlamaq üçün əsaslı məlumat təqdim edir.

Theil indeksi **0** ilə **1** arasında dəyişir. **0** tam bərabərliyi, **1** isə tam bərabərsizliyi göstərir (Cini əmsalında olduğu kimi). Lakin, praktiki olaraq Theil indeksinin dəyəri **1**-dən böyük ola bilər, çünki indeksin dəyəri cəmiyyətdəki bərabərsizliyin səviyyəsinə görə dəyişir.

**Theil indeksinin formulu** belədir:

[11] **Entropiya -** əslində termodinamika və informasiya nəzəriyyəsində istifadə olunan bir anlayış hesab olunur, lakin iqtisadiyyatda da tətbiq edilir. İqtisadiyyat sahəsində entropiya, sistemdəki qeyri-müəyyənlik və ya nizamsızlıq səviyyəsini ölçmək üçün istifadə edilməkdədir.

$$T = \frac{1}{N}\sum_{i=1}^{N}\left[\left(\frac{y_i}{\bar{y}}\right)\ln\left(\frac{y_i}{\bar{y}}\right)\right]$$

$N$ - əhalinin ümumi sayı
$y_i$ - fərdi gəlir
$y_i$ - orta gəlir [12]

Theil index-i ölçü vasitəsi kimi əlverilşi olsa da, bu indeksin Cini və Lorenzdən daha az məşhur olması, onun istifadə tezliyinə də təsir etmişdir. Məsələn, dünya üzrə Theil İndex-i dataları Dünya Bankında cəmlənsə də, ölkələr üzrə ən sonuncu məlumatlar 2014-cü illəri əhatə edir. Bir digər problem də bundadır ki, həmin əmsal elə sonuncu sayılan 2014-cü il üçün sadəcə 15 ölkə üzrə hesablanmışdır. Həmin ölkələrin hamısı isə Cənubi Amerika materikini əhatə edir.

**Cədvəl 1. 2014-cü il üzrə Theil İndex-i**

| **Ölkələr** | **Theil Indeksi (2014-cü il)** |
|---|---|
| Uruqvay | 0,307564 |
| Argentina | 0,312583 |
| Salvador | 0,327834 |
| Peru | 0,355739 |
| Ekvador | 0,404237 |
| Kosta-Rika | 0,429539 |
| Bolivia | 0,474293 |
| Honduras | 0,476235 |
| Nikaraqua | 0,479821 |
| Panama | 0,491384 |
| Qvatemala | 0,509287 |
| Meksika | 0,511219 |
| Braziliya | 0,528996 |
| Kolumbiya | 0,569899 |
| Paraqvay | 0,618109 |

***Mənbə: Dünya Bankı***[13]

Cədvəl 1-dən də göründüyü kimi, Cənubi Amerika regionunda öz nəticələri ilə xüsusi seçilən dövlətlər **Uruqvay** və **Paraqvaydır**. Coğrafi region kimi bir-birilərinə çox yaxın yerləşən ölkələr gəlir bərabərsizliyi mövzusunda kifayət qədər fərqlənən nəticələr göstərmişdir.

**Atkinson indeksi**, gəlir bərabərsizliyini ölçən bir digər məşhur statistik göstəricidir və gəlirin bir cəmiyyətdə necə paylandığını qiymətləndirməkdə yardımçı olur. İlk dəfə **Anthony Atkinson** (1944-2017) tərəfindən 1970-ci illərdə təqdim edilmiş bu indeks, ənənəvi gəlir bərabərsizliyi ölçü metodlarından fərqli olaraq, gəlir bərabərsizliyinə qarşı cəmiyyətin həssaslığını da nəzərə alır.

**Atkinson indeksi, ε (epsilon)** adlanan həssaslıq parametri vasitəsilə, gəlirin necə paylandığını təhlil edir. Parametrin dəyəri cəmiyyətin bərabərsizlik səviyyəsinə qarşı necə həssas olduğunu müəyyən edir.

Atkinson indeksi aşağıdakı düsturla hesablanır:

[12] https://towardsdatascience.com/statistical-indexes-for-measuring-inequality-7f2ca72fd65e
[13] https://databank.worldbank.org/source/lac-equity-lab-/Series/3.0.TheilInd1#

$$A(\varepsilon) = 1 - \left(\frac{1}{N}\sum_{i=1}^{N}(\frac{y_i}{\bar{y}})\right)^{1-\varepsilon})^{\frac{1}{1-\varepsilon}}$$

$A(\varepsilon)$ – Atkinson indexi
$N$ – Əhalinin sayı
$y_i$ – Fərdi gəlir
ȳ – Orta gəlir
**ε – Bərabərsizliyə həssaslıq dəyəri**[14]

- **ε = 0** olduğu halda cəmiyyət bərabərsizliyə qarşı tamamilə laqeyddir və indeks gəlir bərabərsizliyini əks etdirmir.
- **ε** dəyəri artdıqca (məsələn, 1 və ya 2), cəmiyyətin bərabərsizliyə qarşı həssaslığı artır. Bu, aztəminatlıların gəlirini daha çox diqqətə gətirir və bərabərsizlik dərinləşdikcə indeks daha böyük dəyərlər əldə edir.

Atkinson İndeksinin Üstünlükləri **kimi aşağıdakı məqamları vurğulamaq olar:**
1. **Sosial rifaha fokuslanması**: Atkinson indeksi yalnız gəlir bərabərsizliyini ölçməklə kifayətlənmir, eyni zamanda cəmiyyətin bərabərsizliyə qarşı nə dərəcədə həssas olduğunu qiymətləndirir. Bu xüsusiyyət onu Cini əmsalı və Theil indeksindən fərqləndirir.
2. **Siyasət tövsiyələri üçün əhəmiyyətli üsul**: Sosial siyasətlərin gəlir bərabərsizliyinə təsirini qiymətləndirmək üçün istifadə olunur. Proqressiv vergilərin, sosial təminat sistemlərinin və sosial proqramların effektivliyini dəyərləndirməkdə yardımçı olur.
3. **Həssaslıq parametri (ε)**: Cəmiyyətin bərabərsizliyə nə dərəcədə həssas olduğunu dəyişdirərək müxtəlif ssenariləri təhlil etməyə imkan yaradır.

**Atkinson indeksi Theil indeksindən fərqli olaraq yaxın keçmişə dair statistik hesablanmalarda istifadə edilməsi ilə seçilir. Elə isə, gəlin bir neçə fərqli ölkələrin bu göstərici üzrə 2022-ci il üçün nəticələrinə nəzər salaq.**

**Cədvəl 2. Atkinson İndeksi, 2022-ci il**

| **Ölkələr** | **Atkinson indeksi** |
|---|---|
| Azərbaycan | 0.06 |
| Slovakiya | 0.10 |
| BƏƏ | 0.10 |
| Ukrayna | 0.13 |
| Ermənistan | 0.15 |
| Yaponiya | 0.17 |
| ABŞ | 0.24 |
| İran | 0.28 |
| Türkiyə | 0.29 |
| Zambiya | 0.63 |

***Mənbə: UNDP, Human Development Report (2024)***[15]

Cədvəl 2-dən göründüyü kimi, ölkəmiz Azərbaycan bu cədvəldə ən aşağı göstərici ilə liderlik edir. Digər göstəricilərdə də olduğu kimi, Cənubi Afrika ölkələri Atkinson indeksində də mənfi mənada seçilirlər. 2022-ci il üzrə Atkinson indeksinə görə ən pis göstərici isə Zambiya ölkəsinə aiddir.

Göründüyü kimi, həm Theil, həm də Atkinson indeksləri gəlir bərabərsizliyini ölçməyə və

[14] https://ehp.niehs.nih.gov/doi/10.1289/ehp.9712
[15] https://ourworldindata.org/grapher/income-inequality-atkinson-index-undp

qiymətləndirməyə daha dərin və əhatəli yanaşmalar təklif edir. Cini əmsalının məhdudiyyətlərinə qarşı, bu indekslər bərabərsizliyin müxtəlif aspektlərini, o cümlədən qruplararası və qruplar daxilində fərqləri, sosial rifahı və siyasətlərin effektivliyini ölçməyə şərait yaradır. Bu indekslərdən əldə edilən nəticələr, siyasətçilərə və iqtisadçılara gəlirin bərabər paylanması üçün daha təsirli strategiyalar hazırlamağa yardımçı olur.

**İstifadə olunmuş ədəbiyyat / *References***


1. https://www.statsdirect.com/help/nonparametric_methods/gini.htm
2. Hoffmann, F., Lee, D. S., & Lemieux, T. (2020). ABŞ və digər inkişaf etmiş ölkələrdə artan gəlir bərabərsizliyi. İqtisadi Perspektivlər Jurnalı, 34(4), 52-78. https://doi.org/10.1257/jep.34.4.52 (s. 54).
3. Szczepaniak, M. (2020). Gəlir bərabərsizliyinin azaldılması və yenidən paylanma: Avropa İttifaqı nümunəsi. *Ekonomia i Prawo. İqtisadiyyat və Hüquq, 19*(1), 149-161. https://doi.org/10.12775/eip.2020.011 (s. 151-152).
4. https://data.worldbank.org/indicator/SI.POV.GINI
5. Barrios, S., Ivaškaitė-Tamošiūnė, V., Maftei, A., Narazani, E., & Varga, J. (2019). Avropa ölkələrində düz vergi islahatları. *Eastern European Economics, 57*(2), 84-87. https://doi.org/10.1080/00128775.2019.1671201
6. Schlemmer, M. (2021). Including the asymmetry of the Lorenz curve into measures of economic inequality. arXiv preprint arXiv:2108.03623v2, 1-5. https://arxiv.org/abs/2108.03623
7. https://taxfoundation.org/blog/how-scandinavian-countries-pay-their-government-spending/
8. World Bank. (2018). South Africa Economic Update: Jobs and Inequality
9. https://towardsdatascience.com/statistical-indexes-for-measuring-inequality-7f2ca72fd65e
10. https://databank.worldbank.org/source/lac-equity-lab-/Series/3.0.TheilInd1#
11. https://ehp.niehs.nih.gov/doi/10.1289/ehp.9712
12. https://ourworldindata.org/grapher/income-inequality-atkinson-index-undp


## Показатели, характеризующие неравенство доходов

**Джейхун Мамедли**
Министерство науки и образования Азербайджанской Республики
Институт экономики, докторант
Электронная почта: ceyhunmmli@gmail.com
https://orcid.org/0009-0003-4343-030X

**Резюме:** В статье рассматривается, как неравенство доходов влияет на глобальную социально-экономическую ситуацию и различные показатели, используемые для оценки этого неравенства.

Помимо коэффициента Джини и кривой Лоренца, которые являются традиционными измерительными инструментами для углубленного анализа неравенства доходов, рассматривались и более сложные показатели — индекс Тейла и индекс Аткинсона. В статье проанализированы реальные показатели неравенства доходов в разных регионах, таких как США, страны Евросоюза, Латинская Америка и Африка. Этот анализ позволяет выявить основные причины неравенства доходов и указать пути его снижения.

**Ключевые слова:** неравенство доходов, коэффициент Джини, индекс Тейла, кривая Лоренца, индекс Аткинсона.

**UDC 330.1**
**JEL D31, D63, I32**

DOI: https://doi.org/10.36719/2707-9317/04/134-140

# Conceptual differences in the application of the International Financial Reporting Standard for small and medium-sized entities

**Kamala Rzayeva**
Doctoral student of the Azerbaijan
State University of Economics
kamala-rzayeva@unec.edu.az
https://orcid.org/0000-0001-5623-8198

**Abstract:** The purpose of the article is to analyze the conceptual differences in the International Standard of Financial reporting for Small and Medium Enterprises in the Republic of Azerbaijan and the corresponding accounting rules. Small and medium-sized business entities are economic entities that make up an important proportion of economic activity. The integration of the financial reports of these entities at the international level affects the completeness and correctness of the quality characteristics of the reports. Differences in the methods of assessment of quality characteristics and elements of reports, IFRS for SMEs and the corresponding accounting rules do not always have a positive effect on the preparation of financial statements.

**Key words:** IFRS, Conceptual Framework, SME, fair value

# Kiçik və orta sahibkarlıq subyektləri üçün maliyyə hesabatlarının beynəlxalq standartının tətbiqində konseptual fərqlər

**Kəmalə Rzayeva**
Azərbaycan Dövlət İqtisad
Universitetinin (UNEC) doktorantı
kamala-rzayeva@unec.edu.az https://orcid.org/0000-0001-5623-8198

**Xülasə:** Məqalənin məqsədi Azərbaycan Respublikasında Kiçik və Orta Sahibkarlıq subyektləri üçün Maliyyə hesabatlarının Beynəlxalq Standartı və buna müvafiq olan mühasibat uçotunun aparılma qaydalarında konseptual fərqləri təhlil etməkdir. Kiçik və orta sahibkarlıq subyektləri iqtisadi fəaliyyətin mühüm nisbət təşkil edən təsərrüfat subyektləridir. Beynəlxalq səviyyədə bu subyektlərin maliyyə hesabatlarının inteqrasiyası hesabatların keyfiyyət xüsusiyyətlərinin dolğun və düzgün olmasına təsir göstərir. Keyfiyyət xüsusiyyətləri və hesabatların elementlərinin qiymətləndirmə metodlarında KOS üçün MHBS və ona uyğun mühasibat uçotunun aparılma qaydalarında olan fərqlər maliyyə hesabatlarının tərtibatına həmişə müsbət təsir göstərmir.

**Açar sözlər:** MHBS, Konseptual əsaslar, KOS, ədalətli dəyər

**JEL: M41, M16, Z23**

## GİRİŞ

Mühasibat uçotu haqqında Qanunun 4-cü Mühasibat uçotu sahəsində dövlət tənzimlənməsi maddəsinə əsasən mühaisbat uçotu sahəsində dövlət tənzimlənməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir. Qanunun 4.3.1 və 4.3.4- cü maddələrinə əsasən müvafiq icra hakimiyyəti orqanı Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının, Kiçik və Orta Sahibkarlıq Subyektləri üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının, İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartlarının Azərbaycan dilinə tərcüməsini təşkil edir və bu tərcümələrin həmin standartların Azərbaycan dilində rəsmi mətnləri kimi dərc olunmasını təmin edir və həmin Standartlarında dəyişikliklərin izlənilməsi və bu dəyişikliklərin onların Azərbaycan dilində olan rəsmi mətnlərində vaxtlı-vaxtında əks olunması məqsədi ilə bu sahədə ixtisaslaşmış beynəlxalq təşkilatlarla əməkdaşlıq edir. Buna baxmayaraq Maliyyə Nazirliyinin rəsmi internet səhifəsində ən son Maliyyə hesabatlarının Beynəlxalq Standartlarının azərbaycan dilinə 2021-ci il, KOS üçün MHBS 2015-ci il tərcüməleridir. Müvafiq olaraq KOS üçün MHBS əsasən mühasibat uçotunun aparılma qaydaları 21 dekabr 2019-cu il tarixində qüvvəyə minən Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin Kollegiyasının Qərarıdır.

Son illərdə texnoloji yeniliklərin sürətlənməsi iqtisadi fəaliyyət sahələrinə mühüm təsirini göstərmiş, yeni fəaliyyət növlərinin meydana gəlməsinə səbəb olmuşdur. Həmçinin beynəlxalq səviyyədə digər ölkələrlə iqtisadi münasibətlər uçot qaydalarına mühüm dəyişiklikləri zəruri etmişdir. Qeyri-rezidentlərdən əldə edilən xidmətlərin uçotu, pul vəsaitlərinin toplanmasını təşkil edən subyektlərin fəaliyyətindəki şaxəlilik uçotda yeni qaydaların tətbiq edilməsini zəruri etmişdir.

Qeyd edilənləri nəzərə alaraq, Standartlar arasında konseptual fərqləri müqayisəli şəkildə təhlil etmək, cədvəllər əsasında fərqləri göstərmək, nəticədə zəruri olan nəticə və təklifləri əks etdirmək məqalənin əsas məqsədini təşkil edir.

Nəticədə, beynəlxalq təcrübələr sənaye parklarının iqtisadi inkişafda və regional siyasətlərin həyata keçirilməsində əhəmiyyətli rolunu təsdiqləyir. Xüsusilə, infrastruktur təminatı, innovativ məhsulların inkişafı və ekoloji davamlılıq prinsipləri bu parkların uğurla fəaliyyət göstərməsi üçün mühüm amillər kimi qəbul edilir. Əlavə olaraq, sənaye parklarının beynəlxalq əməkdaşlıq və ticarət əlaqələrinin genişləndirilməsinə təsiri geniş tədqiqat mövzusudur və bu istiqamətdə araşdırmalar davam edir.

## 3. Azərbaycanda sənaye parklarının fəaliyyətinin mövcud vəziyyəti

Sənaye parkları müasir texnologiyaların tətbiqi ilə yüksək rəqabətqabiliyyətli məhsul istehsalını və xidmət göstərilməsini təmin etmək məqsədilə yaradılan, sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastruktura və idarəetmə mexanizmlərinə malik xüsusi ərazilərdir. Bu ərazilər eyni zamanda sahibkarlığın səmərəli şəkildə təşkilinə və inkişafına dəstək verən bir mühit yaratmaq üçün

nəzərdə tutulmuşdur. Belə parklar istehsal və xidmət sektorunda fəaliyyət göstərən sahibkarlar üçün strateji bir baza rolunu oynayır və onların fəaliyyətinin daha məhsuldar və davamlı olmasına imkan yaradır.

Azərbaycan Respublikasında sənaye parklarının, sənaye məhəllələrinin və aqroparkların idarə edilməsi mexanizmlərinin daha da təkmilləşdirilməsi məqsədilə Prezident tərəfindən 2021-ci ilin 22 yanvar tarixində xüsusi bir fərman imzalanmışdır. Bu fərman əsasında İqtisadi Zonaların İnkişafı Agentliyinin yaradılması qərara alınmışdır. Sözügedən Agentliyin yaradılmasında əsas məqsəd sənaye parklarının (Balaxanı Sənaye Parkı istisna olmaqla), sənaye məhəllələrinin (Naxçıvan Muxtar Respublikasındakı sənaye məhəllələri istisna olmaqla) və aqroparkların fəaliyyətinin daha yaxşı təşkilini və idarə edilməsini təmin etmək olmuşdur. Bununla yanaşı, Agentlik həm də bu sahələrdə həyata keçirilən dövlət dəstək tədbirlərini hazırlamaq, onların reallaşdırılmasını təmin etmək və bu istiqamətdə strateji proqramların icrasını həyata keçirmək kimi geniş məsuliyyətlər daşıyır.

Beləliklə, İqtisadi Zonaların İnkişafı Agentliyi sənaye və aqrar sektorun inkişafı üçün müasir idarəetmə sistemlərinin tətbiqinə, sahibkarların ehtiyaclarının qarşılanmasına və iqtisadiyyatın dayanıqlı inkişafına yönəlmiş tədbirlərin əsas təşəbbüskarı və icraçısı kimi fəaliyyət göstərir. Agentliyin yaradılması ilə ölkədə sənaye və aqrar sektorlarda daha effektiv idarəetmə mexanizmlərinin tətbiqi mümkün olmuş və bu mexanizmlər vasitəsilə müasir iqtisadi zonaların fəaliyyəti daha da genişləndirilmişdir. Bu cür yanaşma həm iqtisadi artıma, həm də işgüzar mühitin inkişafına əhəmiyyətli töhfə verir.

Sənaye parklarının yaradılmasında əsas məqsəd müxtəlif iqtisadi və sosial sahələrdə davamlı inkişafı təmin etmək, eyni zamanda müasir texnologiyaların tətbiqi ilə sənaye istehsalını gücləndirməkdir. Bu məqsədlər daha geniş şəkildə aşağıdakı aspektlərdə özünü göstərir:

• **Yüksək texnologiyalara əsaslanan innovativ sənaye istehsalının və xidmət sektorunun inkişaf etdirilməsi üçün əlverişli mühitin yaradılması** – Sənaye parkları müasir texnologiyaların tətbiqi vasitəsilə yüksək rəqabət qabiliyyətinə malik məhsul və xidmətlərin istehsalı üçün şərait təmin edir, eyni zamanda sahibkarların fəaliyyətini dəstəkləyərək onların potensialını artırmağa kömək edir.

• **Milli iqtisadiyyatın, xüsusilə qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi** – Sənaye parklarının fəaliyyətinin genişləndirilməsi qeyri-neft sektorunun güclənməsinə şərait yaradır. Bu yanaşma ölkənin iqtisadi inkişafında daha balanslı və dayanıqlı bir strukturun formalaşdırılmasını hədəfləyir.

• **Yerli və xarici investisiyalar üçün daha cəlbedici bir mühitin yaradılması** – Sənaye parklarının infrastrukturu və fəaliyyət mexanizmləri investorlar üçün əlavə stimullar təmin edir. Belə ki, bu parklar həm yerli, həm də beynəlxalq səviyyədə sərmayədarların maraqlarını cəlb etmək üçün unikal imkanlar təklif edir və ölkənin iqtisadi nüfuzunu artırır.

• **İstehsal sektorunda əhalinin məşğulluq səviyyəsinin artırılması** – Sənaye parklarının fəaliyyətinin əsas məqsədlərindən biri də iş imkanlarının genişləndirilməsi və əmək bazarının inkişaf etdirilməsidir. Bu parklar işçi qüvvəsinə yeni imkanlar yaradır və istehsal sahəsində daha çox insanın məşğulluğunu təmin edir.

Beləliklə, sənaye parkları həm sahibkarlıq fəaliyyətini dəstəkləyən, həm də milli iqtisadiyyata və sosial inkişaf strategiyalarına töhfə verən kompleks bir inkişaf platforması kimi çıxış edir. Bu məqsədlərin icrası ölkənin dayanıqlı inkişafına və beynəlxalq iqtisadi müstəvidə mövqeyinin güclənməsinə xidmət edir.

Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən, sənaye parklarının inkişafını dəstəkləmək məqsədilə müxtəlif stimullaşdırıcı tədbirlər həyata keçirilir. Bu tədbirlər, əsasən, iqtisadi sahədə əlverişli mühitin yaradılmasına və sahibkarlığın təşviq edilməsinə yönəldilmişdir. Stimullaşdırıcı tədbirlər aşağıdakı sahələrdə tətbiq olunur:

• **Vergi və gömrük sahəsində geniş stimullaşdırıcı mexanizmlərin tətbiqi** – Azərbaycan Respublikasının Vergi Məcəlləsi və "Gömrük tarifi haqqında" qanun əsasında sənaye parklarının rezidentlərinə müstəsna güzəştlər təqdim edilir. Bu güzəştlər, rezidentlərin qeydiyyata alındıqları andan etibarən 10 il müddətinə əmlak vergisindən, torpaq vergisindən, həmçinin gəlir və ya mənfəət vergisindən azad edilməsini nəzərdə tutur. Eyni zamanda, istehsal məqsədilə idxal edilən texniki vasitələr, texnoloji avadanlıqlar və qurğular əlavə dəyər vergisindən (ƏDV) və gömrük rüsumlarından

10 il müddətinə azad olunur. Qeyd edək ki, gömrük rüsumlarına tətbiq olunan azadolma müddəti, 30 dekabr 2022-ci ildə qəbul edilmiş dəyişikliklər əsasında 7 ildən 10 ilə qədər artırılmışdır və bu qayda 1 yanvar 2023-cü ildən etibarən qüvvədədir.

• **Sənaye parklarının müasir infrastrukturla təmin olunması** – Bu təşəbbüs parkların fəaliyyətinin səmərəli təşkilini və onların rəqabətqabiliyyətliliyinin artırılmasını təmin etmək məqsədini daşıyır. İnfrastrukturun inkişafı rezidentlərə optimal istehsal şəraiti yaradaraq, fəaliyyətlərində operativlik və məhsuldarlıq təmin edir.

• **Torpaq sahələrinin icarə şərtlərinin əlverişli şəkildə müəyyənləşdirilməsi** – Sənaye parklarında fəaliyyət göstərən sahibkarlara torpaq sahələrinin icarəsi üçün minimum dərəcədə ödəniş şərtləri təklif edilir. Bu tədbir sahibkarların maliyyə yükünü azaltmaq və onların fəaliyyətini daha əlçatan etmək məqsədilə həyata keçirilir.

• **İnzibati prosedurların maksimum dərəcədə sadələşdirilməsi** – Sənaye parklarında fəaliyyət göstərən rezidentlər üçün bürokratik maneələrin azaldılması və idarəetmə proseslərinin sadələşdirilməsi təmin edilir. Bu, sahibkarların vaxt və resurslarını daha səmərəli istifadə etmələrinə imkan yaradır.

• **Sahibkarlıq fəaliyyətinin səmərəli həyata keçirilməsi üçün dəstək xidmətlərinin təşkili** – Rezidentlərin ehtiyaclarına uyğun müxtəlif xidmətlərin təşkil edilməsi onların fəaliyyətini daha məhsuldar və dayanıqlı etməyi hədəfləyir. Belə xidmətlər, sənaye parklarında həyata keçirilən əməliyyatların asanlaşdırılmasına və rəqabətqabiliyyətli mühitin formalaşmasına töhfə verir.

Ümumilikdə, bu stimullaşdırıcı tədbirlər sənaye parklarının cəlbediciliyini artırır, sahibkarlığın inkişafına təkan verir və qeyri-neft sektorunun gücləndirilməsinə yönəldilmiş dövlət siyasətinin mühüm elementlərindən birini təşkil edir. Bu yanaşma həm yerli, həm də beynəlxalq investorlar üçün Azərbaycanı daha rəqabətədavamlı iqtisadi mühitə çevirir.

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 21 dekabr tarixli fərmanına əsasən, ölkəmizdə sənayenin inkişafını dəstəkləmək və bu sahədə yüksək texnologiyaların tətbiqinə nail olmaq məqsədilə Sumqayıt Kimya Sənaye Parkı təsis edilmişdir. Bu parkın yaradılması, neft-kimya və digər mühüm sənaye sahələrində rəqabətqabiliyyətli məhsul istehsalının təşkili, emal müəssisələrinin qurulması üçün əlverişli şəraitin təmin edilməsinə xidmət edir. Ərazi ölçüsü 613 hektar təşkil edən bu sənaye parkı ölkə və region üzrə ən genişmiqyaslı sənaye zonası kimi tanınır. Hazırda Sumqayıt Kimya Sənaye Parkında 41 sahibkarlıq subyektinə rezident statusu verilmiş, onlardan 24-ü artıq fəaliyyətə başlamışdır. Bundan əlavə, İqtisadi Zonaların İnkişafı Agentliyi tərəfindən peşə təhsili xidmətləri göstərən müasir Peşə Təhsil Mərkəzi burada fəaliyyət göstərir.

Bakı şəhərində yerləşən digər bir sənaye mərkəzi - Balaxanı Sənaye Parkı isə Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 28 dekabr tarixli sərəncamına əsasən təsis edilmişdir. "Təmiz Şəhər" ASC-nin idarəçiliyində olan bu park təkrar istehsal sahələrini dəstəkləmək və investorlar üçün əlverişli biznes mühiti yaratmaq məqsədini güdür. Burada 27 sahibkarlıq subyekti rezident kimi qeydiyyatdan keçmiş, onlardan 18-i artıq fəaliyyətə başlamışdır.




**Qrafik 1. "Təmiz Şəhər"in illik gəlirlər və artım faizi**

2018-ci ildən 2019-cu ilə qədər gəlirlər 6.55% artaraq 4,524,340 AZN-dən 4,820,322 AZN-ə yüksəlmişdir. Bu artım əsasən fəaliyyətlərin optimallaşdırılması və əlavə xidmətlərin göstərilməsi ilə əlaqələndirilir. 2020-ci ildə isə gəlirlərdə yalnız 0.82% artım müşahidə edilmişdir ki, bu da pandemiya şəraiti ilə əlaqədar iqtisadi fəaliyyətlərin məhdudlaşdırılması və bəzi xidmətlərin azalması ilə izah olunur. 2019-cu ildə yüksək artım faizinə baxmayaraq, 2020-ci ildə artımın yavaşlaması "Təmiz Şəhər" ASC-nin gəlir mənbələrinin müxtəlifləşdirilməsi zərurətini gündəmə gətirmişdir. Gəlirlərin 2018-2020-ci illər arasında müsbət trend göstərməsi bu şirkətin ümumi maliyyə dayanıqlılığını nümayiş etdirsə də, illik artım templərinin qeyri-sabitliyi strateji planlaşdırmanın gücləndirilməsinə ehtiyac yaradır. 2020-ci ildəki yüngül artım dərəcəsi pandemiya təsirlərinin iqtisadiyyat üzərində təsirinin birbaşa əksidir və gələcək dövrlərdə bu cür vəziyyətlərə hazırlıq səviyyəsinin artırılması vacibdir.

2015-ci il 3 iyun tarixində Qaradağ rayonu ərazisində yaradılan Qaradağ Sənaye Parkı isə fərqli xüsusiyyəti ilə seçilir. Burada yalnız bir rezident - "Bakı Gəmiqayırma Zavodu" MMC fəaliyyət göstərir. Eyni ildə, 26 fevral tarixli sərəncamla yaradılan Mingəçevir Sənaye Parkı isə ölkənin tekstil sahəsində önəmli addımlarından biridir. Burada 20 min ton iplik istehsal gücünə malik "Mingəçevir Tekstil" MMC-nin iki fabriki 2018-ci ilin 27 fevralında istismara verilmişdir.

Əczaçılıq sənayesinin inkişafını dəstəkləmək üçün 2016-cı il 14 sentyabr tarixində 30 hektar ərazidə Pirallahı Sənaye Parkı təsis edilmişdir. Bu parkda 7 rezident qeydiyyata alınmış, onlardan 2-si artıq fəaliyyət göstərir. Eyni zamanda, Qarabağın dirçəldilməsi və iqtisadi inkişafın gücləndirilməsi məqsədilə 2021-ci il 28 may tarixində 190 hektar ərazidə Ağdam Sənaye Parkı yaradılmışdır. Hazırda burada 28 sahibkarlıq subyektinə rezident, 4 subyektə isə qeyri-rezident statusu verilmişdir, onların arasından 9 müəssisə fəaliyyət göstərir.

Bundan başqa, 2021-ci il 4 oktyabr tarixli fərmanla 200 hektar ərazidə təsis olunan "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı logistik baxımdan strateji mövqeyə malikdir. Burada 13 rezident və 1 qeyri-rezident qeydiyyatdan keçmişdir, onların arasında yalnız bir müəssisə fəaliyyət göstərir. 2024-cü il 12 iyun tarixində təsis edilən Hacıqabul Sənaye Parkında isə 14 sahibkara rezidentlik statusu verilmişdir. Naxçıvan Muxtar Respublikasında yerləşən Naxçıvan Sənaye Parkı isə 2024-cü il 5 dekabr tarixli fərmanla yaradılmışdır.

**4. İşğaldan azad edilmiş ərazilərdə sənaye parkları**

Qarabağın yenidən qurulması və iqtisadi inkişafının təmin edilməsi çərçivəsində regionun sənaye potensialının tam şəkildə istifadəsi, ölkə iqtisadiyyatına uğurla reinteqrasiyası və yerli əhalinin

məşğulluq səviyyəsinin artırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanları əsasında Ağdam şəhərində Ağdam Sənaye Parkı və Cəbrayıl rayonunda "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı yaradılmışdır. İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən bu sənaye parkları, müasir iqtisadiyyatın əsas prinsiplərinə uyğun olaraq, sahibkarlar üçün bir sıra stimullaşdırıcı tədbirləri tətbiq etməklə fəaliyyətlərini daha səmərəli və rəqabətədavamlı şəkildə həyata keçirməyə şərait yaradır.

Bu sənaye parklarında rezident statusu alan müəssisələr dövlət tərəfindən tam şəkildə təşkil edilmiş infrastrukturlardan, o cümlədən qaz, işıq, su, kanalizasiya, fiber-optik rabitə xətləri, eləcə də daxili avtomobil və dəmir yollarından istifadəyə imkan əldə edirlər. Rezidentlər, qeydiyyata alındıqları tarixdən başlayaraq 10 il müddətinə əmlak, torpaq və gəlir vergilərindən, istehsal məqsədilə idxal etdikləri texniki avadanlıq, texnoloji qurğu və maşınların ƏDV-sindən və gömrük rüsumlarından tamamilə azad edilirlər. Bu güzəştlər işğaldan azad olunmuş ərazilərin iqtisadi dirçəlişinə əlavə təkan verir.

Bununla yanaşı, həmin sənaye parklarında əlavə olaraq tətbiq edilən xüsusi güzəştlər sahibkarlar üçün əlavə stimullar yaradır. Bu tədbirlər aşağıdakılardır:

- **Xüsusi güzəştli bank kreditləri**: Bu kreditlər 90%-ə qədər dövlət zəmanəti və 10%-lik subsidiya ilə təklif olunur ki, bu da maliyyə resurslarına çıxışı asanlaşdırır.
- **Kommunal xidmətlərdə kəşbək (cashback)**: Sahibkarlar ödədikləri kommunal xidmət xərclərinin 20%-ni geri alaraq əlavə maliyyə yükündən azad olurlar.
- **Dividend gəlirlərinin vergidən azad edilməsi**: Bu güzəşt sahibkarların əldə etdikləri mənfəətin təkrar investisiyasını təşviq edir.
- **Sosial sığorta ödənişlərinə dövlət subsidiyası**: İşçilərin sosial təminatı üzrə ödənişlərin dövlət tərəfindən subsidiyalaşdırılması şirkətlərin əməliyyat xərclərini azaldır.
- **Mənfəətin və kapitalın repatriasiyasının vergidən azad olunması**: Şirkətlər əldə etdikləri mənfəəti və kapitalı vergisiz şəkildə öz məqsədlərinə yönəldə bilirlər.
- **Xammal idxalı zamanı gömrük və ƏDV güzəştləri**: Bu güzəştlər Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş siyahıya uyğun olaraq tətbiq edilir və istehsal xərclərinin əhəmiyyətli dərəcədə azalmasına səbəb olur.

Bu kompleks tədbirlər, işğaldan azad edilmiş ərazilərdə sənaye parklarının yaradılması və inkişaf etdirilməsi ilə paralel olaraq, regionun iqtisadi cəhətdən güclənməsini təmin etməklə yanaşı, uzunmüddətli inkişafın təmin olunmasına xidmət edir. Bu təşəbbüslər, həmçinin, beynəlxalq investorlar üçün cəlbedici şərait yaradır, beləliklə, Qarabağın iqtisadi dirçəlişi prosesində mühüm rol oynayır.

Azərbaycan Respublikasının Prezidentinin 28 may 2021-ci il tarixli fərmanı əsasında təsis edilmiş Ağdam Sənaye Parkı 190 hektarlıq geniş bir ərazini əhatə edərək, regionun iqtisadi potensialını artırmaq məqsədilə mühüm bir sənaye mərkəzinə çevrilmişdir. Bu sənaye parkı, əsasən, tikinti materiallarının istehsalı, kənd təsərrüfatı məhsullarının qablaşdırılması, meyvə-tərəvəz konservləri, ət və süd məhsullarının emalı, yem və gübrə istehsalı kimi sahələrdə fəaliyyət göstərmək üçün prioritet istiqamətləri müəyyənləşdirmişdir. Bundan əlavə, soyuducu kameraların təşkili və digər xidmət sahələrinin inkişafı da parkın əsas fəaliyyət sferaları sırasındadır. Hal-hazırda Ağdam Sənaye Parkında ümumilikdə 28 sahibkarlıq subyektinə rezident statusu, 4 sahibkara isə qeyri-rezident statusu verilmişdir. Parkın hazırkı fəaliyyət göstəriciləri çərçivəsində 9 müəssisə aktiv olaraq istehsal prosesinə qatılmışdır.

Ağdam Sənaye Parkı, Azərbaycanın Qarabağ iqtisadi rayonunda iqtisadi inkişafı təşviq etmək məqsədilə yaradılmış strateji əhəmiyyətə malik bir infrastruktur layihəsidir. Bu sənaye parkı 152.8 milyon ABŞ dolları həcmində investisiya cəlb etməklə, bölgənin iqtisadi potensialını artırmaq və regional iqtisadiyyatda yeni iş imkanları yaratmaq məqsədinə xidmət edir. Sənaye parkında 190 hektar ərazidə müxtəlif istehsalat sahələri yaradılmışdır ki, bu da geniş miqyaslı istehsal və xidmət sektoru fəaliyyətləri üçün əlverişli şərait təmin edir. Hazırda sənaye parkında 2287 iş yeri mövcuddur və bu, regiondakı işsizliyin azalmasına və yerli əhalinin sosial rifahının yaxşılaşmasına əhəmiyyətli töhfə verir.

Ağdam Sənaye Parkı həm yerli sahibkarlığın inkişafı, həm də xarici investorların cəlb edilməsi

baxımından mühüm bir platforma kimi çıxış edir. İqtisadi fəaliyyətlərin müxtəlifliyi və sənaye sahələrinin geniş spektri parkın iqtisadi dayanıqlığını təmin edir və müasir texnologiyaların tətbiqi üçün əlverişli imkanlar yaradır. İnfrastrukturun müasir standartlara uyğun qurulması, logistika xidmətlərinin inkişafı və investisiya mühitinin cəlbediciliyi Ağdam Sənaye Parkını regional və beynəlxalq səviyyədə strateji iqtisadi mərkəzə çevirməkdədir. Bu parkın fəaliyyəti Azərbaycanın post-müharibə dövründə iqtisadi yenidənqurma səylərinin mühüm tərkib hissəsidir.

Ağdam Sənaye Parkının logistika imkanları onun iqtisadi təsir dairəsini genişləndirmək üçün mühüm bir üstünlük təmin edir. Sənaye parkının Tbilisi şəhərinə olan 350 km-lik məsafəsi, Qafqaz regionunda ticarət əlaqələrinin genişləndirilməsi üçün əlverişli şərait yaradır. Eyni zamanda, Poti limanına qədər 670 km məsafə, parkın beynəlxalq dəniz daşımalarına çıxışını təmin edərək, xarici bazarlara məhsul ixracını daha səmərəli edir. Təbriz şəhərinə olan 430 km-lik yaxınlıq, İranla ticarət əlaqələrinin inkişafı üçün strateji üstünlük təqdim edir və regional iqtisadi əməkdaşlığa əlavə impuls verir.

Füzuli Beynəlxalq Hava Limanına cəmi 62 km məsafənin olması, parkın aviasiya yüklərinin idarə edilməsi və sürətli nəqliyyat xidmətləri üçün unikal imkanlar təmin etməsini göstərir. Bu cür inkişaf etmiş logistika şəbəkəsi, parkın həm yerli, həm də beynəlxalq ticarət potensialını artırır və investorlar üçün cəlbedici bir infrastruktur yaradır. Belə coğrafi üstünlüklər, Ağdam Sənaye Parkını regional ticarət mərkəzi kimi möhkəmləndirir və onu Azərbaycan iqtisadiyyatının əsas dayaq nöqtələrindən birinə çevirir. Bu logistika imkanları parkın fəaliyyətinin müasir tələblərə uyğun qurulduğunu və xarici bazarlara inteqrasiya üçün yüksək səviyyədə uyğunlaşdırıldığını nümayiş etdirir.

Bununla yanaşı, Azərbaycan Respublikasının Prezidentinin 4 oktyabr 2021-ci il tarixli fərmanı ilə təsis edilmiş "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı, logistik imkanları baxımından mühüm strateji mövqedə yerləşərək, 200 hektarlıq ərazidə fəaliyyət göstərir. Bu sənaye parkının əsas fəaliyyət istiqamətləri logistika və ticarət mərkəzlərinin, anbar komplekslərinin, topdan və pərakəndə satış obyektlərinin yaradılmasını, TIR parkı və gömrük anbarlarının təşkili ilə yanaşı, yanacaqdoldurma stansiyaları və avtomobil təmir məntəqələrinin qurulmasını əhatə edir. Hal-hazırda "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında 13 sahibkarlıq subyektinə rezidentlik statusu verilmiş, 1 sahibkara isə qeyri-rezidentlik statusu təqdim edilmişdir. Hazırda parkda 1 müəssisə öz fəaliyyətini həyata keçirməkdədir.

"Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı, işğaldan azad edilmiş ərazilərin iqtisadi dirçəlişi üçün yaradılmış mühüm iqtisadi infrastruktur layihəsidir. Bu sənaye parkı 78,7 milyon ABŞ dolları həcmində investisiyanı cəlb edərək Qarabağın sənaye potensialını genişləndirmək və regionda dayanıqlı iqtisadi inkişafı təmin etmək məqsədi daşıyır. 200 hektarlıq ərazidə yerləşən parkın əsas məqsədlərinə müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli istehsal sahələrinin inkişafı və əhalinin məşğulluğunun artırılması daxildir. Parkın 2020 yeni iş yerinin yaradılmasına şərait yaratması, bölgənin iqtisadi və sosial göstəricilərini əhəmiyyətli dərəcədə yaxşılaşdırmağa yönəlmişdir.

Bu sənaye parkı sahibkarlığın təşviqi və inkişafı üçün əlverişli mühit yaradır, regionda yerli və xarici investorların cəlb edilməsini sürətləndirir. Eyni zamanda, "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı müasir standartlara uyğun infrastrukturu ilə istehsal sahələrini genişləndirmək və beynəlxalq ticarət əlaqələrini gücləndirmək üçün strateji bir platforma kimi xidmət edir. Belə yanaşma Qarabağın iqtisadi potensialını tam şəkildə reallaşdırmaqla yanaşı, Azərbaycanın ümumi iqtisadiyyatına da mühüm töhfə verir. Parkın yaradılması həmçinin regionda müasir texnologiyaların tətbiqini genişləndirmək və davamlı inkişaf məqsədlərinə nail olmaq baxımından xüsusi əhəmiyyət kəsb edir.

Hər iki sənaye parkı, ölkə iqtisadiyyatına müxtəlif sahələrdə mühüm töhfələr verərək, həm sahibkarlığın inkişafını təşviq edir, həm də iqtisadiyyatın müxtəlif istiqamətlərində davamlı tərəqqini təmin edir. Bu təşəbbüslər, Azərbaycan regionlarında sənaye mərkəzlərinin gücləndirilməsinə və işğaldan azad edilmiş ərazilərin iqtisadi reinteqrasiyasına yönəlmiş əsas addımlardan biridir.

## 5. Nəticə və təkliflər

Azərbaycan Respublikasında sənaye parklarının yaradılması və inkişafı iqtisadiyyatın

şaxələndirilməsi, qeyri-neft sektorunun gücləndirilməsi və dayanıqlı inkişafın təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Təhlillər göstərir ki, sənaye parkları həm yerli sahibkarlığın inkişafını dəstəkləyir, həm də xarici investorlar üçün əlverişli şərait yaradır, bu isə milli iqtisadiyyatın beynəlxalq rəqabət qabiliyyətini artırır.

Əldə edilən nəticələr göstərir ki, infrastrukturun müasir tələblərə uyğun qurulması, inzibati maneələrin aradan qaldırılması və güzəştli iqtisadi təşviqlərin tətbiqi sənaye parklarının fəaliyyətində uğurlu nəticələr əldə edilməsinə şərait yaradır. İşğaldan azad olunmuş ərazilərdə yaradılan sənaye parkları xüsusilə bölgənin iqtisadi dirçəlişi və sosial inkişafı baxımından əhəmiyyətli rol oynayır. Tədqiqatda qeyd edilir ki, sənaye parklarının səmərəli fəaliyyəti üçün dövlət və özəl sektor arasında əməkdaşlıq gücləndirilməli, innovativ texnologiyaların tətbiqi genişləndirilməlidir. Bundan başqa, sənaye parklarının beynəlxalq təcrübəyə əsaslanan idarəetmə modellərinin tətbiqi regional iqtisadiyyatın inkişafında müsbət təsir göstərmişdir. Rəqəmsallaşma və innovasiya potensialı sənaye parklarının gələcək inkişaf perspektivləri baxımından strateji əhəmiyyət kəsb edir. İqtisadi inkişafın bu əsasını təşkil edən sənaye parklarının fəaliyyətinin səmərəli təşkili gələcək illərdə məhz iqtisadi göstəricilərin daha da yaxşılaşmasına gətirib çıxaracaqdır.

**Sənaye parklarının fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə aşağıdakı punktlar təklif edilir:**

1. **İnnovativ texnologiyaların tətbiqi.** Sənaye parklarında rəqəmsallaşma və yüksək texnologiyaların tətbiqi üçün xüsusi proqramlar hazırlanmalı və həyata keçirilməlidir.
2. **İnvestorların cəlb edilməsi.** Xarici və yerli investorlar üçün daha cəlbedici iqtisadi təşviqlər təqdim edilməli, inzibati prosedurlar sadələşdirilməlidir.
3. **İnfrastrukturun genişləndirilməsi.** Müasir standartlara uyğun infrastruktur layihələri həyata keçirilməli və sənaye parklarının logistika imkanları artırılmalıdır.
4. **Sahibkarlığın inkişafı.** Kiçik və orta sahibkarların sənaye parklarına inteqrasiyası üçün xüsusi dəstək mexanizmləri yaradılmalıdır.
5. **Təlim və kadr hazırlığı.** İxtisaslı kadrların yetişdirilməsi üçün sənaye parklarında təlim mərkəzləri qurulmalı və əmək bazarının tələblərinə uyğun kurslar təşkil edilməlidir.
6. **Ekoloji davamlılıq.** Sənaye parklarının fəaliyyəti zamanı ətraf mühitin qorunması və ekoloji tələblərə əməl edilməsi üçün xüsusi tədbirlər görülməlidir.

## İstifadə olunmuş ədəbiyyat / *References*


1. Sənaye parklarının, sənaye məhəllələrinin və aqroparkların idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI, https://e-qanun.az/framework/46709
2. Sumqayıt Kimya Sənaye Parkının yaradılması haqqında AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI, https://e-qanun.az/framework/22726
3. Bakı şəhərində Balaxanı Sənaye Parkının yaradılması haqqında AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI, https://e-qanun.az/framework/22839
4. Qaradağ Sənaye Parkının yaradılması haqqında AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI, https://e-qanun.az/framework/30083
5. Mingəçevir Sənaye Parkının yaradılması haqqında AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI, https://e-qanun.az/framework/29430
6. Pirallahı Sənaye Parkının yaradılması haqqında AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI, https://e-qanun.az/framework/33680
7. Bianchi, P., & Labory, S. (2018). *Industrial Policy after the Crisis: Seizing the Future*. Edward Elgar Publishing.
8. European Commission. (2019). *Sustainable Industrial Development Strategy*. Retrieved from https://ec.europa.eu
9. Foray, D. (2004). *Economics of Knowledge*. MIT Press.
10. Harrison, J., & Heffernan, M. (2015). Sustainable industrial development in Europe: Policy directions and practices. *European Planning Studies*, 23(1), 1-21.

11. Lundvall, B. Å. (1992). *National Systems of Innovation: Towards a Theory of Innovation and Interactive Learning*. Pinter Publishers.
12. Porter, M. E. (1990). *The Competitive Advantage of Nations*. New York: Free Press.
13. Saxenian, A. (1994). *Regional Advantage: Culture and Competition in Silicon Valley and Route 128*. Harvard University Press.
14. Scott, A. J., & Storper, M. (2003). Regions, globalization, development. *Regional Studies*, 37(6–7), 579–593.
15. Zeng, D. Z. (2010). *Building Engines for Growth and Competitiveness in China: Experience with Special Economic Zones and Industrial Clusters*. World Bank Publications.

# Настоящее состояние деятельности промышленных парков в Азербайджане

**Мехман Гасанлы**
аспирант
Азербайджанский Университет Архитектуры и Строительства
0009-0008-6369-7059
mehmanhli10@gmail.com

**Резюме:** В статье анализируется текущее состояние промышленных парков в Азербайджане, их экономическая роль и перспективы развития. Значительное внимание уделено вкладу промышленных парков в рост ненефтяного сектора, занятости и привлечения иностранных инвестиций. Проанализировано влияние промышленных парков, созданных на освобожденных территориях, на восстановление региональной экономики. Отмечено, что исследования и применение международного опыта играют важную роль в повышении эффективности этих парков. Фактически, было указано, что применение современных технологий, создание конкурентной среды и укрепление государственно-частного партнерства являются лишь немногими из предпосылок, необходимых для успеха парков. Улучшенная логистика и инфраструктура также были рассмотрены для повышения эффективности промышленных парков. Наконец, промышленные парки были подчеркнуты как соответствующие экономические платформы для устойчивого развития. Результаты подчеркивают роль промышленных парков как ключевого компонента в стратегии экономического развития Азербайджана.

**Ключевые слова:** Промышленные парки, ненефтяной сектор, инвестиции, экономическое развитие, технологии.

DOI: https://doi.org/10.36719/2707-9317/04/158-165

# Problems of business marketing in the digital environment

**Nigar Gyulmalieva**
PhD candidate - Azerbaijan University of Cooperation
Email: nigar.gulmaliyeva@gmail.com

**Abstract:** Success in business directly depends on modeling consumer behavior and interaction with customers. The role of marketing in deepening these relationships and increasing efficiency is increasing. Realization of the possibilities and advantages of the digital environment in the development of business marketing requires scientific, theoretical and experimental research. Modern business problems and business marketing problems are closely related. The decisive role of marketing in ensuring the effectiveness of interaction between business and customers is increasing due to digital transformations. Creative and effective use of digital tools and technologies to achieve the goals and objectives of business marketing involves the development of databases and knowledge, improvement of digital platforms and promotion of experience in other similar areas. Improving business marketing in the aspect of innovation and territorial development also has real digital opportunities.

**Key words:** digital transformations, marketing, business, client, innovations, territorial development.

**JEL: I15, O30, O35, UOT: 332.1, 614.2**

# Rəqəmsal mühitdə biznesin marketinq problemləri

**Nigar Gülmalıyeva**
Doktorant - Azərbaycan Kooperasiya Universiteti
Email: nigar.gulmaliyeva@gmail.com

**Xülasə:** Biznesdə uğur qazanmaq istehlakçı davranışının modelləşdirilməsindən, müştəri ilə qarşılıqlı əlaqələrdən bilavasitə asılıdır. Həmin əlaqələrin intensivləşdirilməsində və səmərəliliyin yüksəldilməsində marketinqin rolu artır. Biznes marketinqin inkişafında rəqəmsal mühitin imkan və üstünlüklərinin reallaşdırılması elmi-nəzəri və təcrübi araşdırmalar tələb edir. Biznesin müasir problemləri ilə biznes marketinqinin problemləri kifayət qədər sıx surətdə əlaqədardır. Biznes və müştərilər arasında qarşılıqlı əlaqələrin səmərəliliyinin təmin edilməsində marketinqin həlledici rolu rəqəmsal transformasiyalar sayəsində daha da artır. Biznes marketinqin məqsədi və vəzifələrinin icrasında rəqəmsal alət və texnologiyaların yaradıcı və səmərəli tətbiqi verilənlər və biliklər bazasının inkişafını, rəqəmsal platformaların təkmilləşdirilməsini və bu kimi istiqamətlərdə təcrübənin təşviqini nəzərdə tutur. Biznes marketinqin innovasiyalı fəaliyyət və ərazi inkişafı aspektində təkmilləşdirilməsi də real rəqəmsal imkanlara malikdir.

**Açar sözlər:** rəqəmsal transformasiyalar, marketinq, biznes, müştəri, innovasiya, ərazi inkişafı.

**JEL: I15, O30, O35, UOT: 332.1, 614.2**

## Giriş / Introduction

Rəqəmsallaşma həyatın bütün sahələrinə sürətlə nüfuz edir, biznes mühitində baş verən dəyişikliklər, bu və ya digər dərəcədə rəqəmsal mühitin xarakteristikaları ilə bağlıdır. Müasir dövrdə müştərinin ehtiyaclarının və tələbatının düzgün dərk edilməsi baxımından rəqəmsal alət və texnologiayalar real imkanlar yaradır. Biznes subyektinin səmərəli fəaliyyətinin genişləndirməsi üçün rəqəmsal mühitin üstünlükləri aşkar edilməli və gerçəkləşdirilməlidir. O cümlədən, bazarın seqmentləşdirilməsinə yenidən yanaşmaların mümkünlüyü araşdırılmalı, rəqəmsal biznes marketinqin inkişafı prioritetləri əsaslandırılmalıdır. Marketinq qərarlarının hazırlanması və qəbulu prosesində çoxvariantlı ssenarilərin qurulmasına imkan verən rəqəmsal transformasiyaların tətbiqi hərtərəfli əsaslandırılmaya imkan verir. Müasir rəqəmsal biznes marketinqində kompleksliyin təmin edilməli, müvafiq rəqəmsal alət və texnologiyaların tətbiqində sistemlilik, innovativlik və dayanıqlıq tələblərinə əməl edilməlidir. Təqdim olunan məqalə şərh edilən məsələlərin tədqiqinə həsr olunmuşdur.

## Əsas hissə / Main part

### Ədəbiyyatların təhlili.

Tədqiqatın gedişində biznes marketinqin məqsədi, vəzifələri və reallaşma mühiti şərh edilməklə, müasir problemlər aşkar edilmiş, onların həllinin elmi-nəzəri əsaslarının şərh olunduğu mənbələr araşdırılmışdır (Sheth, 2014). Biznes marketinqin sosial məsuliyyət və mənfəətin artımı arasında səmərəli manevrinin və müştəri yönümlü fəaliyyətin nəticəyönümlüyünün təmin edilməsinin rəqəmsal imkanlarının qiymətləndirilməsi vəziyyəti xarakterizə olunmuşdur (Rakic, 2013). Araşdırılan mənbələrdə biznes marketinqin prinsiplərinin şərh olunduğu tədqiqatların nəticələrinə münasibət bildirilmiş (Calvo-Porral, 2017), biznes proseslərinin optimallaşdırılmasında marketinqin və rəqəmsal platformaların yeri və rolu (Rangaswamy, 2020) tədqiq olunmuşdur. İnnovasiya biznesində rəqəmsal transformasiyaların marketinqin alət və vasitələrə təsiri (Gillpatrick, 2019) qiymətləndirilmişdir. Əsaslandırlan müddəalar və əldə edilən nəticələr rəqəmsal biznes mühitində marketinqin problemlərinin tədqiqinin davam etdirilməsi zərurətini şərtləndirir.

### Metodologiya.

Tədqiqat işində müşahidə, sistemli yanaşma, müqayisəli təhlil və məntiqi ümumiləşdirmə üsulları tətbiq edilmişdir. Aparılan tədqiqatın tətbiqi əhəmiyyəti irəli sürülən müddəaların və əldə

edilən nəticələrin rəqəmsal mühitdə biznesin marketinq problemlərinin həlinə verəcəyi töhfədə ifadə olunur. Tədqiqatın elmi yeniliyi və orijinallığı rəqəmsal marketinqin biznesin müştəri yönümlüyünə təsirinin elmi-nəzəri və təcrübi imkanlarının səciyyələndirilməsi ilə bağlıdır.

## Nəticə və müzakirələr

### Biznes - marketinq və onun təşəkkülü mühiti

Biznes subyektinin inkişafı, o cümlədən fəaliyyətinin genişləndirməsi və səmərəliyin yüksəldilməsi marketinqin başlıca məqsədidir. Bazarda mövqeyini möhkəmlətməkdə ifadə olunan bu məqsədə çatmaq üçün biznesin strategiyasının prioritetlərinə uyğunluq təmin edilməlidir.

Müasir marketinqin problemləri kimi aşağıdakıları önə çəkmək olar:

- marketinqin sosial məsuliyyət və mənfəətin artımı arasında manevr zamanı, əksər hallarda sonuncuya üstünlük verilməsidir;

-marketinqin potensial müştərinin həqiqi ehtiyaclarına deyil, biznes subyektinin öz məhsullarının satışı ilə reallaşdırıla bilən ehtiyaclarını öyrənməsidir;

-marketinqin “qeyri-məqsədli” olması. Əlbəttə, biznes - marketinqin məqsəddən (xüsusilə potensial müştəriyə münasibətdə) kənarlaşması bilərəkdən deyil, vəziyyətin düzgün qiymətləndirilməməsi səbəbindən irəli gəlir;

- tələbi şərtləndirən amillərin hərtərəfli əhatə oluna bilməməsi;

- dəbin artan təsiri ilə subyektiv amillərin mühityaratma qabiliyyətinin güclənməsi və s. Görmək çətin deyildir ki, sadalanan problemlərin həlli baxımından rəqəmsal transformasiyaların potensialı diqqətə layiqdir.

Marketinqin müasir vəzifələrinin təsnifatına və rəqəmsal mühitin imkanlarına münasibətdə kifayət qədər fərqli münasibət mövcuddur. Deyək ki, müvafiq mənbədə biznes marketinqin vəzifələri qismində, hər şeydən əvvəl aşağıdakılar qeyd olunur:

“ - biznes strategiyasının müəyyənləşdirilməsi və reallaşdırılmasında, inteqrasiya və kompleksliyin əldə edilməsində marketinqin aparıcı rolunun təmin edilməsi;

- qloballaşma və transmilli korporasiyaların marketinqinin aparılması;

- marketinqin rəqəmsal formatına keçid, rəqəmsal medianın və onlayn marketinqin inkişaf etdirilməsi;

- müştərilərin iştirakı ilə məhsulların və xidmətlərin yaradılması, fərdiləşdirilmiş marketinqin həyata keçirilməsi;

- dayanıqlı inkişaf üçün dayanıqlı marketinq prosesinin təmin edilməsi” (Rakic, 2013).

Aşağıdakı mənbədə qeyd olunduğu kimi müştərinin ehtiyacının düzgün dərk edilməsi, ödənilməyən ehtiyacların müəyyən edilməsi üçün bazarın vəziyyətini əks etdirən verilənlərin dərin təhlili aparılmalıdır. Həmin təhlilin detallı və hərtərəfli olmasında rəqəmsal texnologiyalar həlledici rola malikdir. Həmin texnologiyalar biznes qurumu, bazar mühiti haqqında olduqca böyük həcmli verilənlərin yığılması, işlənməsi və təqdim olunması sayəsində müştəri tələbatının və tələbinin etibarlı proqnozlaşdırılmasını təmin edir (Гончарова, 2021).

Biznes marketinqinin prinsipləri ümumi olsa da, müxtəlif sahələrdə onlar fərqli reallaşma mühitinə və fərqli təzahürlərə malikdir. Marketinqin başlıca vəzifəsi bazarın konkret seqmentində müştəri üçün faydalı olan məhsul təklif etməkdir. İlk növbədə müştərinin nəyə ehtiyacı olduğunu və rəqiblərin yaradılan dəyərə təsiri, daha doğrusu ona etdiklərə əlavələri xarakterizə etmək lazımdır. Əlbəttə, müştərilərə davamlı meyillərə malik vəziyyətlərdə davamlı kömək imkanları aşkar edilməlidir.

Həmin imkanları aşkar etmək üçün fəaliyyətdə olan və yeni biznes üçün bazarın müvafiq seqmentində rəqabət aparan subyektlərin təklif etdiyi məhsul və xidmətlərin xarakteristikalarını, ilk növbədə qiymətləri və çeşidləri öyrənmək lazım gəlir. İlkin yanaşmadan sonra bazar araşdırmalarının keyfiyyət, müştəri marağı, yaşıl inkişafa uyğunluq kimi aspektləri davam etdirilməlidir.

Burada iki məqamın diqqətə layiq olduğunu hesab edirik. Bazarın seqmentləşdirilməsi sisteminə yanaşma çevik olmalı, rəqəmsal transformasiyalar şəraitində, bu seqmentləşdirmənin şərtiliyinin daha da gücləndiyi nəzərə alınmalıdır. Məsələ ondadır ki, rəqabət mübarizəsini yalnız seqment daxilində nəzərə alan yanaşma, özünü heç də həmişə doğrultmur. Başqa sözlə, rəqəmsallaşma şəraitində reklamın təsiri arealının sürətlə genişlənməsi şəraitində seqmentlərarası rəqabət amili diqqətdən

kənarda qalmamlıdır (Thomas Reutterer, 2006). Digər tərəfdən, müştərinin bildirdiyi istəklərin onların maraqlarını nə dərəcədə ifadə etdiyi məsələsinin aktuallığı qeyd edilməlidir. Bu əlbəttə, ən mürəkkəb və həlli, bir çox hallarda mümkün olmayan məsələdir. Eyni zamanda, bazarda informasiya assimmetriyasının azaldılması istiqamətində atılan addımların real imkanlarını da unutmaq olmaz. İlkin yanaşmada isə, hər kəsin müştəri olduğu nəzərə alınmaqla, istək və maraqlar arasında əlaqələrin əyani cəhətlərini öyrənməklə, məhsul (xidmət) təkliflərinə marağın dinamika təhlili sayəsində müəyyən nəticələr əldə etmək olar.

Biznes marketinqin inkişafında daha çox müştəri cəlb etmək və onu saxlamaq prioritet hesab edilir. Məhdud yaşayış və fəaliyyət məkanının üstünlüklərindən istifadə etmək aktual məsələ olaraq qalsa da, canlı təmas sayəsində məhsulu və xidməti tanıtmaq imkanları get-gedə azalır. Odur ki, rəqəmsal mühitin üstünlükləri və imkanlarından istifadə etməklə, biznes marketinqin mütərəqqi və səmərəli sayılan üsul və vasitələri daha fəal sutətdə tətbiq edilməlidir.

Bazar araşdırmaları təklif ediləcək məhsulların təkmilləşdirilməsinə xidmət edir. Təkmilləşdirmənin və yenilənmənin ideyası, əhəmiyyətli dərəcədə təklif edilən məhsula müştəri münasibətinin təhlilindən əldə edilir. Başqa sözlə, məhsulda və xidmətdə müştərinin gördüyü çatışmazlıqlar təkmilləşdirmənin vektorları kimi qəbul edilir. Məhsulun müştərilərin fərdi və ya ümumiləşdirilmiş istəklərinə uyğun təkmilləşdirilməsində texnoloji məhdudiyyətlər səbəbindən sonuncuya üstünlük verilməsi iqtisadi baxımdan daha münasibdir. Odur ki, məhsulların son istifadəçiyə təqdimatında fərdi münasibətin önə çəkilməsində kreativlik zərurətə çevrilir. Biznes marketinq satışı təşviq etməli, məhsul və xidmətlər müştərinin təsəvvüründə münasib (ədalətli) sayılan qiymətlərlə təklif edilməlidir.

Rəqəmsal transformasiyalar marketiqin virtual fəzasını formalaşdırmaqla, müştərilərin davranışlarının modelləşdirilməsini, xüsusilə verilənlər və biliklər bazalarının inkişafını (o cümlədən, yenilənməsi və zənginləşdirilməsini) sürətləndirir. Biznes proseslərinin optimallaşdırılması alqoritmlərinin, proqram təminatı komponentlərinin seçimində rəqəmsal transformasiyalar amili aparıcı rol oynamağa başlamışdır. Bununla belə, onu da qeyd edək ki, onlayn marketinqin təşəkkülü, bəzi hallarda birtərəfli baş verir. Məsələ ondadır ki, onlayn marketinq heç də həmişə bazar mühitinin modelləşdirilməsi ilə müşayiət olunmur. Başqa sözlə, ənənəvi bazar araşdırmalarının rəqəmsal formatda təqdim olunması ilə kifayətlənmək heç də nadir hal deyildir.

Rəqəmsal marketinqin inkişafı demək olar ki, bütün tanıtma kanallarından sinxron istifadəyə imkan verir. Bu zaman, biznes subyektinin təklif etdiyi məhsulları və xidmətləri optimal surətdə tanıtmaq üçün rəqəmsal kanalların bütün mümkün növlərinin qovuşması baş verir. Biznes subyektlərinin onlayn mövcudluğunu şərtləndirən komponentlər, o cümlədən veb səhifələr, sosial media və şəbəkələr, onlayn reklamlar və s. əhatə olunur (Будникевич И. М., 2019).

Tədqiqatların nəticələrinə əsasən belə demək olar ki, (Будникевич И. М., 2019) pərakəndə ticarət sahəsində fəaliyyət göstərən biznes subyektlərində rəqəmsal marketinqin daha fəal və daha geniş arealda tətbiqi təcrübəsinin təhlili, aşağıdakı meyilləri aşkar etmişdir:

-pərakəndə satış şəbəkəsi rəqəmsal texnologiyalardan istifadənin miqyası və dost interfeyslərin əhatə dairəsi genişləndikcə, burada fəaliyyət göstərən biznes subyektləri daha modern məhsulları daha operativ surətdə qəbul edib, müştərilərə təklif edir;

- biznes proseslərinin optimallaşdırılması və biznes obyektlərinin rəqəmsallaşdırılması imkanları artır;

- biznes subyektlərinin əməkdaşları və müştərilərin qarşılıqlı təmasların azaldılması müşahidə olunur;

- biznesin innovasiyalı idarə edilməsi sistemlərinin əhatə dairəsi genişlənir, müvafiq texnologiyaların inteqrasiyalı tətbiqi üçün yeni standartlara keçid baş verir və s.

**Rəqəmsal transformasiyaların biznes-marketinqi problemlərinin həllində rolunun artırılması**

Rəqəmsal transformasiyalar çoxvariantlı ssenarilərin qurulmasına imkan verməklə biznes marketinqdə hərtərəfli qərarların işlənib hazırlanması və qəbulunu sürətləndirir. Eyni zamanda, müştərilər fərdi yanaşma imkanlarını reallaşdırmaq və bu baxımdan bazar araşdırmalarına cəlb olunan əməkdaşların sayını azaltmaq mümkün olur. Biznes marketinqin rəqəmsallaşması innovasiyalara

həssaslığı, əhəmiyyətli dərəcədə artırır. Müasir biznesdə uğur qazanmaq üçün marketinqin rəqəmsallaşdırılması, təcrübədən göründüyü kimi resurslardan daha səmərəli istifadə, tələbin ödənilmə səviyyəsinin yüksəldilməsi istiqamətində müsbət nəticələr verir. Həmin nəticələrdə tədqiqatların və işləmələrin artan rolu müşahidə edilir. **Başlıca məqsədlərindən biri biznes subyektinin idarə edilməsi üzrə əsaslandırılmış və səmərəli idarəetmə qərarlarının işləyib hazırlanması olan** marketinq tədqiqatları biznes-risklərinin azaldılmasında həlledici rol oynaya bilir. Həmin risklərin idarə edilməsində də marketinq tədqiqatlarının nəticələri mühüm amildir.

Rəqəmsal transformasiyalar innovasia bazarında biznes marketinqinin alət və vasitələrini dəyişdirir. Haqqında danışılan dəyişikliklər, biznes marketinqin rəqəmsal texnologiyaların tətbiqi tələblərinə uyğunlaşmasl ilə əlaqədardır. Əlbəttə, biznes marketinqində keyfiyyət xarakteristikalarının yaxşılaşdırılması zərurəti də, bu baxımdan az rol oynamır. Rəqəmsal marketinqdə məhsulun (xidmətin) tanıtma xəttinin xarakteristikaları qismində informasiyanın təqdimatı kifayət qədər mühüm rol oynayır. Müvafiq mənbələrdə "biznes-marketinq tədqiqatlarının yekunlarının məqsədli (və ya geniş) auditoriyaya lazımi keyfiyyətdə çatdırılmasının həlledici əhəmiyyəti qeyd olunur (James, Sylvia. (2004). Bu halda, biznes marketinqi tədqiqatlarının nəticələrinin təqdimatında məhsul təklifinin ətraflı şərh olunması, biznes subyektinin imicinin yüksəldilməsi və hətta yeni tələbin yaradılması tələblərinə uyğun olması vacib şərt kimi qəbul edlməlidir. Eyni zamanda, təqdimatın, geniş müştəri auditoriyası üçün kifayət qədər anlaşılan olması da mühüm şərt hesab olunur.

İndi isə rəqəmsal biznes marketinqin inkişafı mühitini xarakterizə edərək, onun inkişafı prioritetlərini müəyyən edək. Rəqəmsal marketinq qlobal şəbəkə rejimində rəqəmsal platformalardan və qurğulardan istifadə sayəsində biznes subyektinin təklif etdiyi məhsulun (xidmətin) son istifadəçiyə doğru yeridilişini, o cümlədən satışın artırılmasını təmin etməlidir. Artıq qeyd edildiyi kimi, rəqəmsal transformasiyalar biznes marketinqdə və ümumilikdə biznes mühitində kəmiyyət və keyfiyyət dəyişikliklərinə səbəb olur. Həmin dəyişikliklər verilənlərin axtarılması, əldə edilməsi, sistemləşdirilməsi, bilavasitə işlənməsi və istifadəsi prosesində də özünü əyani surətdə göstərir. Biznes marketinq tədqiqatlarında verilənlərin daxil olmasının formalaşmış vasitələri (elektron poçt, mobil rabitə və s.) ilə yanaşı VAS (Value-Added Services) xidmətlərindən biznesdə fəal istifadə olunur. Elektron ticarət terminallarında biznes məlumatlarının ştrix kodların skan edilməsinə əsaslanan texnologiyalar da geniş yayılmışdır.

Aşağıdakı mənbədə göstərildiyi kimi, "marketinq tədqiqatlarında CATI (kompüterləşdirilmiş telefon sorğuları üçün qurğular), CAPI (kompüterləşdirilmiş fərdi müsahibələr üçün qurğular), Peoplemeters (müxtəlif televiziya proqramlarının populyarlığını qiymətləndirmək üçün cihazlar), sorğuların keçirilməsi üçün İnternet texnologiyaları və mobil texnologiyalar (WAP və s.) fokus qrupları, panellər.istifadə edilməkdədir" (Данько Т. П., 2013).

Rəqəmsal marketinqin inkişafında təcrübi prioritetlər qismində ilk növbədə internet marketinqin kompleksliyinin təmin edilməsi qeyd edilməlidir. Bu məqsədlə, biznes proseslərinin rəqəmsal monitorinqi aparılmalıdır. Rəqəmsal mühitdə marketinqdə autsorsinqin tətbiqi daha asan və səmərəlidir. Odur ki, biznes marketinq xidmətində autsorsinqin inkişafı prioritet sayıla bilər.

Qabaqcıl şirkətlər biznes marketinqinin rəqəmsallaşmasına xüsusi önəm verirlər. Onların tətbiq etdikləri rəqəmsal texnologiyalara, müvafiq mənbələrdə, bir sıra hallarda aşağıdakılar nümunə olaraq göstərilir (cədvəl).

***Cədvəl***

**İri biznes subyektlərində tətbiq edilən rəqəmsal marketinq texnologiyaları**

| İstiqamətlər | Texnolgiya nümunələri |
|---|---|
| Marketinq kommunikasiyaları | Veb axtarışında, sosial şəbəkələrdə, onlayn videoda reklam. Median reklamlarından, interaktiv reklamdan, hədəf reklamlarından istifadə.Kontent marketinqi, axtarış sisteminin marketinqi, axtarış sisteminin optimallaşdırılması, onlayn PR, korporativ və fərdi bloqlar. |
| Marketinq tədqiqatları | Vaxt məsrəfi və pul vəsaiti xərclərini azaldan onlayn platformalardan istifadə edərək araşdırılması |
| İstehlakçılarla qarşılıqlı münasibətlər | CRM sistemləri, virtual köməkçilər (çat-botlar), rəqəmsal platformalar, mesencerlər. |

| | |
|---|---|
| Marketinq təhlili | Böyük verilənlər, süni intellekt, neyron şəbəkələr, maşın öyrənməsi. |
| Satışın təşkili | Elektron ticarət, istehlakçılara onlayn ödənişlər (o cümlədən, elektron puldan istifadə), rəqəmsal platformalar. |

***Mənbə: (Минаков А.В.,2023)***

Tətbiq edilən texnologiyaların səmərəliliyi onların biznes marketinqin funksiyalarına və həmin texnologiyaların biznesin inkişaf strategiyasının prioritetlərinə uyğunluğu ilə bağlıdır. Tətbiq edilən texnologiyaların seçimində marketinq kommunikasiyalarının inkişaf səviyyəsi, marketinq tədqiqatlarının maliyyələşdirilməsi vəziyyəti, təhlilin verilənlər bazasının imkanları və müştərilərin ənənəvi marketinq zamanı aşkar edilmiş davamlı davranışları nəzərə alınmalıdır.

Biznesin inkişafına, məlum olduğu kimi onun məkan aspektindən təcrid olunmuş surətdə baxılması məqsədəuyğun deyildir. Bununla belə, biznesin və ərazinin inkişfı arasında qarşılıqlı əlaqələri lazımi səviyyədə nəzərə almayan tədqiqatlara rast gəlinir. Müvafiq mənbələrdə ərazi marketinqi dedikdə “ hərtərəfli təhlil, elmi araşdırmalar və strateji işləmələrə əsaslanaraq ərazidə yaşayan və işləyən əhali, habelə investorlar baxımından haqqında danışılan ərazinin cəlbediciliyinin təmin olunmasında mühüm rola maıik vasitə” (Popova, Nadezhda. (2011) qəbul olunur.

Rəqəmsal transformasiyalar ərazi marketinqinin problemlərinin həlli baxımından kifayət qədər geniş potensiala malikdir. Ərazi marketinqinin biznes fəallığının tədqiqi baxımından başlıca məqsədləri arasında, ərazinin investisiya cəlbediciliyinin və işgüzar fəallıq səviyyəsinin yüksəldilməsinə, o cümlədən turist axınlarının intensivləşdirilməsinə xüsusi önəm verilir. Qarşıya qoyulan məqsədlər, ərazinin dayanıqlı inkişafını və mövcud potensialdan səmərəli istifadəni tələb edir. Ərazinin resurs və istehsal potensialından istifadə səmərəliliyinin yüksəldilməsi məsələlərinin həlli resursqoruyucu və yaşıl istehsal texnologiyalarının tətbiqi məsələlərini aktuallaşdırır. Karbon emissiyalarının azaldılması üzrə ölkəmizdə də işlənib hazırlanmaqda olan mexanizm sıfır karbon emissiyası ssenarisini də (xüssuislə işğaldan azad olunmuş ərazilərdə) istisna etmir. Sadalanan digər problemlərin həllində biznesin fəallığı və rəqəmsal transformasiyasının əhatə dairəsinin genişlənməsi amillərinin artan rolu təmin edilməlidir. Konkret halda, biznes proseslərinin optimallaşdırılmasında rəqəmsal alət və texnologiyalardan istifadənin arealı daha genişdir. Belə ki, bu halda ərazilərin dayanıqlı və tarazlı inkişafı məsələləri də əhatə edilməlidir.

Ərazinin dayanıqlı inkişafında bütün fəaliyyət iştirakçılarının tərəfdaşlığı həlledici rola malikdir. Biznes subyektlərinin yerli və mərkəzi idarəetmə nümayəndələri, biznes assosiasiyaları və ictimai təşkilatlarla birgə fəaliyyətinin səmərəliliyi, həmin fəaliyyətin birgə meyarlara və səylərə əsaslanmasını tələb edir.

## Nəticə

Biznes marketinqinin təşəkkülü, hazırda rəqəmsal transformasiyaların tətbiqi dairəsinin gemişlənməsi ilə müşayiət olunur. Biznesin uğuru marketinqin sosial məsuliyyət və mənfəətin artımı arasında səmərəli manevr etməsi üçün rəqəmsal transformasiyaların imkanlarından fəal istifadə olunmalıdır. Bu zaman biznes subyektinin inkişaf strategiyasına uyğunluq təmin edilməlidir. Əgər potensial müştəriyə münasibətdə biznesin əsas məqsəddən kənarlaşması mövcud imkanların düzgün qiymətləndirilməməsi səbəbindən baş verirsə, verilənlər bazasının tamamlanmasına və yenidən strukturlaşdırılmasına ehtiyac vardır. Bu məqsədlə müştərinin ödənilməyən ehtiyaclarının təhlili və qiymətləndirilməsi mexanizmi təkmilləşdirilməlidir. Həmin mexanizmində rəqəmsal texnologiyalar sayəsində müştəri tələbatının və tələbinin, habelə rəqiblərin davranışlarının daha dəqiq proqnozlaşdırılması təmin edilməlidir.

Müştərilərə davamlı kömək imkanlarının aşkar edilməsi prosesində, hazırda müştəri marağına və yaşıl inkişaf tələblərinə uyğunluq meyarları önə çəkilməlidir. Rəqəmsal transformasiyaların bazarın seqmentlərə bölgüsünün mövcud sisteminə təsiri, haqqında danışılan seqmentləşdirmənin şərtiliyini daha da gücləndirir. Rəqəmsal mühit, eyni zamanda müştərinin istəkləri və maraqlarının müqayisəli qiymətləndirilməsi, o cümlədən bazar informasiyasının assimmetriyasının azaldılması istiqamətində texniki-texnoloji imkanları genişləndirə bilər.

Biznes subyektlərinin təklif etdiyi məhsullarda (xidmətlərdə) müştərilərin aşkar etdiyi çatışmazlıqlar innovativ yanaşmaların vektorları qismində qəbul edilə bilər. İstehsalın texnoloji imkanları baxımından orta statistik müştərinin istəklərinə, satışın artırılması baxımından isə fərdi

istəklərə üstünlük verilməsi məqsədəuyğundur. Bu iki istiqamət arasında səmərəli kompromisin tapılması rəqəmsal texnologiyaların sayəsində mümkündür. Vacib şərt onlayn marketinqin ənənəvi bazar araşdırmalarının rəqəmsal formatda təqdimatı ilə əvəzlənməməsidir.

Rəqəmsallaşma biznes marketinqin innovasiyalara həssaslığını artırmaqla, onun alət və vasitələrini əhəmiyyətli dərəcədə dəyişdirir. Bunu şərtləndirən amillər rəqəmsal texnologiyaların tətbiqi tələblərinə uyğunlaşma və biznes marketinqində keyfiyyət xarakteristikalarının yaxşılaşdırılması zərurətidir. Rəqəmsal mühitdə biznes marketinqin inkişafı onlayn marketinqin kompleksliyinin təmin edilməsini, habelə autsorsinqin tətbiqinin genişləndirilməsini nəzərdə tutmalıdır.

Biznes marketinqdə tətbiq edilən rəqəmsal texnologiyaların səmərəliliyində biznesin inkişaf strategiyasının prioritetlərinə uyğunluq əhəmiyyətli rola malikdir. Həmin texnologiyaların seçimində mühüm amillər qismində marketinq kommunikasiyalarının inkişaf səviyyəsinə, tədqiqatlarının maliyyələşdirilməsi vəziyyətinə və verilənlər bazasının imkanlarına xüsusi önəm verilməlidir. Biznesin inkişafına onun məkan aspektindən kənarda baxılmamalı, rəqəmsal transformasiyaların ərazi marketinqinin problemlərinin həllində geniş potensialı nəzərə alınmalıdır.

## İstifadə olunmuş ədəbiyyat / *References*


1. Будникевич И. М., Черданцева И. М., Инструменты реализации концепции цифрового маркетинга торговыми предприятиями. 2019 https://elib.bsu.by/bitstream/123456789/218507/1/актуальные_проблемы_ маркетинга.pdf.
2. Calvo-Porral, Cristina & Stanton, John. (2017). Principles of Marketing
3. Данько Т. П., Китова О.В.Вопросы развития цифрового маркетинга // ПСЭ. 2013. №3 (47). URL:https://cyberleninka.ru/article/n/voprosy-razvitiya-tsifrovogo- marketinga
4. Gillpatrick, Tom. (2019). The Digital Transformation of Marketing: Impact on Marketing Practice & Markets. ECONOMICS. 7. 139-156. 10.2478/eoik-2019-0023
5. James, Sylvia. (2004). Adding Value The Presentation of Business Information. Business Information Review. 21. 44-52. 10.1177/ 0266382104043601
6. Гончарова, Инесса. (2021). Проблемы и перспективы совершенствования управления современным маркетингом. Вестник ВГУ. Серия: Экономика и управление. 59-67. 10.17308/econ.2021.1/3344
7. Минаков А.В.,Суглобов А.Е. Цифровые маркетинговые технологии и их применение в современных бизнес-моделях. Журнал: Russian Journal of Management. Том 11 № 3 , 2023
8. Popova, Nadezhda. (2011). Маркетинг как инструмент развития территорий
9. Rakic, Beba & Rakic, Mira. (2013). Marketing challenges at the beginning of XXI century. Actual Problems of Economics. 147. 446-455
10. Rangaswamy, Arvind & Moch, Nicole & Felten, Claudio & Bruggen, Gerrit & Wieringa, Jaap & Wirtz, Jochen. (2020). The Role of Marketing in Digital Business Platforms. Journal of Interactive Marketing. 51. 72-90. 10.1016/j.intmar.2020.04.006
11. Sheth, Jagdish. (2014). Challenges of improving marketing
12. Thomas Reutterer, Andreas Mild, Martin Natter, Alfred Taudes, A dynamic segmentation approach for targeting and customizing direct marketing campaigns, Journal of Interactive Marketing,Volume 20, Issues 3–4, 2006, Pages 43-57

# Проблемы маркетинга бизнеса в цифровой среде

**Нигяр Гюльмалиева**
Докторант - Азербайджанский Университет Кооперации
Email: nigar.gulmaliyeva@gmail.com
Проблемы бизнес-маркетинга в цифровой среде

**Резюме:** Успех в бизнесе напрямую зависит от моделирования потребительского поведения и взаимодействия с клиентами. Роль маркетинга в углублении этих отношений и повышении эффективности возрастает. Реализация возможностей и преимуществ цифровой среды в развитии бизнес-маркетинга требует научно-теоретических и экспериментальных исследований. Современные проблемы бизнеса и проблемы бизнес-маркетинга достаточно тесно связаны между собой. Решающая роль маркетинга в обеспечении эффективности взаимодействия бизнеса и клиентов возрастает благодаря цифровым трансформациям. Творческое и эффективное применение цифровых инструментов и технологий для достижения целей и задач бизнес-маркетинга предполагает развитие баз данных и знаний, совершенствование цифровых платформ и продвижение опыта в других подобных областях. Совершенствование бизнес-маркетинга в аспекте инновационной деятельности и территориального развития также имеет реальные цифровые возможности.

**Ключевые слова:** цифровые трансформации, маркетинг, бизнес, клиент, инновации, территориальное развитие.

**JEL: I15, O30, O35, UOT: 332.1, 614.2**

DOI: https://doi.org/10.36719/2707-9317/04/166-175

# Theoretical issues of modernization of food production

**Novruz Rahimov**
PhD student at Azerbaijan University of Cooperation

**Abstract:** The aim of the research is to explore the theoretical aspects of the modernization of food production, identify the role of modernization in the development of the globalization process, and determine the problems arising from the modernization of food products in developing countries.

**Methodology** – The research employs various approaches, logical generalizations, comparative analyses, and other methods.

**Practical significance of the research** – Achieving the alignment of food production with modern requirements, and implementing measures to enhance the competitiveness of food production as an essential component of the non-oil sector in the upcoming period.

**Research results** – Expanding the offer of competitive products in foreign markets through the use of the modernization process in food production.

**Originality and scientific novelty** – Establishing the relationship between the modernization of food products and the competitiveness of food production in the context of globalization.

**Key words:** food production, non-oil sector development, globalization, modernization, investment, efficiency, innovation.

# Qida məhsulları istehsalının modernləşdirilməsinin nəzəri məsələləri haqqında

**Novruz Rəhimov**
Azərbaycan Kooperasiya Universitetinin doktorantı

**Xülasə: Tədqiqatın məqsədi** – Qida məhsulları istehsalının modenləşdirilməsinin nəzəri məsələlərini araşdırmaqdan, modernləşdirmənin qloballaşma prosesinin inkişafında rolunu müəyyənləşdirməkdən və inkişaf etməkdə olan ölkələrdə qida məhsullarının modernləşdirməsi ilə bağlı yaranan problemlərin müəyyən edilməsindən ibarətdir.

**Metodologiya** – Tədqiqat işində müxtəlif yanaşmalardan, məntiqi ümumiləşdirmədən, müqayisəli təhlillərdən və digər üsullardan istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** – Qida məhsulları istehsalının müasir tələblərə uyğunlaşdırılmasına nail olmaqdan, perspektiv dövrdə qeyri-neft sektorunun mühüm tərkib hissəsi kimi qida məhsulları istehsalının rəqabət qabiliyyətinin yüksəldilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsinə nail olunması.

**Tədqiqatın nəticəsi** – Qida məhsullarının istehsalı prosesində modernləşdirmə prosesindən istifadə etməklə xarici bazarlarda rəqabət qabiliyyətli məhsul təklifinin genişləndirilməsinə nail olunması.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – Qloballaşma şəraitində qida məhsullarının modernləşdirilməsi ilə qida məhsulları istehsalının rəqabət qabiliyyəti arasında qarşılıqlı əlaqənin müəyyənləşdirilməsinə nail olmaqdan ibarətdir.

**Açar sözlər:** qida məhsullarının istehsalı, qeyri-neft sektorunun inkişafı, qloballaşma, modernləşmə, investisiya qoyuluşu, səmərəlilik, innovasiya

## Giriş

Beynəlxalq münasibətlər sistemində qloballaşma prosesinin dərinləşməsi bütün sahələrdə modernləşmənin inkişaf etdirilməsini tələb edir. Modernləşmə ilkin bəsit anlamda yeniləşmə prosesinin təzahürünü özündə əks etdirir. Modernləşmə prosesini həyata keçirmədən nəinki iqtisadiyyatın bütün sahələrində, eləcə də cəmiyyətin ictimai-siyasi həyatında müasir reallıqlara uyğunlaşmaq mümkün deyildir.

Dünya iqtisadiyyatının qloballaşması qlobal bazarlara rəqabət qabiliyyətli məhsul çıxarılmasını tələb edir. Bütün bunlar eyni zamanda istehlakçıların zövqlərində baş verən dəyişikliklərə istehsalçıların adaptasiyasını da nəzərdə tutur. Məhz bütün bunlar isə qloballaşma şəraitində modernləşmə prosesinin rolunu və əhəmiyyətini artırır. Prosesə bu aspektdən yanaşdıqda tamamilə haqlı olaraq belə qənaətə gəlmək olar ki, modernləşmə cəmiyyətdə məhsuldar qüvvələrin və istehsal münasibətlərinin təkamülünə müvafiq olaraq, eləcə də istehlakçıların davranışlarına adaptiv reaksiya göstərmək iqtidarında olan məhsul və xidmətlərin istehsal edilməsini və qlobal bazarlara uğurla çıxışını nəzərdə tutur.

Cəmiyyətin ictimai-siyasi həyatında və eləcə də sosial-iqtisadi həyatında qloballaşma prosesi dərinləşdikcə internet və sosial platformaların rolu da əhəmiyyətli dərəcədə artır. Etiraf etmək lazımdır ki, artıq qloballaşma insanların məişət həyatına daxil olmuşdur və bütün bunlar, ilk növbədə istehlakçıların sosial davranışlarının və zövqlərinin də dəyişməsini şərtləndirir. Bu baxımdan ənənəvi məhsullarla yanaşı, yeni məhsul növləri yaradılır və qlobal bazarlara çıxarılır. Bundan əlavə, qloballaşma prosesləri dərinləşdikcə məhsulların qablaşdırılmasında, çatdırılmasında da və eləcə də tədüvülü prosesində də kifayət qədər çoxsaylı yeniliklər meydana çıxır. Bütün bunlar isə modernləşmənin səciyyəvi xüsusiyyətlərini şərtləndirir.

**Modernləşmənin formalaşmasının elmi-nəzəri əsasları ilə bağlı ədəbiyyat xülasəsi.** Modernləşmənin formalaşmasına tarixi aspektlər baxımından yanaşdıqda hesab etmək olar ki, adıçəkilən proseslər uzunmüddətli tarixi dövrə təsadüf edir. İlk növbədə əmək cisimlərinin və əmək

predmetlərinin təkamülə uğraması, eləcə də aqrar cəmiyyətlərin sonradan yerinə sənaye cəmiyyəti ilə əvəzləməsi, sənaye cəmiyyətinin isə müasir şəraitdə post-sənaye cəmiyyəti ilə əvəzlənməsi modernləşmənin təkamülünün tarixi əsaslarını formalaşdırır. Bundan əlavə əməyindən manufaktura istehsalına keçid, manufakturanın sonradan fabrik əsaslarına keçid və digər bu kimi təkamül prosesləri modernləşmənin formalaşmasında tarixi təbədüllatları nəzərdə tutur.

Modernləşmə təkamül proseslərinin məcmusunu özündə əks etdirməklə, mürəkkəb və çoxvektorlu bir prosesi özündə əks etdirir. Ibtidai əsasları uzunmüddətli bir tarixi dövrlərə, hətta eramızdan əvvəlki proseslərə təsadüf etsə də, modernləşmə prosesinin nəzəri əsasları ilə bağlı proseslər XVIII-XIX əsrlərdə inkişaf etməyə başlamışdır. Əl əməyinə əsaslanan istehsal prosesinin manufakturalı istehsal prosesinə keçid modernləşmə prosesinin ilkin nəzəri təkamülünü özündə birləşdirir. Bu baxımdan tarixi prosesləri təhlil edərkən belə qənaətə gəlmək mümkündür ki, modernləşmənin nəzəri əsasları ilk dəfə qərb ədəbiyyatlarınd yaranmış və humanitar elm sahələrində daha da inkişaf etdirilmişdir[1. s. 68-74]. Modernləşmə prosesinin əhatə dairəsi kifayət qədər geniş olmaqla həm ictimai-siyasi, həm sosial-mədəni və həm də iqtisadi və texnoloji sahələri özündə əks etdirir. Modernləşmə prosesinin çoxvektorlu olmasını səciyyələndirən məqamlardan biri də ondan ibarətdir ki, fərqli müəlliflər modernləşmə prosesinə kifayət qədər müxtəlif aspektdə yanaşmağa üstünlük vermişlər. Ciril Black'in fikrincə, modernləşmə elmi-texniki inqilabla müşayiət olunan ətraf mühitə nəzarəti həyata keçirmək üçün insan biliklərinin görülməmiş səviyyədə genişlənməsini özündə əks etdirən tarixi təkamül prosesini nəzərdə tutur[2]. Müəllifin yanaşmasını səciyyələndirən fikir ondan ibarətdir ki, müəllif modernləşmə prosesini, ilk növbədə insanın təbiətə antropogen təsirlərinin məcmusu kimi dəyərləndirməyə cəhd etmişdir. Robert Uort isə modernləşmə prosesini insanın təbii və sosial mühit üzərində səmərəli nəzarət mexanizmini həyata keçirmək məqsədilə insan enerjisinin sistemli, davamlı və məqsədyönlü tətbiqini özündə əks etdirən proses kimi dəyərləndirir[3]. Adıçəkilən yanaşmanın səciyyəvi cəhəti isə ilk növbədə səmərəli iqtisadiyyatın formalaşdırılmasında modernləşmənin daha əhəmiyyətli rol oynaması ideyası ilə sıx bağlıdır. Bu baxımdan modernləşmə, əslində, səmərəli iqtisadiyyatın həyata keçirilməsi üçün həyata keçirilən yeniləşmə prosesinin məcmusu kimi də dəyərləndirilir. Peter Berger isə hesab edir ki, modernləşmə texnologiya vasitəsilə iqtisadiyyatın transformasiyasını həyata keçirərək böyümə və yayılma proseslərini nəzərdə tutur[4]. Peter Berger yanaşmasında isə ilk növbədə iqtisadiyyatın şaxələndirilməsi prosesində modernləşmənin roluna daha çox diqqətin artırılmasını iddia etmək olar.

Steven Vaqonun fikrincə, modernləşmə aqrar cəmiyyətlərin sənaye cəmiyyətinə transferi kimi dəyərləndirilməlidir. Bu transfer enerji təchizatı prosesində adekvat olan qabaqcıl sənaye texnologiyalarının tətbiqini də özündə birləşdirir, eləcə də Vaqonun yanaşmasında siyasi, mədəni və sosial mexanizmlərin inkişafı da ön plana çəkilir[5]. Steven Vaqonun fikirlərindən əldə edilən nəticə ondan ibarətdir ki, müəllif modernləşmə prosesinə cəmiyyətlərin inkişafı baxımından yanaşır, eyni zamanda ənənəvi enerji təchizatından, yəni bərpaolunmayan enerji resurslarından bərpaolunan enerji resurslarına keçidi də bu aspektdə inteqrasiyasına diqqət yetirir. Modernləşmə ilə bağlı A.R. Desainin fikirləri də kifayət qədər maraq doğurur. Müəllif hesab edir ki, modernləşmə, xüsusilə iqtisadi fəaliyyətinin ənənəvi mühitdən ayrılması, eləcə də ibtidai alətlərin maşın və daha mürəkkəb texnologiyalarla əvəzlənməsi prosesidir. Desai həm də iqtisadiyyatın ikinci və üçüncü sektorunun kəmiyyət və keyfiyyət baxımından yeniləşdirilməsini, ilkin sektorların iqtisadiyyatda rolunun azalmasını nəzərdə tutur. Modernləşmə ilə bağlı Desanin fikirlərindəki maraqlı məqamlardan biri də ondan ibarətdir ki, müəllif, iqtisadi fəaliyyətdə klasterlərin inkişafını daha çox önəmli hesab edir və istehsal, bölgü və istehlak prosesləri arasında davamlı əlaqənin formalaşdırılmasını ön plana çəkir. Modernləşmə prosesinin iqtisadiyyatda müvəffəqiyyətini şərtləndirən amil kimi, müəllif iqtisadi artımın təmin edilməsinə xüsusi diqqət yetirir və davamlı olaraq artan sənayeləşmə prosesinin özünəməxsus məqamları üzərində dayanır[6]. Müəllifin yanaşma tərzindən belə qənaətə gəlmək olar ki, digər müəlliflərlər müqayisədə Desainin fikirləri daha çox mütərəqqi xarakter daşıyır və eyni zamanda post-sənaye cəmiyyətinin inkişafı ilə bağlı proseslərə daha çox önəm verir.

Modernləşmə prosesinin çoxşaxəli olmasını səciyyələndirən ən mühüm məqamlardan biri ondan ibarətdir ki, modernləşməni təkcə texnoloji yeniləşdirmə kimi qəbul etmək prosesi kifayət qədər məhdud anlamda yanaşma tərzi ola bilər. Başqa sözlə desək, modernləşmə, əslində, cəmiyyətin bütün

sahələrində - sivilizasiya, mədəni inkişaf, kulturoloji inkişaf və digər bu kimi sahələrdə də yeniləşmə proseslərini nəzərdə tutur. Lakin görünən daha çox odur ki, modernləşmə, ilk növbədə sosial-iqtisadi həyatda və texnoloji proseslər çərçivəsində özünü daha çox büruzə verir. Modernləşmə prosesini tənqid edən rus müəlliflərindən V.A. Krasilşikovun fikrincə, modernləşmə sosial-iqtisadi və texnoloji inqilablarla xarakterizə edilir və bütün bunlar cəmiyyətin ictimai-siyasi həyatını daha radikal şəkildə dəyişmək iqtidarındadır[7, s. 9]. Modernləşmənin mahiyyətini özündə şərtləndirən sosial-iqtisadi və texnoloji yeniləşmə prosesləri cəmiyyətdə istehlakçıların davranışlarına daha adekvat reaksiyanı təmin etdiyindən, fikrimizcə, sosial-iqtisadi və texnoloji dəyişikliklər prosesi cəmiyyətin həyatında özünü daha aşkar şəkildə təzahür etdirir.

Müqayisəli təhlillər göstərir ki, modernləşmə prosesi, xüsusilə, sistem dəyişiklikləri çərçivəsində özünü aydın şəkildə büruzə verir. Belə ki, kapitalizmə qədərki iqtisadi formasiyalarda modernləşmənin inkişafı, xüsusilə, mədəniyyət və incəsənət sahəsində müəyyən irəliləyişlərlə səciyyələnsə də, lakin iqtisadi həyata o qədər də nüfuz edə bilməmişdir. Bu isə onu göstərir ki, xüsusilə kapitalizm cəmiyyətində iqtisadi azadlıqların daha yüksək olması, eləcə də maşınlı sənayeyə keçidi nəticə etibarı ilə tərəqqinin nailiyyətlərinin tətbiqinə əhəmiyyətli dərəcədə müsbət təsir göstərmişdir. Bu baxımdan, fikirlərimizi İ.F. Gindinin yanaşması ilə təsdiq etmək mümkündür ki, kapitalizmin yaranması, eləcə də kapitalizmə qədərki cəmiyyətlərin kapitalizmə inteqrasiyası prosesi modernləşmənin daha da kəskinləşməsinə gətirib çıxarmışdır[8, s. 3].

Dünyada modernləşmənin yayılması prosesinə gəldikdə isə, gəldiyimiz qənaət ondan ibarətdir ki, dünyada modernləşmə prosesinin yayılması kifayət qədər qeyri-bərabər şəkildə inkişaf etmişdir. Belə ki, xüsusilə imperiyaların mərkəzlərində modernləşmə prosesi daha geniş şəkildə formalaşmış və sonradan bu proses müstəmləkə ölkələrinə sirayət etmişdir. Məsələn, İngiltərə və Hindistanla bağlı proseslər bu fikrin aşkar təsdiqi kimi dəyərləndirilə bilər. Məsələn, İngiltərədə maşınlı sənayenin inkişafı sonradan onun müstəmləkələrindən olan Hindistana keçmiş və Hindistanda əl əməyinə əsaslanan toxuculuq sənayesinin maşınlı fabrik sənayesinə transformasiyasını şərtləndirmişdir. Doğrudur, bu prosesin özünəməxsus zərərli təzahürləri də meydana gəlmişdir. Bu təzahürlər, ilk növbədə hindistanlı ustaların sonradan ABŞ-a və digər ölkələrə köçməsinə gətirib çıxarmışdır. Ümumiyyətlə, bütün bunlardan belə nəticəyə gəlmək olar ki, modernləşmə prosesi iqtisadi səmərəliliyin yüksəlməsinə gətirib çıxarmaqla yanaşı, eyni zamanda əksər hallarda sosial amillərin arxa plana keçməsinə, eləcə də əhalinin məşğulluğunun nisbətən zəifləməsinə səbəb olmuşdur. Nəzərə almaq lazımdır ki, modernləşmə ilk növbədə əmək məhsuldarlığının yüksəldilməsinə gətirib çıxaran təmayüldür və bu təmayül əl əməyindən daha az istifadəni nəzərdə tutur.

**Modernləşmənin fazaları və modernləşmə prosesinə təsir edən amillər.** Modernləşmə prosesi cəmiyyətdə məhsuldar qüvvələrin və istehsal münasibətlərinin təsiri altında formalaşır. Odur ki, iqtisadi sistemin tipi və xarakteri modernləşmənin özünəməxsus fazalarının formalaşdırılmasını səciyyələndirir. Modernləşmənin əsas fazaları, onun, ilk növbədə modelləşmə prosesinə təsir göstərən daxili və xarici mülk amilləri fonunda inkişaf edir. İqtisadçılar hesab edirlər ki, dünyada modernləşmə prosesinin üç əsas mərhələsi özündə əks etdirmişdir. Bunlardan birinci mərhələ və ya birinci faza 16-17-ci əsrlərdə Qərb ölkələrinin inkişafında müşahidə edilmişdir. Bu mərhələni bir sıra hallarda sənayeləşmə cəmiyyətinə qədər ki, bu və digər şəkildə ibtidai xarakter daşıyan modernləşmə prosesi şərtləndirmək olar. Bu mərhələ üçün əsas səciyyəvi cəhət ondan ibarətdir ki, modernləşmə prosesində əl əməyindən manufaktura, istehsal üsuluna keçirilir. Əslində, bu istehsal-iqtisadi münasibətlər sisteminin modernləşdirilməsi prosesidir. Daha doğrusu, ictimai əmək bölgüsünün birinci mərhələsində bitkiçiliyin heyvandarlıqdan ayrılması, sonradan sənətkarlığın formalaşması və ticarətin iqtisadi sahə kimi müstəqillik əldə etməsi prosesində bütün hallarda əl əməyindən istifadə prosesləri hakim mövqe tutmuşdur. Birinci mərhələdə əl əməyindən, yəni məhsuldar qüvvələrin inkişafında fərdi əmək üstünlük təşkil etdiyi proseslərdən, ictimai istehsal üsuluna, daha doğrusu manufaktura üsuluna, kollektiv iqtisadi münasibətlər sisteminə keçid başlanır. Modernləşmə prosesinin ikinci mərhələsi isə 17-19-cu əsrləri əhatə edir. Burada ictimai məhsuldar qüvvələr sistemi tam mənası ilə formalaşmış və bu zaman manufaktura istehsal üsulundan fabrik istehsal üsuluna keçid başlanır və daha doğrusu maşınlı istehsal prosesi hakim mövqe tutmağa başlayır. Modernləşmə prosesinin üçüncü mərhələsi isə 20-ci əsrdə formalaşır və bu zaman əmək proseslərinin təşkili ilə bağlı proseslərdə özünə məxsus

dəyişikliklər baş verir. Bu dəyişikliklər, ilk növbədə satış proseslərinin modernləşdirilməsi, xidmət sektorunun formalaşdırılması və digər mərhələləri də özündə əks etdirir[9]. Fikrimizcə, müəllifin qeyd etdiyi təsnifat daha çox iqtisadi sistem səviyyəsində seçici xüsusiyyətlər kəsb edir. Bu ilk növbədə iqtisadi sistemlərin, istehsal üsullarının modernləşdirilməsi prosesinin tarixi mərhələlərini nəzərdə tutur.

Bir sıra müəlliflər hesab edirlər ki, modernləşmə prosesinin özünəməxsus spesifik tipləri vardır və bu ilk növbədə maddi texniki bazanın inkişafının formalaşdırılması ilə sıx bağlıdır. Başqa sözlə desək, bu təsərrüfat subyektlərinin maddi texniki bazasının yeniləşdirilməsini nəzərdə tutur. Ümumiyyətlə, modernləşmə prosesinin ayrı-ayrı istehsal sahələrinin mexanikləşdirilməsi və avtomatlaşdırılmasından başladığını iddia etmək daha doğru olardı. Bundan əlavə yeni mütərəqqi texnologiyaların tətbiqi, həmçinin yeni texnologiyaların tətbiqi istehsal sahələrinin modernləşdirilməsinin ən önəmli vasitələrindən biri hesab oluna bilər[10,C. 26-35]. Müəllifin fikirlərindən bir qənaətə gəlmək mümkündür ki, modernləşmə prosesi istehsalın mexanikləşdirilməsi ilə başlayıb avtomatlaşdırılması və yeni mütərəqqi texnologiyaların tətbiqi ilə bitsə də, lakin iqtisadi sistemdə baş verən bu və ya digər dəyişikliklər dəmodernləşmə prosesini səciyyələndirən ən mühüm cəhətlərdən biri kimi çıxış edir. Və bütövlükdə hər bir ölkənin iqtisadi xüsusiyyətlərindən, iqtisadi sisteminin tipindən və xarakterindən, ölkələrin iqtisadi inkişaf səviyyəsindən və təsərrüfat subyektlərinin maliyyə vəziyyətindən bilavasitə asılıdır. Modernləşmə prosesi, əslində, dünyanın bütün ölkələrində eyni zamanda baş vermir. Bu proses ayrı-ayrı ölkələrdə başlanır və sonradan dünyanın müxtəlif ölkələrinə, fərqli coğrafiyasına yayılır. Lakin məsələ burasındadır ki, modernləşmənin hətta nəticələrindən belə dünyanın ayrı-ayrı ölkələri və eləcə də, əhali qrupları bərabər səviyyədə istifadə edə bilmir. Məsələn, hal-hazırda Afrikanın və Cənub-Şərqi Asiyanın təxminən 50-dən çox ölkəsi modernləşmənin ən müasir yeniliklərini, əlbəttə, post-sənaye cəmiyyətinin təzahürlərini əks etdirə bilmir. Bu həmin ölkələrin və xalqların maariflənmə səviyyəsinin aşağı olması ilə sıx bağlıdır.

Modernləşmə prosesinə çox saylı amillər təsir göstərir və bu ilk növbədə makroiqtisadi proseslərlə bağlıdır. Lakin bununla belə hesab etmək olar ki, modernləşmə prosesinə mikroiqtisadi amillər də təsir göstərmək iqtidarındadır. Bu təsərrüfat subyektlərinin imkanlarında, onların elmi texniki imkanlarında yeni maliyyətlərini tətbiq etmək imkanlarından bilavasitə asılıdır. Modernləşmə prosesinə təsir göstərən amillərə ilk növbədə iqtisadi amilləri aid etmək olar. İqtisadi amillər bir qayda olaraq təsərrüfat subyektləri çərçivəsində və həmçinin xarici amillər səviyyəsində fərqləndirilə bilər. Təsərrüfat subyektləri çərçivəsində modernləşmə prosesinə təsir göstərən amilləri iqtisadi amillər kimi də təsnifləşdirmək olar. Bu bu əsas etibarilə təsərrüfat subyektlərində kadr potensialının ixtisaslaşma səviyyəsindən, eləcə də texnologiyaların köhnəlməsindən, əsas istehsal fondlarının yenilənməsindən, eləcə də müəssisənin maliyə-iqtisadi vəziyyətini və investisiya imkanlarını özündə əks etdirir. İqtisadi amillərin tərkibində xarici mühit amillərini də təsnifləşdirmək mühüm əhəmiyyət kəsb edir. Bu ilk növbədə təsərrüfat subyektlərindən kənar səviyyədə, yəni ölkədəki iqtisadi inkişafın vəziyyətindən asılıdır. Bu zaman vergi siyasətini, innovasiya proseslərinin ölkə miqyasında tətbiqi imkanlarını, resurs və maliyyə imkanlarını özündə birləşdirir[11, C. 13-24]. Müəllif fikirlərində iqtisadi amillər demək olar ki, tam mənasıyla əsaslandırılmışdır. Lakin etiraf etmək lazımdır ki, modernləşmə prosesinə təkcə iqtisadi amilləri təsir göstərdiyini iddia etmək doğru olmazdı. Hesab edək ki, müasir şəraitdə modernləşmə prosesinə sosial texnoloji və institutsional amillər də təsir göstərir. Modernləşmə prosesinə təsir göstərən sosial amilləri daha çox əhalinin alıcılıq qabiliyyəti, maddi rifah səviyyəsi ilə əlaqələndirmək olar. Belə ki, modernləşmə prosesinə təsir göstərən sosial amillər daha çox əhalinin gəlirlərinin vəziyyəti ilə bağlıdır. Daha doğrusu, yeni istehsal edilən məhsullara olan tələbatın ödənilməsi, eləcə də istehlakçı zövqlərinin də dəyişməsi ilə bağlı məsələlər sosial amilləri şərtləndirir. Cəmiyyət nə qədər varlı olarsa, ölkə əhalisinin gəlirləri nə qədər yüksək olarsa, təbii ki, innovasiyalı məhsula olan tələbat da daha çox arta bilər. Təşkilati innovasiya amillərinə gəldikdə isə, bu zaman infrastruktur sisteminin mövcud vəziyyətini, dövlətin həyata keçirdiyi sənaye struktur siyasətini bu prosesə şamil etmək mümkündür. Texnoloji amillərə gəldikdə isə, bu əsas fondların yeniləşdirilməsi ilə bağlı prosesləri nəzərdə tutur. İnkişaf etmiş ölkələrdə əsas fondların davamlı olaraq yeniləşdirilməsi, məhz innovativ məhsulların istehsal etmək imkanlarını yaxşılaşdırır.

İstehsal prosesinin özünəməxsus spesifik xüsusiyyətlərinin mövcud olması, modernləşmə prosesinin bu və digər mərhələlərinə də öz təsirini göstərir. Bu ilk növbədə istehsalın bütün mərhələlərini, xammalla təchizat, məhsulun emalı, istehlakçılara çatdırılması, qablaşdırılması və digər bu kimi xüsusiyyətləri əhatə edir[12, C. 162-165]. Müəllifin fikirlərindən əldə edilən nəticə ondan ibarətdir ki, modernləşmə prosesi geniş təkrar istehsal prosesinin bütün mərhələlərini, başqa sözlə desək, müasir şəraitdə, klasterlərin bütün mərhələlərini əhatə etdiyi şəraitdə özünün müsbət nəticələrini verə bilər. Lakin bir sıra hallarda modernləşmə tam xarakter daşımır. Bu xüsusilə inkişaf etməkdə olan ölkələrin təcrübəsində müşahidə edilir. Bəzən gizli modernləşmə prosesinin həyata keçirilməsi nəticəsində, istehsalçı demək olar ki, görüntü xarakterli modernləşmə yaratmağa meyllənir və nəticə etibarilə istehsal etdikləri məhsulları müəyyən hədlərdə qiymətlərini artırır. Bu da istehsalçının qısa və təxminən orta müddətli dövrdə gəlir əldə etmək imkanlarına təsir göstərir və daha çox istehlakçıların aldadılmasını şərtləndirir.

**Qida məhsulları istehsalının modernləşməsinin səciyyəvi cəhətləri.** Məlum olduğu kimi, qida məhsullarının istehsalı sektoru, əhalinin təbii tələbatının ödənilməsində önəmli rol oynayır. Xüsusilə, ərzaq məhsullarına olan tələbatın ödənilməsi, qida məhsulları istehsalının davamlı olaraq modelləşdirilməsində mühüm rola malikdir. Nəzərə almaq lazımdır ki, qida məhsullarının istehsalı prosesi, müxtəlif amillərdən, o cümlədən xammal istehsalının mövcud vəziyyətindən, eləcə də emal müəssisələri ilə xammal istehsal edən qurumlar arasında inteqrasiya proseslərinin mövcud vəziyyətindən də asılıdır. Qida məhsullarının istehsalı prosesinin modelləşdirilməsi, o zaman müsbət nəticə verə bilər ki, istehsal edilən məhsul daha yüksək rəqabət qabiliyyətinə malik olsun. Bundan əlavə, qida məhsullarının istehsalında, müasir texnologiyalardan istifadə edilməsi də, qida məhsulları istehsalının modelləşdirilməsinin səciyyəvi cəhətlərindən biri kimi çıxış edir.

Qida məhsullarının istehsalının modernləşdirilməsində əsas məqsəd, iqtisadi artımı təmin etməkdən, əhalinin qida məhsullarına olan tələbatının ödənilməsinə nail olmaqdan, məhsuldarlığın səviyyəsini yüksəltməkdən ibarətdir. Cəmiyyətinin və biznes fəaliyyətinin ehtiyaclarının qarşılanması baxımından, bu modernləşmə prosesi, dövlətin iqtisadi siyasətində önəm verilməsi məqamlardan biri hesab edilir[13]. Kənd təsərrüfatı məhsullarının istehsalı prosesinin intensivləşdirilməsi, daha çox kübrələmə və digər zərərli xəstəliklərə qarşı mübarizə tədbirlərinin genişləndirilməsini, məhsuldar toxum və heyvan cinslərinin tətbiq edilməsini nəzərdə tutur. Doğrudur, daha yüksək intensivləşdirmə prosesinin həyata keçirilməsi, son nəticədə həm də istehsal edilən məhsulun kimyəvi cəhətdən zərərli xarakter daşımasına gətirib çıxarmaqla, ilk növbədə qeyri-ekoloji prosesləri gündəmə gətirir. Bu da yaşıl iqtisadiyyata keçid şəraitində bu və ya digər şəkildə problemlərin yaranmasına səbəb olur.

Kənd təsərrüfatı istehsalı üçün tətbiq edilən yaşıl standartlar və qaydalar istehsalçıları istehsal və çalışma üsullarını dəyişməyə və daha az dayanıqlı məhsulları bazardan çıxarmağa sövq etmək üçün önəmli bir alətdir. Qida məhsullarının keyfiyyətinə dair dövlət standartları istehsal edilən məhsulların insanların sağlamlığına zərər verməməsini təmin etmək üçün gübrələrin kimyəvi maddələrin azaldılmasını tələb edə bilər. Digər standartlar qida məhsullarının saxlanılması, heyvanların saxlanma şəraitinin və rifahının təmin edilməsi, eləcə də məhsulun etiketlənməsi ilə bağlıdır. Bundan əlavə olaraq bir çox ölkələr sağlam və düzgün qidalanmanı təşviq etmək üçün satışa çıxarılan qida məhsullarında bioloji fəallığa malik qida əlavələrinin olmasını şərtləndirən qaydalara və standartlar tətbiq edə bilərlər[14, s. 229]. Müəllifin fikirlərindən əldə etdiyimiz nəticələr ondan ibarət ola bilər ki, qida istehsalının modelləşdirilməsi prosesi, ilk növbədə istehsalın, rəqabət qabiliyyətinin yüksəldilməsinə xidmət edir. Rəqabət qabiliyyətli məhsul istehsalının formalaşdırılması, modernləşmə nəticəsində mümkün ola bilər. Rəqabət qabiliyyəti, qiymət və qeyri-qiymət rəqabət qabiliyyətini özündə ehtiva etdiyindən, qiymət rəqabət qabiliyyəti, ilk növbədə daxili və xarici bazara çıxarılan məhsulların istehlakçılar üçün, yəni alıcılar üçün qiymət əlçatanlığına malik olması ilə sıx əlaqədardır. Qeyri-qiymət rəqabət qabiliyyətinə gəldikdə isə, bu zaman istehsal edilən məhsulun keyfiyyəti bazara çıxarılan digər analoqlarla müqayisədə yüksək olması, modernləşmənin spesifik xüsusiyyəti və başqa sözlə desək, modernləşmənin səmərəliliyi kimi səciyyələnə bilər.

Modernləşmə prosesi istehsalın intensivləşdirilməsindən də bilavasitə asılıdır. İntensiv istehsal prosesləri isə ilk növbədə əmək, maddi-texniki resurslardan səmərəli istifadə edilməsini nəzərdə tutur. Modernləşmə prosesi istehsalın intensivləşdirilməsində mühüm rol oynadığından, bu zaman ekstensiv

istehsal amilindən imtina edilməsi vacibdir. Əslində, qida məhsullarının istehsalı prosesinin modernləşdirilməsi mühüm tərkib hissəsini təşkil edən qida məhsulları istehsalının intensivləşdirilməsi, iki amilin təsiri altında formalaşır. Birincisi, xammal istehsal edən kənd təsərrüfatı məhsulları istehsalının intensivləşdirilməsi, ikincisi isə bilavasitə qida sənayesinin intensiv texnologiyalarla təmin edilməsi.

Xammal istehsal edən sahə qida sənayesi üçün ilk növbədə kənd təsərrüfatı sayılır. Məlum olduğu kimi, kənd təsərrüfatı, əhalinin ərzaq məhsullarına olan tələbatının, sənayenin isə xammala olan ehtiyaclarının qarşılanmasında önəmli rol oynayır. Kənd təsərrüfatının özünəməxsus spesifik xüsusiyyətlərə malik olması, torpaq iqlim şəraitindən bilavasitə asılı olması, ilk növbədə ona gətirib çıxarır ki, istehsal prosesində torpağın münbitliyinin yüksəldilməsi vacib amildir. Bu zaman intensiv texnologiyaların tətbiqi edilməsi məhsuldarlığın yüksəldilməsində önəmli rol oynayır.

Qida məhsulları istehsalının intensivləşdirilməsində isə daha çox əmək məhsullarının artırılması, məhsulların keyfiyyətinin yüksəldilməsi, daha çox intensiv texnologiyaların tətbiq edilməsini nəzərdə tutur. Müasir şəraitdə yaşıl iqtisadiyyatın inkişaf etdirilməsi, eləcə də ekoloji təmiz məhsullar istehsalının həyata keçirilməsi prosesi, məhz mütərəqqi texnologiyaların tətbiqi ilə ekoloji cəhətdən təmiz texnologiyaların tətbiqi ilə sıx bağlıdır. Bu baxımdan, bərpaolunan enerji resurslarının istifadəsinin azaldılması, prosesin genişləndirilməsi, nəticə etibarilə qida sənayesinin modernləşdirilməsində önəmli vasitələrdən biri kimi dəyərləndirilə bilər. Qida məhsullarının istehsalı prosesi, ilk növbədə aqrar-ərzaq kompleksinin inkişafından asılıdır. Başqa sözlə desək, aqrar-ərzaq kompleksinin modernləşdirilməsi prosesi, ilk növbədə qida məhsulları istehsalının modernləşdirilməsi ilə bağlıdır. Aqrar-ərzaq kompleksinin modernləşdirilməsi mürəkkəb, çox mərhələli və uzun müddətli bir prosesdir. Mövcud vəziyyətdən daha keyfiyyətli və texnoloji cəhətdən daha yüksək səviyyəyə keçid prosesdir. Bugün əsas problemlərdən biri, ölkənin kənd təsərrüfatı resurslarından səmərəli istifadə etmək məqsədilə ərzaq məhsullarına olan tələbatı ödəmək üçün milli istehsalçıların rəqabət qabiliyyətini artırılması və idxalın maksimum dərəcədə azaldılması vacib şərtlərdən biridir. Davamlı inkişaf sosial əhəmiyyət kəsb etdiyindən, ölkənin qida sənayesinin modernləşdirilməsi də məhz cəmiyyətdə sosial sabitliyin təmin edilməsinə xidmət edir[15]. Fikrimizcə, qida məhsulları istehsalı prosesinin modernləşdirilməsinin mürəkkəb və çoxşaxəli proses olması, onun ilk növbədə cəmiyyət üzvlərinin ehtiyaclatının qarşılanması baxımından mühüm strateji əhəmiyyətə malik olması, başqa sözlə ərzaq təhlükəsizliyinin təmin edilməsində önəmli rol oynaması ilə bağlıdır.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, bu ölkələrdə, o cümlədən ABŞ-da, qərbi Avropa ölkələrində ümumi daxili məhsulun strukturlarında kənd təsərrüfatının payı nəzərə çarpacaq dərəcədə aşağıdır. Bu isə onunla bağlıdır ki, adı çəkilən sahələrdə iqtisadiyyatın modernləşdirilməsi həyata keçirildiyindən, bütövlükdə sahə, eyni zamanda sənaye məhsullarının istehsalı ilə bağlı proseslərlə müqayisədə daha aşağı xüsusi çəkiyə malikdir. Lakin bununla yanaşı, sahədə əmək məhsuldarlığının yüksək olması həmin məhsulların istehsal prosesindən daha çox əlavə dəyər əldə edilməsini şərtləndirir. Məsələn, ABŞ-da emal və marketinq sənayesi kənd təsərrüfatı məhsulları istehsalının 70%-dən çoxunu özündə birləşdirir. Başqa sözlə desək, emal sənayesi kənd təsərrüfatı ilə müqayisədə daha çox əlavə dəyər əldə etmək iqtidarındadır[16, s. 17].

Qida məhsulları istehsalının modernləşdirilməsi, ilk növbədə bu sahənin spesifik xüsusiyyətləri ilə sıx bağlıdır. Bu baxımdan müəssisələrin yerləşdirilməsi, onların optimal ölçüləri, istehsalın ixtisaslaşdırılması və ixtisaslaşma istiqamətlərinin müəyyənləşdirilməsi modernləşmə prosesində önəmli rol oynayır. Bu baxımdan, yayıntı sənayesinin modernləşdirilməsi prosesində, yayıntı sənayesi sahələrinin səciyyəvi cəhətləri baxımından aşağıdakı kimi təsnifləşdirmək mümkündür;

— Tez xarab olan məhsullar istehsal edən sənaye sahələri, onların uzun müddətli daşınma məsafələrinə adekvat deyildir(Süd istehsalı, tortlar və şirniyyat istehsalı);

— Tez xarab olmayan məhsullar istehsal edən sənaye sahələri də uzaq məsafələrə daşınmağa adekvat deyildir(çörək bişirmə sənayesinin məhsulları, çörək, makaron məmulatları);

— Uzaq məsafələrə daşına bilən tez xarab olmayan məhsullar istehsal edən sənaye sahələri(konserv və qida konsentratlarının istehsalı sektoru)[17].

Problemə müəlliflərin qeyd etdikləri təsnifləşdirmə aspektindən yanaşdıqda belə qənaətə gəlmək olar ki, qida məhsullarının istehsalının modernləşdirilməsi zamanında ilk növbədə ixtisaslaşma

istiqaməti ilə yanaşı, həm də məhsulların xarakterik xüsusiyyətləri nəzərə alınmalıdır. Məsələn, yalnız bir faktor qeyd etmək olar ki, süd məhsulları və həmçinin şirniyyat sənayesi məhsulları uzun müddətli daşımaya adekvat deyildir. Məhz Azərbaycan Respublikasında istehsal edilən şirniyyat məhsulları və süd məhsulları istehsal prosesinin özündə də bu problemlər yaşanır. Buna görə də xüsusilə şirniyyat məhsullarını istər yaxın və istərsə uzaq ölkələrə göndərmək sahəsində problem yaranır. Əslində, bu problemin yaranmasının xarakterik xüsusiyyəti istehsal prosesinin kifayət qədər modernləşdirilməməsidir. Başqa sözlə, modernləşmə prosesi həyata keçirilsə də, lakin həmin məhsulların daşımaya adekvat olması ilə bağlı proseslərlə zəngin olması mövcud olmamışdır. Lakin Ukraynanın və eləcə digər xarici ölkələrin, məsələn, Almaniyanın təcrübəsindən belə bir nəticəyə gəlmək olar ki, bu ölkələrdə məhsulların uzun müddət daşınması prosesini gerçəkləşdirmək üçün zəruri texnologiyalar tətbiq edilir. Doğrudur, bu texnologiyalar ilk növbədə müəyyən kimyəvi proseslərlə də bağlıdır. Bu texnologiyaların tətbiq edilməsi məhsulların uzun müddətli saxlanma prosesini təmin etsə də, bu və ya digər şəkildə həmin məhsulların istehlakı prosesində ekoloji normaların, yəni ekoloji təhlükəsizliyin və insanların sağlamlığına ziyan verməmək kimi halların qorunub saxlanılmasını iddia etmək kifayət qədər şübhə doğurur. Lakin hesab etmək olar ki, məhsulun rəqabət qabiliyyətinin yüksəldilməsi prosesi, məhsulların həm də keyfiyyətinin uzun müddətli zaman kəsiyində itirilməməsi ilə bağlıdır və bunun üçün mütərəqqi texnologiyaların imkanlarından, eləcə də yaşıl və ekoloji texnologiyalardan istifadə edilməsi fikrimizcə məqsədəuyğun hesab etmək olar. Konserv məhsullarının, o cümlədən emal edilmiş ət məhsullarının uzun müddətli saxlamaya adekvat olması bu baxımdan ölkəmizin qida sənayesi sektorunun müvafiq komplekslərində istehsal edilən məhsulların daşınma imkanlarını genişləndirə bilər.

Modernləşmə prosesi yalnız iqtisadi artımın və əmək məhsuldarlığının yüksəlməsinin və istehsalın səmərəliliyinin hədləri ilə məhdudlaşmır. Qida məhsullarının istehsalının modernləşdirilməsi prosesi ilk növbədə rəqabət qabiliyyətinin artırılmasına gətirib çıxarmaqla, emal müəssisələri arasında rəqabətin inkişafına da geniş təkan verir. Bu zaman istehsal edilən məhsulların kütləvi istehsalı və çeşidinin genişləndirilməsi, əksər qida məhsullarının istehsalının( xüsusilə tez xarab olanların ən çox istehlak edildiyi yerlərdə yerləşdirilməsinin məqsədəuyğunluğu), müəssisələrin satış fəaliyyətinin istehsal edilən qida məhsullarının keyfiyyətinin və təhlükəsizliyindən asılılığının digər sənaye sahələrindən nisbətən daha çox olması kimi amillərə diqqət yetirilməsini nəzərdə tutur. Bundan əlavə qida məhsullarının istehsalı prosesinin modernləşdirilməsi, qablaşdırma prosesinin cəlbediciliyinin yüksəldilməsini də özündə ehtiva edir. Bu prosesin səciyyəvi cəhəti ilk növbədə istehlakçıların zövqlərinə uyğun məhsul istehsalının həyata keçirilməsini, marketinq fəaliyyətinin düzgün qurulmasını nəzərdə tutur. Emal məsələlərinin fəaliyyətinin modernləşdirilməsi prosesində ən mühüm məqamlardan biri də sabit fəaliyyət göstərən xammal bazasından, yəni sahənin kənd təsərrüfatı istehsalından asılılığının ön plana çəkilməsi ilə bağlıdır[18, C. 28-50].

Beləliklə, qida məhsullarının istehsalının modernləşdirilməsinin səciyyəvi cəhətləri kimi həm xammalın istehsalı prosesinin rəqabət qabiliyyətinin artırılmasını, yəni bu sahədə müasir texnologiyalarından istifadənin məqsədəuyğunluğunu əsas amil kimi qəbul etmək olar. Bundan əlavə, qida məhsullarının istehsalının modernləşdirilməsində mühüm məqamlardan biri qablaşdırma prosesinin cəlbediciliyinin yüksəldilməsi ilə bağlıdır. Bu da istehlakçıların davranışlarına adekvat reaksiya göstərilməsi ilə bağlıdır. Fikrimizcə, bu prosesin də qida məhsullarının modernləşdirilməsində ön plana çəkilməsi vacib şərtlərdən biridir. Hesab etmək olar ki, qida məhsullarının istehsalının modernləşdirilməsi prosesində qablaşdırmanın ekoloji cəhətdən təmiz materiallarla zənginləşdirilməsi, son nəticədə əhalinin sağlamlığının qorunmasında mühüm rol oynaya bilər.

**Nəticə**. Qida məhsullarının istehsalının modernləşdirilməsi ilə bağlı nəzəri məsələləri təhlil edib, belə nəticəyə gəlmək olar ki, bu proseslə bağlı iqtisadçıların ümumi fikirləri ondan ibarətdir ki, bu zaman modernləşmənin sosial iqtisadi, təşkilati və innovativ amillərini nəzərə almaq vacibdir və bu proses qloballaşmanın mühüm çağırışları kimi dəyərləndirilməlidir. Qida məhsullarının istehsalının modernləşdirilməsində diqqət çəkən məqam ondan ibarətdir ki, bu proses əhalinin ərzaq məhsullarına olan tələbatını ödənilməsində önəmli rol oynayır. Ekoloji cəhətdən təmiz məhsul istehsalı prosesi, modernləşmə prosesinin mühüm tərkib hissəsini təşkil edir. Və bu baxımdan tətbiq edilən texnologiyalar həm resurs qoruyucu texnologiyalar olmaqla, istehsal prosesində əlavə dəyərin

artırılmasına xidmət etməlidir. Eyni zamanda istehsalçıların mənfəətinin daha da yüksəldilməsinə xidmət etməlidir. Bu prosesin strateji əhəmiyyət kəsb etməsini səciyyələndirən ən mühüm amillərindən biri də ondan ibarətdir ki, qida məhsullarının istehsalının modernləşdirilməsi onların daxili və xarici bazarda daha effektiv şəkildə reallaşdırılmasını təmin edir. Bu da əmtəə dövriyyəsinin həcminin artmasına, iqtisadi artımın təmin edilməsinə geniş imkanlar açır.

**İstifadə olunmuş ədəbiyyat / *References***


1. Smelzer H. Sociologiya. M.: Feniks, 1994. 688 s, s. 68-74
2. Black C. The Dynamics of Modernization. A Study in Comparative History. NY: Harper Colophon Books, 1975. 207 p
3. Welch C.E. Political Modernization: A Reader in Comparative Political Change. Belmont, CA: Wadsworth, 1971. 383 p
4. Berger P.L., Berger B., Kellner H. The Homeless Mind Modernization and Consciousness. NY: Random House, 1973. 232 p
5. Vago S. Social Change. - Englewood Cliffs, New Jersey: Prentice-Hall, 1989. 438 p
6. Desai A.R. Need for Revaluation of the Concept // Comparative Modernization: A Reader / Ed. by C.E. Black. NY, London: The Free Press, 1976. 441 p
7. Красильщиков, В.А. Вдогонку за прошедшим веком / А.В. Красильщиков. М.: Росспэн, 1998. – 263 с, s. 9
8. Гиндин, И.Ф. Проблемы «модернизации» и индустриализации и их видоизменение с XVI по XX век: Материалы к V Междунар. конгр. эконом. истории / И.Ф. Гиндин. – М.: Наука, 1970. – 19 с, s. 3
9. .В. Кириллов, К вопросу об истории модернизации в России XVIII-XX веков: общие подходы и историография, весник Мгпу, 2016, 39-55 c
10. Рыжикова Т. Н., Боровский В. Г. Проблемы приоритезации и оценки технологического состояния предприятий при реализации про- ектов модернизации // Экономический анализ: теория и практика. 2015. № 10 (409). С. 26-35
11. Клейнер Г. Б. Системная модернизация отечественных предпри- ятий: теоретическое обоснование, мотивы, принципы // Экономика ре- гиона. 2017. Т. 13. Вып. 1. С. 13-24
12. Овсянкина Н. В. Стратегическое управление модернизацией предприятий нефтегазового машиностроения // Вестник Огинского университета. Серия: Экономика. 2011. № 3. С. 162-165
13. Модернизация и конкурентоспособность российской экономики. М.: Алетейя, 2010, 228 s
14. Yaşıl iqtisadiyyat, V. Ə. Qasımlının redaktəsi ilə, Bakı, 2022, 280 s, s. 229
15. Структурная и институциональная модернизация экономики России: секторальный анализ в контексте мирового развития. Ю.В. Куренков. М:2006, 415 c
16. М. К. Камилов, П.Д. Камилова, Е. М. Еминова// РЕГИОНАЛЬНЫЕ ПРОБЛЕМЫ ПРЕОБРАЗОВАНИЯ экономики. №6, 2016, 15 - 25 с, s. 17
17. Гордеев, А. В., Масленникова, О. А. Экономика предприятия пищевой промышленности. - М.: Агро- консалт, 2003
18. Глазьев, С. Ю. Тенденции и проблемы экономического развития России / С.Ю. Глазьев // Современная конкуренция. 2007. № 8. С. 28-50

# Теоретические вопросы модернизации производства продуктов питания

**Новруз Рагимов**
Докторант Азербайджанского университета кооперации

**Резюме: Цель исследования** – изучение теоретических аспектов модернизации производства продуктов питания, определение роли модернизации в процессе глобализации и выявление проблем, возникающих при модернизации производства продуктов питания в развивающихся странах.

**Методология** – в исследовании использовались различные подходы, логические обобщения, сравнительный анализ и другие методы.

**Практическое значение исследования** – достижение соответствия производства продуктов питания современным требованиям, реализация мероприятий по повышению конкурентоспособности производства продуктов питания как важной составляющей нефте-нефтехимического сектора в перспективный период.

**Результат исследования** – расширение предложения конкурентоспособной продукции на внешних рынках с использованием процесса модернизации в производстве продуктов питания.

**Оригинальность и научная новизна исследования** – установление взаимосвязи между модернизацией производства продуктов питания и его конкурентоспособностью в условиях глобализации.

**Ключевые слова:** производство продуктов питания, развитие ненефтевого сектора, глобализация, модернизация, инвестиции, эффективность, инновации.

DOI: https://doi.org/10.36719/2707-9317/04/176-181

# Environmental sustainability in Azerbaijan's higher education: $CO_2$ emissions and energy use

**Ulvu Novruzov**
PhD Candidate, Institute of Economics, Ministry of Science and Education of Azerbaijan
ORCID: 0000-0002-0680-7804
Email: ulvunovruzov.unec@gmail.com

**Abstract:** This paper explores the contribution of Azerbaijan's higher education sector to sustainability and the reduction of CO2 emissions. The research evaluates the environmentally friendly approaches, educational programs, and student initiatives implemented by the country's higher education institutions. National statistical data, particularly CO2 emission levels, are linked to educational and research activities. The methodology uses open data sources and statistical analysis methods to assess the impact of the education sector on emissions. The results show that higher education institutions play a significant role in developing a green economy, yet additional measures are required to increase effectiveness in certain areas. The findings aim to enhance the alignment of Azerbaijan's higher education with sustainable development goals. Among the limitations, the need for additional data for a more comprehensive analysis is noted.

**Key words:** Higher education, green economy, $CO_2$ emissions, sustainable development, statistics, Azerbaijan

**JEL Codes: I23, Q56, UOT Codes: 33.02.08**

# Azərbaycan ali təhsilində ekoloji dayanıqlılıq: $CO_2$ emissiyaları və enerji istifadəsi

**Ülvü Novruzov**
AR Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutu, Doktorant
Orcid: 0000-0002-0680-7804
e-mail: ulvunovruzov.unec@gmail.com

**Xülasə:** Bu məqalə Azərbaycanın ali təhsil sektorunun yaşıllaşmaya və $CO_2$ emissiyalarının azaldılmasına necə töhfə verdiyini araşdırmaqdır. Tədqiqat, ölkənin ali təhsil müəssisələrinin çevre dostu yanaşmalarını, təhsil proqramlarını və tələbə fəaliyyəti ilə bağlı tətbiq etdiyi təşəbbüsləri qiymətləndirir. Bu məqsədlə, ölkənin statistik məlumatları, xüsusilə $CO_2$ emissiyalarının səviyyəsi, təhsil və tədqiqat fəaliyyətləri ilə əlaqələndirilmişdir. Metodologiya olaraq, açıq məlumat bazalarından istifadə olunmuş və statistik təhlil metodları tətbiq edilərək, təhsil sektorunun emissiyalara təsiri qiymətləndirilmişdir. Nəticələr göstərir ki, ali təhsil müəssisələri yaşıl iqtisadiyyatın inkişafına töhfə verməkdə vacib rol oynayır, lakin hələ də bəzi sahələrdə effektivliyi artırmaq üçün əlavə tədbirlər tələb olunur. Bu tədqiqatın nəticələri, Azərbaycan üçün ali təhsilin dayanıqlı inkişafla uyğunluğunu artırmaq məqsədini güdür. Məhdudiyyətlər arasında məlumatların tamlığı və daha geniş təhlil üçün əlavə verilənlərin əldə edilməsi ehtiyacı qeyd edilə bilər.

**Açar sözlər:** Ali təhsil, yaşıl iqtisadiyyat, $CO_2$ emissiyaları, dayanıqlı inkişaf, statistika, Azərbaycan

**JEL kodları: I23, Q56, UOT kodları: 33.02.08**

## Giriş

Dünya üzrə ekoloji problemlərin və iqlim dəyişikliyinin sürətləndiyi bir dövrdə, yaşıl iqtisadiyyat prinsiplərinin tətbiqi vacib məsələlərdən birinə çevrilmişdir. Bu çərçivədə, ali təhsil müəssisələrinin ekoloji məsuliyyətləri və təbiətə təsirlərini azaltmaq məqsədilə müxtəlif təşəbbüslər həyata keçirilməyə başlamışdır. Ali təhsil müəssisələri yalnız tədris və tədqiqat mərkəzləri olmaqla kifayətlənməməli, eyni zamanda cəmiyyətə ekoloji məsuliyyətli davranış nümunəsi göstərən qurumlar kimi çıxış etməlidir. Onların ekoloji təşəbbüsləri gənc nəsillər üçün nümunə olmaqla yanaşı, ölkənin ümumi ekoloji strategiyasına müsbət təsir göstərə bilər. Azərbaycanda yaşıl iqtisadiyyat və ekoloji məsuliyyət mövzusunun aktuallığı artdıqca, ali təhsil sektorunda da ekoloji təsirlərin azaldılması üzrə strategiyalara ehtiyac yaranır. Azərbaycan Statistika Komitəsinin məlumatları göstərir ki, ölkədə enerji istehlakı və $CO_2$ emissiyaları məsələlərində hələ də çatışmazlıqlar mövcuddur və bu sahədə yeniliklərin tətbiqi üçün potensial mövcuddur.

Bu tədqiqat, ali təhsil müəssisələrinin yaşıl iqtisadiyyata keçid prosesində hansı strateji addımları ata biləcəyini araşdırır və mövcud vəziyyəti statistik məlumatlar əsasında dəyərləndirir. Beynəlxalq təcrübələr bu sahədə faydalı nümunələr təqdim edir. Məsələn, ABŞ, Avstraliya və Almaniya kimi ölkələrdəki universitetlər "yaşıl kampus" təşəbbüslərini tətbiq edərək, enerji istehlakını azaltmaq, tullantıların təkrar emalını təşkil etmək və tələbələri ekoloji məsuliyyətli vətəndaşlar kimi yetişdirmək sahəsində böyük nailiyyətlər əldə etmişlər. Azərbaycanda isə hələ ki, belə proqramlar geniş şəkildə həyata keçirilmir, lakin mövcud statistika və potensial inkişaf perspektivləri göstərir ki, bu cür təşəbbüslərin həyata keçirilməsi mümkündür və faydalı nəticələr verə bilər.

Bu tədqiqatın əsas məqsədi, Azərbaycanın ali təhsil sektorunda ekoloji məsuliyyətin artırılması və yaşıl iqtisadiyyat prinsiplərinin tətbiqi imkanlarını araşdırmaqdır. Tədqiqat çərçivəsində aşağıdakı suallara cavab axtarılmışdır:

1. Azərbaycan ali təhsil müəssisələri ekoloji məsuliyyət və $CO_2$ emissiyalarının azaldılması istiqamətində hansı addımları atır?
2. Beynəlxalq təcrübələrdən hansı nümunələr Azərbaycan ali təhsil sektorunda tətbiq edilə bilər?
3. Dövlət dəstəyinin bu təşəbbüslərin həyata keçirilməsinə təsiri nə dərəcədədir?

Tədqiqatın nəticələri Azərbaycanın ali təhsil sektorunda ekoloji məsuliyyət sahəsində mövcud vəziyyəti müəyyən etməklə yanaşı, potensial inkişaf istiqamətlərini də göstərir. Gələcəkdə daha sistematik və planlı ekoloji təşəbbüslərin tətbiqi Azərbaycan ali təhsil müəssisələrinin həm yerli, həm də beynəlxalq səviyyədə ekoloji sahədə nümunəvi rol oynamaqlarına kömək edəcək. Bu da ümumi olaraq ölkənin ekoloji inkişafını və dayanıqlı gələcəyini təmin etmək baxımından əhəmiyyətlidir.

**Metodologiya**

Bu tədqiqatda kəmiyyət metodologiyasına əsaslanaraq geniş məlumat təhlili aparılmışdır. Əsas metodoloji addımlar aşağıdakı kimidir:

Məlumatların Toplanması və Seçimi: Tədqiqatda istifadə olunan məlumatlar Azərbaycan Statistika Komitəsinin açıq məlumat bazasından əldə edilmişdir. 2022-2023-cü illər üzrə $CO_2$ emissiyaları, enerji istehlakı və təkrar emal göstəriciləri əsas mənbələr kimi seçilmişdir. Bu məlumatlar Azərbaycanın ali təhsil sektorunda ekoloji məsuliyyət səviyyəsini və yaşıl iqtisadiyyat istiqamətində görülən işləri qiymətləndirməyə imkan yaradır.

Beynəlxalq Təcrübələrin Müqayisəli Təhlili: ABŞ, Avstraliya və Almaniyadakı universitetlərdə tətbiq olunan "yaşıl kampus" təşəbbüsləri təhlil edilmiş və bu ölkələrin ekoloji məsuliyyət səviyyəsi Azərbaycanla müqayisə edilmişdir. Həmçinin, beynəlxalq təcrübədən çıxarılan əsas məqamlar Azərbaycanın ali təhsil sektoruna tətbiq olunmaq üçün uyğunlaşdırılmışdır.

Statistik Təhlil Azərbaycanın ali təhsil müəssisələrində $CO_2$ emissiyalarının azaldılması və enerji qənaətinə yönələn strategiyaların potensial effektlərini qiymətləndirir.

**Məhdudiyyətlər:** Tədqiqatın əsas məhdudiyyətləri mövcud məlumatların tam əhatəli olmaması və bəzi göstəricilərin çatışmazlığı ilə bağlıdır. Azərbaycan Statistika Komitəsinin təqdim etdiyi məlumatlar ümumi mənzərəni əks etdirsə də, ali təhsil sektorunda tətbiq edilən xüsusi ekoloji tədbirlərin təfərrüatları məhduddur. Bununla yanaşı, bəzi ekoloji göstəricilərə dair beynəlxalq müqayisəli məlumatlar da məhdudiyyətlər daxilindədir.

Bu metodoloji çərçivə, Azərbaycanın ali təhsil sektorunda ekoloji məsuliyyətin gücləndirilməsi və $CO_2$ emissiyalarının azaldılması üçün təkliflərin hazırlanmasına xidmət edir. Nəticə olaraq, tədqiqat Azərbaycanın yaşıl iqtisadiyyata keçidində ali təhsil sektorunun rolu ilə bağlı vacib təkliflər irəli sürmək məqsədi daşıyır.

**Əsas Mətn**

**Ədəbiyyatların İcmalı**

Ekoloji məsuliyyətlilik və dayanıqlı inkişaf prinsipləri xüsusilə ali təhsil sektorunda əhəmiyyətli mövzulara çevrilmişdir. Tədqiqatlar göstərir ki, ali təhsil müəssisələri həm tədris, həm də tədqiqat vasitəsilə "yaşıl iqtisadiyyat"ın inkişafında əhəmiyyətli rol oynayır (Global Footprint Network, 2019). Azərbaycanın ali təhsil sektorunda yaşıl iqtisadiyyatla bağlı yanaşmalar, xüsusilə $CO_2$ emissiyalarının azaldılması istiqamətində beynəlxalq təcrübələr və yerli praktikalara uyğun olaraq təkmilləşdirilə bilər (Azərbaycan Respublikası Statistika Komitəsi, 2023).

**Beynəlxalq Təcrübələrdə Ali Təhsil və Ekoloji İnkişaf.** Beynəlxalq təcrübələr göstərir ki, ali təhsil sektorunda müxtəlif ekoloji təşəbbüslər $CO_2$ emissiyalarının azaldılmasına və ətraf mühitin mühafizəsinə töhfə verə bilər. Məsələn, ABŞ universitetlərində geniş yayılmış "yaşıl kampus" proqramları qatı tullantıların azaldılması və enerji qənaəti üçün müxtəlif texnologiyalar tətbiq etməklə ekoloji biliklərin artırılmasına xidmət edir (Gallaudet University, 2020). Digər tərəfdən, Almaniyada ali təhsil müəssisələri günəş enerjisi texnologiyaları və təkrar emal üsullarını daha geniş şəkildə tətbiq etməklə tələbələrin ekoloji bilik və bacarıqlarını gücləndirir (Knoerzer & Brehmer, 2021).

Aşağıdakı cədvəldə beynəlxalq təcrübələrin ali təhsil sektorunda tətbiq olunan ekoloji təşəbbüslər üzrə xülasəsi təqdim olunur.

***Cədvəl 1.***

**Beynəlxalq Təcrübələrdə Ali Təhsil Sektorunda Ekoloji Təşəbbüslər və $CO^2$ Emissiyalarına Təsiri**

| Ölkə | Ekoloji Təşəbbüslər | Tədris və Tədqiqat Fəaliyyətləri | $CO_2$ Emissiyalarına Təsir | Müşahidə Edilən Təsir |
|---|---|---|---|---|
| **ABŞ** | Yaşıl kampus proqramları, qatı tullantıların azaldılması | Ekoloji fənlər, laboratoriya tədqiqatları | 25% azalma (2020) | Tələbələrin ekoloji məsuliyyəti artırılıb (Smith & Lee, 2021) |

| | | | | |
|---|---|---|---|---|
| **Almaniya** | Günəş enerjisi, bərpa olunan enerji texnologiyaları | Tədris proqramlarında enerji effektivliyi mövzuları | 20% azalma (2018-2022) | Tələbələrin bilik səviyyəsi yüksəlib (Knoerzer & Brehmer, 2021) |
| **Yaponiya** | Ekoloji kəndlər, təkrar emal proqramları | Ekologiya və təbiət elmləri üzrə tədqiqatlar | 15% azalma (2019) | Ətraf mühitə cavabdehlik artıb (Ogawa, 2020) |
| **Avstraliya** | Enerji effektivliyi üzrə layihələr, təkrar emal | İnnovativ tədris proqramları, ekoloji startap dəstəyi | 30% azalma (2021) | Tələbə və müəllimlərin iştirak səviyyəsi yüksəkdir (Johnson, 2022) |

***Mənbə: Patel, N. (2022); Smith, J., və Lee, K. (2021).***

Bu cədvəldə ABŞ, Almaniya, Yaponiya və Avstraliyada ali təhsil sektorunda həyata keçirilən müxtəlif ekoloji təşəbbüslər, tədris fəaliyyətləri və onların $CO_2$ emissiyalarına təsiri barədə məlumatlar verilir. Bu ölkələrin təcrübələri göstərir ki, müxtəlif ekoloji təşəbbüslərin tətbiqi vasitəsilə ali təhsil sektorunda ətraf mühitin qorunması və $CO_2$ emissiyalarının azaldılması üzrə effektiv tədbirlər həyata keçirilə bilər. Həmçinin, beynəlxalq təcrübələrdən əldə edilən məlumatlar Azərbaycan universitetləri üçün potensial nümunə ola bilər.

**Azərbaycanın Ali Təhsil Sektorunda Ekoloji Təcrübələr.** Azərbaycanda ali təhsil sektorunda ekoloji məsuliyyət və yaşıl iqtisadiyyat təşəbbüsləri hələ tam inkişaf etməsə də, bəzi universitetlər artıq bu sahədə kiçikmiqyaslı layihələr həyata keçirir. Azərbaycanın Statistika Komitəsinin məlumatlarına əsasən, bəzi ali təhsil müəssisələri enerji qənaəti, tullantıların təkrar emalı və $CO_2$ emissiyalarının azaldılması üzrə tədbirlər görməkdədir (Azərbaycan Respublikası Statistika Komitəsi, 2023).

Aşağıdakı cədvəldə Azərbaycanın ali təhsil sektorunda həyata keçirilən ekoloji layihələr və onların $CO_2$ emissiyalarına təsiri haqqında ətraflı məlumatlar təqdim edilmişdir.

***Cədvəl 2.***

**Azərbaycanın Ali Təhsil Sektorunda Ekoloji Layihələr və $CO_2$ Emissiyalarına Təsiri**

| Universitet | Layihənin Növü | Ekoloji Təsirli Fəaliyyətlər | $CO_2$ Emissiyalarına Təsir | Qısa Məlumat |
|---|---|---|---|---|
| **Bakı Dövlət Universiteti** | Enerji qənaəti və günəş panelləri | Günəş enerjisi istifadə edilməsi | 10% azalma (2022) | Yeni texnologiyalarla təchiz olunmuşdur (Məmmədov, 2022) |
| **Azərbaycan Dövlət İqtisad Universiteti** | Təkrar emal, tullantıların idarə edilməsi | Təkrar emal mərkəzlərinin qurulması | 7% azalma (2021-2023) | Ekoloji təlimlər aparılır (Əliyev, 2023) |
| **ADA Universiteti** | Ekoloji təhsil proqramları | Ekoloji maarifləndirmə dərsləri və tələbə klubları | 5% azalma (2023) | Yaşıl iqtisadiyyat üzrə təlimlər (Həsənova, 2023) |
| **Azərbaycan Texniki Universiteti** | Alternativ enerji qaynaqları | Günəş enerjisi texnologiyaları quraşdırılması | 12% azalma (2020) | Kampus ərazisində günəş panelləri (Quliyev, 2021) |

***Mənbə: məlumatlar əsasında müəllif tərəfindən hazırlanmışdır***

Bu cədvəl Azərbaycanın bir neçə ali təhsil müəssisəsində həyata keçirilən ekoloji layihələr, bu layihələrin növü, ekoloji fəaliyyətlər və $CO_2$ emissiyalarına təsirinə dair məlumatları əks etdirir.Azərbaycan universitetlərinin yaşıl iqtisadiyyat və ekoloji təhsilə dair təşəbbüsləri göstərir ki, kiçikmiqyaslı tədbirlər vasitəsilə belə ətraf mühitə müsbət təsir göstərmək mümkündür. Bu məlumatlar göstərir ki, ali təhsil sektorunda daha geniş ekoloji layihələr və enerji qənaəti təşəbbüsləri tətbiq edilməklə ətraf mühitin qorunması sahəsində irəliləyişlər əldə oluna bilər.

**CO2 Emissiyalarının Təhlili və Təkliflər.** Azərbaycan Statistika Komitəsinin məlumatlarına əsasən, ölkənin ümumi $CO_2$ emissiyaları 2020-ci ildə 35 milyon ton təşkil etmişdir. Ali təhsil sektorunun emissiyaları isə bu rəqəmin kiçik bir hissəsini əhatə edir, lakin universitetlərdə enerji qənaəti və təkrar emal tədbirləri $CO_2$ emissiyalarının daha da azalmasına səbəb ola bilər (Azərbaycan Respublikası Statistika Komitəsi, 2023). Aşağıdakı cədvəldə son illərdə Azərbaycanın ali təhsil sektorunun $CO_2$ emissiyaları üzrə statistika təqdim olunmuşdur.

*Cədvəl 3.*

**Azərbaycanın Ali Təhsil Sektorunun $CO_2$ Emissiyaları üzrə Statistikası (2010-2023)**

| İl | Ali Təhsil Sektorunun Emissiyaları (ton) | Ümumi Emissiyalar (ton) | Pay (%) |
|---|---|---|---|
| **2010** | 25,000 | 40,000,000 | 0.06 |
| **2015** | 22,000 | 38,000,000 | 0.05 |
| **2020** | 20,000 | 35,000,000 | 0.05 |
| **2023** | 18,500 | 33,000,000 | 0.056 |

***Mənbə: Azərbaycan Statistika Komitəsi* http://www.stat.gov.az/**

Cədvəl 3-də Azərbaycanın ali təhsil sektorunun son illərdəki $CO_2$ emissiyaları, ümumi ölkə üzrə emissiyalarla müqayisəli göstəriciləri və bu emissiyaların ümumi payı göstərilir. Statistik məlumatlar göstərir ki, Azərbaycanın ali təhsil sektorunun $CO_2$ emissiyaları ümumi ölkə göstəricilərinə nəzərən aşağı səviyyədədir. Bununla belə, son illərdə tətbiq olunan enerji qənaəti və təkrar emal təşəbbüsləri sektor üzrə emissiyaların azaldılmasına təsir etmişdir (Azərbaycan Respublikası Statistika Komitəsi, 2023). Beynəlxalq və yerli tədqiqatlar göstərir ki, ali təhsil sektorunun yaşıl iqtisadiyyatın inkişafında mühüm rolu vardır. Universitetlər tələbələr və işçilər arasında ekoloji məsuliyyəti artırmaq, resursların səmərəli istifadəsi və ekoloji texnologiyaların tətbiqi ilə ətraf mühitə qarşı məsuliyyətli davranışın təbliğinə töhfə verirlər (Ogawa, 2020). Azərbaycan universitetlərinin bu sahədə daha geniş təşəbbüslər göstərməsi ölkədə dayanıqlı inkişaf və yaşıl iqtisadiyyat strategiyasına əhəmiyyətli təsir edə bilər.

**Müzakirələr**

Tədqiqatın nəticələri, Azərbaycanın ali təhsil sektorunda yaşıl iqtisadiyyat və ekoloji məsuliyyətin gücləndirilməsinin vacibliyini göstərir. Beynəlxalq təcrübələr, xüsusilə ABŞ, Avstraliya və Almaniya kimi ölkələrdəki "yaşıl kampus" proqramları, ali təhsil müəssisələrinin ekoloji məsuliyyətini artırmağı və $CO_2$ emissiyalarını azaltmağı məqsəd qoyan uğurlu təşəbbüsləri nümayiş etdirir (Smith & Lee, 2021). Bu təcrübələr, Azərbaycan üçün də faydalı ola bilər və yerli universitetlərdə tətbiq olunmalıdır. Azərbaycan ali təhsil müəssisələri hələ də ekoloji məsələlərlə bağlı fərqli təşəbbüslər həyata keçirsələr də, ümumi səviyyədə daha geniş miqyasda və təşkilatlanmış proqramlar tələb olunur. Statistika Komitəsinin (2023) məlumatlarına əsasən, universitetlərdə təkrar emal və enerji qənaətinə dair həyata keçirilən tədbirlər mövcuddur, lakin bu təşəbbüslər daha da genişləndirilməli və sistemli şəkildə tətbiq edilməlidir.

Bununla yanaşı, dövlətin ekoloji siyasətləri və ali təhsil müəssisələrinin birgə əməkdaşlığı, ekoloji məsuliyyətin gücləndirilməsi və yaşıl iqtisadiyyatın inkişafı üçün vacib amildir. Azərbaycan hökumətinin təhsil müəssisələrini dəstəkləməsi, ekoloji təşəbbüslərin genişləndirilməsinə kömək edə bilər.

**Nəticə**

Tədqiqatın nəticələri, Azərbaycanın ali təhsil sektorunda ekoloji məsuliyyətin artırılması və yaşıl iqtisadiyyatın inkişafı üçün ciddi potensial olduğunu göstərdi. Ali təhsil müəssisələri daha sistematik və təşkilatlanmış şəkildə ekoloji təşəbbüsləri tətbiq etməli, eyni zamanda dövlət dəstəyi ilə bu sahədə irəliləyişlər əldə edilməlidir.

Azərbaycan universitetləri, həm tədris, həm də praktika səviyyəsində yaşıl iqtisadiyyat təşəbbüslərini genişləndirməli və tələbələrə ekoloji məsuliyyət biliklərini aşılamaq üçün davamlı təhsil proqramları tətbiq etməlidir. Bu sahədə atılacaq addımlar, ölkənin dayanıqlı inkişafını təmin etmək və beynəlxalq müstəvidə ekologiyaya dair müsbət imicini artırmaq baxımından vacibdir.

Tədqiqat göstərir ki, Azərbaycan ali təhsil müəssisələri ekoloji təşəbbüslərini inkişaf etdirərək ətraf mühitə olan təsirlərini azalda bilərlər. Enerji istehlakını və $CO_2$ emissiyalarını azaldmaq üçün daha geniş strategiyalar tətbiq edilməli, yaşıl iqtisadiyyat və dayanıqlı inkişaf prinsipləri bütün təhsil sektoruna inteqrasiya edilməlidir. Eyni zamanda, tələbələr arasında ekoloji məsuliyyətin artırılması məqsədilə tədris proqramları və təlimlər artırılmalıdır.

- Ali təhsil müəssisələrində bərpa olunan enerji mənbələrinin istifadəsi genişləndirilməli,
- Təkrar emal proqramları bütün universitetlərdə tətbiq edilməli,
- Ekoloji təhsil və maarifləndirmə proqramları genişləndirilməli.

Gələcəkdə, daha geniş statistik məlumatların toplanması və təhlil edilməsi, ekoloji məsələlərin ali təhsil sektorunda daha dərindən araşdırılmasına imkan verəcəkdir. Bu tədqiqatın əhəmiyyəti,

Azərbaycanın ali təhsil sektorunda yaşıl iqtisadiyyatın inkişafı üçün daha effektiv siyasətlərin hazırlanmasına və tətbiqinə təkan verməsidir.

**İstifadə olunmuş ədəbiyyat / *References***


1. Carrico, A. R., & Riemer, M. (2020). *Sustainable campus initiatives: A review of best practices in university settings. Journal of Environmental Policy,* 25(2), 135-149.
2. Patel, N., & Sundararajan, M. (2022). *The role of higher education in promoting green innovation and sustainability practices. Environmental Economics and Policy Studies,* 24(4), 511-523.
3. Smith, J., & Lee, K. (2021). *University sustainability initiatives and their impact on carbon footprint reduction. Journal of Environmental Education,* 50(3), 200-214.
4. Tuncer, B., & Göksu, İ. (2019). *Impact of green initiatives on university operations: Case study of a Turkish university. Sustainability,* 11(9), 2552. https://doi.org/10.3390/su11092552
5. Statistika Komitəsi. (2023). *Azərbaycan Respublikasında CO2 emissiyaları və enerji istehlakı ilə bağlı statistik məlumatlar.* Azərbaycan Respublikası Statistika Komitəsi. http://www.stat.gov.az/
6. Ural, H., & Yıldız, H. (2018). *Eco-friendly campuses and energy-saving initiatives in Turkish universities. Energy Education Science and Technology Part A: Energy Science and Research,* 34(1), 33-45.
7. Zhao, D., & Liu, F. (2020). *Strategies for reducing carbon emissions and promoting sustainability in higher education institutions. Journal of Cleaner Production,* 276, 123421.
8. Şirvanlı, T. (2021). *Yaşıl iqtisadiyyatın inkişafında ali təhsil sektorunun rolu: Azərbaycan təcrübəsi. Azərbaycan Tədqiqatları Jurnalı,* 12(2), 78-92. https://doi.org/10.19237/azjt20211202
9. Güler, A. (2022). *The impact of green policies on CO2 emissions reduction in higher education institutions in Turkey. Environmental Impact Assessment Review,* 92, 106693.
10. Hacıyev, F. (2023). *Azərbaycan ali təhsil müəssisələrində ekoloji təşəbbüslərin inkişaf perspektivləri. Təhsil və İqtisadiyyat Jurnalı,* 7(1), 111-126.


# Экологическая устойчивость в высшем образовании Азербайджана: выбросы $CO_2$ и использование энергии


**Ульву Новрузов**

Докторант, Институт экономики, Министерство науки и образования Азербайджана

ORCID: 0000-0002-0680-7804

Электронная почта: ulvunovruzov.unec@gmail.com



**Резюме:** Данная статья исследует вклад сектора высшего образования Азербайджана в устойчивое развитие и снижение выбросов CO2. Исследование оценивает экологически чистые подходы, образовательные программы и инициативы студентов, реализуемые в высших учебных заведениях страны. Статистические данные, в частности, уровни выбросов CO2, связаны с образовательной и исследовательской деятельностью. Методология основана на открытых данных и статистическом анализе для оценки воздействия образовательного сектора на выбросы. Результаты показывают, что высшие учебные заведения играют важную роль в развитии зеленой экономики, однако в некоторых областях требуется принятие дополнительных мер для повышения эффективности. Результаты исследования направлены на улучшение соответствия высшего образования Азербайджана целям устойчивого развития. Среди ограничений отмечается необходимость получения дополнительных данных для более глубокого анализа.



**Ключевые слова:** Высшее образование, зеленая экономика, выбросы $CO_2$, устойчивое развитие, статистика, Азербайджан.

**JEL коды: I23, Q56, UOT коды: 33.02.08**

DOI: https://doi.org/10.36719/2707-9317/04/182-189

# The assessment of the impact of banks on the development of the national economy

**Rauf Nuriyev**
Ph.D. Student,
Baku Business University
rauf.nuriyev.1997@mail.ru

**Abstract: The objective of the research** - is to theoretically investigate the significance of commercial banks in the development of the national economy in the modern context, evaluate the current state of their activities in terms of economic development, and develop proposals to enhance their role in this area.

**The methodology of the research** - during the execution of the research, various scientific approaches were synthesized, including methods such as analysis, synthesis, comparison, and others.

**The practical importance of the research -** in the modern economic system, banks play a crucial role in shaping and developing the economic and political power of the state. Under the current economic realities, ensuring uninterrupted cash and capital circulation, accumulating national savings, and creating extensive opportunities for investment are among the key responsibilities of banks. From this perspective, the results of the research can be utilized in the formulation of banking development strategies and macro-level financial policies. Additionally, the outcomes can serve as a reference source for scientific studies.

**The results of the research -** the role of banks in the development of the national economy was examined based on scientific theoretical sources, economic indicators of banks were analyzed through tables, and proposals were made regarding their developmental directions.

**The originality and scientific novelty of the research -**the role of banks in the development of the national economy was substantiated, and proposals were put forward to optimize this role.

**Key words:** commercial banks, national economy, capital market, investments directed at economic development, formation of bank capital, analysis of banks' economic indicators.

# Bankların milli iqtisadiyyatın inkişafına təsirinin qiymətləndirilməsi

**Rauf Nuriyev**
Doktorant,
Bakı Biznes Universiteti
rauf.nuriyev.1997@mail.ru

**Xülasə: Tədqiqatın məqsədi** - tədqiqatın məqsədi müasir şəraitdə kommersiya banklarının milli iqtisadiyytın inkişafında əhəmiyyətini nəzəri baxımdan tədqiq etmək, kommersiya banklarının iqtisadi inkişaf aspektində fəaliyyətlərin mövcud vəziyyətini qiymətləndirmək və onların bu sahədə rolunun artırılması istiqamətində təkliflərin işlənib hazırlanmasıdır.

**Tədqiqatın metodologiyası** - tədqiqat işinin yerinə yetirilməsi zamanı elmi yanaşmaların ümumiləşdirilməsi, analiz, sintez, müqayisə və s. bu kimi tədqiqat metodlarından istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** – Müasir iqtisadi sistemdə banklar dövlətin iqtisadi və siyasi gücünün formalaşması və inkişafında mühüm rol oynayır. Mövcud iqtisadi reallıq şəraitində nağd pul və kapital dövriyyəsini fasiləsiz təmin etmək, milli iqtisadi əmanətlərin toplanmasını həyata keçirmək və vəsaitlərin investisiya edilməsinə geniş imkanlar yaratmaq bankların əsas vəzifələrindən biridir. Bu baxımdan, tədqiqatın nəticələri bankların inkişaf strategiyalarının və makro səviyyədə maliyyə siyasətinin formalaşdırılmasında istifadə edilə bilər. Həmçinin, tədqiqat nəticələri elmi araşdırmalar üçün istinad mənbəyi kimi xidmət edə bilər.

**Tədqiqatın nəticələri** – bankların milli iqtisadiyyatın inkişafında rolu elmi nəzəri mənbələr əsasında tədqiq edilmiş, bankların iqtisadi göstəriciləri cədvəllər əsasında təhlil edilmiş və onların inkişaf istiqamətlərində təkliflər irəli sürülmüşdür.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – milli iqtisadiyyatın inkişafında bankların rolu əsaslandırılmış və optimallaşdırılması istiqamətlərində təkliflər irəli sürülmüşdür.

**Açar sözlər:** kommersiya bankları, milli iqtisadiyyat, kapital bazarı, iqtisadi inkişafa yönəldilən investisiyalar, bank kapitalının formalaşması, bankların istisadi göstəricilərinin təhlili.

**UOT -336.71**

## Giriş

Müasir şəraitdə inkişaf etmiş ölkələri geniş banklar şəbəkəsi olmadan təsəvvür etmək olmaz. İqtisadi sistemdə banklar dövlətin iqtisadi və siyasi gücünün formalaşması və inkişafında mühüm rol oynayır. Belə ki, bu gün banklar əsas iqtisadi alət kimi çıxış edir. Hazırki iqtisadi reallıqda nağd pul və kapital dövriyyəsini fasiləsiz təmin etmək, milli iqtisadi əmanətlərin toplanması məqsədilə vəsaitlərin investisiya edilməsinə geniş imkanlar yaratmaq bankların ən mühüm vəzifələridir.

İnkişaf etmiş ölkələrdə bank sektoru iqtisadiyyatın ən mühüm və ayrılmaz strukturlarından biridir. Bankların və əmtəə istehsalı və tədavülü tarixən paralel inkişaf etmiş və bir-biri ilə qarşılıqlı sıx əlaqədə olmuşdur. Həmçinin kapitalın yenidən bölüşdürülməsində vasitəçi kimi çıxış edən banklar istehsalın ümumi səmərəliliyini əhəmiyyətli dərəcədə artırmışdır [6. s.9].

İqtisadi ədəbiyyatlarda azad bazar iqtisadiyyatın inkişafının müxtəlif mərhələlərində bank kapitalının xüsusiyyətləri və funksiyları kifayət qədər əsaslı şəkildə öyrənilmişdir. İstehsal sferasında baş verən innovativ dəyişikliklər, istehsalın təmərküzləşməsi prosesi ilə yanaşı bank fəaliyyətində də inkişafa səbəb oldu və nəticədə bank kapitalının təmərküzləşməsi onların iqtisadiyyata təsirinin artmasını sürətləndirdi.

Bütövlükdə müasir şəraitdə kommersiya banklarının milli iqtisadiyyatın inkişafında rolunun elmi-nəzəri baxımdan tədqiq edilməsi, onların iqtisadi sahələrin balanslaşdırılmış və davamlı inkişafının təmin olunmasında, iqtisadiyyata investisiya qoyuluşları imkanlarının genişləndirilməsində iştirakının optimallaşdırılması istiqamətində əsaslandırılmış təkliflərin hazırlanması günün aktual mövzularındandır.

Kommersiya banklarının milli iqtisadiyyatın inkişafında rolunu araşdıran alimlərin yanaşmalarını ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, bank sisteminin inkişafı və iqtisadi inkişaf qarşılıqlı əlaqəlidir. Daha dəqiq desək biri digərin stimullaşdırıcı faktoru kimi çıxış edir. Ümumilikdə belə qənaətə gəlmək olar ki, inkişaf etmiş bank sisteminin frmalaşması üçün fundamental iqtisadi əsaslar lazımdır ki, bu əsasları banklar həyata keçirdiyi funksiyalarla formalaşdırır.

## Azərbancanda müasir bank sisteminin inkişaf mərhələləri və iqtisadi inkişafda rolunun təhlili və qiymətləndirilməsi

Azərbaycan Respublikası Prezidentinin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri" nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında" 2016-cı il 16 mart tarixli 1897 nömrəli Sərəncamı ilə müəyyən edilmiş vəzifələrin icra edilməsi məqsədilə "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi" (bundan sonra-Strateji Yol Xəritəsi) hazırlanmışdır.

Bu Strateji Yol Xəritəsi qlobal iqtisadiyyat və maliyyə bazarlarında müşahidə edilən proseslərə çevik adaptasiya və postneft iqtisadi inkişaf modelinin dəstəklənməsi üçün maliyyə sektoru qarşısında duran yeni çağırışlar və imkanlar nəzərə alınmaqla hazırlanmışdır. Sənəd maliyyə xidmətləri sektorunun çevikliyi, rəqabətqabiliyyətliliyi, innovativliyi və iqtisadi inkişafı dəstəkləməsi prinsipləri əsasında hazırlanmışdır.

Strateji Yol Xəritəsi qısa, orta və uzunmüddətli dövrləri əhatə etməklə, 2020-ci ilədək strateji baxış və tədbirlər planı, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışdan ibarətdir. Strateji Yol Xəritəsində müəyyən edilmiş məqsədlərə çatmaq üçün 2020-ci ilədək 5 strateji hədəf və 16 prioritet hazırlanmışdır. [3] (bax şəkil1)

Bütövlükdə makroiqtisadi tənzimlənmədə maliyyə siyasəti aşağıdakı funksiyaların yerinə yetirilməsini təmin edir:

- Ölkənin maliyyə və iqtisadi sisteminin ümumi kurs hədəflərinin müəyyən edilməsi;
- Beynəlxalq maliyyə-kredit institutları ilə münasibətlərin reallaşdırılması;
- Pull kredirt siyasətinin xarakteristikalarının müxtəlif parametrlərlə əlaqələndirilməsi;
- Real qanunlar çərçivəsində mərkəzləşdirilmiş və büdcədənkənar fondların formalaşdırılması;
- Borclar üzrə mexanizmlərinin tənzimlənməsi;
- Pul axınlarının idarə olunması;
- Büdcə kəsrinin strukturunun tənzimlənməsi.

**Şəkil 1. Strateji Yol Xəritəsinin reallaşdırılması üçün müəyyən edilən strateji hədəflər**



Bankların ölkə iqtisadiyyatlarında başlıca vəzifələri aşağıdakılardır.

- Öz bank kreditorlarının və əmanətçi subyektlərinin mənafelərini təmin etmək;
- Əhalinin banklara olan inamının təmin edilməsi məqsədilə əmanətlərin siğortalanması və investisiya səmərəliliyin artırılması;
- Kredit bazarlarında rəqabət qabiliyyətli mühiti formalaşdırmaq;
- Qeyri-qanuni bank fəaliyyəti və kommersiya fəaliyyətinin eləcədə leqal olmayan, terorçuluğu dəstəkləyən maliyyələşdirmənin qarşısının alınması;
- Öz iqtisadi fəaliyyətlərin tam açıq və şəffaf mühitin yaradılması;
- Debitor, kreditor və investorlar üzrə olan inamının yüksəldilməsi.

Ölkəmizdə bank sisteminin inkişaf mərhələsini üç hissəyə ayırmaq mümkündür:

- 1990-1992-ci illərdə Mərkəzi Bank sisteminin təşkil olunmağa başlanıldığı dövr

-1992-1994-cü illər ərzində hiper infilyasiya, qeyri-sabit bir mühitdə bank sisteminin inkişaf etdiyi dövr;

-1994-cü ildən sonrakı dövrdə makro iqtisadi sabitliyin əldə olunduğu şəraitdə bank sisteminin inkişaf etməsinə başladığə dövr [3].

Müasir Azərbaycanın bank sektorunu artıq güclənmiş, dayanıqlı və beynəlxalq bazarlarda rəqabətəqabiliyyətli adlandırmaq olar. Hal-hazırda ölkəmizin bank sektorunda aktivlik və inkişaf müşahidə edilir. Həmçinin ölkədə olan yerli bankların xarici banklarla ortaqlıqlar qurulmuş eləcədə xarici banklar öz yerli filiallarını və törəmə banklarını ölkəmizdə açmışdır.

***Cədvəl 1.***

**İqtisadiyyata kredit qoyuluşların kredit təşkilatları üzrə strukturu (dövrin sonuna)**

| Tarix. | Cəmi kredit qoyuluşları | Dövlət bankları | | Özəl banklar | | | | | | Qeyri-bank olan kredit təşkilatları | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | Cəmi | | o cümlədən-xarici kapitala malik banklar | | Onlardan 100% xarici kapitala malik banklar | | | |
| | | (mln. manat) | Xüs. çək. % | (mln. manat) | Xüs. çək. % | mln. manat | Xüs. çək. % | mln. manat | Xüs. çək. % | mln. manat | Xüs. çək. % |
| 2020 | 14530,4 | 2776,5 | 19,1 | 11380,5 | 78,3 | 3112,3 | 21,4 | 968,2 | 6,7 | 373,4 | 2,6 |
| 2021 | 17119,8 | 3333,0 | 19,5 | 13326,1 | 77,8 | 3980,0 | 23,2 | 1267,3 | 7,4 | 460,7 | 2,7 |
| 2022 | 20184,0 | 3852,3 | 19,1 | 15742,1 | 78,0 | 5032,7 | 24,9 | 1685,3 | 8,3 | 589,6 | 2,9 |
| 2023 | 23979,1 | 5496,2 | 22,9 | 17686,8 | 73,8 | 5913,5 | 24,7 | 2076,5 | 8,7 | 796,2 | 3,3 |
| 2024 (8 ay) | 27649,4 | 6712,1 | 24,3 | 19363,5 | 70,0 | 6538,7 | 23,6 | 2317,3 | 8,4 | 1573,8 | 5,7 |

***Mənbə: https://www.cbar.az/page-188/credit-institutions***

Cədvəl məlumatlarından göründüyü kimi ölkə üzrə 2024-cü ilin ilk 8 ayında kpital qoyuluşları 27649,4 milyon manat olmuşdur. Dövlət banklarının payı 6712,1 milyon manat olduğu halda özəl kommersiya banklarının payı 19363,5 milyon manat olmuşdur. Müqayisə olunan dövrdə özəl kommersiya banklarının payı 70% olmuşdur. Ondan xarici kapitallı bankların kredit qoyuluşları 6538,7 milyon manat yəni 23,6 %, yalnız xarici kapitalla fəaliyyət göstərən bankaların payı 2317,3 miyon manat olmuşdur ki, xüsusi çəki 8,4% təşkil etmişdir. Kommersiya bankları ilə yanaşı bank olmayan kredit təşkilatlarının payı 1573,8 milyon manat olmuşdur ki, bu da ümumi kapital qoyuluşlarının 5,7 faizini təşkil edir.

Bütövlükdə 2020 və 2024-cü ilin göstəricilərini müqayisə etdikdə iqtisadiyyata cəmi kapital qoyuluşları 13118,9 milyon manat yəni 47% artmışdır. Müqayisə olunan dövdə dövlət bankları tərəfindən yatırılan vəsaitlər 3935,6 milyon manat artmışdır ki, bu artım 58% təşkil etmişdir. Özəl bankları tərəfindən yatırılan vəsaitlərdə 7983,0 milyon manat artmışdır ki, bu artım 41,2 % təşkil etmişdir.

**Qrafik 1. İqtisadiyyata yönəldilən investisiyalar (mil. m.)**




***Mənbə: Mərkəzi Bankın məlumatları əsasında müəllif tərəfindən tərtib edilib (https://www.cbar.az/page-188/credit-institutions)***

2023-cü ildə bütün mənbələr üzrə yatırılan investisiyalar 32080,09 milyon manat olmuşdur. Onlardan xarici investisiyalar 14671,2 milyon manat yəni 45,7 %, daxili mənbələr hesabına yatırılan investisiyalar isə 17409,7 milyon manat yəni 54,3 % olmuşdur.

2017-illə 2023-cü ilin müqayisəsi onu deməyə əsas verir ki, 2019 və 2020-ci illərdən başqa digər illərdə investisiya yatırımlarında artım müşahidə olunmuşdur. 2019 və 2020 ci illərdə azalma Covid pandemiyası ilə bağlı olmuşdur. Bütövlükdə ümumi investisiya yatırımları müqayisə olunan dövrdə 31 % artmışdır. Həmin dövdə xarici mənbələr üzrə olan investisiyalar 0,06% azalmış, daxili mənbələr üzrə yatırılan investisiyalar üsə 98% artmışdır. Bu tendensiya ölkəmizdə bankların kapitallaşmasını və daxili ehtiycların ödənilməsinə malik rəqabətqabiliyyətli milli bank sisteminin formalşmasını göstərir.

***Cədvəl 2***

**Azərbaycanda maliyyə bazarlarının iştirakçıları haqqında məlumat**

| | 31.12.20 | 31.12.21 | 31.12.22 | 31.12.23 | 31.08.24 |
|---|---|---|---|---|---|
| **Bankların sayı** | **26** | **26** | **25** | **23** | **22** |
| Dövlət bankları | 2 | 2 | 2 | 2 | 2 |
| Özəl banklar | 24 | 24 | 23 | 21 | 20 |
| Xarici kapitalı olan banklar | 12 | 12 | 10 | 9 | 9 |
| Onlardan nizamnamə kapitalının 50%-dən 100%-ə qədərini təşkil edənlər | 7 | 7 | 6 | 5 | 5 |
| xarici bankların yerli filialları. | 2 | 2 | 1 | 1 | 1 |
| Onlardan nizamnamə kapitalının 50%-dən az olan hissəsini təşkil edənlər | 5 | 5 | 4 | 3 | 3 |
| | | | | | |
| İlin əvvəlindən lisenziya alan bankların sayı | 0 | 0 | 0 | 0 | 0 |
| İlin əvvəlindən lisenziyası ləğv edilmiş bankların sayı | 4 | 0 | 1 | 2 | 1 |
| | | | | | |
| Bankların filiallarının sayı | 455 | 479 | 487 | 475 | 481 |
| Bankların şöbələrinin sayı | 109 | 97 | 91 | 96 | 88 |
| Bankların ATM-lərin sayı | 2715 | 2907 | 2997 | 3040 | 3125 |
| Bank işçilərinin sayı | 18708 | 20329 | 22777 | 23569 | 24523 |

***Mənbə: https://www.cbar.az/page-188/credit-institutions***

Hazırda respublikamızda 22 bank fəaliyyət göstərir. Onlardan 2-si dövlət bankı, 20-si isə özəl banklardır. Fəaliyyət göstərən özəl banklardan 9 bank xarici kapitallı o cümlədən 5 bankın nizamnamə kapitalı 50%-dən 100%-ə qədəri təşkil edir, 1 bank xarici bankın yerli filialı kimi fəaliyyət göstərir və 3 bank isə nizamnamə kapitalında xarici kapitalın payı 50%-dən az olanlardır. 11 bank 100% milli kapitala malik özəl banklardır. 2020-ci ilin sonuna ölkədə 455 bank filialı fəliyyət göstərirdisə hazırda 481 filial fəlaiyyət göstərir. Bank işçilərin sayı 2024-cü ilin ilk 8 ayında 24523 nəfər olmuşdur ki, bu da 2020-ci illə müqayisədə 5815 nəfər çoxdur.

***Cədvəl 3.***

**Bank sektorunun icmal balansı (milyon manat)**

| Aktivlər | 31.12.2021 | | 31.12.2022 | | 31.12.2023 | | 31.08.2024 | |
|---|---|---|---|---|---|---|---|---|
| | Cəmi | Xarici valyutada | Cəmi | Xarici valyutada | Cəmi | Xarici valyutada | Cəmi | Xarici valyutada |
| Cəmi aktivlər | 38.462,2 | 15.160,1 | 47.054,9 | 19.064,6 | 49.178,2 | 16.552,4 | 49.567,7 | 15.880,0 |
| Cəmi öhdəliklər | 33.492,9 | 15.162,5 | 41.432,8 | 18.652,4 | 43.114,8 | 16.087,3 | 43.256,0 | 15.866,3 |
| Cəmi kapital | 4.969,3 | - | 5.622,1 | - | 6.063,4 | | 6.311,7 | |

***Mənbə: Mərkəzi Bankın məlumatları əsasında müəllif tərəfindən tərtib edilib (https://www.cbar.az/page-188/credit-institutions)***

İqtisadi inkişafda bank sektorunun rolunun artması onların malik olduğu maliyyə vəziyyətindən birbaşa asılıdır. Bu baxımdan bankların icmal balans göstəricilərinin təhlili xüsusi əhəmiyyət kəsb edir. Son 4 ildə bankların icmal balans göstəricilərinin təhlili onu deməyə əsas verir ki, ümumilikdə bank aktivlərində artım müşühidə olsada davamlı inkişfda tendensiya heçdə arzu olunan deyil. Belə ki, 2021-ci ilin sonuna ümümi aktivlər 38462,2 milyon manat təşkil etdiyi halda 2024-cü ilin ilk 8 ayında bu göstərici 49567,7 milyon manat olmuşdur. Müqayisə olunan dövrdə aktivlər 11105,5 milyon manat (29%), öhdəliklər 9763,1 milyon manat (29%), kapital isə 1342,4 milyon manat (27 %) artmışdır.

***Cədvəl 4.***

**Bank sektorunun icmal balansı (milyon manat)**

| Aktivlər | 31.12.2021 | | 31.12.2022 | | 31.12.2023 | | 31.08.2024 | |
|---|---|---|---|---|---|---|---|---|
| | Cəmi | Xarici valyutada | Cəmi | Xarici valyutada | Cəmi | Xarici valyutada | Cəmi | Xarici valyutada |
| Cəmi aktivlər | 38.462,2 | 15.160,1 | 47.054,9 | 19.064,6 | 49.178,2 | 16.552,4 | 49.567,7 | 15.880,0 |
| Cəmi öhdəliklər | 33.492,9 | 15.162,5 | 41.432,8 | 18.652,4 | 43.114,8 | 16.087,3 | 43.256,0 | 15.866,3 |
| Cəmi kapital | 4.969,3 | - | 5.622,1 | - | 6.063,4 | | 6.311,7 | |

***Mənbə: Mərkəzi Bankın məlumatları əsasında müəllif tərəfindən tərtib edilib (https://www.cbar.az/page-188/credit-institutions)***

Lakin artım dinamikasının əvvəlki ilə nisbətən təhlili onu göstərir ki, 2023-cü ildə aktivlər 22%, öhdəliklər 24%, kapital 13% artdığı halda 2024 cü ilin əvvəlinə müvafiq olaraq 5%, 4%, və 8% olmuşdur. 2024-cü ilin ilk 8 ayında isə artım aktivlər üzrə 1%, öhdəliklər üzrə 0%, kapitalda isə 4% olmuşdur.

**Qrafik 2.Bankların kapital və öhdəliklərin artım dinamikası**




***Mənbə: Mərkəzi Bankın məlumatları əsasında müəllif tərəfindən tərtib edilib (https://www.cbar.az/page-188/credit-institutions)***

**Nəticə**

Aparılmış tədqiqat nəticəsində kommersiya banklarının milli iqtisadiyyatın inkişafında mühüm rol oynadığı təsdiqlənmişdir. Banklar nağd pul və kapital dövriyyəsini təmin edərək, iqtisadi sahələrin balanslı inkişafına və investisiya imkanlarının genişləndirilməsinə əhəmiyyətli töhfə verirlər. Analizlər göstərir ki, son illərdə bank sektorunda müəyyən müsbət dəyişikliklər müşahidə olunmuşdur. Belə ki, kapital qoyuluşlarının artımı, xarici və daxili investisiyaların mütənasib şəkildə inkişaf etməsi ölkənin makroiqtisadi sabitliyinə müsbət təsir etmişdir.

Lakin tədqiqatda qeyd olunan nəticələr göstərir ki, bank sektorunda bəzi çağırışlar və risklər qalmaqdadır. Bankların maliyyə göstəricilərinin artım tempinin azalması, habelə risklərin idarə edilməsi sahəsində əlavə tədbirlərin görülməsi zəruridir. Eyni zamanda, dövlətin iqtisadiyyatın real sektorunda investisiyaların qorunması və sığortalanması sistemini daha da təkmilləşdirməsi, bu proseslərə bankların iştirakını optimallaşdırması vacibdir. Ümumilikdə, tədqiqatın nəticələri göstərir ki, kommersiya banklarının rolunun artırılması üçün onların fəaliyyətinin daha da şəffaflaşdırılması, rəqabət qabiliyyətinin yüksəldilməsi və innovativ yanaşmaların tətbiqi vacibdir. Bank sektorunun inkişafı ilə milli iqtisadiyyatın davamlı və dayanıqlı inkişafını təmin etmək mümkün olacaqdır.

**İstifadə olunmuş ədəbiyyat / *References***


1. Azərbaycan Respublikasının Mərkəzi Bank haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı 1996 (əlavə və dəyişikliklərlə)
2. Azərbaycan Respublikasında Banklar haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı 1996 (əlavə və dəyişikliklərlə)
3. Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikasının Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı.
4. Məmmədov Z.F. Bank fəaliyyətinin əsasları. (Elmi-nəzəri və praktiki məlumat kitabı). Bakı, Azərnəşr. 2013. Səh. 480
5. Ермоловская О.Ю. Современные аспекты финансовой составляющей экономической безопасности на примере банка «ВТБ» // Экономическая безопасность. – 2021. – № 2. – с. 381-400.
6. Исаева П.Г., Махачев Д.М. Роль коммерческих банков в формировании условий экономического развития региона Экономика и управление в xxi веке: тенденции развития с. 127-133
7. Лаврушин О.И. Банковская система в современной экономике.–М.:КНОРУС,2012.–360 с.
8. Лев М. Ю. Лещенко Ю.Г. Цифровая экономика: на пути к стратегии будущего в контексте обеспечения экономической безопасности // Вопросы инновационной экономики. – 2020. – № 1. – с. 25-44.
9. https://www.cbar.az/page-188/credit-institutions
10. https://www.cbar.az/


## Оценка влияния банков на развитие национальной экономики

**Рауф Нуриев**
Докторант,
Бакинский Университет Бизнеса
rauf.nuriyev.1997@mail.ru

**Резюме: Цель исследования.** Цель исследования заключается в теоретическом изучении значения коммерческих банков в развитии национальной экономики в современных условиях, оценке текущего состояния их деятельности с точки зрения экономического развития и разработке предложений по усилению их роли в данной сфере.

**Методология исследования.** В ходе выполнения исследования были использованы различные научные подходы, включая такие методы, как анализ, синтез, сравнение и другие.

**Практическая значимость исследования.** В современной экономической системе банки играют важную роль в формировании и развитии экономической и политической мощи государства. В условиях текущих экономических реалий обеспечение бесперебойного денежного и капитального оборота, накопление национальных сбережений и создание широких возможностей для инвестиций являются одними из ключевых задач банков. С этой точки зрения результаты исследования могут быть использованы при формировании стратегий развития банковской системы и макроэкономической финансовой политики. Кроме того, результаты исследования могут служить источником для научных исследований.

**Результаты исследования.** Роль банков в развитии национальной экономики была изучена на основе научно-теоретических источников, экономические показатели банков были проанализированы с использованием таблиц, и были выдвинуты предложения по направлениям их развития.

**Оригинальность и научная новизна исследования.** Роль банков в развитии национальной экономики была обоснована, а также предложены направления для оптимизации этой роли.

**Ключевые слова:** коммерческие банки, национальная экономика, рынок капитала, инвестиции в экономическое развитие, формирование банковского капитала, анализ экономических показателей банков.